بسم الله الرحمن الرحيم

# İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı
# İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi

İslam Araşdırmaları

İkinci il, Üçüncü buraxılış (payız-qış /2023)

İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu

və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Tofiq Əsədov

**Texniki redaktor**: PhD. Elman Ağamoğlamov

**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554
**Telefon və faks**: 32114185 - 32613875
**Nömrələr**: elektron çap
**Səhifələrin sayı**:376
**Veb**: www.mou.ir
**E-poçt**: tofiq.asadov@inbox.ru

Redaksiya heyəti

| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |

***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

## Məqalə və təqdim şəkli

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

## MÜNDƏRICAT

BAŞ REDAKTORDAN........................................................................8

**İslamda Ailə**…………………………...………………………….……..……9
Səkinə Qafarova

**Xristianlıq təlimi və Qərb dünyagörüşündə dini- fəlsəfi fikirlərin formalaşması**…..……71
Kəmalə Mahmudova

**İlahi rəhmət axirətdə**…………………………………………………….105
Kənan Məhəmmədov

**Quranın Hərtərəfli olmaq baxımından möcüzə olması**…….…………………..…145
Elçin Əliyev

**Mənəvi yolçuluq və Nikbinlik**……….……………………………..…..………185
Nəsimi Piriyev

**Regionda vəhdətin önəmi**…….………………..…………………………223
Ramal Musayev

**Günahın İnsana Təsiri** ………………………………………………………..259
Samir Quliyev

**Svilizasiyalararası toqquşmalarda müsəlmanların əsas işi**……..……………..…301
Saləhə Kamilzadə

**İslamda qadın və cəmiyyət**……………..…………………………..……….327
Elnarə Abdulova

**Baş redaktordan**

Maarifçi, hər hansısa elmi və yaxud mənalı fikri başqalarına çatdıran və düşündürən şəxsdir. Başqa sözlə desək, xalqa düzgün ideologiya və faydalı olan həyat tərzini öyrədən, həqiqəti və gözəlliyi sevdirən insandır, maarifçi!
Görəsən hər kəs maarifçi ola bilərmi? Yaxud hər şəxs öz bildiklərini başqaları ilə bölüşmək bacarığına malikdirmi? Əslində, cavab müsbətdir. Hətta ilkin yaranışdan bəri, nəinki təkcə insan övladında, ümumiyyətlə, instinktlə hərəkət edən digər canlılarda da, təhlükə və fayda zamanı bir-birlərini münasib səmtə yönəltmə üslubu var. Belə ki, təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində, başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman öz həmnövlərini birgə faydalanmağa səslədiyini görmək olur. Bu, təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir. İnsan da canlıların ən şərəflisi olduğu üçün, həqiqətləri ən gözəl şəkildə öz aralarında paylaşmağa görəvlənmişdir. Bu görəv həm onun fitrətində qoyulmuş, həm də İlahi dinlər tərəfindən hər bir insan öz elmi qədər bu mənəvi işə əməl etməyə dəvət olunmuşdur.
Ümid edirəm ki, qarşınızdakı bu jurnal siz əziz oxuculara dəyərli yazar maarifçilərimiz tərəfindən gözəl ərməğan olsun. Gözəl mütaliələr diləyirəm.

Dr. Tofiq Əsədov

# İslamda Ailə

Səkinə Qafarova[1]

**Abstrakt**

Sosiologiya baxımından evlənmək ya da qohumluq xətti ilə gələn bir həyat birliyidir. Qərbdə əsasən ana-ata və uşaqlar anlayışını verir. Şərq xalqlarında ailə daha çox eyni evdə yaşayan ,ya da eyni nəsildən gələn insanların cəminə deyilir. Ailə cəmiyyətin təməlini təşkil edir.Ailənin bir - birinə bağlılığı cəmiyyətin birbirinə bağlılığina,möhkəmliyinə səbəb olar. Bu binaya gələcək xələl cəmiyyətin sarsılmazına və həlakına gətirib çıxarar.Bu binanın môhkəm dayanması üçün hər iki cütlük oz vəzifələrini və öhdəliklərini bilməlidir.

Bu elmi işdə quran və ravayətlərdə evliliyin nə demək olduğunu , ailə münasibətlərini , ər arvad munasibətləri yaranmasında maneə olan səbəbləri və ər arvad munasibətlərində yaranan maneələrin aradan qaldırılması yollarını araşdıracağıq.

**Açar sözlər:** İslam, Ailə, Münasibət, Məhəbbət, Təkliflər

---

- İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa ١ Beynəlxalq Virtual Universiteti, Qum, İran

**Müqəddimə**

Ailə təşkilində ilk mərhələ düzgün niyyət və məqsədlə addım atmaqdır. Bu məsələni əhəmiyyətli edən agah və düşüncəli dünyada yaşamağımız və həqiqi niyyətlərimizə, məqsədlərimizə cavab verilməsidir. Mövləvinin tə`birincə:

Əməlimiz nida, dünyamız bir dağ , dağdan dönən bizi etmədə soraq.Əgər niyyət və məqsədimiz düzgün olsa, həyat ağacımız bar-bəhrəli olar, yaxşı səmərə verər. Bə`zən bir niyyətin tə`sirləri o qədər xeyirli və bərəkətli olur ki, insanın həyatında əhəmiyyətli iz qoyur. Ailə qurmaq da böyük və taleyüklü addım olduğundan öncədən düzgün niyyət və məqsəd üzərində qurulduqda zövcələrin xoşbəxtliyinə tə`sir göstərir. Bu səbəbdən də müqəddəs ailə təməli qoymaq istəyən qadın və kişi öncədən sədaqət, paklıq, Allahın razılığı yolunu seçməli, qərara gəlməlidirlər ki, öz ilahi bağlılıqlarında və ailə həyatının bütün mərhələlərində Allahın razılığından savay umacaqları olmayacaq. Bu halda qurulmuş ailə ilahi rəhmət və bərəkətdən bəhrələnəcək, Allah və`d etdiyi sevgi və mərhəməti bu ailəyə nəsib edəcək. İlahi sevgi və mərhəmətin ilkin əlamətləri paklıq və fəzilət dolu ailədə zövcələrin aramlıq tapması, onların həyat iztirablarından amanda qalmalarıdır.

**Ailə bir-birini sevənlərin, bir-biri üçün hər cür məhrumiyyətə, ağrı-acıya qatlanmağa hazır olanların birliyidir.**

Ailə üzvlərini bir-birinə bağlayan sevgi telləri o ailənin xoşbəxtliyinin ən mühüm faktorudur, Allahın o ailəyə verdiyi lütfdür, bərəkətdir. Bir-biri üçün darıxmaq, evdən çıxanda ardınca əl yelləmək, içəri girəndə qabağına yüyürüb, “xoş gəldin” demək; uzaq səfərdən dönəndə evdə hər kəsə hansı hədiyyəni almaq əndişəsi… hansını sayaq, hansını deyək, hamısı bir-birindən həyəcanlı, bir-birindən şirin.
Birinin başı ağrıyanda dörd tərəfini sevənlərinin kəsdirdiyi komanda; biri yıxılanda hər iki qolundan yapışanların komandası; qarşılıq ummadan hər cür fədakarlığa hazır olanların komandası. Ailəniz sevgi yuvasına dönsün, bir-birinizin sevgisi könlünüzü, çöhrənizi bəzəsin. Allah sevgisini üzərinizdən əskik etməsin.

***Qurani-Kərimdə evlilik*.**

Allah Qurani - Karimde belə buyurur***: "Həm Allah sizə öz nəfslərinizdən zövcələr verdi və sizə təmiz şeylərdən ruzi əta etdi. Belə ikən, onlar batilə inanıb da Allah nəmətinə nankorluqmu edirlər?"***[1]

Bu haqda Quranda belə buyrulur***: "Bundan sonra (bu övrətlərdən əlavə) sənə***

- Nəhl, ayə 721

***(başqa) qadınlar halal olmaz. Bunları, gözəllikləri xoşuna gəlsə belə, başqa zövcələrlə dəyişmək olmaz. Sahib olduğun cariyələr istisnadır. Allah hər bir şeyə nəzarət edir.*** [1]

Quranın başqa bir ayəsində Allah – təala belə buyurur: ***"Özlərinin, həmçinin aməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn Cənnətləri gözləyir. Mələklər hər qapıdan(cənnət qapılarından) daxil olub onlara.Görə sizə salam olsun! Axirət yurdunun (sizə nəsib olan) aqibəti (Cənnət) nə gözəldir! - deyəcəklər."*** [2]

Evlənmək Uca Rəbbimiz insanı gündən onu tək qoymamış, onun varlığını həyat yoldaşı ilə tamamlamış və onların arasında mehr-məhəbbət yaratmışdır.

Məhəbbət qadın və kişinin bir-birlərinə qarşı duyduqları ülvi hisslərdəndir. Bu müqəddəs duyğu hər iki fərdin fitrətində müəyyənləşdirilmişdir. Bu müqəddəs hissin sayəsində kişi və qadın bir-birinə maraq duyur, bir-birini sevir və nəhayət, ailə həyatı qurmaqla bir-birilərinə qovuşurlar. Əgər kişi ilə qadın arasında məhəbbət cazibəsi olmasaydı, biri-obirinə heç bir maraq göstərməz, bununla da ilk insandan sonra yer üzündə insan yaşamazdı.

Subay qalmağın ictimai, fərdi, ruhi və psixoloji zərərləri çoxdur. Belə şəxslər özlərinə məsuliyyət hiss etmir, çətinliklər müqabilində dözümsüz olurlar. Təsadüfi deyil ki, intihar hallarının çoxu cavanlar arasında qeydə alınmışdır.

- Əhzab, ayə 521
- Rəd, ayə 23-242

Hər hansı bir üzrlü səbəb olmadan subay qalmaq müqəddəs dinimizdə ciddi şəkildə qınanılır.

İmam Sadiq(ə) buyurub: "Rəsulullah (s) belə deyib: "Evlənin! Çünki mən qiyamət günü digər ümmətlərə sizin çoxluğunuzla öyünəcəyəm.Hətta atılmış uşaq belə gəlib cənnətin qapısında duracaq və ona; "Cənnətə daxil ol!"- deyiləcək! O isə ilk əvvəl valideyinlərinin cənnətə girməsini istəyər. Daha sonra isə özü daxil olar "

İmam Sadiq(ə)-dan gələn digər bir hədisdə isə Rəsulullahın (s) belə buyurduğu nəql olunur: ***"Evlənin və evləndirin. Hər bir müsalman kəsin özü üçün bir şey xərcləməsi onun borcudur. Allah (cc) qatinda islamda nigahla inşa edilən evdən sevimli və boşanma ilə məhv edilən evdan daha pis bir şey yoxdur." Sonra Əbu Abdullah (ə) buyurdu: "Həqiqətən, Allah – təala boşanmanı sadəca təsdiq etdi, lakin ayrılmaya olan nifrətini təkrar - təkrar bildirdi***." ( "Vəsailuş - şia", cild 14, "Nigah" kitabı, nigaha dair müqəddimə bablarındakı 1-ci bab, "Kafi", 5-ci cild, səh 328) Rəsulullahın (s) belə buyurduğu ravayət edilir: "Kim evlənərsə, dinin qoyduğu hökmlərin yarısını yerinə yetirmiş olar”.

## Ev bir nemətdir

Bu barəde Allah-təala Qurani-Kərimdə buyurur: ***«Allah evinizi sizə məskən , yaşayıb dincəlmə yeri etdi...».***[1]

Məşhur təfsir alimi ibn Kəsir bu ayəni şərh edərkən bela yazır: «Her şeydən uca və ulu olan Allah bəndələrinə evlərini onlara məskən etdiyini qeyd etməklə nəsib etdiyi bütün nemətlərini sadalayır. Insanlar isə Allahın onlara məskan olaraq bəxş etdiyi evlərine sığınar, burada gözdən-qulaqdan uzaq olar və bütün mənfəət növlərindən bu məskən sayəsində faydalanarlar» (Təfsir ibn Kəsir 4/509) Ev bizlərə nə verir?! Məgər ev bizim hər birimizin qidalanması, ailə həyatı qurması, yatması və istirahət etmək üçün müəyyən edilmiş bir yer deyilmi?! Megar ev bizim her birimizin hem xalvətə çəkilib, həm də öz ailə üzvləri ilə birlikdə toplaşması üçün nəzərdə tutulan bir yer deyilmi?! Məgər ev qadının yad gözlərdən uzaq olması və qorunması üçün nəzərdə tutulmamışdırmı ?! Bəli, Allah-təala Qurani-Kərimdə belə bunu vurğulayır***: «Evlərinizdə qərar tutun ilikin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb, gözəlliyinizi yad şəxslərə göstərməyin!...»).***[2]

- Nəhl, ayə 801
- Əhzab, ayə 332

## Evliliyin müqəddəsliyi

Ailə cəmiyyətin təməlini təşkil edir. Ailənin bir-birinə bağlılığı cəmiyyətin birbirinə bağlılığına, möhkəmliyə səbəb olar. Bu binaya gəlcək hər hansı bir xələl cəmiyyətin sarsılmasına və həlakına gətirib çıxarar. Qurani - Kərim bunu dinclik və əmin-əmanlıq kimi təsvir edir.Əmin – amanlığın hakim olacağı bir cəmiyyətdə insan onun üçün təyin edilmiş vəzifəni layiqincə yerinə yetirmək imkanı əldə edə bilər. Evlilik cəmiyyatdə amin-amanlığı təmin edəcək bir vasitə olduğu üçün İslam gəncləri evliliyə sövq etmiş, bunun erkən həyata keçirilməsini tövsiyə etmişdir. Rəsulullah(s) bir hədisində belə buyurub: "İslamda Allah üçün evlilik vasitəsi ilə qurulacaq evdən daha sevimli bir ev yoxdur", İslam onun gecikdirilməsini 14 -əsr bundan qabaq qadağan etmişdir.

Bu gun sosial elmlər sahəsində aparilan - tədqiqatlarda evliliyin necə mühüm bir əməl olduğunu sübut edir. Məşhur Fransız sosioloqu.Emil Durkeymin apardığı araşdırmalar sübut edib ki, subaylar arasında intihar halları evli olanlardan daha çoxdur.İslam dinini dərindən araşdıran kəs bu dinin evliliyə necə önəm verdiyinin şahidi olacaq. Lakin İslam evlənməzdən əvvəl öz dininin mənsublarına bəzi mühüm öyüd və nəsihətlər verir. Buna, evlənməzdən əvvəl

ər və arvadın seçil-məsində diqqət edilməsi, bəzi . digər mühüm amilləri misal göstərmək olar.Bir hədisində Peyğəmbərimiz(s) belə buyurub:***"Peyin qurdundan uzaq durun". Səhabələr . ondan soruşdular: "Ey Allahın rəsulul Peyin qurdu nədir?". Peyğəmbər(s) belə cavab verdi: "Övladı olmayan, lakin gözəl olan qadın".Habelə peyğəmbərimiz ər seçimində belə nəyə daha çox üstünlük veriləcəyini bir hədisində belə bildirir:***

***"Əxlaqından və dinindən razı olduğunuz biri sizin qızınızla evlənmək istəyərsə, onu öz qızınızla evləndirin, Əks təqdirdə yer. üzərində. fitnə çıxarmış olarsınız."***

## Evliliyin səbəbləri

Evlilik... Hər bir gənc qızın xəyalını qurduğu bir arzu, Uca Allahın qadının qəlbinə yerləşdirdiyi təbii instinkt və qadının arzuladığı analıq instinktidir. Lakin həyatımızın bu keşmə - keşli dövründə, eləcə də problemlərin həddən artıq çox olduğu bir vaxtda evlilik əsl müşkülə çevrilib. Bu problemə gənclərin üzləşdiyi çətin iqtisadi şəraiti də əlavə etsək, evlilik arzusunun az qala xəyala çevrildiyini və bu təbii prosesin məhv olmaqla qarşı-qarşıya olduğunu deyə bilərik. Hadisələrin bu cür inkişafı müəyyən bir müddət keçdikdən sonra evliliyin gənclərin arxasınca ləhləyəcəyi ilğıma çevriləcəyini deməyə əsas verir. Artıq evlənə bilməmək problemi cəmiyyətlərdə istər sosiolofi, istər iqtisadi, istərsə də təhlükəsizlik baxımından stabilliyi təhlükə altında

qoyacaq səviyyəyə gəlib çatmış -dır. Hazırda milyonlarla müsəlman gənc bu problemlə üz-üzədir və bu problem sanki onların kabusuna çevrilmişdir.

Müsəlman ölkələrində qeyd edilən problemin əmələ gəlməsinin oxşar və fərqli səbəbləri vardır. Lakin bu problem hər ölkədə özünü fərqli rakursdan və müxtəlif formada göstərir. Aparılan araşdırmalar və statistik göstəricilər bizə roblemin olduqca böyük olduğunu deməyə əsas verir. Digər tərəfdən, problemin günbəgün böyüdüyü və yalniz iqtisadi aspektlərdən dolayı yaranmadığı da qeyd edilir. Hətta bəzi insanlar problemin yaranmasının başlıca səbəbləri arasında körfəz ölkələrində mehrin miqdarının çox olmasını da bildirərək, problemin mehrdən də qaynaqlandığını vurğulayırlar.

"Belə ki, bir çox varlı ərəb ailələri qızlarını ərə vermək üçün oğlanın varlı və ya kasib olmasından asılı olmayaraq, yüksək mehr məbləği tələb edirlər.Bir çox gənc isə bu mehri ödəyə bilmədiyinə görə ailə həyatı qura bilmir. Digər tərəfdən, bir çox gəncin məhz bu səbəbdən Subay qalmağa üstünlük vermələri də həqiqətdir. Yuxarıda da qeyd etdiyimiz kimi, ailə həyatı qura bilməmək və evliliyin gecikməsi probleminin bir çox səbəbləri vardır. Aparılan araşdırmalar nəticəsində problemin psixoloji, sosial, iqtisadi, siyasi, tərbiyəvi, mədəni və digər səbəblərdən qaynaqlandığı müəyyən edilmişdir.

Biz müsəlmanlar bir şeyi unuduruq ki, evlənən zaman islamı cəhətdən düşünmürük.

Evlənmən zaman qonaqlığı, çağırılan qonaqları, geyindiyimiz paltarları düşünürük. Allah bizə quranda belə buyurmuşdur : ***Ey mömünlər! Aranızda olan subay kişiləri və ərsiz qadınları, evlənməyə qabil kölə və cariyələrinzi evləndirin. Əgər onlar yoxsuldurlarsa , Allah öz lütfü ilə onları dövlətli edər. Allah geniş və hər şeyi biləndir***. [1]

Bizim gözlərimizə möhtəşəm görünən və bizi evləndirməkdən qorxudan bu şeytanın fitnəsi üçündə Allahın bizə buyurduğu vardır. Allah bela buyurur: ***"Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya hayatımın keçici zövqüdür, güzəl dönüş yeri isə Allah yanındadır.***[2]

Həddi-büluğa yetən hər bir oğlan və qızın evlənməyə ehtiyacı vardır. Əgər təbii olan bu ehtiyacla mübarizə olunarsa fəsad və bədbəxtlikdən başqa bir nəticə verməyəcəkdir. Susuzluğu aradan qaldırmaq üçün su içmək Allahın qoyduğu mövcud təbii qanunlardan biridir. Əgər bir kəs əziyyət və məşəqqətlə təbii qanunun əksinə hərəkət etsə, istər-istəməz təslim olmağa məcburdur, yoxsa özünü tələf edəcəkdir.

---

- Nur, ayə 321
- Ali İmran, ayə 142

Həddi-büluğa yetmiş oğlan və qızların təbii ehtiyacları da belədir. Əgər bu ehtiyacın əksinə rəftar olunsa bu, cəmiyyətin pozğunluğuna gətirib çıxaracaqdır. Bu qanunun əksinə olan "inkişaf etmiş" qərb ölkələrinin bugünkü vəziyyəti buna canlı bir sübutdur ki, hal-hazırda bu mühüm məsələ heç bir kəsə gizli deyildir ki, bu ölkələr fəlakət və bədbəxtliyə doğru sür`ətlə addımlamaqdadırlar.

Bəlkə də bir çoxları üçün inanılmaz olan məsələlərdən biri də statistikanın verdiyi məlumata əsasən evli insanların ömrünün subay insanların ömründən çox olmasıdır. Halbuki ilk baxımdan adama elə gəlir ki, evlilikdə olan bir sıra çətinliklər, o cümlədən ailə güzaranını təmin etmək məsuliyyəti, övladın tərbiyəsi, fikir ayrılığı və bu kimi xoşagəlməz işlər ömrün azalmasına gətirib çıxaracaq. Fərzad Həkim "Uzun ömürlüyün sirləri" kitabında yazır: "Amerikanın "Park Deyvis" müəssisəsənin hazırladığı məlumata əsasən, evlilərin ömrü subayların ömründən daha çoxdur. Belə ki, evli kişi və qadınlara nisbətən subay kişilərdə ölüm 75%, qadınlarda isə 50% çoxdur.

1966-cı ildə dünya mətbuatlarında yayılmış məlumat evli kişilərin ömrünün subay kişilərin ömründən çox olmasını bir daha sübut etdi. Verilən məlumatda bu fərqin səbəbinin kişilərin təkliyə dözümsüzlüyündən irəli gəlməsi bildirilir.
Müxtəlif araşdırmalar evlənən insanların, ictimai ruhiyyəli şəxslərin və çoxlu dostu olanların çox yaşamasını sübut edib.

Koliforniya universitetlərində aparılan tədqiqatlara əsasən 10 il ərzində 45 yaşından 64 yaşına kimi insanlar arasında ölənlərin sayı evlilərlə müqayisədə subay insanlarda iki dəfə çox olub. Bu məsələnin, onların arasında yaranan insanlıq əlaqəsindən irəli gəlməsi nəzərə çarpır.

***Seçim haqqı***

Dini dəyərlərə bağlı insanlar üçün ən əsas meyar qarşı tərəfin iman və təqvasıdır. İnsanın imanı iki baxımdan diqqəti cəlb edir:

1) İmanlı şəxs Allaha qəlbən bağlı olduğundan və daxilində nəzarətçi bir qüvvə hiss etdiyindən etibarlı sayılır. İman və etiqad nəzarətçisi olmayan bir kəsə etimad göstərmək təhlükəlidir. Adətən, belə bir seçim müvəffəqiyyətsiz olur. Qəlbən özünü
Allah qarşısında hiss edənlər başqaları qarşısında da məsuliyyətlərini dərk edirlər. Onların verdiyi söz ailə həyatında da etibarlı olur.

2) İmanlı zövcələr vahid bir etiqadi nizama tabe olduqlarından onların baxışlarında, meyillərində, səliqələrində az-çox oxşarlıq olur. Bu səbəbdən də onlar öz müştərək həyatlarında düşüncə baxımından və ruhən bir-birlərinə uyuşurlar.

Hər ikisi din məktəbində tərbiyə almış qadın və kişi öncədən bir-birlərini tanımamış da olsalar, bir çox mühüm məsələlərdə müştərək baxışa malik olurlar.

Bu zümrədən olan fərdlər ortaya ixtilaf çıxdıqda dini təlimlərə, qayda qanunlara müraciət etməklə hər iki tərəfin qəbul edəcəyi yekdil rəyə gələ bilirlər. Belə bir seçim ailədə xoşbəxtliyi təyin edən ən etibarlı seçimdir.

Təcrübədən məlum olur ki, dini öhdəçiliyi olmayanlar hətta evlənməmişdən qabaq uzun müddət tanış olsalar da, ailə qurduqdan sonra kiçik bir səbəbdən ayrılıq fikrinə düşürlər. Çünki hər iki tərəfin qəbul etdiyi sabit qanunlar yoxdur. Məhkəmə çəkişmələrindəki rəqəmlər göstərir ki, dini təlimlərə bağlı olmayanların problemləri daha çoxdur.

Ailənin müvəffəqiyyətində ən təsirli addım həyat yoldaşı seçimində yetərincə diqqət göstərilməsi və araşdırma aparılmasıdır. Təcrübə göstərir ki, ailədə baş verən bir çox acılıqların səbəbi həmin bu mərhələdəki məlumatsızlıq və qəflətdir. Bəziləri yetərincə araşdırma aparmadan ailə həyatı qurur. Belələri uyğun sahədə səhlənkarlıqlarının acı nəticələrini düşünmədən həyat yoldaşı seçirlər. Qısa bir müddətdən sonra anlayırlar ki, onlar arasında düşüncə və əxlaq baxımından ciddi ziddiyyət mövcuddur. Bəziləri isə həyat yoldaşı seçimində yanlış meyarları əsas götürür və nəticədə üzücü peşmançılığa düçar olurlar.

Ailənin müvəffəqiyyəti hər şeydən öncə həyat yoldaşının agahlıqla seçilməsi və bu seçimdə düzgün meyarlardan istifadə olunmasından asılıdır.
Hələ ki, ailə həyatı qurmamış və ailə təcrübəsi olmayan bir kəs bu seçimin nə dərəcədə əhəmiyyətli olduğunu düzgün dərk edə bilmir. Ailə qurduqdan sonra isə insan bu seçimin nə dərəcədə əhəmiyyətli olduğunu anlayır.
Evlənmək istəyən şəxs hər şeydən öncə ailə həyatı qurmaqda məqsədinin nə olduğunu və ailə həyatından nə istədiyini müəyyənləşdirməlidir.
Müəyyənləşdirilməlidir ki, məqsəd varlanmaq və daha çox maddi ləzzət duymaqdır, yoxsa insani və mənəvi dəyərləri qorumaqla sağlam ailə qurmaq?
İnsan bu suala cavab verməklə öz həyat yolunu müəyyənləşdirir. Həyat yoldaşı seçimi də bu baxışdan asılıdır.

Əgər yalnız maddi və zahiri məsələləri meyar götürsək və bu əsasda seçim aparsaq, ailədən vəfa, səmimiyyət, fədakarlıq və məhəbbət intizarında olmamalıyıq. Məlum məsələdir ki, uyğun dəyərlərə malik olmayan ailənin olmağındansa olmamağı yaxşıdır. Ciddi problemlərlə rastlaşmış və qısa bir zamanda dağılan ailələrin əksəri həmin bu növə aiddir. Yəni bu ailələrin təməli gerçək dəyərlər üzərində qurulmamışdır.

Təcrübədən məlum olur ki, bəzi gənclər ailə həyatı qurmağı ticarətlə səhv salırlar. Evlənməkdə məqsədi sərvət

əldə etmək olanlar da var. Bəziləri də qarşı tərəfin yalnız zahiri gözəlliyini əsas götürür, düşüncə və şəxsiyyəti ilə maraqlanmırlar. Həyat yoldaşı seçimində qarşı tərəfin ictimai mövqeyini, peşəsini əsas götürənlər də var. Bu vaxt təbii ki, zəruri amillər nəzərdən qaçırılır. Bütün bu hallarda müştərək həyatın davamı problemə çevrilir. Ailələrə və ailə qurmaq fikrində olan gənclərə belə bir mühüm nöqtəni xatırlatmaq lazım gəlir ki, həyat yoldaşı seçimində gözüyumulu addım atmaqla öz gələcəklərini puça çıxarmasınlar. Çünki bu səhv addımın ardınca bir ömür peşmanlıq gəlir.

Həyat yoldaşı seçiminin əhəmiyyətini, insan həyatında bu seçimin təyinedici rolunu nəzərə alaraq problemlərlə üzləşməmək üçün uyğun seçimdə tələsməmək zəruridir. Dərin araşdırma aparmadan, ehtimallar əsasında seçim aparmaq peşmançılıqla nəticələnir.

## Hisslərlə deyil, əqllə seçim edin

Hər birimiz çox sayda insanın sevgi bağları ilə evlənib, nifrət bağları ilə ayrıldığının dəfələrlə şahidi olmuşuq. Bu cür ailələrdə ən çox ziyan çəkən tərəf uşaqlar olmuşdur.

Lakin elə ailələr də vardır ki, evlənməklərindən uzun zaman keçməsinə baxmayaraq, sevgiləri heç də azalmamışdır, əksinə çoxalmışdır. Heç indiyə qədər bunun səbəbi haqqında düşünmüsünüz? Niyə bəzən sevgi nifrətə, gülüş göz yaşına çevrilir?Günahı başqalarının boynuna atmayaq və deməyək ki, bu, bizim taleyimiz idi. Xeyr, biz özümüz təqsirkarıq. Çünki evlənməzdən əvvəl yolumuzü düz seçməmişik. Hansı həyatın düzgün olduğunu bilməmişik.Alimlərdən biri deyir: "Ən böyük hünər - yaxşı yaşamağı bacarmaq hünəridir. O həyat ki, səmimiyyət və eşqlə doludur. Bu həyat isə ancaq ağıl və məntiqlə edilən seçimlə mümkündür".

Çox təəssüf ki, bu günün cavanları üçün seçim deyil, yaxşı həyat yoldaşı olmaq mühüm sayılır. Cavanlarımız xoşbəxt həyatın əsl mehvərinin düzgün seçim təşkil etdiyini unudurlar. Ona görə də peşman olur və tez bir zamanda boşanırlar. Bu cür cavanlarda eşqdən söhbət düşəndə, ağılları donub qalar. Hər kim aşiq olar, hisslərinə görə hökm verər. Məntiq işə yaramaz. Çünki aşiq üçün məhbubu bütün hər şeydən üstündür. O, hər yana baxsa, ancaq gözəllik görər. Əgər həyatda xoşbəxt ailəyə malik olmaq istəyirsinizsə, seçiminizi ağıl və məntiq üzərindən edin.Yadıma gəlir ki, rəfiqələrimdən birinə bir elçi düşmüşdü və çox yaxşı ailədən olan əxlaqlı bir oğlan idi. Lakin rəfiqəm düşünmədən ona "yox" cavabını vermişdi. Ondan bunun səbəbini soruşanda dedi ki, mənim

meyarlarımla uyğun deyildir. Soruşdum ki, bəs sənin meyarların nədir? Mənə elə bir həyat yoldaşını təsvir etdi ki, indiyə qədər dünyaya hələ beləsi gəlməmişdi. Gözəlliyi Yusif (ə) peyğəmbərə bənzəməli, sərvəti Süleyman (ə) peyğəmbərə, biliyi və elmi İslam Peyğəmbərinə (s). İndi onun 35 yaşı vardır və hələ də subaydır və ərə getməmişdir.Ona görə də cavanlar gərək evlənməzdən əvvəl bir qələm və kağız götürsünlər. Özlərini bu vərəqdə ölçübbiçsinlər. Əvvəl öz zahiri gözəlliyi haqqında nəzərini yazsın. Ondan sonra öz eyb və nöqsanlarını yadına salsın. Sonra da arzu etdiyi gələcək həyat yoldaşını necə görmək istədiyini. Əgər özü haqqında yazdıqları xəyal etdiyi həyat yoldaşı ilə uyğun gəlirsə, o zaman deməli həmin şəxsin axtarışında olmağı düzgün fikirdir Əks halda bir düşünsün. Əgər öz boyu balacadırsa və zahiri cəhətdən gözəl deyilsə, kök və ya çox arıqdırsa, o zaman gözəl və boyu uca olan qız axtarşında olmağı məntiqsiz olardı. Əgər öz eyblərinizi gördüyünüz halda qarşı tərəfin eybsiz olduğunu istəyirsinizsə, sizin üçün həyat çətin olacaqdır. Hər kəs öz əxlaqını bilir və tanıyar. Çox yeyəndir, yoxsa az. Kobuddur, yoxsa mülayim. Vasvasıdır, yoxsa yox. Əsəbidir, yoxsa sakit insandır.Yadda saxlayın ki, bu mövzularda özünüzlə düz rəftar etməli və özünüzü aldatmamalısınız. Çünki siz əgər özünüzü tanımasanız, gələcək həyat yoldaşınızı da tanıya

bilməyəcəksiniz. Hər kəsə kələk gələ bilərsən, ancaq özünə deyil

## Seçim edərkən bəzi tövsiyələr

Hər hansı bir səbəbdən qarşı tərəfin ləyaqəti müəyyənləşmədikdə və ortada şübhələr qaldıqda ailə həyatı qurmaqdan çəkinmək lazımdır.Həyat yoldaşı seçimində qızlar daha çox diqqətli olmalıdır. İslam dini kişilərlə ünsiyyət təcrübəsi olmayan qızların hissə qapılacağını nəzərə alaraq ərə gedərkən onların atalarından razılıq almalarını zəruri buyurmuşdur. Əlbəttə ki, qızların da razılığı olmadan onları ərə vermək olmaz. Ailə təşkilində son qərar zövcələrin ixtiyarındadır. Oğlan və qızın razılığı yoxdursa, izdivac əqdi düzgün deyil. Ata da öz növbəsində qızının xeyirini nəzərə almalı, məsləhətsiz qərar çıxarmamalıdır.

Oğlan və qızın, xüsusi ilə qızın məcbur edildiyi izdivacın sonu yaxşılıqla bitmir. Araşdırmalar göstərir ki, hələ də cəmiyyətimizdə, hətta şəhərlərdə gənclər izdivaca məcbur edilir və məcburi ərə verilən qadınların sayı məcburi evləndirilən kişilərin sayından çoxdur. (Tehranın 20 məntəqəsində aparılan araşdırmalar göstərdi ki, sorğuda iştirak edən 880 nəfər arasında izdivaca məcbur edilən qadınların sayı kişilərin sayından iki qat artıqdır.)İslam dini insanı, ailəsini və eyni zamanda özünü müxtəlif əxlaqi

fəsadlardan qorunmaq üçün naməhrəmə baxmaqdan çəkindirmişdi amma həmin islam və şəriət elçilik zamanı oğlanla qıza icazə verir ki, diqqətlə birbirinə baxsınlar və bir-birini bəyənsinlər. Bu nöqtə o qədər mühümdir ki, Allahın Rəsulu (s) buyurur: "kim bir xanımla evlənmək istəsə, xanımın bədənın bəzi yerlərinə baxa bilər..." Baxmayaraq ki, hər bir şəxs baxmağın meyar və həddinə görə gərək öz təqlid elədiyi müctehidin risaləsinə müraciət etsin amma bu hököm ümumi şəkildə islam dinində sabitdir. Aydındır  ki, evlilik işində lazım olan qədər agahlıq üçün hətta üzünə, əllərinə və ya gələcək həyat yoldaşının başının tükünə baxa bilər.

Bu minvalla cavanlar qarşı tərəfin əxlaqı barəsində araşdırma aparmasından əlavə şəriətə riayət etməklə gələcək həyat yoldaşının bədənini və zahiri xüsusiyyətini görüb, bəyənməli və düzgün, layiqli seçim etməklə evlənməlidir.

Doğru hədəf və niyyət: Gərək yadınızda olsun ki, həmişə doğru seçim xalis niyyətlə olsun. Əgər bizim hədəfimiz yaxşı olsa, Allah da o yolda yardımçımız olacaq.  Allahın Rəsulu (s) buyurur: ***"Kim Allahın razılığı üçün evlənsə ya Allaha görə bir nəfəri evləndirsə, Allahın himayəsində olacaq."***Eyni zamanda evlilik Allahın razılığından başqa niyyətlə olmasın və gərək paklığını qorumaq niyyəti ilə olsun.

Əgər evlilik təkcə dünyaya, şöhrətə, gözəlliyə çatmaq üçün və Allahın razılığı olmasa, evliliyi uğursuz olacaq.İslam Peyğəmbəri (s) buyurub:

***"Qadınlarla onların gözəlliklərinə görə ailə qurmayın; ola bilsin gözəllikləri aradan getsin, var-dövlətə çatmaq üçün də onlarla evlənməyin; çünki, mümkündür sərvəti onları dikbaş və üsyankar eləsin; onlarla dininə görə evlənin."***

Dua və təvəssül edin: Hərçənd ki, hər bir iş üçün tədqiqat aparmaq və məşvərət etmək lazımdır. Amma unutmayaq ki, bütün işlər Allahın əlindədir və əgər o istəməsə, bir yarpaq belə ağacdan düşməz və bir nəfərin başqasına mehribanlıq hissi olmaz.Ona görə də evlənmək istədiyiniz zaman dua və təvəssül edin. Bu işdə Allahdan kömək istəyin ki, Allah da sizə köməkliyini göstərsin.

Adətən bir nəfərin ki, ailəsi əsil-nəsəblidir, ləyaqətli ailə sayılır. Ona görə də həyat yoldaşı seçiməyin ən mühüm meyarlarından biri ailənin əsil-nəsəbli olmasıdır. Allahın Rəsulu (s) buyurub: ***"yaxşı və ləyaqətli ailə ilə evlənin; çünki, əsil-nəsəbin təsiri var."***

Evliliyin iki əsas sütunu qızla oğlandır ki, istəyirlər evliliyin axırına kimi birlikdə yaşasınlar və eyni zamanda iki bədəndə bir ruh olub, ailə ocağını isitsinlər. Ona görə də seçim qadınla kişinin haqqıdır və onların razılığı hər bir evliliyin əsas təməlidir amma əgər xanım subaydırsa, yəni əvvəllər evli olmayıbsa, əksər müctehidlərin fətvalarına əsasən qızın razılığından əlavə atasının ya babasının da razılığı şərtdir.

Lakin oğlan evləndə onun özünün razılığı kifayət edir. Bu barədə hədis də nəql olunub:

Əbu Bəsir: İmam Sadiqdən (ə) soruşdu: Mən bir xanımı özümə həyat yoldaşı seçmişəm, amma valideynlərim isə başqa bir xanımı mənim üçün seçiblər, hansı birini seçim? İmam Sadiq (ə) onun cavabında buyurdu: "Özün sevdiyin xanımla evlən və valideynlərinin sevdiyi, seçdiyi xanımla evlənmə."Əlbəttə bu nöqtəyə diqqət etmək lazımdır ki, baxmayaraq qızla oğlan evliliyin iki əsas sütunudur;
Ancaq münasib bir evlilik üçün çox vaxt təcrübələrə və məsləhətlərə ehtiyac duyulur.Valideynlərin, böyüklərin məşvərətləri və yol göstərmələri yaxşı yaşayış üçün işıqlı bir yoldur. Digər bir tərəfdən də böyüklər cavanları məcbur etməsinlər və eyni zamanda cavanlar da ötəri hisslərindən ötrü münasib olmayan evlilik etməsinlər.

**Evlənməyə layiqli qadınların xüsusiyyətləri**

Bizim dinimizdə münasib həyat yoldaşının xüsusiyyətləri hədislərdə bəyan olunub;
Həmçinin Allahın Rəsulu (s) bir hədisdə layiqli qadın üçün on xüsusiyyət bəyan edib.Cabir ibn Abdullah Ənasari deyir: Allahın Rəsulunun (ə) xidmətində idim ki, O, evlənməyə layiq olan qadının xüsusiyyətləri barəsində belə buyurdu: Sizin həyat yoldaşlarınızın ən yaxşısı o kəslərdir ki, bu sifətləri olsun:

1) Dünyaya övlad gətirmək
üçün hazır olsunlar. 2)
Mehriban olsunlar.
3) Öz iffətlərini və paklıqlarını qorusunlar.
4) Qohum-əqrabalarının yanında izzətli və başıuca olsunlar.
5) Həyat yoldaşının yanında təvazökar və qane olsunlar. 6) Özünü əri üçün bəzəsin və ona göstərin.
7) Naməhrəmlərə nisbətdə özlərini saxlayır və öz geyimlərini qoruyurlar.
8) Ərinə itaət edirlər.
9) Həyat yoldaşının cinsi meylini ödəyirlər.
10) Sevgi və bağlılıqlarında ifrat və təfrit etmirlər; bəlkə orta həddə riayət edirlər.

Şübhəsiz bu cür xüsusiyyətli həyat yoldaşı olan xanımlar ərləri ilə psixoloji və mənəvi problemləri olmaz. Ləyaqətli qadınların nişanələri
"Həm təvazökar, həm də itaət edən qadınlar pak və təqvalıdırlar."
Allah ismətli qadının iki xüsusiyyətinə təkidlə işarə etmişdir: Təvazökarlıq və itaət etmək. Qadın öz ərinə itaət edərək onun müqabilində təvazökar olmalıdır. Əgər bir qadın əri qarşısında etinasızlıq və
saymazlıq göstərərsə, həqiqətdə ilahinin ona verdiyi fitri qanunun əksinə hərəkət etmişdir.İslam nəzərincə ləyaqətli qadın odur ki, ərinə itaət etsin və kişi də evdə böyük kimi sayılsın. Amma gərək amansızlıq və zorakılıq deyil, əksinə

ailənin idarəsi və məsləhətinə uyğun təbii bir tərzdə böyüklük etsin. Qadının öz ərinin buyuruğunda diqqətli olması ümdə vəzifələrindən biridir.***Təqva–iman əhlinin ən gözəl xüsusiyyətlərindəndir кi, onlar Allahın ədalətindən qorxub onun əmrinə qeyd-şərtsiz itaət edirlər.***[1]

## Evlənməyə Layiqli kişinin xüsusiyyətləri

Möminə və dindar xanımlar gərək həyat yoldaşı seçəndə çox diqqətli olsunlar ki, gələcək yaşayışlarında mənəvi böhranlara və duyğusal boşanmaya giriftar olmasınlar;Əgər evlilikdə din və əxlaq iki əsas meyar qərar verilsə, xoşbəxtlik də olacaq.Şübhəsiz əxlaqı nəzərə almadan var-dövlətin çoxluğu yaşayışı maneələr və problemlərlə üzbəüz edəcək. Hədisdə qız atalarına tövsiyə olunur: "Əgər elçinin dinini və əxlaqını bəyənsəniz, ona müsbət cavab verin"Evlilikdə münasib kişi seçmək üçün əhəmiyyətli xüsusiyyətlərindən paklıq, iffətli olmaq və ailəsinin yaşayış xərcini təmin etmək bacarığının olmasıdır.

İmam Sadiq (ə) buyurur: ***"Qadına layiq o həyat yoldaşıdır ki, iffətli, pak və yaşayışın xərclərini təmin etməyi bacaran olsun."Belə ki, kişi və qadın evliliklərində öz hədəflərini İlahi qanunlar əsasında qərar versələr və yaşayış tərzlərini***

---

-Nisa, ayə 341

***islam qaydaları ilə tənzimləsələr, heç vaxt sevgisizliyə və duyğusal boşanmaya giriftar olmayacaq.***

## Ər arvad münasibətlərinin yaranmasına maneə olan səbəblər

Məlumdur ki, hər kəs evlənərkən xoşbəxt lmaq istəyir. Bəzən istəyərək bəzəndə istəməyərək arada maneələr yarana bilər. Bəs hərr kəs xoşbəxt olmaq istəyirsə arada yaranan soyuqluq,istiləşə bilməmək və ya yola gedə bilməmək nə üçün baş verir. Münasibətlətrin bu hala gəlib çıxmasında tərəflərin hansında günah vardır? Biz harda səhv edirik?

Müqəddəs İslam dini evliliyə çox tövsiyə etmişdir. Belə ki, dinin kamalı nigahla şərtlənmişdir. Allahın Rəsulu (s) da insanın dindarlığında ailənin mühüm rolunu nəzərə alaraq buyurmuşdur:

1) "Hər kim evlənsə (ailə qursa), dinin yarısını qorumuşdur, qalan yarısı üçün Allahdan çəkinməli və təqvalı olmalıdır".

2) "İslamda heç bir bina (quruluş), evlilik qədər Allah yanında əziz deyil". 3) "Evlilik mənim sünnəmdir, hər kim sünnəmə uyğun əməl etməsə, məndən (ümmətimdən) deyil".

4) “Mən sizə peyğəmbər olmaqla yanaşı evlənir, dadlı yeməklər yeyir, camaatlaəlaqə saxlayaraq onların arasında

yaşayıram. Hər kəs mənim sünnə və həyat tərzimdən üz döndərsə, məndən deyil".
İmam Sadiq (ə) buyurur: "Evli adamın qıldığı iki rəkət namaz, subay adamın qıldığı yetmiş rəkət namazdan daha üstündür".
İslam dininin nəzərində ailə müqəddəs bir qurumdur. İslam dinində ailəyə verilən xüsusi bir müqəddəslik başqa bir quruma verilməyib. Həzrət Məhəmməd (s) buyurur :
İslamda elə bir qurum qurulmayıb ki, Allahın nəzərində evlilik qədər sevimli olsun.Evlilik bu qədər təkid edilmmişsə bəs bu boşanmalar niyə getdikcə artmağa başlayib. Evlənən zaman bəzi nüanslara fikir verməк,vəzifələrini bilmək,hüqüqlarını bilmək və əməl etnək lazımdır. İndi hissə-hissə araşdıraq görək nə baş verir.

## İslamda qadın-kişi bərabərliyi

Digər bir müzakirə mövzusu da, qadın-kişi bərabərliyi məsələsidir. Qadınla kişinin bərabərliyini qəbul etmək, əslində alma ilə armudu bərabər qəbul etmək kimi əşyanın təbiətinə zidd olan bir haldır. Çünki, qadınla kişi nə psixoloji, nə də bioloji baxımdan eyni deyildir. Yaradılışları fərqli olduğu kimi, vəzifə və məsuliyyətləri də fərqlidir. Onların hər biri səadət və rahatlığa qovuşmaq üçün

yaradılışına muvafiq sahədə həyat sürməli, öz vəzifəsini üzərinə götürməlidir.
Məsələn, kişinin uşaq doğmaq kimi əşyanın təbiətinə zidd bir xüsusiyyəti olmadığı kimi, qadının da həyatın çətinlikləri qarşısında kişi qədər dözümlü olmadığı bir həqiqətdir. Deməli, qadın və kişi hər biri öz təbii xüsusiyyətləri çərçivəsində dəyərləndirilməlidir. Hər şeydən əvvəl bir ana olan qadın səbr, şəfqət və mərhəmətlə övladını tərbiyə edib boya-başa çatdırır. Ata isə uşağın tərbiyəsində mərhəmət göstərə bilməz çünki qadının yaradılışındakı xüsusiyyətlər onu ucaldan və fərqləndirən sirr, daxili aləmində hakim olan mərhəmət, şəfqət, anlayış və səbr kimi keyfiyyətlərdir. Qadının bu keyfiyyətləri ailə mühitində analığı yaşamaqla birgə ortaya çıxır və ana bu xüsusiyyətləri ilə cəmiyyətləri, dövlətləri meydana gatirən, dünyaya nizam verən varlığı yəni insanı yetişdirir.

Kişinin isə fitrəti , vəzifələri və iş sahəsi fərqlidir.Bu nöktədə ağla belə bir sual gələ bilər :<<Elə isə qadın üstündür , yoxsa kişi ?>>Bu suala islam dinindən çıxış edərək cavab versək deyə bilərik ki , Quranda səbr , şükür , qənaə , mərhəmət , təvazökarlıq , fədakarlıq , dözümlülük yardımsevərlik kimi xüsusiyyətlərə sahib və eyni zamanda təqvalı (Allahdan qorxma ) kamil bir insan modelindən bəhs olunur.Hər iki cinsdən hansında bu xüsusiyyətlər varsa və ya hansı bu bildirilən kamil əxlaqa sahibdirsə ,üstün olan odur .Qadındırsa , qadın üstündür , kişi isə , kişi üstündür .Bunun

xaricində hər hansı bir üstünlük ölçüsünü quran rədd edir.Cins , irq , millət və s.  kimi ünsürlər insanlar arasında əsla bir xüsusiyyət ola bilməz.  Qadın-kişi bərabərliyi, qadının ailə vəziyyəti ilə bağlı iş yerindən bəhs edilir, onun ən qiymətli dəyəri olan analığı unudulmuş, bir kənara atılmış, hətta onu əzən mənliyini məhv edən bir vasitə kimi qurulmuşdur.  Yəhudi əsilli bir feminist olan  Emma Qoldman uşaq dünyaya gətirən qadınların evlərində əsir həyat yaşadıqlar- ından uzun-uzadı bəhs edir və nəticədə doğuma nəzarət vasitələrinin geniş yayılmasını tövsiyə edir. Qərb, yanlış yolla gedərək qadını  öz yaradılışına qarşı düşmən etmişdir .  Bu şəklə, qadın  ailə həyatından və ana ayrılaraq hər sahədə istifadə edilən  bir məxluq çevrilmişdir. Bütün bunlar inkarı mümkun olmayan həqiqətlərdir və tarix buna şahiddir.

Bu müfəssəl və oxunaqlı məqalənin əvvəlində amerikalı bir xanım fəhlə qadınların hal-hazırda “qadın-kişi bərabərliyi” adı altında keçmişdə onlara verilən bir sıra imtiyazlardan (misal üçün, əvvəllər qadınların 25 funtdan artıq ağırlıq qaldırmamasına icazə verilirdi. Halbuki kişilər üçün bu limit nəzərdə tutulmurdu) məhrum edilməsindən giley-güzar edir. O deyir: “Hal-hazırda Ohayo ştatında yerləşən “General Motorz” zavodunda (buranı 2500-ə yaxın qadının dözülməz əzab-əziyyətlərə düçar olduğu bir məkan adlandırsaq, daha yaxşı olar) iş şəraiti çox dəyişilib...”

Həmçinin bu qadın güclü bir buxar maşınını tutub saxladığını, yaxud 25 funt çəkisi olan, az öncə cüssəli bir kişinin yerə qoyduğu polad sobanı təmizlədiyini gözləri qarşısına gətirərək öz-özünə deyir: “Başdan ayağa qədər əzildim, hər yerim yaralandı”. O deyir: “Dəqiqədə 25-50 inç böyüklüyündə, 35 : funtdan artıq çəkisi olan bir bağlamanı qarmaqdan asmalıyam. Əllərim daim şişir və ağrıdan zoqquldayır”. Məqalənin ardında başqa bir qadın giley-güzarını bildirir, narahatçılığı iztirabları barədə danışaraq deyir ki, onun əri ABŞ Dəniz Donanmasın da dənizçidir. Bu yaxınlarda Dəniz Qüvvələrinin admiralı gəmilərə bir-neçə qadını da işə götürülməsi barədə qərar çıxarıb. Xanım yazır: “Bir qədər əvvəl Hərbi Dəniz Donanması 40 qadın və 480 nəfər kişidən ibarət heyətlə bir gəmini: ezamiyyətə göndərdi, Gəmi dənizdə bu tip “kişili-qadınlı” ilk səfərini başa vurub limana qayıdanda məlum oldu ki, dənizçilərin ömür-gün yoldaşlarının qorxu * narahatlığı heç də əbəs deyilmiş. Belə ki tezliklə nəinki səfər zamanı yaşanllli: Məqalənin ardında başqa bir qadın giley-güzarını bildirir, narahatçılığı 35 iztirabları barədə danışaraq deyir ki, onun əri ABŞ Dəniz Donanmasındı- dənizçidir. Bu yaxınlarda Dəniz Qüvvələrinin admiralı gəmilərə bir-neçə qadınıl da işə götürülməsi barədə qərar çıxarıb. Xanım yazır: “Bir qədər əvvəl Hərbi Dəniz Donanması 40 qadın və 480 nəfər kişidən ibarət heyətlə bir gəmili: ezamiyyətə göndərdi, Gəmi dənizdə bu tip “kişili-qadınlı” ilk səfərini başa vurub limana

qayıdanda məlum oldu ki, dənizçilərin ömür-gün yoldaşlarının qorxu və narahatlığı heç də əbəs deyilmiş. Belə ki tezliklə nəinki səfər zamanı yaşanmış çoxsaylı eşq macəraları, hətta gəmidəki qadınların əksəriyyətinin bir-neçə kişi ilə cinsi əlaqədə olduğu aşkara çıxdı”

Məqalədə yazılıb: “Florida ştatındakı dul qadınlar “azadlığa” çıxandan sonra bərk təşvişə düşüblər. Belə ki əyalətin Tomas Testa adlı hakimi həyat yoldaşını itirmiş qadınlara kömək məqsədilə, onlara təxminən 500 dollar məbləğində müavinətin ayrılmasını nəzərdə tutan qanunu bu yaxınlarda ləğv edib və bu qanunun “kişilərə qarşı diskriminasiya” hesab olunduğunu bildirib”. Məqalənin davamında yazılır: “Xanım Mc.Danielin əlləri daim ağrıdan sızıldayır, xanım Eston (əri dənizçi olan qadın) təşviş və iztirab içərisindədir, Florida əyalətində yaşayan dul qadınlar maddi cəhətdən cəriməyə düşüblər, başqa qadınlar da azadlığın “ləzzətini” hər biri öz payına düşəcək qədər dadacaqlar. Bir çoxlarını belə bir sual düşündürür: qadınların itirdikləri qazandıqlarından çox deyil mi? Bəli . İndi bu barədə danışmaq artıq faydasızdır, çünki oyun çoxdan başlayıb və tamaşaçılar elə yenicə oturacaqlarını tapıb yerlərinə otura biliblər.

Məqalənin qısa xülasəsi yuxarıda qeyd etdiklərimizdən İbarətdir

Məzmundan da aydın olduğu kimi, qadınlar “azadlıq” və “bərabərlik” adı altında , çiyinlərinə yüklənmiş çətinliklərdən o qədər cana doyublar ki, bu iki sözcüyün heç bir günahı olmadığından xəbərsiz şəkildə onlara düşmən kəsiliblər. Qadın Və kişi hər birinin öz orbiti olan iki müxtəlif planetdir. Hər biri özünün kosmik məkanında və öz orbiti üzrə hərəkət etməlidir.

Bəşər cəmiyyətinin reallığında istər qadının, istərsə də kişinin xoşbəxtlik və səadətə qovuşmasının başlıca şərti budur ki, onlardan hər biri öz orbiti üzrə hərəkətinə davam etsin. Azadlıq və bərabərlik yalnız o zaman öz bəhrəsini verir ki, nə qadın, nə də kişi özünün yaranış nizamında müəyyən edilmiş təbii orbitindən, hərəkət trayektoriyasından kənara çıxmasın. Az öncə qeyd olunanlar cəmiyyətdə narahatlıq və iztirab doğuran amil isə fitrətin, təbiətin hökmünə qarşı üsyan qaldırılması olmuşdur.

Biz iddia edirik ki, “Qadının ailə və cəmiyyətdəki hüquqi statusu” məsələsi yenidən baxılmasına ehtiyac duyulan, əvvəllər aldığı qiymətlə kifayətlənməməyə tələb edən məsələlərdən biridir. Problemin çözülməsi üçün biz əvvəla, təbi özümüzə bələdçi seçməyi, ikincisi isə, istər keçmişdə, istərsə də hazırkı əsr qazandığımız acılı-şirinli təcrübələrdən maksimum dərəcədə faydalanmağı önəmli şərtlər kimi nəzərdə tuturuq. Yalnız bu halda sözün həqiqi mənasında

“qadın haqları” naminə hər hansı bir hərəkat gerçəkləşə bilər. “

İmam Əli (ə): buyurur ***«Qadınların ən yaxşı xüsusiyyətləri kişilərin ən pis xüsusiyyətləridir: Qürur, qorxaqlıq və xəsislik. Çünki qadın məğrur olsa özünü (naməhrəmin) ixtiyarına verməz. Xəsis (tutumcul) olsa, özünün və ərinin malını saxlayar, qorxaq olsa başına gələn (bədnamlığına səbəb ola biləcək) hər şeydən qorxar.»***[1]

Kişi-qadın bərabərliyi mövzusuna keçməmişdən əvvəl “bərabər” və “bərabərlik” kəlmələrinin lüğəvi mənalarına baxaq.“Bərabər” – heç bir fərqi olmayan, təbiəti, xüsusiyyəti, qiyməti, ölçüləri eyni olan deməkdir. “Bərabərlik” isə insanlar arasında hüquqlar baxımından heç bir fərqin olmaması mənasındadır.

Bu “bərabər” və “bərabərlik” tərifləri çərçivəsində qadının kişinin yanındakı mövqeyi necədir?

## Fitrətdəki Fərqlilik

Allah (c.c.) Kainatda hər şeyi cüt yaratmışdır. Bu cütlərdən hər birinin o birisinə bütün cəhətləri ilə bərabər olduğunu iddia etmək qeyri-mümkündür. Çünki ayədə:“Hər şeydən cüt-cüt (kişi və qadın, biri-birinin əksi olmaqla) yaratdıq. Bəlkə bir düşünüb ibrət alasınız.” (Zəriyat, 51/49)-buyrulur.

---

- Tuhəful-Uqul, səh.351

Zərrələrdən bitkilərə, bitkilərdən isə heyvanlar və insanlar arasındakı qadınlıq-kişiliyə qədər hər şey cütdür və bir-birinə möhtacdır. Müsbət mənfiyə, elektron protona, gecə gündüzə, yaz qışa, yer üzü göy üzünə, kişi qadına, qadın kişiyə möhtacdır. Bunlarla yanaşı, hal-hazırda bilmədiyimiz, ancaq elm və texnologiyanın inkişafı ilə öyrənə biləcəyimiz neçə-neçə cütlər vardır.

Məhz Allah (c.c.) qadını yaradarkən, elektrona nisbətən protonu, müsbətə nisbətən mənfini, erkək toxuma nisbətən dişi toxumu yaratdığı kimi, kişini yaratmış və bu cütlərdən bir vəhdət meydana gətirmişdir. Ancaq elektron protona, müsbət mənfiyə bərabər olmadığı kimi, qadın da kişiyə bərabər ola bilməz. Bu, fitrətin dəyişməz qanunlarından biridir. Çünki tək olan Allahdan başqa hər şey yarımçıq, qüsurlu olduğu kimi, varlığını davam etdirə bilmək üçün də heç bir şey öz-özünə kifayət edə bilməz. Buna görə də yarımçıq olan kişi və qadın bir araya gələrək bir-birini tamamlayacaq və bir vəhdət təşkil edəcəkdir ki, bütünün əsl həqiqəti də bu vəhdətdədir.

Yəni qadın və kişi bir-birinə bərabər deyil, əksinə bir-birinin tamamlayıcısıdır. Allah Rəsulu (.s.) bir hədisində bu həqiqəti ifadə etmişdir: “İnnəman-nisa şaqaiqurrical – Qadınlar kişilərin yarısıdır.”

Hədisdəki “şaqaiq” kəlməsi tən ortadan ikiyə bölünmüş bir bütünün hissəsi deməkdir. Yəni bir bütünü meydana gətirən iki hissədən hər biri digərinin

“şaqaiqidir.” Buna görə insan olma yönü ilə qadın və kişi bərabər yarılardır (hissələrdir). Ancaq qətiyyən biri digərinin eyni deyildir. Yəni bunların fitrətləri, ruh və psixologiyaları tamamilə fərqlidir. Qadın fiziki və ruhi baxımdan kişiyə bərabər ola bilmədiyi kimi, kişi də ona bərabər ola bilməz. Nə kişi qadının bioloji cəhətdən daha inkişaf etmiş bir versiyası (şəkli), nə də qadın kişinin az inkişaf etmiş bir tipidir. Cinsiyyət fərqliliyinə bəşərin müdaxiləsi qeyri-mümkün olduğuna görə, inanan, yaxud inanmayan hər kəs bərabərlik xülyalarından əl çəkib kişini və qadını olduğu kimi qəbul etməlidir.

O ki qaldı, təkcə fərqli cinslər arasında deyil, eyni cinslər arasında da tam bir bərabərliyin olduğunu söyləmək mümkün deyil. Belə bir xülyanın həqiqətə çevrilməsinə çalışmaq fitrət qanunlarını dəyişməyə çalışmaq deməkdir ki, bu cür səylər bütünlüklə bihudə və hədərdir. Yeri gəlmişkən bunu da qeyd etmək lazımdır ki, qadınlardakı bu yaradılış fərqliliyi onların xor və həqir görülməsi üçün səbəb deyildir. Əksinə Allah-Təala ***“…(hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən edən və (hamıya) yol göstərəndir***”ş[1]

Qadını və kişini “Ən gözəl yaradılışla yaradan” və ona ucalmanın, yüksəlmənin yollarını öyrədəndir. Onları bir-birinin tamamlayıcısı, örtüsü, qoruyucusu edəndir.

---

- Əla, ayə 31

## Vəzifədə fərqlilik

Yuxarıdakı izahlardan göründüyü kimi, fitrətən qadın kişi ilə eyni olmadığı kimi, vəzifədə də bərabər ola bilməz. Kişiyə aid vəzifələr qadından tələb olunarsa, ona zülm olar. Çün
ki qadının fiziologiya, biologiya və psixologiya etibarilə kişidən nə qədər fərqləndiyi açıq-aşkardır. Belə bir yaradılış fərqliliyindən doğan bəzi haqq (hüqüq) və vəzifə fərqləri də çox təbiidir. Məsələn, kişi qadına nisbətən daha güclü və daha qüvvətlidir. Qadının bu baxımdan kişinin etdiyi işi, yaxud vəzifəni icra etməsi çox çətindir. Bu hal qadın üçün qətiyyən nöqsan deyildir. Bunun əvəzində isə qadın kişidən daha şəfqətli, daha mərhəmətli, daha zərif və daha həssasdır. Bu xüsuslarda kişi qadınla yarışa bilməz. Hər iki cins, vəzifələrinə uyğun qabiliyyətdə yaradılmışdır ki, həqiqi haqq və ədalət də məhz budur. Yəni kişi-qadın bərabərliyini qadın və kişiyə ayrı-ayrılıqda deyil, öz fitrəti çərçivəsində yanaşıb dəyərləndirmək ən məqsədəuyğun yoldur. Bəli, qadın yaradılışına və qabiliyyətlərinə görə müəyyən vəzifə və hüquqlara malikdir ki, o bu çərçivədə istiqamətləndirilsə, daha yaxşı nəticələr əldə olunar.

Nəsilləri məhz qadın dünyaya gətirir və tərbiyə edir. Bəşəriyyətə layiqli fərdlər onun feyzli və bərəkətli əli ilə bəxş edilir. Hələ nəslin yetişməsi xüsusunda qadının şəfqət kimi dəyərlə təchiz edilməsi ona Allahın xüsusi lütfüdür. Bu

vəsfi ilə qadın ailə fərdləri arasında bir ehtiram abidəsidir. O, evin tərbiyəçisi, müəlliməsi, qəyyuməsi və səadət mənbəyidir. Kişi onunla həqiqi səadətə qovuşur. Uşaq onun şəfqətli qoynunda böyüyür, həssas, şəfqətli və sağlam düşüncəli yetişir. Əgər ana, iffətli yaşaya bilmişsə, onun sayəsində uşaq nə yolundan çıxar, nə də mənəviyyatsız yaşıdlarına qoşular. Allah-Təalanın qadına bəxş etdiyi lütflə müqayisədə bəzi insanların bərabərlik adı ilə ona verəcəyi hər şey çox sönük görünür. Bərabərlik iddiaları ilə ona veriləcək hüquqlar, ediləcək yaxşılıqlar qızıl medallarla təltif edilmiş bir insanın yaxasına mis medal taxmaq kimi gülünc və bəsitdir. Allah (c.c.) qadını elə bəzəkli, al-əlvan bir paltarla süsləyib ki, artıq bundan sonra ona geydiriləṅ hər şey onun dəyərini azaltmağa, ondan istifadəyə hesablanmışdır. Allah Təala adili-mütləqdir. Allah (c.c.) hər haqq sahibinə haqqını vermişdir. Verəndə də nə onu kobudlaşdırmış, nə də gülünc vəziyyətə salmışdır. Bundan sonra ona verilən hər "haqq" (hüquq) bir haqsızlıq və zülmdür. Qadının görəcəyi iş onun fiziologiya, psixologiya və ruhuna mütləq uyğun olmalıdır. Onun çiyinlərinə ağır işlər yükləmək və onun fitrətinə yad işlər gördürmək nə bərabərliyə, nə də insani münasibətlərə sığar. Əksinə, belə bir davranış qadının bəzi hüquqlarından məhrum edilməsi deməkdir. Allah Rəsulundan (s.ə.s.) gələn bu hədis yuxarıdakı məsələni çox gözəl şəkildə ifadə edir: "Bir inəyi

boyunduruğa qoşdular. Dönüb sahibinə belə dedi: Mən bu iş üçün yaradılmamışam.” Yəni bu iş üçün öküzlər yaradılıb.

Xülasə, hər şeyin bir yaradılış qayəsi var. Hər varlıq yaradılış məqsədinə və qabiliyyətinə görə istiqamətləndirilməlidir ki, həqiqi ədalət təsis olunsun.

## Qadın və kişinin vahid xilqəti

Şübhəsiz ki, bəşəri xüsusiyyətlər baxımından qadın və kişi bir-birindən fərqlənmir.

Yə`ni onların hər ikisi insandır və vahid insani xüsusiyyətlərə malikdirlər. Onların biri o birindən üstün və ya alçaq deyil. Bə`zi fəlsəfi cərəyanlar, məktəblər və məzhəblər qadını ikinci dərəcəli mövcud sayır. Qur`ani-kərim isə öz aşkar bəyanlarında qadının kişi cinsindən olduğunu və onların hər birinin o biri üçün zinət və aramlıq vasitəsi sayıldığını bildirir. Qur`an qadınla bağlı xurafi əqidələrin üzərindən xətt çəkir.İslam və Qur`an baxımından qadın və kişi vahid bir xilqətə malikdir.Tarix boyu qadınların mə`ruz qaldığı və onları bir çox hüquqlardan məhrum etmiş sıxıntıların kökü qadın vücudunun mahiyyəti ilə bağlı yanlış düşüncə tərzidir. Müxtəlif ailə mühitləri və cəmiyyətlərdə rastlaşdığımız bir çox kobud rəftarların və qarşıdurmaların səbəbi həmin yanlış baxışdır. Təəssüf ki, bütün cəmiyyətlərdə bu sayaq yanlış düşüncə və e`tiqadlar

kök atmışdır. Yaxın zamanlaradək əksər avropa ölkələrində qadın ən ibtidai hüquqlardan məhrum idi.
Müasir mədəniyyət qanunları əsasında qadınların bir çox hüquqları ayaq altına alınmışdı. Bə`zi ideologiyalarda, xüsusi ilə də xristianlıqda qadın insanda şübhə və tərəddüd yaradan şeytani bir mövcud kimi tanıtdırılır, kişilərin süqutunun əsas səbəbkarı kimi təqdim olunur. Bu sayaq düşüncə tərzinə hələ də əksər cəmiyyətlərdə təsadüf olunur. Bizim də əqidə və e`tiqadımızda Qur`an prinsiplərinə zidd olaraq bu sayaq xurafi münasibətlər görünməkdədir. Belə yanlış düşüncələrin zehinlərə yol tapması əməldə xoşagəlməz nəticələrlə sonuclanır.Əgər kişi qadını vəsvəsəçil, şeytani və şər bir mövcud kimi tanısa, onu cilovlamağı özünə vəzifə biləcək, bu yolda qadını istənilən bir şəkildə sıxıntıya salmağı mümkün sayacaq. Keçmişdə bu sayaq ailə rabitələrinin nümunəsi çox olmuşdur. Həmin ailələrdə kişi ailənin himayəçisi kimi yox, müstəbid hakim kimi tanınırdı. Belə bir kişi üçün arvad-uşaq bir qul kimi idi. İndi də bə`zi ailələrdə bu sayaq münasibətlə rastlaşırıq. Belə ailələrdə yalnız qeyd-şərtsiz itaət dəyər sayılır. Ailədə kişiyə bu sayaq hərtərəfli, korkoranə və qulsayağı itaət mövcud olduqda onu, adətən, “patriarxal” adlandırırlar

## Qadınla müştərək həyatda ilk addım

Qadınla bu sayaq rəftar ilk növbədə ona sitəmkar baxışdan formalaşır. Keçmişdə bu münasibət o qədər sərt olmuşdur ki, hətta qadın özü də özünü dəyərsiz saymış, ər qarşısında hüquqlarını dərk etməmişdir. Qadına ifrat sərt münasibət "feminizm" adlı əks bir cərəyan doğurmuşdur. Bu, qadının kişi ilə tam bərabər olduğunu iddia edən ifrat bir cərəyandır.Qur`ani-kərim bu sayaq yanlış e`tiqad və adətlərlə mübarizə üçün, harada böyük və pak bir kişidən söz açmışsa onunla yanaşı böyük və pak qadının adını çəkmişdir. Bəli, Qur`anda kişi və qadına münasibətdə tarazlıq gözlənilmiş, qadına mövcud münasibəti aradan qaldırmaq üçün qəhrəmanlıq dastanlarında kişilərlə yanaşı qadınlar da xatırlanmışdır.Bizim səmavi kitab daim tə`kid edir ki, axirət mükafatı cinsdən yox, iman və əməldən asılıdır.Deməк, kamillik mərhələlərini keçmək üçün qadın kişi ilə eyni imkanlara malikdir. O düzgün tə`lim-tərbiyə aldıqda kamilliyin ali dərəcələrinə çata bilər. İslam tarixində pak və ali məqamlı qadınlar çoxdur.Zülm-sitəmdən uzaq, yetərli ailə mədəniyyətinə nail olmaq üçün kişi düzgün düşüncə tərzinə yiyələnməli, bəşər tarixində kök atmış yersiz təəssüblərdən çəkinməlidir. Bu, kişinin qadınla müştərək həyatda atacağı ilk addımdır. Kişi qadını ilahi bir hədiyyə, həyat yoldaşı bilməlidir. Bilməlidir ki, hüquqi baxımdan qadın eynən onun kimidir. Qadını əskik saymaq, ona hakimlik fikrinə düşmək yolverilməzdir.Qadına münasibətdə

təhqiramiz təsəvvürə malik olmaq kişinin özünü üstün sayması ilə nəticələnir və bu ailə rabitələrinə çox mənfi tə`sir göstərir.Nə qədər ki, bu sayaq düşüncə tərzi formalaşmamış və kişi qadını özü ilə bərabər mövcud saymır, ailə münasibətləri tənzimlənməyəcək. Bu sayaq düşüncə tərzi ailə rabitələrinin sağlamlaşdırılması yolunda kişilərin atacağı ən zəruri addımdır. Yalnız bu yolla Allahın və`d etdiyi mərhəmət və sevgiyə nail olmaq mümkündür.

Əgər qadınla kişi arasındakı rabitələr ədalət və bərabərliyə əsaslansa, tərəflərdən biri o birinə həqarətlə baxmasa, onlar aram bir həyat sürəcəkdir. Bu o demək deyil ki, ailədə iş bölgüsü olmasın və hər kəs öz fitri və təbii xüsusiyyətlərinə uyğun məs`uliyyət daşımasın. Uyğun düşüncə tərzi kişinin ailədə müdiriyyət məs`uliyyətini azaltmır. Növbəti söhbətlərimizdə ailədə iş bölgüsü haqqında danışacağıq. Hələ ki, diqqət əsas məsələyə yönəldilməlidir:

Qadınla kişi arasında rabitənin əsasını anlaşma, təvazö, qarşılıqlı ehtiram, bir sözlə, yoldaşlıq təşkil edir.
Aydın məsələdir ki, yoldaşlıq və dostluq münasibətlərində bir tərəfin özünü üstün, qarşı tərəfi əskik sayması mümkün deyil. Dostluq varsa, tərəflər arasında qarşılıqlı ehtiram da var.

## Mənəm evin ağası

Allah kişi ilə qadını fərqli yaradıb. İstəsək də,istəməsək də, bunu qəbul etməliyik! Bu fərqliliklərə görə də kişinin qadının üzərində müəyyən üstünlüyü var. Hər dövlətin başçısı var. İkinci şəxs başçı olmaq istədikdə isə problemlər yaranır. Ailə də bir dövlətdir, onun başçısı olmalıdır. Dinimiz başçı kimi məhs kişini görür. Çünki məhs kişinin üzərinə ən çətin öhdəliklər qoyulur. O, ailəsinin həm maddi, həm mənəvi tələbatını ödəməlidir: "Kişilər qadınlar üzərində ixtiyar sahibləridirlər. Bu, Allahın onlardan birinin digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, maldövlətini,namus və şərəfini) qoruyub, saxlayırlar..." (surə 4, ayə 34). Bununla qadın və digər ailə üzvlərinin haqları tapdalanmır, sadəcə, hərənin özünəməxsus, özünəlaiq davranış həddi var. Allah-Təala kişi ilə qadına çox gözəl tərif verir:

"Onlar (qadınlar) sizin, siz də onların libasısınız. (Bir-birinizə həddindən artıq yaxınsınız)" (surə 2,ayə 187). Kişi fiziki və emosional cəhətdən daha güclü olduğundan ailəsinə arxa olub,çətinliklərini həll etməlidir. Qadın isə ərinin dostu,rahatlıq, sevgi mənbəyi olmalıdır. Bir sözlə, bir-birinin libası olub, bir-birini isitməli, qorumalı, bəzəməli, şəxsi şeylərini başqalarının gözündən gizlətməlidirlər. Bəzi qadınlar "kişi" olub ərlərinə başçılıq edirlər. Lakin bununla öncə özlərinə çətinlik yaratdıqlarını bilmirlər.

## Xanımın haqları

Biz təkcə qadın haqlarından danışmaq istəmirik. Bura həm də ailə bağlılığına və gözəl dostluğa səbəb olacaq haqlar da daxildir. Bu haqlardan bəzisini xatırladaq:

1.Qadın şəri haqlarda ərinə tabe olmalıdır. Əgər əri onu Allaha qarşı üsyana sövq edərsə, ona qarşı çıxmaq haqqı var.

2.Qadın evindən yalnız ərinin izni ilə sədəqə verə bilər,

3.Yalnız ərinin izni ilə müstəhəbbi oruc tuta bilər.

4.Qadın ərinə təmkin verməlidir.

5.Evindən ərinin izni ilə çıxmalıdır.

6.Ərini qəzəbləndirməməlidir.

7.Onun üçün bəzənməli, ən gözəl zinət əşyaları ilə onun üçün süslənməlidir.

Başqaları üçün bəzənmək olmaz.

8.Onunla gözəl rəftara və gözəl dostluğa can atmalıdır.

9.Ona xidmətdə və ehtiramda hər zaman irəlidə olmalıdır.

10.İftiralardan özünü qorumalıdır.

11.Həyatda ona yardım etməli və onu razı salmalıdır.

12.Yatağına ondan başqasını qoymamalıdır.

13. Davranışlarında daha diqqətli olmalıdır.

14.Qadın kişini özü üçün nemət hesab etməlidir.

15.Omun sirrlərini qorumalıdır .

Kişinin də xanımı üzərində haqqı çoxdur. Qadın əri ilə yaxşı yola getməlidir!

Hədisi-şərifdə buyuruldu ki:"Qadının cihadı əri ilə yaxşı yola getməkdir." [Təbərani]

Bir qadın ərini gözəl qarşılayar, gözəl sözlər söyləyərək məmnun salmağa çalışardı. Peyğəmbər əfəndimiz əleyhissəlam, qadının bu hərəkəti səbəbi ilə onun ərinə buyurdu ki:"Xanımına salam söylə, yarı şəhid savabına qovuşduğunu xəbər ver!" [ Şira] Qadınların Cənnətə düşmələri kişilərə görə daha asandır. Bir hədisişərif məalı:"Qadın beş vaxt namazı qılar, orucunu tutar, özünü yadlardan qoruyar və ərinə itaət edərsə, Cənnətə girər." [İbni Hibban]

Kişisini razı salan qadın üçün qorxu yoxdur. İki hədisi-şərif məalı belədir:

"Əri razı olduğu halda, ölən qadın, Cənnətə girər." [Tirmizi]

"Ərinə məhəbbət göstərən, uşaq dünyaya gətirən, hirsləndiyi an və ya əri ona əsəbiləşdiyi zaman ərini razı edənə qədər yatmayan qadın Cənnətlikdir." [Təbərani]

Qadina ziynət əşyası mübahdır (haladır). Ziynət almaq üçün ərini çətin vəziyyətə salmamalı, yadlara ziynətlərini göstərməməlidir! Belə olduqda ziynətləri Cənnətə girmələrinə mane olmaz. Bir hədisi- şərif məalı:

“Cənnətdə qadınların az olduğunu gördüm. Səbəbini soruşdum. “Onları qızıl və ziynət əşyası məşğul etdi.”dedilər”. [İ.Əhməd]

Əri ilə əlindən gəldiyi qədər gülərüzlü davranıb, sevgi göstərməli, dili ilə də onu incitməməlidir. Hədisi-şərifdə buyurulur ki:

“Qiyamətdə Allahu təalaərinə dili ilə əziyyət edən qadının dilini 70 arşın uzun edib, boynuna dolanar. Ərinə pis gözlə baxan qadını da başı kəsik və bədəni parçalanmış hala çevirər.” [Şira]

“Səndən nə gördüm” deyərək küfrani-nemətdə olmamalıdır. İki hədisi-şərif məalı belədir:

“Əgər ərlərinə qarşı küfrani-nemətdə olmasalar, namaz qılanlar dərhal Cənnətə girərdi.” [Şira]

“Cəhənnəm əhlinin əksəriyyətini qadınların təşkil etdiyini gördüm. Səbəbi də çox lənət edərlər və ərlərinə qarşı küfrani-nemətdə olarlar.” [Buhari]

Ərinə bir yaxşılıq etmişdirsə, başına qaxmamalıdır. Yemək və geyinmək kimi xüsuslarda ərini üzməməli, edə bilməyəcəyi şeyi ondan istəməməlidir! Ərinin şərəfini qorumalı, hər işdə onun rızasını qazanıb könlünü xoş etməyə çalışmalıdır! Hədisi-şərifdə buyurulur ki:

“Ərin xanımı üzərındəki haqqı, mənim sizin üzərinizdəki haqqım kimidir. O halda ərinin haqqına riayət etməyən,

Allahu təalanın haqqına riayət etməmiş olar.” [Şira] Qadın ərini incitməməlidir.

Bir gün Həzrəti-Fatimə ağlayaraq atasının yanına gəldi. Rəsulullah əfəndimiz buyurdu ki: -Ya Fatimə, nə üçün ağlayırsan?

İstəməyərək söylədiyim bir sözdən Əli mənə hirsləndi. Üzr istədim. Ancaq onu incitdiyim üçün ağlayıram.

-Qızım bilmirsənmi ki, Allahu təalanın rızası ərin rızasından asılıdır.

Nə xoşbəxtdir o qadın ki, həmişə ərinin rızasını qazanmağa çalışar, əri ondan razı olar. Qadınlar üçün ən üstün ibadət, ərinə itaət etməkdir. Kişi xanımından razı olduqda, o qadın istədiyi qapıdan Cənnətə girməyə haqq qazanar. Ərini incidən qadın onu razı edənə qədər Allahu təalanın lənətində olar. [ R.Nasihin]

Ər haqqına riayət etmək qadına cihad etmiş kimi savab qazandırır. Hədisişəriflərdə buyuruldu ki:

“Ər haqqına riayət, Allah yolunda cihad etmək kimidir.” [Tabərani] “Qadın ərindən icazəsiz olaraq nafilə oruc tuta bilməz. Əgər tutarsa ac və susuz qalmış olar, savab qazanmaz. Ərindən icazəsiz evindən çölə çıxa bilməz. Çıxarsa, göydəki mələklər geri, evinə qayıdana qədər ona lənət edər.” [Tabərani]

“Bir kişi ehtiyacı olduğu üçün xanımını çağırsa, qadın təndir başında olsa da, dərhal ehtiyacına cavab versın!” [Tirmizi]

“Əri çağırdığı halda yatağa gəlməyən qadına mələklər sabaha qədər lənət edər.” [Buxari]
“İcazəsiz evdən çıxan qadına əri razı olana qədər günəşin və ayın doğduğu hər şey lənət edər.” [Deyləmi]“Qadın ərindən icazəsiz [ana, ata, bacı, qardaşı xaric] heç kimi evinə qəbul edə bilməz, nafilə namaz qıla bilməz.” [ Tabərani]

“Qadınlarınıza bəzəkli geyinməyi qadağa edin! Bəni İsrail qadınları bəzəkli geyinib məscidə qürurlanaraq getdikləri üçün lənətlənmişdirlər.” [İbni Macə]

“Əri razı olana qədər qadının namazları və yaxşılıqlarının heç biri qəbul olmaz.”[Tabərani]“Qadının namazları qəbul olmaz” demək, namaz borcunu ödəmiş olar, lakin namaz qılmaqla meydana gələcək böyük savaba nail ola bilməz deməkdir. Namazı hədər gedər demək deyildir.Bir qadından əri razı olmazsa, qadın günahının cəzasını çəkdikdən sonra Cənnətə girər.Cənnətə sadəcə kafirlər girməz.

Müsəlmanın günahı çox olsa da axırda mütləq Cənnətə girər.

Ər, arvad yaxşı dolanıb, bir-birilərinin rızalarını almağa çalışmalıdır.

## Kişinin qadın üzərində haqları

1. Öz möminliyini qorumalıdır.
2. Zövcəsinin onun üçün bir nemət olduğunu düşünməlidir.
3. Onu döyməməlidir.
4. Onu söyüb təhqir etməməlidir. 5. Onu günahlarına görə bağışlamalıdır.
6. Əxlaqını onunla gözəlləşdirməlidir.
7. Onun cinsi istəyini tam şəkildə təmin etməlidir.
8. Ona zülm etməməlidir.
9. Gənc zövcə ilə cinsi əlaqəni 4 aydan çox tərk etmək qadağandır, 10. 4 aydan çox ondan uzaq olması onun rizası xaricində ola bilməz.

11. Qadına əgər ona ziyanı olmazsa, hamiləliyə qarşı həblər istifadə etməyə 12. icazə verilir. |
13.Ər öz qadınları arasında ədalətli olmalıdır.
14.Kişi öz xanımının sağlamlığına diqqət yetirməlidir.
15.Onu hər an qorumağa çalışmalıdır.
16.Ona ikram edib onunla maraqlanmalıdır,
17.Ona qarşı şəfqətli olmalıdır.
18.Ona qarşı mərhəmətli olmalı, ona dəyər verməlidir.
19.Din və axirət işlərində ona hər cür kömək göstərməkdən bezməməlidir.

## Ər- arvadlıq vəzifələri ilə tanışlıq zərurəti

Gənc zövcələr bilməlidirlər ki, ailə də ictimai bir təşkilat kimi nəzərdə tutulmuş məqsədlərə doğru hansısa bir üsulla hərəkət etməlidir. Gənc ailə bu üsulu bilməli və öz vəzifələrini yerinə yetirməlidir. Bə`zi gənclər öncə hazırlıq olmadan, vəzifə və hüquqlarını bilmədən ailə qururlar. Onların nəzərində ailə təşkili sadə bir məsələdir. Amma belə bir münasibət ailə həyatının ilk aylarında ortaya ciddi problemlər çıxarır.

Ailələrdə yanlış üsullar və adətlər hökm sürdüyündən gənc ailənin öz vəzifə və hüquqları ilə tanışlığı, eləcə də, bu sahədə ehtiyac duyulan biliklərə yiyələnməsi zəruridir. Adətən, hər bir ailədə xüsusi bir qayda-qanun hökm sürür və xüsusi bir ideala üz tutulur. Təbii ki, bu sayaq ailələrdə övladlar da həmin üsul əsasında tərbiyə olunur. Övladlar tərbiyə aldıqları ailənin adət-ən`ənələrinə üz tutur, həmin qayda-qanunlar əsasında rəftar etməyə çalışır. Bə`zi ailələrdə kişilərin, bə`zi ailələrdə isə qadınların idarəçiliyinə təsadüf olunur. Övlad da şəxsi ailə həyatında tərbiyə aldığı ailənin bu prinsipinə üstünlük verir. Məsələn, əgər ailədə ata-ana qarşılıqlı hörmət əvəzinə dartışmalarla dolu bir fəzada ömür sürürsə və ya birbirlərindən yersiz tələblər edirsə, övlad da öz şəxsi həyatında bu yanlış üsullara əl atasıdır.

İzdivac astanasında olan gənclər üçün həyat yoldaşının vəzifə və hüquqları, ailə həyatının qayda-qanunları ilə tanışlıqdan vacib iş yoxdur.
Cəmiyyətimizdə bu mövzunun nə dərəcədə əhəmiyyətli olduğu heç də hamıya aydın deyil. Hələ ki izdivacdan öncə zəruri biliklərə yiyələnmək ən`ənəsi öz yerini tapmamışdır. Zövcələr ailə təşkilindən öncə xüsusi dərnəklərdə faydalı kitabların mütaliəsi, mütəxəssislərin nəzərləri ilə tanışlıq vasitəsi ilə zəruri biliklər əldə etməlidir. İlkin biliklər əldə etməklə yeni yaranmış ailədə qarşıya çıxacaq bir çox problemlərin qarşısını almaq olar.

## Qadın və kişinin ailədəki vəzifələri

Ailə səadəti ailənin hər bir üzvündən eyni dərəcədə asılıdır. Hər bir ailə üzvü öhdəsinə düşən vəzifəni yerinə yetirsə, ailədəki tarazlıq pozulmaz. Ailədə qadının vəzifəsi ayrı, kişinin vəzifəsi ayrıdır. Uşaqlar isə müəyyən yaşa qədər ata-anaya tabedirlər.Ər-arvad qarşılıqlı olaraq bir-birinin haqlarına hörmət etməlidir. Quranda bu haqda belə buyurulmuşdur:***“(Kişilərin qadınlar) üzərində hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır.”*** ( Bəqərə, 2/228) Peyğəmbərimiz (s) bu haqları qısaca belə bəyan etmişdir:

“Sizin qadınlar üzərində haqqınız, onların da sizin üzərinizdə haqları vardır. Sizin qadınlar üzərindəki haqqınız, yatağınıza başqa birisini salmamaları və sizin xoşunuza gəlməyən insanların evinizə gəlməyinə icazə verməmələridir. Diqqət edin! Onların sizin üzərinizdəki haqları: onları məşru şəkildə hər cür geyim və qida ilə təmin etməkdir.”[1]

Deməli, dinimizə görə ailə qurmaqla ər-arvad öz vəzifələrini yerinə yetirmiş sayılmır. Bu ailənin davamı və xoşbəxtliyi üçün hər kəs üzərinə düşən vəzifəni bilməli və yerinə yetirməlidir.

Başqalarına yük olmağı əsla sevməyən Rəsulullah (s), eyni şəkildə ailə fərdlərinə də yük olmamış və öz üzərinə düşən işləri özü görmüşdür. Qızı Fatimə (r.a) ilə kürəkəni Əli (r.ə) arasında da ev işlərini bölmüşdü. Bu bölgüdə həzrət Fatiməyə xəmir yoğurmaq, çörək bişirmək, evin süpürülməsi, sərgilərə qulluq, su daşımaq kimi evin daxili işləri düşmüş, həzrət Əliyə isə çöl işləri düşmüşdü. (İbn Qayyim əl-Cövziyyə, Zadul-məad fi hədyi xayril-ibad, V, 186)

---

- Müslim, Həcc, 147; Əbu Davud, Mənasik, 56; Tirmizi, Rada, 111

**Kişinin vəzifəsi**

İslamda ailə üzvlərinin maddi ehtiyaclarını (yemək, geyim, ev, müalicə və s.) ödəmək, tərbiyə, təhsil vermək və qayğılarına qalmaq vəzifəsi kişilərə aiddir. Hədislərdə buna əlavə olaraq "qadının başına qaxınc etməmək, pis sözlərlə təhqir etməmək, danlamamaq, evini tərk etməmək" kimi kişilərə aid başqa tələblər də bildirilmişdir.

**Qadının vəzifəsi**

Qadın ərinə qarşı aşağıdakı vəzifələrlə mükəlləfdir: ərinə xəyanət etməmək, əri arzu etdiyi zaman onunla birgə olmaq, ərinin razı olmadığı bir adamı evə buraxmamaq, icazəsi olmadan evdən bir şey verməmək, məşru (qəbul olunan) əmrlərə itaət etmək.Xoşbəxt bir ailə mühitində həyat yoldaşlarının bir-birinin haqlarına riayət etməsi ilə bərabər digər ailə fərdlərinin də haqlarına riayət edilməsi və ailədə hər kəsin bir-birinə qarşı sevgi və hörmətlə münasibət göstərməsi böyük əhəmiyyət kəsb edir.

**Münasibətdə anlaşa bilməmək**

Necə düşünürsünüz, qarşılıqlı münasibət zamanı qadın və kişi tərəfdən tam

“açıq”lıq vacibdirmi?!… Münasibətlərdə “açıqlıq” deyəndə, gündəlik qayğı və problemlərin bölüşülməsi nəzərdə tutulur.

Gəlin baxaq: Münasibətlərin möhkəm və davamlı olması üçün tərəflər arasında inam və güvən olmalıdır. Bunlarsız xoşbəxt münasibətdən söhbət gedə bilməz… Əgər inam və güvən varsa, bu halda qadının kişi qarşısında tam “açıq” olmamasına heç bir səbəb yoxdur. Çünki, kişi bunu davranışı və rəftarı ilə qazanıb, həqq edib.

Bəs, kişi necə?! Həmişə qadına qarşı tam “açıq” olub, hər şeyi onunla bölüşməlidirmi?!

**Əlbəttə ki, yox! Niyə?…** Ona görə ki, kişi xaraktercə, “lider”dir, qoruyandır… Onun vəzifəsi – qadını hər hansı bir yüklənmədən, stressdən, həyacanlanmadan qorumaqdır, gün ərzində baş vermiş müxtəlif mənşəli hadisələr toplusu ilə yükləməməkdir. Çünki bütün bu qayğı yığıntısı qadının emosional labilliyini pozur və enerji itkisinə səbəb olur… İndi, söyləyin! Hansı qadın kişinin bütün günü deyinməsini, gün ərzində baş verən olaylardan şikayətlənməsini istəyir?! Və ya bunu edən kişi, nə qədər “hörmət sahibi” olur?!

Düzdür, qadınlar kişilərin susmasına da dözmürlər, bunu özlərinə qarşı laqeydlik, hörmətsizlik kimi qəbul edirlər. Onları “danışdırmaqla”, aradakı “anlaşılmazlıqları”

götürəcəklərini, isti münasibət yaradıb, onlara kömək edəcəklərini düşünürlər… necə ki, özləri qarşı tərəfdən bunu gözləyirlər…

**Çünki, qadın psixologiyası belə qurulub:** Əgər, hər hansı bir anlaşılmazlıq və ya özlərinin fikirləşib, "uydurduqları" problemdən qaynaqlanan bir narahatçılıq, bir gərginlik varsa, onun haqqında soruşulmasını istəyib, "ürəyindəkiləri" danışıb, bölüşməlidirlər… Və ancaq ondan sonra, sakitləşib, bir növ "təmizlənib", yenidən qurulurlar… Məhz, ona görə, qadın əsəbi olanda, nəyi isə özünə "problemə" çevirəndə, onun danışıb, "boşalmasına" şərait yardılmalıdır. Əks halda, o, bunu diqqətsizlik, biganəlik kimi qəbul edəcək.

Qadın üçün bu vəziyyətdə sakitliyə qapanmaq, onun psixoloji durumunu pozur.

Yəni, qadın gün ərzində olanları danışmayanda, tədricən özünə qapanır. Bu cür təbiətə malik olan qadın, öz düşüncə tərzinə uyğun olaraq, problemi olan kişinin də "vəziyyətini" yüngülləşdirmək məqsədilə, onu danışmağa vadar etmək istəyir. Kişilər isə bu cür anlarda sakitliyə, "öz yuvalarına" çəkilib, özlərinə qapanmağa üstünlik verirlər, sanki "keyləşib" qalırlar… Ona görə yox ki, depressiyaya düşürlər.

Ona görə ki, evdə, işdə, ətraf mühitdə yaşanan ciddi problemlərin həlli yollarını fikrində düşünüb, tapmaq və yoluna qoymaq üçün onlara zaman lazımdır. Bölüşməklə isə problemləri həll etmək olmur!… Və ona görə də, kişilər üçün belə vəziyyətdə ən optimal seçim, "özlərinə qapanıb", "yenidən bərpa olunmaqdır"… Bu zaman onlar ətraf

mühitdən təcrid olunub, “süküta” girirlər, beynin aktivliyi minimuma enir, kişi sadəcə olaraq, keyləşir və öz aləminə girir… Bu, reinkarnasiya adlanıb, kişinin “sıfırlanıb”, yenidən qurulması deməkdir. Yalnız bundan sonra, kişi yeni enerji ilə problemlərin həllinə başlayır.

Ona görə, əziz xanımlar, əgər tərəf müqabiliniz bu vəziyyətdədirsə, onun

sakitliyini təmin edin! Bu, belə situasiyalarda sizin etdiyiniz ən yaxşı kömək olacaq!

Kişi qadının dayağıdır! Qadın emosional cəhətdən kişidən nə qədər güclü olsa belə, yenə də başını qoymağa güclü kişi çiyni axtarır. Və bu güclü çiyin yalnız fiziki deyil, həm də emosional cəhətdən də qadını qorumalıdır. Çünki yalnız kişi qadının emosional vəziyyətini sakitləşdirmək iqtidarındadır. Və yalnız qadının emosional oyanıqlığını qəbul edən kişi onu sakitləşdirə bilər…

## Ər-arvad arasında ixtilafın mənşəyi

Qeyd etmək lazımdır ki, ər arvad arasındakı narazılıq və ixtilafların səbəbi adətən hər iki tərəfin təqsiri üzündən baş verir. Təkcə qadın və ya kişinin müqəssir sayılaraq qınanması düzgün deyildir. İxtilafların mənşəyi xudbinlik, öz sözünü yeritmək və geniş ürəyin olmamasıdır. Belə ki, əgər cəmiyyət geniş ürəyə malik olub xudbinliyi özündən kənar edərsə çəkişmələr və narahatlıqlara da son qoyular.

Belə olan təqdirdə çətinlik və narazılıq da yaranmaz.
Aydın məsələdir ki, iki nəfər, o cümlədən çox vaxt ər-arvad arasında tam müvəffəqiyyət hasil olmur. Çünki, bu müvafiqlik təkcə ruhları bir, eləcə də Allahın əmrinə qeydsiz-şərtsiz təslim olan peyğəmbər və ilahi övliyalar arasında mövcuddur. Elə buna görə də ailədə ər-arvadın bütün məsələlərdə bir-biri ilə tam razılığa gəlmələri mümkün deyildir. Bir məsələ barəsində nəzərlərin müxtəlif olması təbiidir. Bu da gözəl ailə münasibətlərini öz mənfi təsiri altına salmamalı, hətta ailə mühitini belə tənəzzülə uğratmamalıdır.

Ailədə nəzər və xasiyyətlərin müxtəlif olmasının çarəsi geniş ürəyə malik olub ixtilaf və çətinliklərlə qarşılaşarkən tündlük göstərməkdən, dad fəryad etməkdən çəkinməkdədir. Belə ki, ağıl və səbrlə ixtilaf və ya çətinliyin kökünü tapıb həll edilməsinin, aradan qaldırılmasının yolları barədə fikirləşməlidirlər.

## Xarakterimiz düz gəlmir

Bu gün ailə fərdləri arasında ən çox müzakirə olunan məsələlərdən biri də "Xarakterimiz düz gəlmir" söhbətidir. İnsan qərar verib evləndikdən sonra fədakarlıq edib bu evliliyi davam etdirməlidir. Bir tərəf od olanda, digər tərəf su olub onu söndürməlidir. Cütlər bir-birinin həssas nöqtələrinə toxunmamalıdırlar.

Allah rizasını işin mərkəzinə qoymalı, qarşlıqlı fədakarlıqlarla aralarındakı sevgi bağlarını möhkəmləndirməlidirlər. Birlikdə yaşlanmağı, əl-ələ tutub Cənnətə bərabər daxil olmağı arzulamalıdırlar.

Allah dostlarından biri keçmişdə öz ailəsində baş verən hadisəni belə nəql edir: babam olduqca sərt təbiətli insan idi. Güldüyünü heç görməmişdim, çox ciddi idi.
Evdən çıxıb məscidə gedəndə hər kəs "Şamil Ağa gəlir!" deyə özünü yığışdırar, zəhmindən ürpərərdi. Zahidanə həyatı vardı. Bəlkə, hər gecə 50-100 rükət namaz qılardı. Nənəm isə adı kimi munisə (yumşaq qəlbli) bir xanım idi. Qəlbi Allah qorxusu ilə dolu idi. Yanında bircə dəfə ürəkdən "Allah!" desən, göz yaşına boğulardı. Xaraktercə bir-birindən zidd olan bu iki insan bir-biri ilə elə bütünləşmişdilər ki, anam danışardı, nənəm həmişə: "Allahım! Nə olar, məni onsuz bir saat da saxlama, onsuz yaşaya bilmərəm" deyə dua edirdi. Vəfatına yaxın nənəm xəstələnmiş, on aydan çox xəstə yatmışdı. O vəziyyətdə belə namazını tərk etməmişdi. Anamın dediyinə görə vəfatına az qalmış dəstəmaz üçün anamdan su istəyib. Dəstəmaz aldıqdan sonra bir qəhqəhə ilə babama belə deyib: "Dünyadan kam almadıq. İkimizin də bu gecə vəfat edəcəyik". Həmin gün babamın heç bir narahatlığı yox idi. Aradan bir az vaxt keçir, nənəm vəfat edir. Anam nənəmin

gözlərini bağlayır, o əsnada o bir otaqdan "Baba öldü!" deyə bir fəryad qopur.

Babamla nənəm arasında belə bir bağlılıq vardı.

Bir gün bir məsələyə görə atam anama əsəbiləşmişdi. Həyatımda bəlkə, bircə dəfə atamın bu halına şahid olmuşam. Nənəm də orada idi. Atam qaşlarını çatıb anamın üstünə getdi. Lakin anam qayınanasının qəlbinə elə yol tapmışdı ki, dərhal nənəm araya girib atama belə dedi: "Kənara çəkil! Ona əl vursan, sənə südümü və əməyimi haram edərəm".Bizim milli-mənəvi dəyərlərimizə görə ər-arvad bir-birinə əmanətdir. Hər iki tərəf də bunun dərk etməlidir. Bu isə yaxşı tərbiyədən asılıdır. Bu gün bu tərbiyə nə ailədə, nə də məktəbdə verilir. Bu səbəblə bəzi cavanlar evliliyin mahiyyətini qavramadan ailə qururlar. Məhz buna görə də insanların ailə, evlilik mövzusunda oxuyub sertifikat alması şərtdir. Yəni gənclər evlənmədən öncə evliliyin nə olduğunu, tərəflərin məsuliyyətinin nə olacağı, qarşılaşılan problemlərin necə həll oluncağı haqqında seminar və kurs keçmədən ailə qurmamalıdır. Çünki bu haqda nə ailədə, nə cəmiyyətdə, nə kütləvi informasiya vasitələrində düzgün mariflәndirici məlumat var. Bütün problemlərin əsas səbəbi cəhalət, bilgisizlikdir.

## İqtisadi uyğunsuzluq

Günümüzdə ailədə yaranan mübahisələrin mühüm amillərindən biri iqtisadi məsələlər və ona aid problemlərdir. Baxmayaraq ki, maliyyə işlərində gözlənti və onların yerinə yetməsi, ər-arvadın məhəbbətlərinin soyumasının amillərindəndir. Əksər vaxtı qarşı tərəfin gücündən yuxarı gözləntilər və yersiz istəklər, müştərək yaşayışda sevgi-məhəbbətin aradan getməsində mühüm rolu olur.Yaşayışını müqayisə etmək, maliyyə gücünün və yersiz gözləntilərinin yerinə yetirməsi mümkün olmasa, yaşayışı soyudar. Bu barədə Allahın Rəsulu (s) buyurur: "Hər bir qadın ailənin maliyyə işlərində, ərini sıxsa və gücündən çox onu yükləsə, Allah təala onun nə tövbəsini qəbul edər və nə sədəqəsini qəbul edər, məgər tövbə eləsin və gücü çatan həddə ondan tələb eləsin."Başqa bir hədisdə buyurur: "Hər bir qadın əri ilə keçinməsə və onun gücündən yuxarı olan bir şeyi, ondan tələb eləsə, Allah heç bir xeyir işi ondan qəbul etməz və o halda Allahla görüşər ki, Allah ona qəzəblidir."

Allahı Rəsulu (s) bu qiymətli sözlərlə öz ummətini başa salır ki, gözləntiləriniz orta həddə olsun. Əgər bir kişi dəfələrlə həyat yoldaşı tərəfindən elə istəklərlə üzbəüz olsa ki, onları hazırlamaq ya onun imkanından xaricdi və ya

çətinliklə mümkündü; Zaman keçdikcə bu kişi yaşayışından soyuyar, ruhi cəhətdən yorular və bəlkə də bu soyuqluq davamlı olsa, evlənməyinə görə də peşiman olacaq.

## Həyat yoldaşlarının bir-birini qısqanmalarının dərəcəsi

Bir kişinin xanımını qısqanması həm fitri baxımdan normaldır, həm də dinin tələbidir. Çünki ailə üzvlərinin şərəf və namuslarının qorunması ailə başçısının ən əsas vəzifələrindən biridir və qısqanclıq burada mühüm rol oynayır.

Peyğəmbərimiz (sallallahu aleyhi və səlləm) bir hədisində belə buyurur: "İnsanın (ailəsini) qısqanması imandandır. Qısqanmaması isə nifaq əlamətidir".[1]

Bəzən qadın da həyat yoldaşını qısqana bilər ki, bu da normal davranışdır. Həzrət Əlinin (radiyallahu anh) rəvayət etdiyi bir hədisdə Allah Rəsulu (sallallahu aleyhi və səlləm): "Yol verilən həddə ərini qısqanan qadın Allah yolunda cihad etmiş kimidir. Ona bir şəhid mükafatı vardır",– buyurmuşdu.( Əli əl-Müttəqi, "Kənzülummal", 4/4415 )

Qısqanclıq əsassız qorxudan yaranmamalı, adi, əhəmiyyətsiz şeylərə, kiçik hallara baxıb qarşı tərəfin nədəsə ittiham edilməsinə səbəb olmamalı və ailə həyatını hər iki tərəf üçün yaşanmaz hala gətirməməlidir. Ortada heç bir

- Beyhaqi, "Şüabul-iman", 7/411 1

səbəb və dəlil olmadığı halda, ərlə arvadın bir-birinə şübhə ilə yanaşması, qısqanması onların bir-birinə olan güvənc və etibarlarına xələl gətirir, eyni zamanda ailədə sağlam ab-havanı zədələyir. Bu cür davranış tərzi Qurani-Kərimdə də qadağan olunmuş sui-zən anlamına gəlir. Heç bir dəlilə, sübuta əsaslanmadan kiminsə bir başqasını nədəsə günahlandırmağa haqqı yoxdur. Bəli, kişi arvadını qısqanmalıdır, ancaq bu qısqanclıq sağlam düşüncə, ağıl və məntiqdən kənara çıxaraq yersiz fikirlərə, əsassız narahatçılıqlara qapı açmamalıdır.

Digər tərəfdən qısqanclıq daxili duyğudur və müxtəlif davranışlar şəklində təzahür edə bilir. Lakin bu zaman tərəflər bir-biri ilə xoşrəftar etməli və aradakı səmimiyyət qorunmalıdır. Bu səbəbdən də arvadını qısqanan kişi hər şeydən öncə onun geyim-kecíminə fikir verməlidir. Digər tərəfdən də çalışmalıdır ki, həyat yoldaşı mümkün qədər yad kişilərlə bir arada olmasın. Qadın da ərinin bu məsələyə həssasiyyətini daim nəzərində saxlamalıdır. Buna görə danışığına, geyim-kecíminə, hərəkət və davranışlarına diqqət etməli, cəlbedici ətirlər vuraraq naməhrəm kişiləri təhrik etməməlidir. Qadın yalnız öz həyat yoldaşı üçün bəzənibdüzənməlidir.

Həzrət Əli (e/s) qadınlarını qısqanmayan bir bölgə camaatına bu şəkildə xəbərdarlıq etmişdi: “Eşitdiyimə görə, qadınlarınız bazar-dükana tək çıxır, yad kişilərin arasında

gəzirlər. Sizdə heç qısqanclıq hissi yoxdur bəyəm? Bir şeyi yadda saxlayın ki, qısqanmayan insanda xeyir yoxdur. Qısqanclıq iki cürdür. Birincisi gözəl qısqanclıqdır ki, insan bu yolla ailə üzvlərini islah edərək pis yollara düşmələrinin qarşısını alır. İkincisi isə pis qısqanclıqdır ki, insanı Cəhənnəmlik edir" (Əli əl-Müttəqi, "Kənzül-ummal", 3/780 (8735-8736); M.
Yusif Qandəhləvi, "Həyatüs-sahabə", 3/330.)

İslam fiqhinə görə, kişi ana-atanı ziyarət etmək, yaxud dini elmləri öyrənmək kimi bir qisim zəruri hallardan başqa həyat yoldaşının bayıra çıxmasına məhdudiyyət qoya bilər. Ancaq tərəflər bu məsələdə çox diqqətli olmalı, bir-birinə qarşı kobud, sərt davranmaqdan çəkinməlidirlər. Bütün bunlarla yanaşı, müasir dövrün şərtlərini də nəzərə almaq, onlara uyğun hərəkət etmək lazımdır. İnanırıq ki, islami hökmlərə riayət edən, ikitərəfli etimad və saf sevgi ilə yaşayan ailələr qısqanclıqdan əziyyət çəkməyəcək, çünki qısqanclığın özünə yer etdiyi ailələrdə qarşılıqlı etimadın sarsıldığını söyləmək mümkündür. Bu cür ailələrdə hər bir hərəkət söz-söhbətə səbəb olur və ailə həyatı tədricən yaşanmaz hala gəlir. Ona görə də qısqanclığın ağır bir problemə çevrilməməsinin əsas şərti Quran və Sünnənin əmrlərinə tabe olmaq və ərlə arvad arasında sevgi və qarşılıqlı etimada əsaslanan həyat tərzi formalaşdırmaqdır.

**Ədəbiyyat**

1.Şeyx Feysəl Mauləvi- İslamda qadın
2.Əli əbdül –Ali ət Tahtavi-Qadına cənnəti bəxş edəcək 33 səbəb
3.Məsumə Əbdul Mühsin Əbdul-Riza Əvativ İbrahim əl-Həcci- Məhəbbət sərçeşməsi
4.Paşa Yaqub –Xanım Övliyalar
5.Məhəmməd Məhəmmədi İştihardi –İslamda Qəhrəman Qadınlar
6.ƏbdulQafurun topladığı –Hicab kitabı
7.Dr-Tofiq Əsədov Dr-Əfzələddin Rəhimov-Qadınların Hikmətnaməsi
8.Şəhid Ayətullah Mürtəza Mütəhərri –İslam və qərb dunyasında
Qadın və Kişi münasibətlərində Əxlaq
9.Misbah Yəzdi –islamda insan Hüquqlarina qısa baxış
10.Dr Qulaməli Həddad Adil-Geyim mədəniyyəti yoxsa çılpaqlıq?
11.İmam Xomeyni Təfəkküründə-Qadının mövqeyi
12.Mürtəza Mütəhərri –İslamda qadın haqları
13.Ailə səafətinə necə nail olaq? – Hüseyn Məzahiri,Az dilində tərcümə
14. Kayzen.az

15.Mənəviyyat.az

16.Rövşən Abdulaoğlunun ailə haqqında sözləri

17.Əbdul Əzim Əl-Mütəhədi Əl-Bəhranı – Daha yaxşı gələcək

18.Teleqram/ailə_kanalı

19.İlahiyyatçı – Psixoloq Ramil Əmirovun ailə haqqında fikirləri

20. Cəlilova Sərvinazın psixoloji mühazirəsinin tərcüməsi

21.Cazibə.info

22. Kulis.az

# Xristianlıq təlimi və Qərb dünyagörüşündə dini-fəlsəfi fikirlərin formalaşması

Kəmalə Mahmudova[1]

**Abstrakt**

Dini- teoloji nöqteyi- nəzərdən aləmin yaradanı və idarə edəni bir olan Allah qəbul edilir. İlahi dinlərin təlimi monoteist prinsipə əsaslanaraq peyğəmbərlər vasitəsilə insanlara çatdırılır. Peyğəmbərlik islam əqidəsində üsuliddin məsələlərindən biridir ki, bütün ilahi dinlərdə qeydsiz- şərtsiz qəbul olunur. Bu zəmində yazılmış hazırkı məqalənin ana mövzusu xristianlıq dini təliminin mahiyyəti və onun keşməkeşli yoluna həsr olunub. Xristianlıq dini ilə bağlı bir sıra məsələlərə məqalənin həcminə uyğun şəkildə aydınlıq gətirilməyə çalışılıb. Bundan əlavə o dövrün xristian dini-fəlsəfi düşüncələri qısa da olsa açıqlanıb.

**Açar sözlər**

Xristianlıq, üç uqnum, İsa Məsih, monoteizm, İncil, Ruhul-qüds, kilsə, renessans, fəlsəfə

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## Giriş

Dini dünyagörüşün tarixi və insan zehniyyətində ilk dini təsəvvürlərin meydana gəlməsi ibtidai dövrlərə təsadüf edir. Dinə meylliliyin səbəbini araşdıran tədqiqatçı alimlər bir sıra nəzəriyyələr irəli sürmüşlər ki, bu nəzəriyyələrin əsas motivi ibtidai dövrün həyat tərzi ilə ölçülür. Belə ki, sivilizasiyanın yoxluğu və elmsizlikdən dolayı ibtidai insanların həyat və onu əhatə edən ətraf aləm haqqında təsəvvürləri zəif idi. Və belə yaşam tərzində qarşıya çıxan müxtəlif motivli hadisələri izah etməyə çalışa- çalışa dinə meyllik yaranmış, habelə mifoloji təsəvvürlər formalaşmışdır.

Quldarlıq dövrü ilkin fəlsəfi təfəkkürün meydana gəlməsi ilə xarakterizə olunur. İnsan cəmiyyətinin dəyişməsi ilə proseslərdə bir sıra suallar əmələ gəlirdi ki, buna da "antik fəlsəfə" deyilən fəlsəfi sistem cavab verirdi. Fəlsəfə tarixi kitablarında "fəlsəfə" sözü "filo"- hikmət, "sofiya"- sevirəm kimi izah olunur. O dövrün bir çox elmlərini özündə ehtiva edən fəlsəfə uzun bir yol keçərək bu günümüzə qədər gəlib çıxmışdır. Beləliklə, dini- fəlsəfi görüşlərin ifadəsi müxtəlif cizgilərdə təşəkkül taparaq zaman- zaman dəyişmiş, insan təfəkkürünün güzgüsü olmuşdur.

Orta əsrlər məfkurəsi özünəməxsus çalarları ııə seçilir. Bu, istər Qərb, istərsə də Şərq tairixində dini- fəlsəfi görüşlərin formalaşması ilə özünü büruzə verir. Qədim dinlərdən fərqli olaraq istər xristian, istərsə də islam dini səmavi dinlərdən olmaqla monoteist dinlər sırasına daxildir. Bir- birindən fərqli inkişaf dinamikası, düşüncələrə, ictimai- siyasi, elmi- fəlsəfi müstəvidə təsir baxımından xristianlıq dini islam dinindən

fərqli yol keçmişdir.Bu məqalədə xristianlıq dininin meydana gəlməsi, tarixi- ictimai şərait təhlil olunmuş, Avropada trayektoriyası izlənilmiş, dini- fəlsəfi görüşlərin formalaşma prosesi səciyyələndirilmişdir.

**Orta əsrlərdə xristianlıq təliminin mahiyyəti Risalət**

İslami rəvayətlərə əsasən yer üzünə yüz iyirmi dörd min peyğəmbər göndərilmiş və onlardan Adəm (ə.) ilk, Həzrət Muhəmmdəd (s.) isə sonuncu peyğəmbər hesab olunur. İslami əqidəyə görə beş ulul- əzm peyğəmbər var ki, bu da onların yeni şəriət və kitab gətirmələri ilə izah olunur. Bu peyğəmbərlər Nuh, İbrahim, Musa, İsa və Muhəmməd (s.) – dır. Eyni zamanda bu peyğəmbərlər digərlərindən daha güclü əzmə malik olmaları ilə seçilir.

“ Və onda ki, peyğəmbərlərdən əhd və peyman alldıq, səndən və Nuhdan və İbrahim, Musa və İsəibni Məryəm və onların hamısından möhkəm əhd peyman aldıq.”[1]

Bütün peyğəmbərlər insanları təkallahlığa, şirk və bütpərəstlikdən uzaq olmağa çağışmışlar.

“ Biz hər ümmətə rəsul məbus etdik ki, Allaha sitayiş etsinlər və bütdən uzaqlaşsınlar. Allah bir parasını hidayət etdi və bir parasını azğın etdi.Bəs yer üzündə gəzib dolanın və baxın ki, rəsullara yalan yaxanların sonu hara çatıbdır.”[2]

Peyğəmbərlər eyni zamanda cəmiyyətdə haqq- ədalətin bərpası və mövcud olması üçün fitnəkarlara qarşı mübarizə aparırdılar.

---

Bax Qurani Kərim, Əhzab surəsi,7 ١
Eyni mənbə, Nəhl surəsi, 36٢

Peyğəmbərlərin təlimində haqq və ədalət geniş məna daşıyır və onların bütün ictimai fəaliyyətlərini əhatə edirdi. Onların baxışı ilə haqq, ədalət o zaman bərpa oluna bilər ki, mənəvi-əxlaqi, ictimai- siyasi, sosial- iqtisadi və hətta cinsi fəsadlar belə aradan qalxsın və ilahi dəyərlər bütün dünyada hakim olsun.[1]

Bütün ilahi dinlərin prinsiplərindən biri də bəşər cəmiyyətinin tərbiyə olunaraq əxlaqi dəyərlərə sahib çıxması olmuşdur. İslam peyğəmbərinin “mən sizin əxlaqınızı kamilləşdirmək üçün bir peyğəmbər olaraq göndərilmişəm” kəlamı da elə bu prinsipdən irəli gəlir. İlahi dəyərləri tanımağın yolu yüksək əxlaqi keyfiyyətlərə malik olmaqdan keçdiyindən peyğəmbərlərin vacib missiyalarından biri də təzkiyə və təqvadır. Peyğəmbərlər sanki bir həkim idilər ki, mənəvi xəstəliyə düçar olmuş cəmiyyəti bu mərəzdən xilas etmək üçün gəlmişlər. Bütün müqəddəs kitablarda, o cümlədən Quranda peyğəmbərə itaət etmək və onun sözündən çıxmamaq əmr olunmuşdur.

## Həzrət Məryəm və İsa (ə.) Quranda

Orta əsr Avropasında xristianlıq təliminin formalaşması birbaşa İsa Məsihin gətirdiyi təlimlərə bağlıdır. İsa Məsih ulul-əzm və şəriət sahibi olan peyğənbərlərdən hesab olunur. Qurani Kərim Hz. İsa peyğəmbərə tərif verərək Məryəm surəsində onun bakirə və pak Məryəmdən dünyaya gəlməsini

---

[١] Əzəm Pərçəm. “ Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması”, səh 36

təfsilatı ilə nəql edir. Məryəm surəsində buyurulur ki, Məryəm öz qohum- əqrəbasından ayrılıb şəhərdən çıxaraq şərq istiqamətində bir nöqtəyə getdiyi zaman Ruhul- Qüds bəşər sifətində onun yanında zahir oldu. Pak bir qadın olan Məryəm əvvəlcə ondan qorxub Allaha pənah apardı. Ruhul- Qüds dedi ki, mən Allahın əmri ilə gəlmişəm ki, sənə pak bir övlad əta edəm. Məryəm soruşdu ki, heç bir kişi ilə yaxınlıq etmədiyim və özüm də iffətli bir qadın olduğum halda, oğlan uşağına sahib olmağım necə mümkündür? Cavab verildi ki, bu iş hökmən olacaq və Allah üçün bu iş çox asandır. Biz istəyirik ki, onu camaat üçün ilahi bir nişanə və öz tərəfimizdən rəhmət qərar verək. Nəhayət, Hz. Məryəm İsaya hamilə oldu. Təvəllüdü yaxınlaşdığı zaman ailəsindən uzaqlaşıb bir ağacın altına getdi və övladını dünyaya gətirdi. İsa doğulduğu anlarda dil açaraq doğuşun ağrısından qıvlan anasına toxtaqlıq verib deyir ki, Allahın sənin ayaqların altında bir çeşmə qaynatmışdır.Quru xurma ağacını tərpət ki, sənin üçün təzə xurma tökülsün. Xurmadan ye, bulağın suyundan iç və öz gözünü (övladına görə) aydın et.[1]

## Həzrət İsa (ə.) İncildə

İsa peyğəmbərin dünyaya gəlməsi hadisəsi İncildə Qurani Kərimdən fərqli təmsil olunur: " İsa Məsihin təvəllüdü belə oldu Yusifin əqdinə gətirilən Məryəm ər evinə getməzdən qabaq Ruhul- Qüdsün vasitəsilə hamilə oldu. Yaxşı əməl

---

[1] Qurani Kərim,Məryəm surəsi

sahibi olan və Məryəmin camaat qarşısında rüsvay olmasını istəməyən Yusif gizli şəkildə qərara aldı ki, ondan ayrılsın. Yusif hələ bu fikirdə olduğu zaman Allahın mələyi yuxuda ona zahir olub dedi: Ey Davudun oğlu Yusif! Məryəmi öz evinə aparmaqdan qorxma, çünki onun bətnində olan Ruhul-qüdsdəndir.O, bir oğlan dünyaya gətirəcək və sən onu İsa adlandıracaqsan, çünki o, öz qövmünü günahlardan xilas edəcəkdir.” [1]

## İsa Məsihin mahiyyəti

Heç bir təhrif və dəyişikliklərə məruz qalmayan, asimani kitab olan Qurani Kərimdə öyrəndik ki, İsa Allahın qulu, bəndəsi, yer üzünə göndərdiyi peyğəmbərlərdən biridir. İsa Məsihin təvəllüdü məsələsini Quran onun bakirə Məryəmdən Allahın izni ilə Cəbrayılın vasitəsilə üfürülməklə bətninə düşməsi kimi izah edir. İsa Məsihin yer üzünə göndərilməsində məqsəd onun özündən əvvəlki peyğəmbərlər kimi insanların Allahın birliyinə iman gətirib saleh yola dəvət etmək olmuşdur. İsa Məsihin özü də dəfələrlə özünün bir bəndə olduğunu və Allahın peyğəmbəri olduğunu bəyan etmişdir. Yaşadığı dövrdə hər kəs onu belə qəbul etmişdir. Doktor Əzəm Pərçəm Ceymez Hakezdən sitat gətirərək yazır:” Məsih insan və Allahın göndərdiyi bəndədir. Çünki o, özünü ( İncildə) səksən dəfə “insanın oğlu insan” adlandırmışdır. Bundan əlavə öz şagirdlərinə və başqa ardıcıllarına özünü onların qardaşı deyə

---

Matta İncili, səh 12[1]

müraciət edib."[1] Lakin İsa Məsihin çarmıx əhvalatından və gözlərdən qeyb olmasından sonra (islami nöqteyi- nəzərdən) onun zatı ilahiləşdirilmiş, üç uqnum məsələsi ortaya qoyulmuşdur.Doktor Haşimi Rəfsəncani yazır:" Əsrlər boyu böyük kilsə alimlərinin, xristianlığın dünya mıqyasında yığıncaqlarının diqqətini özünə cəlb edib, müxtəlif firqələrin yaranmasına səbəb olub, xristianlığın ən mühüm və böyük fəlsəfi və dini məsələsini təşkil edən problem "İsa " zatının həqiqəti barəsindəki mübahisələr olmuşdur."[2] Dr. Rəfsəncani Vil Derantın "Dinlərin yığcam tarixi" kitabından sitat gətirərək Məsih barəsində meydana gələn əqidələri aşağıdakı kimi qeyd edir:

1.Məsih yalnız insandır.

2." Ata", " Oğul", " Ruhul-qüds" Tanrı özünü təcəssüm etdirdiyi surətlərdir. Deməli, Tanrı üç uqnumun komponentidir: " Ata", " Oğul", " Ruhul-quds".

Ata Tanrı " Ruhul- qüds şəklində aşağı enib, Məryəmin cismində insan surətinə düşmüş " İsa " surətində doğulmuşdur.

3. " Oğul" " Ata" kimi əzəli deyil, bütün dünyadan qabaq yaranmışdır, beləliklə də onun rütbəsi atadan aşağıdır və onun qarşısında təvazö edəndir.

4. " Ruhul-qüds" uqnum deyidir.

---

١ Əzəm Pərçəm, " Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması", səh171

٢ Haşımi Rəfsəncani, Məhəmməd Cavad Bahünər, " Dünya besət dövründə", səh 126

5. Miladi 325- ci ildə Niqyə qurultayı və miladi 381- ci ildə Konsinopol qurultayı bu nəzəri verdi ki, oğul və " Ruhul-qüds" Ata ilə lahuti vəhdətində bərabərdir. " Oğul" əzəldən Atadan olub və " Ruhul-qüds" Atadan bir işıqdır və ondan qaynaqlanmışdır.[1]

**Xristianlıqda İsanın mahiyyəti**

Tovhid, yəni təkallahlıq ideyası bütün səmavi dinlərin yürütdüyü əsas prinsipdir. Tək vahid olan Allaha inam, Onun bütün aləmlərin yaradıcısı və xaliqi, ən gözəl sifətlərə malik olması, başqa sözlə, bütün eyiblərdən pak və münəzzəh olması monoteist dinlərin əsas müddəalarıdır. İsa Məsihin gətirdiyi xristianlıq təlimi də monoteist dinlərdən hesab olunmaqla Quran nöqteyi- nəzərindən onun öz dövründə bu istiqamətdə təşəkkül tapmışdır. Lakin ondan sonra nəinki İsa Məsih haqqında düşüncələr dəyişmiş, eyni zamanda, eyni zamanda xristianlıq təliminin özündə də təhriflər yaranmışdır. Doktor Seyid Mahmudi yazır: " Məsihilər özlərini vahid Allahın ardıcılları hesab edərək inanırdılar ki, əql yolu ilə Allahı tanımaq olar. Halbuki iki qeyri- məhdud, yaxud daha çox qüdrətə malik olan varlığın eyni zamanda təsəvvür olunması əql və məntiqin ziddinədir.Allahın vahid olması dedikdə, məqsəd budur ki, yalnız bir Allah vardır və ilahi zat bölüşdürülə bilməz. Digər üç şəxsiyyətdən təşkil olunmuşdur. Bu üç varlıq əzəlilik, qüdrət və cəlalda bir- birilə bərabərdir və onlardaan hər biri ilahi sifətlərin hamısına malikdir. Amma eyni halda hər birinin müəyyən xüsusiyyətləri vardır ki, onları

---

[1] Həmin mənbə, səh 128

təslis vəhdətinin daxili bir- birindən fərqləndirir.” [1] Allah haqqında yeni düşüncələrin meydana gəlməsi məsihi əqidəsində əsrlərlə formalaşma prosesi keçərək “üç uqnum” ( şəxsiyyət) əqidəsi yaranmışdır. Dr. Can Van Vurd yazır: “ Bizim etiqadımız budur ki, vahid Allahda vəhdətlə eyni zamanda təslis də mövcuddur. Üçlük uqnum bir- birindən seçilir, amma ilahi zat bölünməzdir: bu uqnum bir- birilə əbədiyyət və oxşarlıqda bərabərdirlər. Belə ki, təslisdə vahidliyi və kamil təslisi vahidlikdə ibadət edirik. Bu halla yanaşı, qeyd olunan həqiqətlər belə təfsir olunmamalıdır ki, üçlük uqnumları arasında ilkin olmaq haqqı mövcud deyildir, əksinə, bilmək lazımdır ki, ata birinci yer, oğul ikinci yer, Ruhul-qüds üçüncü yerdə qərarlaşır. Bu ilkin olmaq haqqı tərtiblədir. Ruhul- qüds və oğul bərabərdir, bununla eyni zamanda ataya mütidirlər.Bu itaət icbari deyil, iradə və ixtiyar üzündəndir.[2] Məsihilər Rəbbani gecə mərasimində oxuyurlar:” Bizim vahid Allaha, mütləq qadir ataya, görünən və görünməyən bütün ilahi şeylərin xaliqinə, İsanın vadid Allahına imanımız vardır. O, Allahın oğludur ki, atadan dünyaya gəlmişdir; atanın zatından dünyaya gələn övladdır, onun vasitəsilə bütün şeylərə varlıq verilmişdir.”[3]

---

Seyid Əhməd Mahmudi, “ Dinlərlə tanışlıq”,səh 257١

Eyni mənbə mənbə, səh 258٢

Eyni mənbə, səh 259٣

**Məsihin insan surəti**

Məsihin şəxsiyyətini xristianların müqəddəs hesab etdiyi kitab olan İncil özünəməxsus şəkildə izah edir. Məsih Ata Allahın oğludur, Oğul Allahdır. Onun xüsusi qabiliyyətləri var və insanların Adəmdən miras qalmış bu günkü günahlarını yumaq və nicat vermək üçün gəlmişdir. Rəbbani gecə duasında deyilir: “ Yerdə və göydə olanların hamısı biz insanların xatirinə, biz insanlara nicat vermək üçün yer üzünə enərək cism halına düşdü; insan şəklinə düşdü, əzab- əziyyət çəkdi.” Miladi 451- ci ildə məsihi alimlərindən təşkil olunmuş “ Çali si dun” şurası aşağıdakı etiqadnaməni qəbul etmişdir: “ Müqəddəs ataya tabe olaraq, biz bütün insanlarla bu təlimdə müttəhid olmuşuq ki, bir vücuda – yalnız oğula – bizim Allahımız olan İsa Məsihə iqrar edək. Bu vahid vücud həm ilahi olmaq baxımından, həm də insani yöndən kamil bir varlıqdır. Bu vahid vücud həqiqətdə həm Allahdır, həm də bəşər. Bu yöndən mücərrəd ruh, digər bir yöndən isə cismdən ibarət olan insandır. Buna əsasən o, ilahi yönə malik olan vaxta qədər həmin ata- Allah zatı olan həqiqətə malik olur; insani yöndən də bizim kimi insanlara oxşar bir quqruluşa malikdir. Hər bir cəhətdən bizə oxşardır, yalnız məsum olmamaq və günah ehtimalında oxşarlığımız yoxdur. O, zamanın meydana gəlməsindən qabaq özünün ilahi yönü cəhətindən ata vasitəsilə icad olunmuşdur. İndi də insanlara görə və bizim nicat tapıb qurtuluşa çıxmağımız üçün bakirə və müqəddəs Məryəmdən dünyaya gəlmişdir ki, bu baxımdan özünün insani yönündən ilahi xüsusiyyət daşıyır.”[1]

---

[1] Eyni mənbə, səh 261

**Qayıdış**

Dr. Mahmudi yazır: " Məsihilərin inancına görə, həzrət Adəmin mürtəkib olduğu xəta və bunun nəticəsində behiştdən qovulması, əvvəla, Adəm övladının Allahdan uzaqlaşmasına səbəb oldu, ikincisi də günüh və xətalar irsi yolla sonrakı nəsillərə ötürüldü və nəticədə bəşər nəslində günahın bünövrəsi qoyuldu; insanlar günah işlər görməyə başladılar."[1] İncildə yazılır: " Amma Allah bizə olan məhəbbətini tam mənada sübut etmişdir, çünki biz hələ günahkar olduğumuz vaxtda Məsih bizim xatirimizə öldü. Onun qanının tökülməsinə görə biz tam mənada yaxşı adamlar sayılacağıq və buna görə də onun vasitəsilə Allahın qəzəbindən uzaq olacağıq. Biz Allahla düşmən olduğumuz vaxt O, Öz oğlunun ölümü ilə bizim düşmənçiliyimizi dostluğa çevirdi."[2] Yahya öz İnclində İsanın ölümü barəsində olan ixtiyarının öz əlində olduğunu qeyd edir: " Mən canımı qurban verirəm ki, sonra onu geri alim. Canımı məndən heç kəs ala bilməz, amma onu öz ixtiyarımla verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam."[3]

---

Eyni Mənbə, səh 262١

Eyni mənbə, ( İncil səh 263,Rumlular 5- ci fəsil, ayə 8-10)٢

Əzəm Pərçəm,səh 186 ( yəhya 10 )٣

**Pavel( Puls)**

İsa Məsihin gətirdiyi yeni ehkamın Avropada yayılmasının əsas səbəbkarı Paul hesab olunur. Məhz Paulun cəfnəşanlığı və səyi nəticəsində xristianlıq yeni dini- nəzəri fikir olaraq Avropaya ayaq açdı. Xristian tarix yazarları Paulu ( Pavlus) kobud, inadkar, təəssübkeş bir adam kimi tanıdırlar. Lakin nəql olunan bir rəvayətə görə o, etiqad etdiyi dinindən dönmüş və xristianlığı qəbul etmişdir. Və bundan sonra bütün həyatını bu dinə bağlayaraq ömrünün sonuna qədər onun təbliği və yayılması üçün çaba göstərərək bir əzab- əziyyətlərə qatlanmışdır.Bu barədə o, korinflilərə ikinci məktubunda bəhs edir. (Bu mətn İncilin "Paulun korinflilərə ikinci məktubu", 11:22-33 hissəsində təsadüf edir.)

Tədqiqatçı Hüseyn Tofiqi yazır: " Paulun nəzərinə görə, Allah-taala İsanı(ə.) ölülər arasından dirçəltmiş və bununla da, nicat tapmaq üçün yeni bir dövrün səhifəsini açmışdır. Buna görə də xristianların bundan sonra yəhudilik şəriətinə itaət etmək kimi bir vəzifəsi yoxdur.

Bundan sonra elçilərin təbliği və müjdəsi sayəsində Roma İmperiyasının bütün bölgələrində yaşayan bütpərəstlərin xristian dinini qəbul etmə prosesi gücləndi və xristian kilsəsində xristian dinini qəbul etmiş qeyri- yəhidi insanların sayı çoxluq təşkil etdi. Bundan əlavə, Roma İmperiyasının Suriyadan Misirə qədər şəhərlərində, daha sonra isə Anadolu, Yunanıstan və sonda İtaliyada inanclı insanlardan ibarət olan kiçik toplumlar meydana gəldi."[1]

---

Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh18 ١

Tədqiqatçı alim Aydın Əlizadə yazır: "Onlar qədim zamanlardan ölən və dirilən, oğullu- qızlı tanrılara inanırdılar. Pavlus anlayırdıki,yəhudi xalqının dini və yəhudi peyğəmbəri olan İsanın təlimi Romanın başqa xalqları arasında özünün ilkin formasında yayıla bilməz. Məsələ bundadır ki, o xalqlar qədim mədəniyyətə malik idilər və yəhudi ənənəsi və düşüncə tərzi onlar tərəfindən qəbul edilə bilməzdi. Ona görə də Pavlus, bu təlimdə olmayan bir çox yeni ideyalarla çıxış etməyə başladı.Faktiki olaraq, o İsanın təlimini Yunan və Roma düşüncə tərzinə və tarixi ənənəsinə uyğunlaşdırdı.Məhz bu adam ilk dəfə olaraq İsanın ilahiləşdirilmiş obrazınıı yaratmağa başlamışdı. Beləliklə də Pavlusun təbliğatında İsa ölümündən sonra yenidən dirilən , günahları silən bir Tanrının oğlu kimi təqdim edildi. Pavlusun fəaliyyətində diqqəti çəkən başqa bir maraqlı məqam isə, onun yəhudi qanununa əməl edilməsini vacib hesab etməməsi idi. Bu səbəblərə görə də heç də İsanı deyil, elə Pavlusu xristianlığın yaradıcısı hesab etmək olar. Məhz bu cür yenilikləri dinə gətirilməsinə görə Pavlusla yəhudi isavilər arasında (İsanın ilk ardıcılları) arasında ixtilaflar baş vermişdi. Amma, başqa tərəfdən , bütpərəst romalılar ilahiləşdirilmiş və ölümündən sonra dirilmiş İsa ideyasını daha yaxşı mənimsədilər. Çünki, romalılar arasında buna oxşar inanclar geniş yayılmışdı."[1]

Göründüyü kimi Paulun xristianlığın Avropada yayılmasında qazandığı uğuru onun qeyri- yəhudilərin yəhudi millətinə olan

---

Aydın Əlizadə, " Xristianlıq. Tarix və fəlsəfə ( ilk çağlar), səh 11[1]

həssaslığını nəzərə alması olmuşdur. Məhz, bu durumu sezib qiymətləndirməyi bacaran və uyğun yol çözməyi bacaran Paul öz hədəfinə çatdı. Şüurlarda özünə köhnədən yer tutmuş dini-etnik düşüncələr və bundan sonrakı paraqrafda qeyd edəcəyimiz o dövr Avropasındakı ictimai- siyasi proseslər də xristianlığın Avropada sürətlə yayılıb təşəkkül tapmasına rəvac vermiş oldu.

**İncil**

Xristianlıq dininin təlim və əsasnaməsi Bibliyanın Əhdi- cədid bölməsində toplanmışdır.

Əhdi- cədid 27 kitab və risalədən ibarətdir.

1. Mata İncili
2. Markos İncili
3. Luka İncili
4. Yuhənna İncili
5. Rəsulların əməlləri
6. Pulsun romalılara məktubu
7. Pulsun Qorintiyana olan ilk məktubu
8. Pulsun Qorintiyana olan ikinci məktubu
9. Pulsun Ğəlatilərə məktubu
10. Pulsun Əfisusyana olan məktubu
11. Pulsun Filiplərə məktubu
12. Pulsun Kulsiyana məktubu
13. Pulsun Tesalunukilərə məktubu
14. Pulsun Tesalunukilərə ikinci məktubu

15. Pulsun Timutalbusa birinci məktubu
16. Pulsun Timutalbusa ikinci məktubu
17. Pulsun Teytəsə məktubu
18. Pulsun Felimuna məktubu
19. Pulsun İbranilərə məktubu
20. Yəqubun məktubu
21. Petrosun birinci məktubu
22. Petrosun ikinci məktubu
23. Yuhənnanın birinci məktubu
24. Yuhənnanın ikinci məktubu
25. Yuhənnanın üçüncü məktubu
26. Yəhudanın məktubu
27. Yuhənnanın kəramətləri

İncilin mətni ilə tanış olduqda məlum olur ki, İsa Məsihdən sonra toplanmış bu kitab İsa Məsihin gətirdiyi əsil səmavi kitabdan fərqlənərək sonrakı ardıcıllarının yanlış düşüncəsinə uyğun yazılmışdır.

**Xristianlığın Romada yayılması və dövlət dininə çevrilməsi**

Xristialıq təqribən 20 əsr davam edən uzun bir yol keçərək tarix səhifələrində özünəməxsus yer tutur. Yarandığı gündən

keşməkeşli yol keçərək müxtəlif hadisələrin şahidi olmuş xristianlıq təlimi bu gün demək olar dünya coğrafiyasında geniş əhatə dairəsinə malikdir.

Xristianlıq zaman-zaman müxtəlif tədqiqatçılar tərəfindən təhqiq olunmuş, keçdiyi yol araşdırılmış, ictimai-siyasi proseslərdə iştirakı izlənilmişdir. Tədqiqatçıların bir çoxu xristianlığı 4 dövrə bölür:

1.Həvarilər tərəfindən yayılan və Qərb Roma imperatorluğunun yıxılmasına qədər davam edən dövr. Xristianlıq bu dövrdə geniş yayılma sahəsi tapmışdır.

2. V əsr- XVI əsrin əvvəllərinə qədər davam edən dövr. Şərq kilsəsinin Qərb kilsəsindən ayrıldığı dövrdə xristıanlıq Avropanın şimal bölgəsində yayılmışdır.

3. XVI və XVII əsrləri əhatə edən dövr xristianlıq üçün çox əhəmiyyətli olan dövrdə Protestantlıq ortaya çıxmış, katolik məzhəbi ilə qarşıdurma nəticəsində Qərb kilsəsi bölünmüşdür. Cünki Roma Katolik kilsəsinin göstərdiyi xilas yəni, qurtuluş fikri o dövr xristianlarını razı salmırdı.

4. XVIII əsrdən etibarən başlayan və xristianlığın qarışıqlıqlar içində keçdiyi bir dövr olaraq bilinən bu dövrədə xristianlıq üzərindəki münaqişələr kilsə xaricinə daşınmışdır.

Xristianlığın Avropada təşəkkül tapıb yayılmasında dini- etnik, ictimai-siyasi proseslər durmasına artıq toxunmuşduq. Aşağıda bir sıra tədqiqatçı alimlərin fikirlərini qeyd edib mövzumuza aydınlıq gətirməyə çalışacam.

S.Əliyeva: “ Xristianlıq Roma imperiyasının şərq əyalətlərində yayılmış messiya- xilasolma ideyalarının yaradılması ilə təşəkkül tapmağa başlayır. Xristianlıq sisteminin mərkəzində

İsa peyğəmbərin simasında allahın insan şəklində təzahür etməsi əqidəsi başlıca yer tutur. Beləliklə, xristianlıq bərabərhüquqlu din kimi tanınaraq bir qədər sonra dövlət dininə çevrilir.

313 – cü ildə imperator Konstantin Mediolanda (indiki Milan şəhəri) xristianlara azadlıq verən edikt imzaladı, 325- ci ildə isə Nikeydə ilk ümumdünya kilsə məclisinin əsasını qoydu."[1]

S. Şahhüseynova: "Orta əsrlər mədəniyyətində mühüm hadisələrdən biri, bəlkə də ən başlıcası xristianlığın yayılması idi. I-II əsrlərdə İsa peyğəmbər haqqındakı rəvayətlər "İncil" adı ilə (yunanca "yaxşı xəbərlər" ) yazılmağa başladı. Xristianlıq IV əsrin ortalarınadək Romanın hakim dairələri tərəfindən təqiblərə məruz qalmışdı.Bu zaman məbədlər dağıdılır, din xadimləri və hətta sadə dindarlar həbs edilirdi. Təqiblərin ilk dövründə Romanın hakim dairələri yəhudilərlə xristianlar arasında fərqi nəzərə almırdılar. Çox keçmədi ki, romalılar xristianları yəhudilərdən ayırmağı öyrəndilər və xristianlıq nəinki milli dinlərə aid edilmədi, hətta təhlükəli təriqət hesab edilməyə başladı. Roma allahlarına sitayişdən imtina etdiklərinə görə xristianlara qarşı repressiyalar başladı.Roma imperiyasında xristianlığın təqibi tarixi IV əsrin əvvəllərinədək davam etdi. 313 –cü ilin yayında imperator Konstantin və Lisini İtaliyanın Mediolanum ( indiki Milan) şəhərində görüşərək xristianlığın digər dinlərlə bərabər hüquqa malik olması haqda müştərək fərman imzaladılar. Bu tarixi

---

Kulturologiya, səh 214[1]

fərman bütün müsadirə edilmiş əmlakın kilsəyə qaytarılmasını və ya əvəzini verilməsini nəzərdə tuturdu. Artıq zülm və təqiblər arxada qaldı. Milan fərmanı xristianlıq tarixinə yeni dövr açdı."[1]

Hüseyn Tofiqi:" Xristian dini təxminən 300 ilə yaxın əzab-əziyyətlərə qatlaşıb bu yolda şəhidlər vermişdir. Bu dinin təməli məhz həmin 300 il ərzində qoyuldu və müxtəlif millətlərin xristian dininə dəvət edilməsi bir sıra müvəffəqiyyətlərlə nəticələndi. Roma İmperiyası ərazilərində xristianların sayca çoxalması nəticəsində miladi təqvimi ilə 4-cü əsrin birinci yarısında xristian dini orada rəsmi din olaraq qəbul edildi. Həmçinin təbliğ nəticəsində bu din həmin dövrdə dünyanın bir çox ölkələrinə doğru genişləndirilmişdir.Əlbəttə, bu arada hərbi yürüşlər və ölkələrin fəth edilməsi də təsirli olmuşdur."[2]

Marksizm təhsilindən faydalanmış ateist tarixçi alim B.Y. Ralen isə daha fərqli bir fikir izhar edirək yazır: " Xristianlıq formalaşmış bir dini məfkurə kimi feodolizm cəmiyyətinin beşiyi başında durmuşdu. Roma imperiyası varlığının son yüzilliklərində bu din, artıq, məzlumların dinindən hakim quldarlar sinfinin əlində zəhmətkeş kütləri əsarət altına salmaq vasitəsinə çevrildi.

Xristian təbliğatı zəhmətkeşlərə mistiklik etiqadı aşılayırdı. Həmin etiqada görə bu dünyada həyata keçməsi baş tutmayan ədalət və xeyirxahlıq, yeni dinin bütün tərəfdarları üçün, axirət səltənətində zəfər çalacaqdır. Bütün insanların allah qarşısında

---

Eyni mənbə, səh 222 ١

Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 169 ٢

bərabər olması barədə uydurma ideya ilə xristianlıq real varlıqda nəzərə çarpan ictimai ziddiyyətlər uçurumunu ört-basdır etməyə cəhd göstərirdi. Xristianlıq "cəfakeşlərə və məşəqqətdə olanlara" dini təsəlli verməklə istismar olunanların ictimai etirazını söndürməyə çalışır, onlara çəkdikləri əzab müqabilində "axirət dünyası"nda mükafat vəd edirdi. Özünün bu ictimai və ideoloji roluna görə xristianlıq quldarlıq quruluşu dağıldıqdan sonra da yaşadı və feodolizm cəmiyyətində də zəhmətkeşləri mənəvi əsarət altına salmaq üçün mühüm vasitə olaraq qaldı."[1]

Aydın Əlizadə: "IV əsrin əvvəllərində, Roma imperiyasında Xristianlığa, əvvəlcə, başqa dinlərlə bərabər hüquqlar verilmişdi, sonra isə bu din imperiyanın rəsmi dininə çevrilmişdir. Xristiianlığın dövlət dini səviyyəsinə qaldırılması imperator Konstantinusun adı ilə bağlıdır. O, bu addımı siyasi səbəblərə görə atmışdı. Məsələ bundadır ki, IV əsrin əvvəllərində xristianlar geniş xalq kütlələrinə təsir etmə imkanı olan təşkilatlar yarada bilmişdilər. Xeyriyyə işləri və axirətdə xilas olma ideyaları imperiyanın ən kasıb təbəqələri üçün cəzbedici görsənirdi. Digər tərəfdən isə, hakimiyyətə qarşı səbrli olmaq ideyaları, onları dövlət başçılarına qarşı üsyan etmə ehtimalının qarşısını alırdı. Eyni zamanda, kilsə tərəfindən müəyyən edilmiş dini qanunları və ehkamları qəbul etmək, keşişlərə tabe olmaq Xristianlığın prinsiplərindən idi. Bu cür din monarxiya üsul- idarəsi üçün çox əlverişli idi.

---

Orta əsrlər tarixi, səh 417[1]

Bunu başa düşən imperator Konstantinus, imperiyada sabitliyə nail olmaq və öz kakimiyyətini möhkəmləndirmək üçün, xristian faktorundan istifadə etməyə başladı. İlk növbədə o, 313- cü ildə, Xristianlığı hüquqi nöqteyi nəzərdən, başqa dinlərlə bərabərləşdirən Mediolan fərmanını imzalamışdır."[1]
Beləliklə, xristianlıq artıq Avropada cücərib pöhrələnmək üçün özünəməxsus yol tapdı.Zaman-zaman sərhədləri aşaraq ölkədən- ölkəyə sıçrayan xristianlıq etiqadı təbliğ olunaraq bu günümüzə qədər gəlib çıxdı.
Tədqiqatçı Hüseyn Tofiqi haqlı olaraq yazır : " Yəhudilik və bəzi başqa dinlər öz dinlərini təbliğ etmir, ardıcıllarının çoxluğunu özləri üçün bir imtiyaz saymırlar. Lakin İslam və Xristian dinləri təbliğ məsələsinə xüsusi əhəmiyyət verirlər.
Qədim dövrlərdən etibarən xristianların təbliğ heyətləri dünyanın müxtəlif ölkələrinə getmiş və bu dini dünyanın hər tərəfinə çatdırmışlar. Bundan əlavə, son əsrlərdə qərb mədəniyyətinin çiçəklənməsi, həmçinin istismar və mədəni başlıqlar nəticəsində Xristian dini şərq dünyasında da genişlənmişdir."[2]
Tədqiqatçı S. Şahhüseynova xristianların ibadət etmələri mövzusunda maraqlı faktlara toxunur : "Uzun müddət xristianların ibadət üçün  xüsusi binaları olmadığından onlar dua etməyə müxtəlif yerlərə gedir, çox vaxt da varlı xristianların evlərində yığışmalı olurdular.Bəzən bu məqsədə boşalmış anbarlar və ya sənətkar emalatxanaları da xidmət edirdi. Yer olmadıqda xristianlar açıq səma altında da ibadət

---

Aydın Əlizadə, " Xristianlıq. Tarix və fəlsəfə ( ilk çağlar)", səh 68١
Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 170٢

edirdilər. Əvvəllər xristianlar ibadət üçün sinaqoqlara da gedirdi, yəhudilərlə münasibətləri korlandıqdan sonra isə bu da mümkün olmadı. Konstantinin dövründə xristianlıq rəsmən vahid dövlət dini olmasa da ona üstünlük verilirdi. Artıq xristianların öz məbədləri var idi və onlar aşkar ibadət edə bilirdi. Konstantin özü isə artıq ölüm yatağında ikən xaç suyuna salındı.”[1]

Göründüyü kimi inanclarında inadkar olan xristianlar öz etiqadlarının qorunması və ayinlərini saxlamaq mövzusunda xüsusi xidmətlər göstərmişlər. Bu barədə uyğun tarix kitablarında fikirlərə rast gəlmək olur.

Aydın Əlizadə tarixi faktlara əsaslanaraq xristianlığın dövlət dininə çevrilməsi prosesində yeganə maneəni imperator Yulianusda (Julianus ) ( 361- 363) görür: “ O, bütpərəstliyi dirçəltmək istəyirdi və bütün dinlərə bərabər hüquqların verilməsinin tərəfdarı idi. Lakin Yulianus İranla savaş zamanı həlak olmuşdu və onun ölümündən sonra Xristianlığın dövlət dininə çevrilməsi prosesi məntiqi nəticəsinə çatmışdı.”[2]

Aydın Əlizadə rəsmi xristian təliminin yaranması prosesini bu cür izah edir: “ IV əsrdə Xristianlıq artıq bütpərəstlik üzərində tam qələbə çalmışdır və Roma imperiyasının rəsmi dövlət dininə çevrilmişdir. Arianlıqla Atanasiosun ardıcılları arasında gedən çəkişmələr zamanı Roma imperatorları müxtəlif dövrlərdə öz siyasi maraqlarını rəhbər tutaraq bu iki cərəyanı dəstəkləyirdilər. Lakin sonda Atanasiosun ardıcılları, Atanın

---

Kulturologiya, səh 222١

Aydın Əlizadə, “ Xristianlıq. Tarix və fəlsəfə ( ilk çağıar)”, səh 73٢

oğulla bir mahiyyətə malik olması doktrinası tərəfdarları qalib gəlmişdilər. Məhz bu cərəyan dövlət tərəfindən tanınmış və imperiyanın rəsmi Kilsəsini təşkil etmişdi. Bütpərəstlərlə birlikdə bütün başqa xristian cərəyanları və təriqətləri qadağan olunmuş, onların tərəfdarları isə təqiblərə məruz qalmışdılar. Bu proseslərlə bərabər, rəsmi xristian Kilsəsinin ideologiyası da yaranmaqda idi. Dini ehkamların sabitləşməsi, onların fəlsəfi əsaslarının işlənməsi, sistemləşdirilməsi işi imperiyanın həm Şərqində, həm də Qərbində gedirdi."[1]

**Kilsə**

Xristianlıqdan söhbət getdiyi zaman kilsədən danışmamaq bu dinin ardıcıllarına qarşı məncə ədalətsizlik olardı. Axı təşəkkül tapdığı zamandan bəri mövcud feodalizm cəmiyyətində kilsənin ictimai rolu çox önəmlidir.

Tarix yazır ki, cəmiyyətin hakim sinfi xristianlığın bütün orta əsrlər boyunca feodalizm quruluşunun şəraitinə uyğunlaşdırır, hər cür yolla kilsəni iqtisadi, siyasi və ideya baxımından qüvvətləndirməyə çalışırdı.[2]

Bəs kilsə nədir və xristianlar üçün nəyi ifadə edir? Bu sualın cavabını yenə də tədqiqatçıların nəzərlərində axtaraq.

Xristianlığın yalnız kilsə formasında mövcud olması- onun əsas xüsusiyyətlərindəndir.Artıq bu dövrdən başlayaraq kilsə xristian dininin mühüm atributuna çevrilmişdi. Xristianlıqda bir neçə dini ənənə mövcuddur ki, bunların da hərəsinin öz mərasim, ayin və dini simvolları var. Bunlardan, Bizans

---

Eyni mənbə, səh 73- 74١

Orta əsrlər tarixi,səh 417٢

ənənəsinə malik Pravoslav, Roma ənənəsinə malik Katolik XVI əsr Reformasiya ənənələrinə malik Protestant kilsələri aparıcı idi.[1]

Hüseyn Tofiqi: Əhdi- cədid kitabında sözü keçən " Xristian toplumu" əslində "Elçilərin kilsəsi" adlanır. Bu isə, həzrət İsanın (ə.) elçiləri və xristian dininin ilk nəslidir. Həmin cəmiyyət və toplumun tarixi miladi təqvimi ilə 30- 100- cü illəri, yəni " Gül tökmə" (Pəncahe, Pintikast) bayramı ilə İncilin sonuncu hissəsinin yazılıb sona çatdığı illəri əhatə edir.[2]

Məqaləmizin əvvəlində tarixi dövrələri ayırarkən kilsələrin ayrılması məsələsinə toxunmuşduq. Bu barədə Hüseyn Tofiqi maraqlı faktlara toxunur: " Xristian tarixində ən mühüm ayrılıq Konstantinopol kilsəsi ilə Roma kilsəsi arasında meydana gəlmişdir. Bəzən buna " şərqlə qərbin ayrılığı" adı verirlər. Roma kilsəsinin nəzərinə görə, kilsələrə rəhbərlik edən şəxslər yalnız Roma yepiskopunun nəzarəti altında fəaliyyət göstərən dünya yepiskoplarından olmalıdır. Lakin Konstantinopol kilsəsi Xristian dini üçün dünyada bir- biri ilə bərabər olan beş kilsənin mövcud olduğunu söyləyirdi. Həmin kilsələr isə Yerusəlim, Antakya, Roma, İsgəndəriyyə və Konstantinopol kilsələrindən ibarət idi.[3]

Kilsənin iqtidarı ilə bağlı fikir ayrılığının olmasına rəğmən Roma və Konstantinopol kilsələrinə tabe olan xristianlar arasında **birlik** olmuşdur və sonrakı əsrlərdə də iki kilsə bəzən

---

[1] Kulturologiya, səh 222- 223
[2] Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 168
[3] Eyni mənbə, səh 218

bir- birindən ayrılır, bəzən isə barışırdılar. Nəhayət, iki kilsə arasında " Böyük ayrılıq" ( The Great Schizm) adlanan sonuncu ayrılıq 1054- cü ildə baş verdi.[1]

Şübhəsiz, məzhəb ayrılıqları və parçalanmaların çoxu siyasi amillər nəticəsində baş verir. Lakin son ayrılıqda etiqadi bir amil mövcud olmuşdur. Katoliklər (həmçinin sonradan meydana gəlmiş Protestan məzhəbi) öz imanlarını izhar etmək hədəfi ilə Müqəddəs Ruhun Ata Allah və Oğul İsadan gəldiyini bildirir və bu barədə " və Oğul" (latın dilində Filioque) ifadəsi işlədirlər. Lakin Ortodokslar iman qanunun əsl ifadəsilə kifayətlənir və həmin sözü işlətmirlər. Onların əqidəsinə görə, Müqəddəs Ruh yalnız Ata Allahdan gəlmişdir.[2]

Son dövrlərdə kilsələr bir- biriləri arasında vəhdət yaratmaq məqsədilə görüşlər keçirir, danışıqlar aparırlar.

## Məzhəblər

Tarix boyunca gəlib getmiş və indi də mövcud olan dinlərin müxtəlif məzhəb və təriqətləri olmuşdur. Xristianlıq da belə dinlər sırasındadır. Yaranma tarixinə və yaşına görə xristianlıq məzhəbləri bir- birindən fərqlənir.Bəzisi köhnə və qədimliyi və bəzisi isə nisbətən təzəliyi ilə tanınır. Ardıcıllarının sayında da fərqlilik nəzərə çarpır.

Xristianlar məzhəb və təriqəti " Kilsə" adlandırırlar. Xristian dinində üç böyük məzhəb və bir neçə kiçik təriqət mövcuddur. Katolik və Ortodoks kimi bəzi məzhəblər arasında mövcud

---

[1] Eyni mənbə, səh 218

[2] Eyni mənbə, səh 218

olan fərq olduqca azdır. Lakin Katolik və Protestan məzhəbləri arasında mövcud olan fərq çoxdur.[1]

Bu məzhəblər haqqında daha geniş məlumat vermək olardı. Lakin məqaləmizin tələb olunan ölçüsünə uyğun gəlmədiyi üçün bununla kifayətlənirik.

## Papalar

Papalığın meydana gəlməsi Qərbi Avropada kilsənin qüvvətlənməsində böyük rol oynadı. IV əsrin sonu- V əsrin əvvəlində Roma papaları, müstəsna olaraq özləri üçün, papa, yəni kilsə başçısı adlanmaq hüququna yiyələndilər. Özlərinin kilsədə başçı olmaq iddialarını papalar "apostol Pyotrun varisləri " olmaları ilə əsaslandırırdılar. Əfsanəyə görə o, Xristin Romada ilk yepiskopu- ilk canişini olmuşdu. Qərbdə, xüsusilə İtaliyada, qüvvətli dünyəvi hakimiyyətin olmamasından istifadə edən papalar V- VI əsrlərdə sürətlə yüksəldilər, faktiki olaraq, Roma yeparxlığının dünyəvi hakimlərinə çevrildilər. Qərbi Avropa ölkələrində kilsə torpaq sahibliyinin inkişafı ilə əlaqədar olaraq bu torpaqlardan papanın sərəncamına müxtəlif rüsumlar daxil olmağa başladı.Papanın əlində olan torpaqların hamısı birlikdə " Müqəddəs Pyotr mülkü", onun özü isə həmin torpaqların ali senyoru hesab olunmağa başladı. Kilsənin təşkili get- gedə feodal- iyerarxiya quruluşu kəsb etməyə başladı; ona papa

---

[1] Eyni mənbə, səh 219

başçılıq edir, ən aşağı pillələrində isə - məhəllə (prixod) keşişləri dururdu. VI əsrin sonlarına yaxın Qərbi Avropada papalıq bütün xristian kilsəsinə tamamilə başçılıq etmək iddiasını irəli sürməyə başladı.

Roma Papası- Roma Baş yepiskopu, Roma Katolik Kilsəsinin başçısı, Katolik xristianların dini lideridir. Katoliklərə görə həvari Pyotrun xələfidir.İlk zamanlar bütün yepiskoplara verilən papa ünvanı, sonrlar yalnız Roma Yepiskopu üçün istifadə edilməyə başladı. Katolik kilsəsi, kilsə çərçivəsində Pyotr və xələflərinin təmsil etdiyi ən uca vəzifə olan papalığın ilahi bir qurum olduğunu iddia edir: İsa, papalıq vəzifəsini Pyotra təhvil vermiş və Pyotr da bu vəzifəni faktiki görmüşdür. KİlsƏdə yerləşmiş bir ənənəyə görə Pyotr, Romada din qurbanı olaraq ölmüşdür, bu səbəblə də ən təbii varisləri Romalı yepiskoplardır.[1]

İndiyə kimi 265  pap katolik xristianlarına rəhbərlik etmişdir.

## Rahiblik

Rahiblik- Xristianlıqda tərkidünyalıq, həyatı Tanrıya ibadət etməyə həsr edərək abidlik həyatı sürmək deməkdir.

Nəql olunanlara görə Xristian rahibliyinin vətəni Misir  hesab olunur. Rahibliyin yaradıcısı Böyük Antonius (251-356) olmuşdur. Onun həyatı haqqında İsgəndəriyyəli Afanasios məlumat vermişdir· Antonius Misirdə, xristian ailəsində anadan olmuşdu. İyirmi yaşında olarkən, onun valideynləri vəfat etmişdirlər. Bu itkidən kədərlənən Antonius kilsədə

---

Vikipedia[1]

olarkən, bir keşişin "hər şeyi buraxıb İsanın ardınca getmək" çağırışını eşitmişdi. Bu çağırışa səs verən Antonius öz əmlakını kasıblara paylayıb, rahib həyatına qədəm qoymuşdur. Əvvəlcə o, bir rahibin tələbəsi olmuşdu, sonra isə onu buraxıb, səhrada həyatını davam etmişdi. Orada o təklikdə, düşüncələrə qapılaraq, 26 il ərzində, yalnız dostları tərəfindən gətirilən quru çörəklə qidalanaraq, ibadətlə məşğul olmuşdur.

306-cı ildən başlayaraq, Antonius, öz ətrafına tələbələri yığmağa başlamışdır. Tədricən o, məşhur bir insan kimi tanınmışdır. Antoniusun xeyir-duasını almaq üçün Misirin çeşidli məntəqələrindən onun yanına adamlar gəlirdilər. Daha sonra Antoniusun məşhurluğu daha da artmışdır və imperator Konstantin ona ehtiramla dolu məktub yazmışdı. Antonius 356-cı ildə 105 yaşında vəfat etmişdi.

Antoniusdan sonra Misir səhralarına çoxlu rahiblər gəlmişdirlər. Onlar orada "monasterion" (monastır) adlanan koloniyalar yaratmışdılar. Bu koloniyaların öz adətləri, qayda-qanunları var idi. Monasterionlar ən məşhur rahibləri tərəfindən idarə olunurdular. Antoniusun dövründə daha bir tanınmış rahib yaşamışdı. Onun adı Ammonius idi. O da Misir səhrasında öz koloniyasını yaratmışdır. Burada onlar gündəlik əmək və ibadətlərlə məşğul olmuşdurlar.

Dəyərli alim Hüseyn Tofiqi yazır: " Həvarilərin zamanından indiyədək bəzi xristianlar həzrət İsa Məsihin (ə.) ardıcılı olaraq rahiblik və tərki- dünyalıq prinsipi əsasında yaşamağı üstün tutmuşdur.Həzrət İsa (ə.) heç bir zaman evlənməmiş və bəzi

şəxslərin “ Səmavi Padşahlıq” üçün subay qalacağını söyləmişdir.”[1]

Onu da deyək ki,Xristianlıqda qəbul edilən rahiblik islam nöqteyi- nəzərindən nəinki bəyənilməyən, hətta qəbul olunmayan bir məsələdir. İslam Peyğəmbəri Hz. Mühəmmədin (s.) “ İslamda rahiblik yoxdur” ifadəsi sanki, cəmiyyətə bir mesajdır. İslam bir ictimai din olaraq gətirdiyi ehkam və qanunları ilə cəmiyyətdən təcrid olunmadan ibadət və itaətin əsaslarını öz ardıcıllarına öyrədir.Düzdür, gecə münacatları, Uca Yaradanla razu-niyaz etmək,nəfsin hesaba çəkilməsi, etikaf kimi əməllər təklikdə aparılsa da, ümumilikdə islam teologiyası islam cameəsinin əsas və prinsiplərini təqdim etməklə ictimai bir varlıq olan insanı yetişdirməklə məşğuldur. Qeyd edilən əməllər isə yorğun cəmiyyətdən qısa bir ara ilə uzaqlaşıb ruhunu sakitləşdirməklə “kamil insan olmaq” hədəfinə hesablanıb.

## Qərb dünyagörüşündə dini- fəlsəfi məfkurənin formalaşması

Orta əsr fəlsəfəsi monoteizm prinsipinə əsaslanan xristianlıq dini dünyagörüşü üzərində qurulmuşdur. Bu dövr Roma imperiyasının süquta uğraması və feodal ictimai münasibətlərinin formalaşdığı dövrə təsadüf edir. Xristianlıq dinində varlıq ideyası kreasionizm düşüncəsilə uyğunlaşdırılaraq təbiət anlayışı yox, Allah anlayışı ortalığa qoyulur və bütünlüklə, orta əsr fəlsəfəsi bu konsepsiyadan çıxış edirdi.Əksər tədqiqatçıların kitabında qeyd olunduğu kimi, fəlsəfə “dinin kənizinə”, başqa sözlə “dinin

---

[1] Hüseyn Tofiqi, “ Böyük dinlərlə tanışlıq”, səh 221

xidmətçisinə"çevrilmişdi. O dövrdə fəlsəfənin izah etdiyi bütün məsələlər xristianlıq düşüncəsinə uyğun gəlməli və kilsənin icazəsi olmalı idi. Antik dövrdə izah olunan təbiət qanunauyğunluqları,ümumiyyətlə varlıq və bunun ətrafındakı söhbətlər kreasionizm qanunları ilə izah edilirdi.

Xristian fəlsəfəsinin ilkin mərhələsi patristika dövrü adlandırılır ki, bu da " xristianlıq dini təliminin fəlsəfi təlimə keçdiyi dövr" hesab edilir. Patristika latın sözü olub " ata" mənası kimi tərcümə olunur.Kilsə ataları tərəfindən yazılmış ədəbiyyatın ümumi adı mənasını verir. Patristika dövrünün birinci mərhələsində xristian ehkamının əsası qoyulmuş və güclü kilsə yaradılmışdır. İkinci mərhələdə isə xristian ehkamı və fəlsəfəsi yaradılmışdır. Patristika dövrünün nümayəndəsi Avreli Avqustin (354- 430) xristian alimi və mütəfəkkiridir. O, Şimali Afrikanın Taqasta şəhərində dünyaya gəlib. Avqustinin dünyagörüşü teosentrizm (yunanca " teos"- Allah, "sentrizm"- mərkəz deməkdir) üzərində qurulmuşdu. Buna görə də onun bütün fikirləri Allah haqqında nəzəriyyəyə əsaslanmışdı. O deyirdi ki, Allahın mövcudluğunun səbəbi özündədir. Dünyada Allahdan başqa mövcud olanların hamısı Allahın iradəsi yaranmışdır. Allah bütün mövcudatın səbəbidir. O, nəinki dünyanı yaratmışdır, həm də onu saxlayır və yaratmaqda davam edir.[1]

Xristian fəlsəfəsinin ikinci mərhələsi sxolastikadır. VIII əsrdə meydana gəlmiş XIV- XV əsrlərə qədər davam etmişdir.

---

Eyni mənbə, səh 548[1]

Sxolastka yunan dilində "məktəb" deməkdir. Bu dövr xristian fəlsəfəsinin inkişaf dövrü hesab olunur. Daha doğrusu, fəlsəfənin xristianlıq təlimləri əsasında mütəşəkkil işlənib hazırlanması bu dövrə təsadüf edir. Yuxarıda qeyd etdiyimiz kimi, fəlsəfə bütün hallarda xristianlıq dini təlimləri kürsüsündən çıxış edirdi. O dövrün Eriugena, Anselm, Rosselin, Abelyar kimi nümayəndələri tanınmışdır.

Sxolastikanın ən görkəmli nümayəndəsi Akvinalı Fomadır. Onun yaradıcılığı tərəqqi dövrünə təsadüf edir. Foma Cənubi İtaliyada dünyaya gəlmiş, təhsil almağa çox diqqət yönəltmiş və bir sıra traktatların müəllifi olmuşdur. Foma katolik ehkamını tamamilə işləyib hazırlamaqla xristianlığa xidmət edən "İlahiyyatın məcmusu" kitabını yazmışdır. Fomanın fikrincə, fəlsəfə etiqada, ilahiyyata xidmət etməlidir. O, Aristotel fəlsəfəsini öyrənməklə onun ilahiyyata xidmət edəcək məqamlarından istifadə etdi. Foma Allahın varlığı, insan ruhu, gerçəkliyin dərki haqqında bir sıra fikirlər yürütmüşdür. Onun maraq doğuran etik baxışları da mövcuddur. Lakin bir cəhət də var ki, Foma sosial bərabərliyin əleyhinə çıxır, sosial fərqləri əbədi sayırdı. O, yazırdı ki, itaətdə olanlar ağalara tabeçilik göstərməlidirlər. İtaət etmək məzlumların, o cümlədən bütün xristianların başlıca xüsusiyyəti olmalıdır.[1]

Bu, Foma fəlsəfəsinin nöqsanlı mahiyyətini əks etdirir.

İlahiyyata xidmət edən fəlsəfə bu "nökərçiliyə", "tabeçiliyə" əbədi dözə bilmədi. XIV əsrdən etibarən renessans dalğası bütün Avropanı bürüyərək XV- XVI əsrlərdə intibahın

---

[1] Eyni mənbə, səh 566

yüksək mərhələsinə qədəm qoyur. İntibah dövründə mədəniyyətin bütün sahələri daxil olmaqla elm və fəlsəfə də inkişaf etdi. Bu dövrdə əsarətdən söhbət belə gedə bilməzdi. Tarixin buna ehtiyacı vardı.

**Nəticə**

Bu məqalədə bir zaman kəsiyində məskunlaşan, özünə xas yer tutan orta əsr düşüncəsi ilə tanış olduq. Eramızın I əsrindən başlanan fəlsəfi intibah, başqa sözlə, renessans deyilən dövrə qədər davam edən xristian fəlsəfəsinin qaynaqlandığı xristian düşüncəsi yəhudilikdən sonra əsrlərlə insanların həyatına, məfkurəsinə, adət- ənənələrinə təsir göstərən bütpərəstlik dünyagörüşünə yekdilliklə son qoydu. Xristianlıq dini isə İsa Məsih vasitəsilə zaman- zaman özünə tərəfdarlar toplayaraq insanlara ilahi gözəlliyin çalarlarını açaraq yaşamağın əsil qaydasını öyrətdi. Lakin İsa Məsihdən sonra onun həvariləri tərəfindən dəyişdirilən xristianlığın monoteizm xəttinə təslis prinsipini daxil edərək bu dinin ideyalarına bir növ, demək olar ki, bidət (yenilik) gətirdi. Bununla da müasir dövrümüzə qədər davam edən xristianlıq əsrlərlə insanların zehnində qeyri- düzgün mövqe nümayiş etdirərək ilahiyyatın monoteim prinsipinə xələl gətirdi. Digər məsələ isə kilsə ehkamının o zamankı dövrdə Romanın süqutundan sonra cəmiyyətdə hakim kəsilməsi elmin, mədəniyyətin, fəlsəfənin inkişafına mane oldu. Tədqiqatçıların dediyi kimi, kilsə hər bir şeyin çıxış nöqtəsi oldu. Təbii elmlərin inkişafıləngiyərək təbiət alimlərinin həyatına belə təhlükə yarandı. Sərbəst fikrin,

sərbəst düşüncənin bəyanından isə söz gedə bilməzdi. Kilsənin bu səhv mövqeyi sonradan kilsənin özündən çıxan Martin Lüterin protestanlıq hərəkatı bir növ kilsəyə və onun tutduğu xəttə protest verərək xristian kilsəsinin yeni mövqe tutmasını məcbur etdi. Tədqiqatçılar o dövrün fəlsəfəsini xarakterizə edərkən " qaranlıq dövr" adlandıraraq sərbəst fikrin kölgədə qalmasını kilsə ehkamında görürdülər.

Xristianlığın islam dini ilə müqayisəsində fərqli bir mənzərə görürük. İslam dini monoteizm dini olmaqla zühur etdiyi gündən bu günə qədər öz xəttindən dönmədi. İslam peyğəmbərindən sonra bu dinin daxilində müxtəlif məzhəblər, firqələr yaransa da, islamın əqidəvi kökündə heç bir yad bir ünsür görünmədi. Kreasionizm nəzəriyyəsi özünü qorumaqla teoloji xətt bu günkü islama qədər davam edir. Digər tərəfdən, islam ehkamı nəinki elmin inkişafına mane oldu, hətta buna təhrik etdi. İslam peyğəmbərinin (s.) "beşikdən qəbrədək elm öyrənin" tövsiyəsini müsəlmanlar şüar tutaraq islami elmlərlə yanaşı, təbiət elmləri ilə də məşğul olmuş, elmə öz töhfələrini vermişlər. Fəlsəfə də inkişaf etdirilərək xəlifə Məmunun dövründə yeni bir inkişaf yolu tapmış, antik yunan fəlsəfəsinin müsəlman alimlərinə təqdim olunması ilə düşüncələrdə yeni fikirlər, ideyalar formalaşmış və islam ideologiyası saxlanılmaqla Aristotel fəlsəfəsinin sintezi müsəlman alimlərinin fəlsəfədə yaratdığı yeni mənzərə idi. Müsəlman fəlsəfəsinin inkişaf qanunauyğunluqları və sonrakı geriliyi böyük bir mövzu olduğundan və bu məqaləyə uyğun gəlmədiyindən yalnız bu nəticə ilə kifayətlənirik. Bir ilahiyyatçı kimi, qələmə aldığımız bu fəsildə öz

mövqeyimizdən çıxış etsək də düşünürük ki, bunlar bir həqiqətdir.

**İstifadə olunan ədəbiyyat**


1. Qurani Kərim. Tərcümə. Bakı – 2005
2. İncil. Bibliya Tərcümə İnstitutu. Stokholm. 1993
3. Əzəm Pərçəm. Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması. Bakı- 2013
4. Haşimi Rəfsəncani. Məhəmməd Bahünər. Dünya besət dövründə. Naşir Əhli- beyt.2006
5. Seyid Əhməd Mahmudi. Dinlərlə tanışlıq. Naşir Şəhriyar- 2006
6. Aydın Əlizadə. Xristianlıq. Tarix və fəlsəfə (ilk çağlar). Bakı- 2007
7. Hüseyn Tofiqi. Böyük dinlərlə tanışlıq.Bakı – 2015
8. Kulturologiya. Az.TN Az. Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı- 2003
9. Məmmədəli Zeynalov. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı- 2009

10.Orta əsrlər tarixi. (S.D. Skazkinin redaktəsi ilə). Rus dilindən tərcümə ( tərcüməçi Y. M. Mahmudov). Bakı- 1988

10. www.az.wikipedia.org

# İlahi rəhmət axirətdə

Kənan Məhəmmədov[1]

**Abstrakt**

İslam dini hər bir halda insanları Allahın rəhmətinə ümid bəsləmələrinə təşviq edir. Allahın rəhmətindən ümidi kəsməyi küfrə və şirkə bərabət tutur. Mehriban Allah hər nə olursa olsun insanın tövbəsini qəbul edəcəyini söyləyir. Hətta günahlarını səvaba çevirəcəyini vədə verir. Dünyada hər kəsə rəhimli olan axirətdə möminlərə rəhimli olacaq. Hətta o qədər günahkarları bağışlayacaq ki, şeytan da Allahın rəhmətinə ümidlənəcək. Bu dünyada ümumi rəhmətdən istifadə edənin üzünə Allahın xüsusi rəhmət qapıları açılar. Lakin ilahi rəhmət möminləriə daha genişdir. Əgər qiyamət olsa bu xüsusi rəhmət yalnız möminə şamil olacaq.

**Açar kəlmələr:** İlahi rəhmət, rəhmaniyyət, axirətdə rəhmət, bağışlamaq

## Axirətdə rəhmətin zühuru

Allah Təalanın hər kəsə rəhmli olması heç kimə gizli deyil, lakin Rəbbimizin bir növ rəhməti də var ki, xüsusi rəhmət sayılır. Bu rəhməti qəbul edə bilən xüsusi insanlara şamil edilir. Əllamə Təbatəbai bu haqda "Əraf" surəsinin 156-cı

---

- İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, ١
Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

ayəsinə işarə edərək, buyurur: ""Rəhmətim hər bir şeyi əhatə etmişdir. Odur ki, tezliklə onu təqvalı olanlar, zəkat verənlər və Bizim ayə və nişanələrimizə iman gətirənlər üçün yazacağam". Allah-Təala üçün iki rəhmət vardır. Biri ümumi rəhmətdir ki, həm möminə və həm də kafirə, insana, qeyri-insana şamil edilir. O biri rəhmət isə xüsusi rəhmətdir, Allah onu ancaq o kəslərə verir ki, imana və bəndəliyə malik olsunlar. Dünya və behiştdə təyyibə və nurani həyat kimi. Kafirlər küfrlərinə görə ondan məhrumdurlar. Onlara nəsib olan şey bu rəhmətin əksidir. Dünyada əzablı həyat, axirətdə isə atəş və əziyyətlər".[1]

Rəhman ilə Rəhim arasında olan fərq bundan ibadətdir ki, Rəhim Allahdan ayrılmaz və daimi xüsusiyyətlərinə deyilir. Rəhman isə yalnız Tanrının bağşlayan və mərhəəmətli olmasına dəlalət edir. Bunu da qeyd etmək etmək lazımdır ki, Rəhim kəliməsi Qurani Kərimdə daim "bi" təsirlik şəkilçisi ilə işlənmişdir.

Allah insanlara qarşı, əlbəttə mehriban və mərhəmətlidir. (2\143).

Allah möminlərə rəhm edəndir. (33\43)

Bizə elə gəlir ki, bu yerlərdə ona aid olan sözlərlə işlənən həmin kəlmə təsirli formadan çıxaraq təsirsiz hala salınmış və müstəqil şəkildə işlədilmişdir. Əgər o təsirsiz halda olsaydı, "bi" hərfi ilə təsirli hala salınmazdı. Bu kəlimənin təsirsiz fərz olunması onun məfhumunun zati olmasını sübuta yetirir.

Alusi bu kəlmə barəsində belə bir nəzər irəli sürmüşdür ki, onlar feli sifətlər deyildirlər, çünki hər iki kəlmə "Rəhmanəd-dünya vəl axirəti və rəhiməhuma" cümləsində öz tamamlığı ilə

---

Milli.az ١

izafə təşkil etmişdir. Halbuki feli siftələr təsirli deyil, təsirsiz feillərdən düzəlir. Başqa sözlə desək, feli sifətlərin heç vaxt tamamlığı olmur ki, onunla izafə təşkil etsin.

Alusinin bu sözləri çox təəccüblüdür, çünki qeyd olunan cümlədə bu iki sözün izafə təşkil etməsi sözün öz tamamlığı ilə izafəi növündən deyil, məkan və ya zamanla izafə növündəndir. Bu növ izafədə də təsirli və təsirsiz fellər arasında fərq yoxdur.

Nəql olunmuş bəzi rəvayətlərdə Rəhim kəliməsinin xüsusi isim və ümumi məna daşıdığı göstərilmişdir. Çünki hər ikisi axirət və möminlərə aid olunur. Lakin bu rəvayət ya kənara qoyulmalı, ya da izah olunmalıdır. Çünki, rəvayətləri zahiri mənası quran ayələri ilə ziddiyət təşkil edir. Çünki Rəhim kəliməsi Qurani Kərimdə möminlərə və ya axirətə ai olmadan bir çox yerdə işlənmişdir.

İndi kim ardımca gəlsə, o şübhəsiz ki, məndəndir. Kim mənə qarşı çıxsa, (bilin ki, tövbə edəcəyi təqdirdə) Sən ( günahları) bağışlayan və bəndələrinə rəhm edənsən. (14\36).

(Ya Məhəmməd!) Bəndələrimə xəbər ver ki, (tövbə edəcəkləri təqdirdə) Mən, həqiqətən bağışlayan və rəhm edənəm. (15\49).

Həqiqətən, Allah insanlara şəfqətli və mərhəmətlidir. (22\65).

Sizin üçün (bol) neymətlərdən özünə ruzi diləmək (qazanmaq) məqsədilə dənizdə gəmiləri hərəkətə gətirən məhz Rəbbinizdir. Həqiqətən, Rəbbiniz sizə qarşı rəhimlidir. (17\66).

Allah (bununla ) doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqləri isə istər əzab versin, yaxud

onların tövbələrini qəbul buyurun. Həqiqətən, Allah ( bəndələrini) bağışlayan və (onlara) rəhm edəndir. (33\24).

Göründüyü kimi Rəhim kəliməsi bu ayələrdə ümumi mənalarda işlənmişdir. Yəni Allah hər iki dünyada istər mömin, istərsə də münafiqlərə qarşı mehriban və bağışlayandır.

Bu ifadələrə bəzi dualarda da rast gəlmək olur. Ya Rəhmanəd-dunya vəl axirəti və Rəhimənhuma- Ey dünya və axirətdə bağışlayan.

Bəlkə də Rəhim kəliməsinin xüsusi məna daşıdığına işarə edən rəvayətlərdın məqsəd, onun yalnız axirət dünyasına aid olmasıdır. Belə bir halda əgər İlahi rəhmət bu dünyada sona çataraq axirətəd davam etməzsə. Onun olub-olmaması arasında heç bir fərq qoymaq olmaz. Çünki belə bir rəhmətədən sonra əzab və bədbəxtçiliyin insana nə bir xeyiri ola bilər, nə də bəhrəsi. Belə bir qənaətə gəlmək olar ki, Rəhmət (bağışlanma) deyildikdə, onun həqiq mənada yalnız və yalnız möminlərə şamil olduğunu nəzərdə tutmalıyıq. Lakin bu heç də o demək deyildir ki, başqaları Allahın rəhmət və mərhəmətindən məhrum qalacaqlar. [1]

Allaha təala öz Rəhman sifəti ilə bütün insanları əhatə edərək, Rəhim sifətindən faydalanmağa dəvət edir.

İnsan əgər ümumi Rəhmətən istifsdə edə bilsə, xüsusi Rəhmətə də çatar.

Qurani Kərimdə Əraf surəsində buyrulur: "Mərhəmətim hər şeyi ehtiva etmişdir." (156)

---

[1] əl-bəyan fi təfsiril-Quran

Hawzahnews.com saytı qeyd olunan ayəyə geniş izah gətirmək üçün bu barədə Ayətullah Seyyid Sistaninin dəftərxanasına sual ünvanlayıb:

Sual: “Allahın rəhməti hər şeyi əhatə etmişdir” ayəsində məqsəd nədir? Bunun xüsusi şərti varmı?

Cavab:
Mətləbə aydınlıq gətirmək üçün Quranın özünə müraciət edək. Əraf surəsinin 156-cı ayəsində buyrulur:

“(Allah) buyurdu: 'İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdi. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!”

Şeyx Təbərisi “Məcməul-bəyan” təfsirində yazır:

“'İstədiyimi əzabıma düçar edərəm” ayəsində məqsəd Allaha üsyan edənlər və bu ilahi əzaba layiq olanlardır. Bu da onların öz məşiyyət və iradəsi ilə olur. Çünki Allah Təala ayədə bu üsyanı onların öz iradəsinə bağlayıb. Ağıl da (Qurana əsasən) onlar üçün bağışlanılmağın mümkünlüyünü qəbul edir.

-(Yəni Allahın əfvi, bağışlması, rəhməti onlar üçün daim açıqdır. Əgər istəsələr. Çünki Şeyxin buyurduğu kimi “Bu da onların öz məşiyyət və iradəsi ilə olur. Yəni Allahın rəhmət qapısı günahkarlar üçün belə açıqdır. Özləri səy edib nail olsunlar.)

“Mərhəmətim hər şeyi ehtiva etmişdir” ayəsinə gəlincə isə Həsən və Qütadə bu barədə yazırlar: “Həqiqətən Allahın rəhməti dünyada hər kəsi mömini və kafiri bütünlüklə əhatə etmişdir. Bu rəhmət qiyamətdə isə yalnız möminlərə şamil olacaqdır.” Uteyyə Aufi deyir: “İlahi rəhmət hər şeyi əhatə etmişdir. Lakin bu yalnız möminlər üçün vacibdir. Kafirlər üçün isə yalnız ruzi kimi şamil olur(Yəni dünyada yaşamaları üçün ruzi və möhlət ilahi rəhmətdir). Allah kafirə möminə xatir rəhm edər.

Çünki ilahi rəhmət möminləriə daha genişdir. Çünki mömin kafirlərin arasında yaşayır. Əgər qiyamət olsa bu rəhmət yalnız möminə şamil olacaq. Necəki od şöləsi ətrafında olanların hamsını işıqlandırır. Nur (çıraq, lampa) sahibi gedərsə onun işığı da gedər.” Həmçinin bu cür deyənlər də vardır: “İlahi rəhmət genişdir. Kim istəsə daxil ola bilər. Yəni bütün varlıq daxil olsa belə Allahın onlara şamil olacaq rəhməti genişdir.”[1]

Mövzu haqında fərqli fikirlər olsa da, Təfsirçilərin çoxu Allahın xüsusi rəhmətinin möminlərə şamil olacağı qənaətindədirlər. Əgər insanlar Allahın ümumi rəhmətindən istifadə edə bilsələr, Onun xüsusi rəhmət qapılarıda açılacaq.

Axirətdə İlahi rəhmət kimlərə şamil olur?

1. **Müttəqilər**

Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə düz yolla getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir. ( Hədid surəsi 28- ayə)

---

Ahlibeyt.ge ١

De: “Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa ilah yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz”. (Əraf sursi 158-ci ayı)

Təqva - xüsusi İlahi rəhmətə çatdırar. "Yoxsa Rəbbiniz tərəfindən sizə özünüzdən olan bir kişinin dili ilə sizi (Allahın əzabı ilə) qorxutmaq, sizin də təqvalı olmağınız üçün və bəlkə rəhm olunasınız deyə (ilk səmavi şəriət və kitab olaraq) bir öyüd-nəsihət gəlməsinə təəccüb etdiniz?" ("Əraf" 63).

Əmirəlmöminin Əli (ə) ən yüksək kamil insan nümunəsi olan təqva əhli haqqında buyurur: “Təqvalıların, pəhrizkarların nişanələrini belə görərsən: dindarlıqda güclü, xoşxasiyyət, uzaqgörən, imanda əmin, elm təhsilində çalışqan, elmə çatdıqda təvazökar, orta imkanlı, ibadətdə müti, yoxsulluqda nikbin, çətinliklərdə dözümlü, halal ruzi ardınca, doğru yolda şad, tamahdan uzaq. Onlar xeyir iş görər, Allahdan qorxarlar. Gün uzunu şükr edər, gecəni zikrlə keçirərlər. Gecə Allahdan qorxan halda yuxuya gedərlər. Yuxudan duranda şad olarlar. Bu qorxu onları qəflətdən qoruyar, nazil olan mərhəmətə görə sevinərlər.”[1]

**Saleh əməl sahibləri**

İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbbi onları Öz mərhəmətinə nəsib edəcəkdir. Bu, açıq-aşkar müvəffəqiyyətdir. (Casiə surəsi 30-ayə)

---

Nəhcül-bəlağə[1]

"Onların hamısını Öz mərhəmətimizə (peyğəmbərlik məqamına, mənəvi kamilliklərə, səma kitabı verilmək və cəmiyyətin tərbiyəçisi olmaq şərəfinə) daxil etdik. Çünki onlar doğrudan da yaxşı və ləyaqətlilərdən idilər". ("Ənbiya" 86). Quranın nəzərində saleh o kəslərdir ki, əqidə və əməl cəhətdən dininə inancı olsun və ona əməl etsin

**2. Qurandan möhkəm yapışanlar**

Allaha iman gətirən və Ondan möhkəm yapışan şəxsləri isə Allah Öz rəhməti və lütfünə qovuşduracaq və onları Özünə tərəf gedən düz yola yönəldəcəkdir.( Nisa surəsi 175-ayə)

Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır. Buna görə də ona tabe olun və təqvalı olun, bəlkə rəhm olundunuz.(Ənam 155)

Allah təala öz varlığını insanlara tanıtdırmaq üçün insanların arasından ləyaqətli, şərafətli şəxsləri peyğəmbərliyə seçib. Onlarla hikmətli, şəfa verici, düz yol göstərən yaxşı söz və kəlam təlim edən kimi yaratmışdır. Öz mübarək kəlamlarını onlara tədricən nazil etmişdir. Allah təala axırıncı peyğəmbərə (s) tədricən "Qurani-kərim" nazil etmişdir və həmin "Qurani kərim" həkim, şəfa verən, düz yol göstərən kimi bəyan etmişdir. Amma gəlin görək bu şəfa verəndir möminlərə, düz yol göstərəndir? Qurani-kərimdə belə buyurur: "Ey peyğəmbər! Bu Quran bütün insanlar üçün açıq-aşkar bir xəbərdir. Təqvalı şəxslərə doğru-düzgün yol göstərən öyüd-nəsihətdir." "(Bu kitab) Allah təala tərəfindən nazil olunmasına heç bir şəkk-şübhə edilməyən və (təkcə) təqva əhlinə doğru, düzgün yol göstərən mübarək bir kitabdır." Başqa yerdə belə buyurur: "Ey peyğəmbər! Sən onlara öyüd-nəsihət ver. Çünki, öyüd-nəsihət möminlərə fayda verir." Bu ayədən sonra Allah təala insanları nəyə görə xəlq etdiyini bəyan edərək belə

buyurur: "Mən cinləri və insanları (faydasız işlər görmək üçün yox) yalnız mənə sitayiş və ibadət etmək üçün xəlq etmişəm." Başqa yerdə möminlərə belə xitab edir" "Ay iman gətirənlər! Allaha itaət edin. Peyğəmbərə (s) itaət edin. (Küfrə, nifaqa, riyaya və şəkk-şübhələrə aldanıb) etdiyiniz yaxşı əməlləri batil etməyin." [1]

عَلَى رَبُّكُمْ كَتَبَ عَلَيْكُمْ سَلاَمٌ فَقُلْ بِآيَاتِنَا يُؤْمِنُونَ الَّذِينَ جَاءكَ وَإِذَا
بَعْدِهِ مِن تَابَ ثُمَّ بِجَهَالَةٍ سُوءًا مِنكُمْ عَمِلَ مَن أَنَّهُ الرَّحْمَةَ نَفْسِهِ
سَبِيلُ وَلِتَسْتَبِينَ الآيَاتِ نفَصِّلُ وَكَذَلِكَ .رَّحِيم غَفُورٌ فَأَنَّهُ وَأَصْلَحَ
الْمُجْرِمِينَ

«Bizim ayələrimizə iman gətirənlər sənin yanına gələndə onlara “salam olsun sizə! Rəbbiniz Özünə (bəndələrə qarşı) rəhmli olmaq qərarını vermişdir ki, sizdən kim nadanlıq üzündən pis bir iş görsə, ondan sonra tövbə edib (öz işini) düzəltməklə məşğul olsa, şübhəsiz, Allah çox bağışlayan və mehribandır” de.» (Ənam 54)

«Biz Öz ayələrimizi (elmi və əməli maariflər üzərindən pərdələri götürən sözləri ali məqsədlər) və günahkarların yollarının aydınlaşması üçün bu cür müxtəlif (hərtərəfli) gətiririk.» (Ənam 55)

Bu ayənin şəni-nüzulunda qeyd olunur ki, günahkarlardan bir dəstəsi Peyğəmbərin (s) hüzuruna gəlib dedi: «Biz çoxlu günah işlər görmüşük (bizim üçün bir çıxış yolu varmı?) Həzrət (s) sakit oldu. Sonra bu ayə nazil oldu.

Bu surədə Allah-təala «kətəbə əla nəfsihir-rəhmətə» (Özünə rəhimli olmağı vacib etmişdir) cümləsini iki dəfə təkrar

---

١ http://ehliwie-samux.com/

etmişdir. Bunların biri dünyada, digəri isə axirətdə insanlara təskinlik vermək üçündür.

Bu ayədən aydın olur ki, əgər günahın mənşəyi inadkarlıq və zülm olmazsa (tövbə etmək şərti ilə) bağışlana bilər. Ümumiyyətlə, cəmiyyətin rəhbəri ilə camaatın əlaqəsi ünsiyyət, mehr-məhəbbət əsasında olmalıdır. Allah-təala rəhməti Özünə vacib etmişdir. Lakin rəhmətin şamil olduğu şəxslər məhz tövbə edənlərdir. 55-ci ayənin təfsirində buyurulur: Biz Öz ayə, nişanə və göstərişlərimizi beləcə bəyan edirik ki, həm haqq axtaranların və mütilərin, həm də haqla düşmən olan inadkar günahkarların yolu aşkar olsun.

«Mücrim» dedikdə haqq qarşısında əsla təslim olmayan inadkar günahkarlar nəzərdə tutulur. Yəni haqqa doğru olan bu ümumi dəvətdən sonra, hətta öz işlərindən peşman olan günahkarların, eləcə də haqqın qarşısında heç vaxt əyilməyən inadkar mücrimlərin və müqəssirlərin yolu tamamilə aydın olacaqdır.

وَإِذَا جَاءكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلاَمٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلَى
نَفْسِهِ الرَّحْمَةَ أَنَّهُ مَن عَمِلَ مِنكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِن بَعْدِهِ
وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَّحِيم. وَكَذَلِكَ نفصِّلُ الآيَاتِ وَلِتَسْتَبِينَ سَبِيلُ
الْمُجْرِمِينَ

«Bizim ayələrimizə iman gətirənlər sənin yanına gələndə onlara “salam olsun sizə! Rəbbiniz Özünə (bəndələrə qarşı) rəhmli olmaq qərarını vermişdir ki, sizdən kim nadanlıq üzündən pis bir iş görsə, ondan sonra tövbə edib (öz işini) düzəltməklə məşğul olsa, şübhəsiz, Allah çox bağışlayan və mehribandır” de.» (Ənam 54)

«Biz Öz ayələrimizi (elmi və əməli maariflər üzərindən pərdələri götürən sözləri ali məqsədlər) və günahkarların yollarının aydınlaşması üçün bu cür müxtəlif (hərtərəfli) gətiririk.» (Ənam 55)

Bu ayənin şəni-nüzulunda qeyd olunur ki, günahkarlardan bir dəstəsi Peyğəmbərin (s) hüzuruna gəlib dedi: «Biz çoxlu günah işlər görmüşük (bizim üçün bir çıxış yolu varmı?) Həzrət (s) sakit oldu. Sonra bu ayə nazil oldu.

Bu surədə Allah-təala «kətəbə əla nəfsihir-rəhmətə» (Özünə rəhimli olmağı vacib etmişdir) cümləsini iki dəfə təkrar etmişdir. Bunların biri dünyada, digəri isə axirətdə insanlara təskinlik vermək üçündür.

Bu ayədən aydın olur ki, əgər günahın mənşəyi inadkarlıq və zülm olmazsa (tövbə etmək şərti ilə) bağışlana bilər. Ümumiyyətlə, cəmiyyətin rəhbəri ilə camaatın əlaqəsi ünsiyyət, mehr-məhəbbət əsasında olmalıdır. Allah-təala rəhməti Özünə vacib etmişdir. Lakin rəhmətin şamil olduğu şəxslər məhz tövbə edənlərdir. 55-ci ayənin təfsirində buyurulur: Biz Öz ayə, nişanə və göstərişlərimizi beləcə bəyan edirik ki, həm haqq axtaranların və mütilərin, həm də haqla düşmən olan inadkar günahkarların yolu aşkar olsun.

«Mücrim» dedikdə haqq qarşısında əsla təslim olmayan inadkar günahkarlar nəzərdə tutulur. Yəni haqqa doğru olan bu ümumi dəvətdən sonra, hətta öz işlərindən peşman olan günahkarların, eləcə də haqqın qarşısında heç vaxt əyilməyən inadkar mücrimlərin və müqəssirlərin yolu tamamilə aydın olacaqdır.

Allahın İnsanları doğru yola hidayət etmək üçün göndərdiyi Kitab, Ona iman edib, əməl edənlərə şəfa verir.

**İtəatkar möminlərdir**

Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun. (Ali imran surəsi 132)

Şübhəsiz, ayələrimizi inkar edənləri cəhənnəmə atacağıq. Onların dəriləri bişdikcə, əzabı dadsınlar deyə dərilərini başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah qüdrətlidir, hikmət sahibidir.( Nisa surəsi 56-cı ayə)

**Namaz qılanlar**

Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (tövbə surəsi 71-ci ayə)

Allah Təala bu nurani ayədə İlahi rəhmətdən bəhrələnməyin 6 meyarını bəyan etmişdir.

1. Əmr-be-məruf.
2. Nəhy-əz-munkər.
3. Namaz qılmaq.
4. Zəkat vermək.
5. Allah Təalaya itaət etmək.
6. Həzrət Peyğəmbərə (s) itaət etmək.

Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi? De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar”.(Zümər surəsi 9-cu ayə)

İslami bəzi mənbə kitablarda gəlibdir ki, Peyğəmbər (s) buyurdu: "Behiştin açarı, namazdır"._"Və namaz təşkil edin ki, namaz (insanı) çirkinlik və günahdan çəkindirir"_ayəsinə və namaz barəsində, digər hədislərə diqqət etdikdə, namazın niyə behiştin açarı olmasını anlamaq olar. Necə ki, Peyğəmbər (s) buyurur: "Namaz dinin sütunudur, onu yerinə yetirməyən, dinini məhv etmişdir".

Həmçinin buyurur: "Hər bir namazın vaxtı çatdıqda, bir mələk camaat qarşısında səslənər ki, qalxın və arxanızda alovlandırdığımız odları, namazla söndürün".

İzah: İnsanın yaranma hədədi Allah- Taalanı tanımaq və ona bəndəlik üçündür._Allaha pərəstiş sayəsində, insan təkamülə və İlahi qürb məqamına yetişir. Namaz, uca Allaha bəndəliyi izhar etməyin ən yaxşı formasıdır. Bundan əlavə, pərəstiş və dua hər bir insanın fitrətində var. O namaz kimi vacibləri yerinə yetirməklə, bu həqiqəti öz vücudunda dirildib, bəsləyib və özünü yaxşılıq və çirkinliklərdən çəkinmə yolunda qərar verir. Beşlik namazlara əhəmiyyət vermək, ruhi fəzilət və qüdrətə səbəb olur ki, insanı günah və pis əməllərdən saxlayır və təqva qüvvəsini insan ruhunda daha da gücləndirir. Bu zaman namazın niyə behişt qapısının açarı olmasını anlamaq olar.

Qeyd etməliyik ki, namaz behişt açarı olması kimi, savab nəzərdə tutulan ibadət əməllərindən biridir. Çünki, rəvayətlərdə pak İmamlar (ə)- a məhəbbət bəsləmək,_La ilahə illəllah « لا إله إلا الله» zikri,_səbr_və ... də behişt açarı sayılıbdır. Ona görə də, behiştin açarı olmaq, namaza məxsus deyil. Amma namaz insanın daha çox məşğul olduğu ibadətlərdən olduğuna və başqa sözlə, mövsümi ibadət

olmadığına görə, vacibdir ən mühümlərində biri olaraq onu yerinə yetirmək onun şərtləri ilə behişt kimi savaba malikdir. Həmçinin bu rəvayətlərdən namazın tövhidə və Allahın yeganəliyinə iman və Əhli- beyt (ə)- a məhəbbət bəsləməklə birgə olub və xüsusi bağlılığın olması başa düşülür.[1]

## Zəkat verənlər

Bizə bu dünyada da yaxşılıq yaz. (Dünyada yaxşı əməllər, axirətdə Cənnət qismət elə). Biz (tövbə edib bağışlanmağımızı diləyərək). Sənə tərəf (hüzuruna) döndük!” (Allah) buyurdu: “İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdi. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!(Əraf surəsi 156-cı ayə)

O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: “Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!” – deyiləcəkdir.(Tövbə surəsi 35-ci ayə)

## Muhsinlər

Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.[2]

## İnfak edənlər

---

İslamquest.ir ١

2 Əraf, ayə 56

Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.(Tövbə surəsi 99-cu ayə) Ehsan və yaxşılıq etmək.

"Biz öz rəhmətimizi istədiyimiz şəxsə yetiririk və yaxşı iş görənlərin mükafatını əsla zay etmirik". ("Yusif" 56).

**Səbr edənlər**

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ

"Sizi qorxu, aclıq, mala və cana zərər, məhsul qıtlığından bir şey ilə imtahan edərik. Səbirlilərə müjdə ver.” (Bəqərə surəsi 155)

Allah təala bütün insanları imtahana çəkir. Amma bütün sınaqlar eyni olmur. Bütün yer üzü sınaq meydanıdır və bütün insanlar - hətta peyğəmbərlər - imtahandadır. Bilməliyik ki, ilahi imtahanlar şübhələri aradan qaldırmaq üçün yox, istedadların çiçəklənməsi və insanların tərbiyəsi üçündür. Bütün acı və şirin hadisələr, o cümlədən, qorxu, aclıq, cana və mala zərər, məhsul qıtlığı ilahi sınaq vasitələrindəndir. Düşməndən qorxu, iqtisadi mühasirə, savaş və cihad, övladların və əzizlərin cəbhəyə göndərilməsi imtahan nümunələrindəndir.

Düşməndən qorxu sınağından qalib çıxmaq üçün Allaha təvəkkül və Onun zikrinə ehtiyac var. Çətinliklərlə mübarizə səbrə ehtiyaclıdır. Əvvəlki iki ayədə bu yol göstərilmişdir.

*Bütün insanların təkbətək sınaqlardan keçirilməsi zəruri deyil. Mümkündür ki:*

a) Hərə bir şeylə sınağa çəkilsin;

b) Bir sınaqdan üzüağ çıxan insan o biri sınaqda rüsvay olsun;

v) Bir şəxsin sınağı bir cəmiyyət üçün sınaq ola bilər.

Bəzən məhsul qıtlığı, mala zərər dəyməsi, qorxu yaranması və digər çətinliklər ilahi sınaqlar səbəbindən baş verir. Bəzən isə bu işlər insanların əməllərinə cəza olaraq müəyyənləşdirilir. Bəzən insanlara çətinlik yaradan onların günahları olur. Həzrət Əli (ə) buyurur: "Həqiqətən, Allah Öz bəndələrini onların günahlarına görə məhsul qıtlığı, xeyir qapılarının bağlanması kimi çətinliklərə salır ki, bəlkə insanlar düşünüb tövbə edələr.”("Ali-İmran”, 146. )

Əlbəttə ki, bu tənbehlər də sınaqdır. Necə ki, imana görə nemət verilməsi də sınaq vasitəsi olur. Quranda oxuyuruq: "Onları sınağa çəkmək üçün şirin (dadlı) su içirdik.”("Bəqərə”, 153. )

*Allah səbirlilərə bir sıra lütflər etmişdir:*

Məhəbbət("Furqan”, 75.); qələbə("Zümər”, 10. ); behişt("Bəqərə”, 155. ); saysız-hesabsız mükafat("Bihar”, c. 45, s. 46. ); müjdə("Məryəm”, 67; "İnsan”, 1.).

*İlahi sınaqdan çıxmağın bir neçə yolu var:*

a) Səbir və müqavimət;

b) Hadisələrin və çətinliklərin ötəri olmasına diqqət;

v) Keçmişdəki insanların müşkülləri necə adlamasına diqqət.

İmam Hüseyn (ə), qucağındakı körpə övladı oxa tuş gəlib şəhid olduqda, buyurdu: "Bu çətin hadisəni Allah gördüyü üçün mənə asandır.”("Dürrül-Mənsur”, c. 1, s. 377.)

Bildirişlər

1. Sınaq və imtahan qəti ilahi proqram və qaydadır.

2. Çətinliklər müqavimət və inkişaf səbəbidir. Səbir, riza, təslim, qənaət, zöhd, təqva, helm, fədakarlıq kimi sifətlər çətinliklərlə üzləşmə sayəsindədir.

3. Ayədə nəyin müjdə verildiyi bəyan olunmamışdır. Ona görə də bu müjdə bütün ilahi müjdələri əks etdirir.

156. الَّذِينَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ قَالُواْ إِنَّا لِلّهِ وَإِنَّـا إِلَيْهِ رَاجِعونَ

"(Səbirlilər) o kəslərdir ki, onlara bir müsibət üz verdikdə deyirlər: "Biz hamımız Allahınıq və Ona doğru qayıdarıq.”

Səbirlilər özlərini satmaq və başqalarına sığınmaq əvəzində yalnız Allaha pənah aparırlar. Onların nəzərincə, bütün dünya dərs sinifi, sınaq meydanıdır və burada inkişaf etməliyik. Dünya dayanacaq, yuxu, işrət yeri deyil. Çətinlikləri Allahın qəzəbi kimi qəbul etmək olmaz. Çətinliklərin səbəbi odur ki, daha sürətli hərəkət etmək üçün ayağımızın altı yansın. Bu baxımdan acılıqlarda da bir şirinlik var. Çünki bu çətinliklərin ardınca istedadların çiçəklənməsi və ilahi mükafatlardan bəhrələnmə gəlir.

Onun tərəfindən olan müsibətlər həqiqi malikin öz mülkü üzərindəki işdir. Allahın həkim və rəhim olduğunu, öz bəndəliyini, əvvəllər bir şey olmadığını, hətta müəyyən mərhələlərdən sonra da zikrə ləyaqətsizliyini anlayan insan(Məaric”, 20. )qəbul edər ki, Allahın ixtiyarında olsun. Bu həqiqətləri bilən insan xatırlayır ki, Allah onu cansız

cisimdən bitkiyə, bitkidən heyvana, heyvaniyyətdən insaniyyətə sövq etdirmiş, uyğun çətinlikləri onun inkişafı üçün qərarlaşdırmışdır. Biz buğda dənəsini əzməklə una çevirdiyimiz, yandırmaqla çörəyə döndərdiyimiz kimi, çətinliklər də insanı kamal mərtəbəsinə ucaldır.

Səbirlilərin şüarı "inna lillahi və inna iləyhi raciun” şüarıdır. Hədislərdə də tövsiyə olunur ki, çətinlik zamanı bu cümləni oxuyaq.("Bəqərə”, 155. ) Çətinliklər zamanı bu cümləni demək və Allahı xatırlamaq bir sıra təsirlərə malikdir; insanı küframiz və şikayətli sözlərdən uzaqlaşdırır; insan üçün təsəlli və həmdərdlikdir; şeytani vəsvəsələrə mane olur; haqq əqidənin izharıdır; başqaları üçün dərs və nümunədir.

*Qarşıya çıxan müsibətə münasibətdə insanlar bir neçə qismə bölünür:*

a) Kimi haray-həşir qoparır("Ziyarəte-Aşura”. );

b) Kimi səbirli, dözümlüdür("Ğaşiyə”, 4. );

a) Kimi də səbirli olmaqdan əlavə şükür edəndir.("Tövbə”, 103. )

Bu sayaq rəftarlar insanın müsibətlərdən agahlıq dərəcəsinin nişanələridir. Necə ki, istiotu körpə uşaq yeyə bilmir, gənc adam onun acısına dözür, yaşlılar isə pul verib onu alır.

Səbrin kökü Allaha və axirətə iman, eləcə də əvəz veriləcəyinə ümiddir[1]

Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (Cənnət) gözləyir. Onlar doğru yolda olanlardır!(Bəqərə surəsi 157-ci yə)

---

http://ehliwie-samux.com/١

**Yaxşılıqlara dəvət edənlər**

Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.(Tövbə surəsi 71-ci ayə)

"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir dəstə olsun! Bunlar (bu dəstə) həqiqətən nicat tapmış şəxslərdir." ("Ali-İmran" surəsi, ayə 104)

"(Ey müsəlmanlar!) Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. (Onlara) yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və Allaha inanırsınız." ("Ali-İmran" surəsi, ayə 110)

"Onlar Allaha, axirət gününə inanır, (insanlara) yaxşı işlər görməyi əmr edir, (onları) pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər". ("Ali-İmran" surəsi, ayə 114)

"Kaş onların (yəhudilərin) din alimləri və fəqihləri onlara günah söyləməyi və haram yeməyi qadağan edəydilər! Onların törətdiyi əməllər necə də pisdir!". ("Maidə" surəsi, ayə 63)

(O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər).

Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!” (“Əraf” surəsi, ayə 157)

“Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir!” (“Tövbə” surəsi, ayə71)

“Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət (hünər) sahibləri yer üzündə fitnə-fəsad törətməyi qadağan edəydilər! Onların xilas etdiyimiz az bir qismi istisnadır. (Onlar keçmiş peyğəmbərlərin əshabələridir ki, insanlara yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edərdilər.)” (“Hud” surəsi, ayə 116)

“(Onlar Allaha) tövbə, ibadət və şükür-səna edənlər, oruc tutanlar (və ya cihad uğrunda, elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər), rüku və səcdə edənlər (namaz qılanlar), yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlər və Allahın hədlərini (halal-haramı) qoruyanlardır. (Ya Rəsulum!) Belə möminləri (Cənnətlə) müjdələ!” (“Tövbə” surəsi, ayə 112)

“O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara bir yer versək), namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu (nəticəsi) Allaha aiddir. (Allah qiyamət günü əməllərinə müvafiq olaraq möminlərə mükafat, kafirlərə isə cəza verəcəkdir)”. (“Həcc” surəsi, ayə 41)

### 3. Allah yolunda cihad edənlər

Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər, Allahın mərhəmətinə ümid edirlər. Allah Bağışlayandır, Rəhmlidir.(Bəqərə surəsi 218-ci ayə)

Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir.(Tövbə surəsi 21-ci ayə)

Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allah yanındadır.(Tövbə surəsi 22)

Zərər çəkmədən (üzrsüz səbəbə görə evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən (vuruşan) kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (hər ikisinə savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir.(Nisa surəsi 95)

وَلَئِن قُتِلْتُمْ فِي سَبِيلِ اللّهِ أَوْ مُتُّمْ لَمَغْفِرَةٌ مِّنَ اللّهِ وَرَحْمَةٌ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

«Əgər Allah yolunda öldürülsəniz, yaxud ölsəniz, şübhəsiz ki, Allah tərəfindən olan bağışlanmaq və rəhmət onların yığdıqlarından (dünya sərvətindən) daha yaxşı.» (Ali Imran 157)

İlahi dünyagörüşdə və dini nəzəriyyələrdə Allah yolunda öldürülmək və şəhadətə çatmaq bütün dünya və onda olan şeylərdən daha yaxşıdır.

İlahi rəhmət və məğfirətin nəticəsi əbədidir, lakin mal-dövlət və sərvətin təsirləri müvəqqətidir. Əsas məsələ insanın Allah yolunda ölməsidir – istər şəhid olmaqla, istərsə də öz əcəli ilə.

Allah yolunda malı və canı ilə cihad etmək Axirətdə rəhmətin səbəblərindəndir. Ununtmamalıyıq ki, böyük cihad, nəfslə cihaddır.

**Quran oxunanda dinləyənlər**

Quran oxunan zaman ona qulaq asın və susun ki, bəlkə rəhm olundunuz. (Əraf surəsi 204)

Ehtiramın insana böyük təsiri var, əgər İnsan xüsusən Allahın sözləri qarşısında ehtiram etsə, bu Onun qəlbində öz təsirini göstərər.

**Axirətdən qorxanlar**

Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi? De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar”. (Zümər surəsi 9)

"Sizlərdən bəzisi dünyanı (döyüş qənimətlərini), bəziləriniz isə axirəti istəyirdi. Sonra sizi sınamaq üçün onlardan (onlara qalib gəlməkdən) yayındırdı. Əlbəttə sizi əfv etdi və Allah möminlərə qarşı (böyük) mərhəmət sahibidir". ("Ali-İmran" 152).

**Mərhəmətli möminlər**

Sonra da iman gətirən və bir-birinə səbr tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır! (Bələd surəsi 17-18).

## BEHİŞTİN QAPILARI

"Zümər" surəsinin 73-cü ayəsində behiştin qapılarından söz açılır:

"Rəbindən qorxanlar (təqvalılar) dəstə-dəstə cənnətə tərəf aparılarlar." Behişt əhlinin "təqva" (Allahdan qorxu) xislətinin xüsusi qeyd edilməsi onun böyük əhəmiyyətini, behiştə daxil olmaqda mühüm rolunu aşılayır.

"Nəhayət, onlar ora (behiştə) çatanda, onun qapıları (onların üzünə) açılar." Öncə cəhənnəmin qapıları ilə bağlı qeyd edilən incə mətləblər bura da aiddir.

"Onun gözətçiləri onlara deyərlər: Salam olsun sizə, (həm cismi, həm də ruhi baxımdan) pak oldunuz. Buna görə də, əbədi məskunlaşmaq üçün ora daxil olun!" Bu ayədə də behiştin qapılarından söz açılsa da, onun təfərrüatı və sayı haqda Qurani-Kərimdə məlumat verilmir. [1]

İnsanın sadəcə bədəninin dəyəri behiştdir. Yüksək məqamlı möminlər Allahla görüşün ləzzətindən behişt neymətlərini də görmürlər.

---

[1] İbadur rəhman (Ayətullah Məkarim Şirazi)

## Behiştin dərəcələri:

Cənnətul-məva

Cənnətul-məva" sakin olmaq üçün olan Cənnət deməkdir. Onun hansı Cənnət olması haqqında təfsirçilər arasında müxtəlif fikirlər var. Bəziləri bu qənaətdədir ki, bu cənnət, həmin əbədi Cənnət, yəni "Cənnətul-xuld"dur. Əbədi Cənnət bütün iman əhli və təqvalı şəxsləri gözləyir. Onun yeri göylərdədir. Bu alimlər sözügedən iddia üçün "Səcdə" surəsinin 19-cu ayəsini əsas gətirirlər:

فَلَهُمْ جَنّاتُ الْمَأْوى نُزُلاً بِما كانُوا يَعْمَلُونَ

"Lakin iman gətirib saleh əməllər edənlər üçün (sakın olacaqları) «Mə'va» Cənnətləri və bağları vardır, etdiklərinin mükafatı olaraq bir qonaqlıqdır."

Çünki bu ayə sonrakı ayə ilə birlikdə şübhəsiz ki, əbədi Cənnətdən söz açır.

Lakin başqa bir ayədə oxuyuruq:

وَ سارِعُوا إِلى مَغْفِرَةٍ مِنْ رَبِّكُمْ وَ جَنَّة عَرْضُهَا السَّماواتُ وَ الْأَرْضُ

"Rəbbiniz tərəfindən olan bağışlanmaya və genişliyi göylər və yer qədər olan Cənnətə doğru tələsin!"

Bəzi alimlər də bu təfsiri qəbul etmirlər, çünki sözügedən ayənin zahiri mənası göstərir ki, "Cənnətul-məva" göylərdə yerləşir və əbədi Cənnətdən fərqlidir. Əbədi Cənnətin genişliyi bütün göylər və yerdir.

Ona görə də, onu bəzən Cənnətin "Sidrətul-müntəha"nın kənarında müxlis insanların sakin olduğu xüsusi məqamı kimi təfsir etmişlər.

Bəzən də onun şəhidlərin, möminlərin müvəqqəti olaraq qaldıqları Bərzəx cənnəti olduğunu güman etmişlər.

Sonuncu və bütün təfsirlərdən daha münasib nəzərə çarpan təfsir isə budur ki, merac haqqında olan hədislərin çoxunda

deyilir ki, Peyğəmbər (sallallahu əleyhi və alih) bir dəstə insanı bu Cənnətdə nemət içində gördü. Bilirik ki, heç kim Qiyamət günündən öncə əbədi Cənnətə ayaq basa bilməz. Quran ayələri aydın şəkildə göstərir ki, təqvalı insanlar ölümdən dərhal sonra deyil, Qiyamət günü hesab-kitabdan sonra Cənnətə daxil olacaqlar. Şəhidlərin ruhları da Bərzəx Cənnətində sakindirlər. Çünki onlar da Qiyamət günündən öncə əbədi Cənnətə daxil olmayacaqlar.[12]

Firdovs Cənnətin ən üstün yeridir. Quran ayələrində deyilir ki, Firdovs imanlı insanların və saleh əməl sahiblərinin mənzilidir. Burada bir sual yaranır ki, belə olduqda Cənnətin digər məntəqələri sakinsiz qalmalıdır. Çünki möminlərdən başqa heç kəsə Cənnətdə yer yoxdur. Bu suala "Kəhf" surəsinin 107-ci ayəsində cavab verilir. Allah-taala buyurur:
إِنَّ الَّذِينَ آمَنُوا وَ عَمِلُوا الصّالِحاتِ كانَتْ لَهُمْ جَنّاتُ الْفِرْدَوْسِ نُزُلاً
"Həqiqətən, iman gətirmiş və yaxşı işlər görmüş kəslərin yerləri Firdovs bağlarıdır."
Ayədə iman və saleh əməllərə nail olan hər bir insana işarə olunmur. Yəni, Firdovs bağına daxil olmaq üçün iman və saleh əməl baxımından yüksək dərəcəyə nail olmaq meyar qərar verilmişdir. Ayənin zahiri mənası mütləq (qeydsiz-şərtsiz) olsa da "Firdovs" kəlməsinin mənasını onu şərtləndirir.
Bu səbəbdən "Muminun" surəsində Firdovsun varislərinin xüsusiyyətlərini bəyan edərkən mömin insanların ən yüksək xüsusiyyətlərinin adı çəkilir ki, bu xüsusiyyətlər hər insanda yoxdur. Bu da öz-özlüyündə göstərir ki, Firdovs sakinləri iman və saleh əməldən əlavə seçilmiş xüsusiyyətlərə malik

---

Makarem.ir١
Makarem.ir٢

olmalıdırlar.
Həmçinin, Peyğəmbərdən (sallallahu əleyhi və alih) nəql olunan hədisdə Həzrət buyurur: "Hər zaman Allahdan Cənnət istəsəniz, xüsusi olaraq Firdovsu istəyin. Firdovs Cənnətin ən came və kamil məkanıdır."
Hədisdən aydın olur ki, imanlı insanların səy və gördükləri işlər hər yerdə və hər halda ən yüksək dərəcədə olmalıdır. Hətta Cənnət istəyərkən belə aşağı mərhələlərə qane olmamalıdır. Söz yox ki, aşağı mərhələlərdə də nemət içində qərq olur.
Aydındır ki, Allahdan belə bir məqam diləyən bir şəxs belə bir məqama çatmaq üçün özünü hazırlamalıdır. Mütləq ən yüksək insani xüsusiyyətləri əldə etmək və ən saleh əməlləri etmək üçün maksimum səylərini göstərməlidir.
Bu baxımdan “Allah eləsin biz də Cənnətə yol tapaq, ən aşağı dərəcələrində olsa da olar” deyənlər həqiqi möminləri yüksək səylərindən kifayət qədər dərs almayan şəxslərdir[1]

Behişt bağlarını çəkməyin mənim gözümə,

Behiştidən də gözəl Kərbəlası var ağamın.

**Rəhman Allahın əzabla nə işi?**

Belə bir şübhədə ola bilər ki, Öz bəndələrinə mehriban, rəhimli Allah belə qorxulu əzabları onlara necə rəva bilər?

Cavab budur ki, Allahın lətif sifətləri olduğu kimi, qəhr, qəzəb sifətləridə vardır. Behişt Onun lütfunun məzhəridirsə, cəhənəm də Onun qəhrinin zühur yeridir. Məhz rəhməti qəhrinə qalib olduğundan, Allah təala kimsənin kafir olmasına, cəhənnəmə

---

Makarem.ir١

getməsinə razı deyil. Amma əgər insanlar özləri alova üz tutarlarsa, Allah onların qarşısını almır. Bu Onun hikmətinə zidd olardı. Çünki Allah insanların Ona iman gətirmələrinə möhtac deyil. [1]

Allahın öz fəzli (Rəhmi) ilə hesab aparması

Mümkündür, boynunda xalqın haqqı olan şəxslə Allah təala Öz rəhmi ilə hesab aparsın. Bu şəxsin xalqın haqqını ödəmə dayanacağında məətəl durduğu vaxt, Allah Öz rəhmi, kərəmi ilə bir behişt qəsri göstərər. Nida olunar: Ey bu bəndənin boynunda haqqı olanlar, əgər bu qəsri istəyirsinizsə, bu şəxsi rahat buraxın və onu halal edin. Bəli, Allahla bağlı olan insanın hər yerdə çətinliyi həll olar. Allahın islah etmədiyini kim islah edə bilər?

Bu səbəbdən bu duanı etməliyik ki, Pərvərdigara, bizimlə Öz rəhmətinlə rəftar et. Hz.Səccad (a.s) Əbu həmzə somali duasında neçə yerdə nalələr çəkib: Xudaya, gözümü fəzl və kərəminə dikmişəm. (Amma Allah öz ədaəti ilə rəftar edərsə, hər əməlin cavabını zərrə-zərrə verməliyik).[2]

1- Allah kimləri bağışlamaz

“Rəd” surəsinin 6-cı ayəsini nəzərdən keçirməklə bu sualın cavabını tapmaq olar. Allah-taala buyurur:
وَإِنَّ رَبَّكَ لَذُو مَغْفِرَةٍ لِّلنَّاسِ عَلَى ظُلْمِهِمْ وَإِنَّ رَبَّكَ لَشَدِيدُ الْعِقَابِ
"Həqiqətən, sənin Rəbbin insanların zülmlərinə baxmayaraq onlara qarşı əfv sahibidir və əlbəttə, Rəbbin şiddətli cəza

---

Məad. Ayətullah şəhid seyyid əbdulhuseyn dəstfeyb١
Məad. Ayətullah şəhid seyyid əbdulhuseyn dəstfeyb٢

verəndir."
Heç bir zaman onun cəzasının şiddəti ümumi rəhmətinə mane olmayacaq. Onun ümumi rəhməti insanları yanlışlığa salmamalıdır. Belə ki, onun geniş rəhməti zalımlara istədikləri qədər zülm etməyə imkan yaradır. Əsla belə deyildir, çünki belə hallarda O şiddətli cəza verəndir. Allahın bu iki (bağışlayan və şiddətli cəza verən) sifətindən birinə tuş gəlmək insanın vücudunda olan istedadlara bağlıdır. Yuxarıdakı ayədə qeyd olunur ki, Pərvərdigar insanların Ona qarşı etdikləri zülmə baxmayaraq, bağışlayan və əfv edəndir. Təbii ki, ayədə Allahın öz zülmlərində israrlı olan zalımları bağışlayacağı nəzərdə tutulmur. Sadəcə bu yolla zalım insanlara da qayıtmaq və özlərini saflaşdırmaq imkanı yaradır. Əks təqdirdə "Allah şiddətli cəza verəndir" cümləsinə aid ediləcəklər.
Bunu da qeyd etmək lazımdır ki, sözügedən ayədən böyük günahların da (o cümlədən zülm, əlbəttə şərtləri ilə) bağışlanmasının mümkünlüyü başa düşülür. Bu və bu kimi ayələr qədimdən "Mötəzililərin" "böyük günahlar heç bir zaman bağışlanmayacaq" yanlış fikrini alt-üst edir. Hər bir halda Pərvərdigarın geniş bağışlaması və şiddətli cəzasından gedən söhbət həqiqətdə hamını qorxu ilə ümidin orta xəttində saxlamaq üçündür. Bu, insan təlim-tərbiyəsinin əhəmiyyətli amilidir. İnsanın günahı ağır olsa da Allahın rəhmətindən ümidini kəsməməlidir. Həmçinin günahı az olsa da özünü Allahın cəzasından amanda olduğunu düşünməməlidir.
Ona görə də Peyğəmbərdən (səllallahu əleyhi və alih) nəql olunan bir hədisdə oxuyuruq:
لَولا عَفْوُ اللهِ وَتَجاوُزُهُ ما هَنَأَ أَحَداً اَلْعِيشُ، وَلَولا وَعِيدُ اللهِ وَعِقابُهُ لاَتَّكَلَ كُلٌّ واحِد
"Allahın əfv və bəxşişi olmasaydı, həyat heç kəsə şirin

olmazdı. İlahi təhdid və cəzalar olmasaydı, hamı Allahın rəhmətinə arxalanar və istədiyi hər şeyi edərdi.[1]

Alimlərin nəzərinə görə, O kəslər ki, dindən xəbərləri olmayıb, və ya elə bir şəraitdə yaşayıblar ki, din onlara səhv tanıtdırılıb. Imkanları ds olmayıb haqqı tanısınlar, Allah Onları vicdanları əsasında hesab kitab edəcəkdir.

## Əhli-beyt (a.s) sevgisi Axirətdə zəmanətdir

Qiyamət günü Allah bir dəstə mələk seçib əllərinə, üzərində bu Adam oddan nicat tapıb sözü yazılmış bir kağız verəcək. Onlar da camaatın arasında gəzib Əhli-beyti sevənlər və ürəyi Əhli-beyt məhəbbəti ilə dolu olan insanlara bu kağızı verəcəklər.

Peyğəmbər (s) də məhz elə bu səbəbdən şad olmuşdu. Çünki, Allah Əhli-beyti sevənləri belə bir vəsiqə ilə müjdələyib. [2]

## Şəfaət kimlər üçün inkar edilir?

İlk növbədə şəfaətin tamamilə inkar edildiyi ayələrə nəzər salaq. Allah-Təala Qurani-Kərimin “Bəqərə” surəsinin 48-ci ayəsində buyurur: “Və o gündən qorxun ki, heç kəs başqasının haqqını ödəyə, bir diləyi yerinə yetirə və bir əzabı dəf edə bilməyəcək və heç kəsin şəfaəti qəbul olunmayacaq...” Bu ayə şəfaəti inkar edən ayələrdəndir. Digər bir yerdə, “Bəqərə”

---

Makarem.ir1
http://ehliwie-samux.com/٢

surəsinin 254-cü ayəsində Allah Təala buyurur: “Ey iman gətirənlər, nə alış-veriş və nə də dostluq və şəfaətin olmayacağı gün gəlməmişdən qabaq sizə ruzi olaraq verdiklərimizdən (Allah yolunda) xərcləyin...” Burada da şəfaətin olmayacağı bildirilir. “Müdəssir” surəsinin 48-ci ayəsində isə buyurulur: “Şəfaət edənlərin şəfaəti olanlara heç bir fayda verməyəcəkdir”. Bu ayə, öncəki iki ayədən bir qədər fərqlənir. Burada şəfaət edənlərin olduğu bildirilir, lakin, onların şəfaətinin həmin şəxslərə heç bir fayda verə bilməyəcəyi göstərilir.

Ayələrə nəzər saldıqda görünür ki, şəfaətin inkar edilməsi ilə bağlı ayələr, başlıca olaraq müşriklərlə, bütlərə tapınanlarla bağlıdır. Yəni onlara bildirilir ki, sizin tapındığınız bütlər, sizin istədiyiniz cansız daş parçalarının heç bir şəfaət gücü yoxdur. Onlar həmin insanlar üçün şəfaətçi ola bilməyəcəklər. Digər tərəfdən isə şəfaətin olmaması Bəni-israil övladları üçün də göstərilir. Belə ki, onlar bildirirdilər ki, bizim əcdadlarımız peyğəmbərlər (ə) olub və biz nə çirkin işlər görsək də, əcdadlarımızın peyğəmbər (ə) olması bizə kifayət edəcək. Həmin ayələrdə əslində şəfaətin olmaması ilə bağlı onlara da işarə olunur ki, onlar çox arxayın olmasınlar. Qurani-Kərim bildirir ki, bu cür insanlar üçün şəfaət yoxdur. Ona görə də, bu ayələrlə rastlaşarkən, şəfaətin inkar edilməsi kökündən yalnış olan məsələdir. Çünki həmin ayələrin hansı zamanda, hansı məqamda nazil olmasını araşdıranda, onların kimlərə və nəyə aid olması açıq-aydın görünür.

İkinci qrup ayələrə, şəfaətin yalnız Allaha məxsus olmasına işarə edən ayələrə də nəzər salmaq zəruridir. Qurani Kərimin “Zumər” surəsinin 44-cü ayəsində Allah-Təala buyurur: “De: ”Şəfaət və vasitəçilik bütünlüklə Allaha məxsusdur...""

Buradan aydın olur ki, şəfaət var və bu şəfaət yalnız və yalnız

Allaha məxsusdur. Digər bir yerdə, “Səcdə” surəsinin 4-cü ayəsində buyurulur: “...Sizin Ondan başqa heç bir haminiz və şəfaətedəniniz yoxdur...”. Burada da şəfəat yalnız Allaha aid edilir.[1]

**Məsumların şəfaəti**

Həzrət peyğəmbər buyurur ki, qiyamət günündə bütün gözlər ağlayacaq, yalnız 3 gözdən başqa. Peyğəmbərdən soruşdular ki, o hansı gözlərdir ağlamaz? Peyğəmbər buyurdu: "Birinci o gözlərdir ki, Qədr gecələrində oyaq qalar, ikinci o gözlərdir ki, Allah qorxusundan ağlayır və üçüncü o gözlərdir ki, İmam Hüseyn üçün ağlayar".

Həqiqətən də xoş olsun o möminlərin halına ki, bu gün İmam Hüseyn (ə) əzasındadırlar. İmam Hüseynə "ləbbeyk" deyiblər. Həzrət Zəhranı, həzrət Əlini tək qoymurlar. İmam Hüseynin yasında əyləşib ona əza saxlayırlar.

Əgər qiyamət səhnəsinə diqqət etsək, qiyamət günündə İmam Hüseyn (ə) əzadarlarına olan böyük rəhməti görərik. Hədisdə var ki, Qiyamət günündə Xanım Zəhra (ə) yetmiş min mələyin əhatəsində daxil olar məhşərə və bir təyin olunmuş mələk nida edər: *"Ey məhşər əhli başınızı aşağı salın peyğəmbər qızı Zəhra gəlir"*.

Hədis belə buyurur ki, bütün məhşər əhli ixtiyarsız başını aşağı salar. Və Xanım məhşərin uca bir yerinə çatdıqda dayanar. Məmur mələk nida edər ey peyğəmbər qızı daxil ol cənnətə. Xanım getməz, mələk bir də eyni nidanı edər. Hədis eynilə belə buyurur xanım behiştə girməz və soruşarlar nə istəyirsən?

---

Musavat.com[1]

Xanım Zəhra (ə) belə buyurar: "*Qızım Zeynəbin, oğlum Hüseynin əzadarları behiştə daxil olmayınca mən behiştə girmərəm"*.

Və xanıma belə nida olar ki, *məhşər əhli arasından Hüseynivin əzadarlarını seç apar behiştə. Hədisdə var ki, İmam Hüseynin əzadarları üzlərinin nurundan bəlli olar.*[1]

Xanım Fatimeyi-Zəhranın (s.ə.) məhşər səhrasında uca məqamı:

İmam Səccad (ə) buyurmuşdur: "Qiyamət günü xanım Fatimeyi-Zəhra (s.ə.) məhşər səhrasına daxil olduğu zaman, belə bir nida eşidilər: "Əhli-beytə (ə) məhəbbət bəsləyənlərdən başqa, hamılıqla başınızı aşağı dikin (ki, Fatimə (s.ə.) gəlir). Budur Mühəmmədin (s) qızı Fatimə!" Xanım Fatimə (s.ə.) və onunla birgə olanlar behiştə doğru hərəkət edərlər. Allah-Taala bir mələyi onun hüzuruna göndərib deyər: "Nə istəyirsənsə, Məndən istə!" Xanım Fatimə (s.ə.) ərz edər: "İlahi! Mənim istəyim odur ki, mənə və övladlarıma yardımçı olanları əfv et." Bu məzmunda (azacıq fərqlə) imam Baqirdən (ə) də başqa bir hədis nəql olunmuşdur (Əvalimul-ülum", 11-ci cild, səh.2, hədis: 1779-1780; "Şəvahidut-tənzil", c.1, səh.153.)[2]

Əhli-beyt(a.s) necə bir Kərim ailədirlər ki, Allah buyuru: Nə istəyirsiz istəyin. İstəkləri müsəlmanların bağışlanmasıdır.

Məsumlar (ə) içərisində şəfaət edənlərdən biri də İmam Hüseyndir (ə). Həzrət Hüseyn (ə) o kəslərə şəfaət verəcəkdir ki, onun məktəbinin şagirdi olmuşdur.

---

kerbela.info١

Milli.az٢

Quran və İmam Hüseyn (ə) məktəbi elə bir İlahi kəndirdir ki, bəşəri bədbəxtlik quyusundan çıxardıb, səadətə çatdıra bilər. Şəfaət hər üç dünyada insana şamil ola bilər. Şəfaətin ən çox şamil olduğu zaman – Qiyamətdir. Seyyidi-şühəda (ə) öz davamçılarına həm dünyada, həm bərzəxdə və həm də Qiyamətdə şəfaət verir və verəcəkdir də. Əmirəl-möminin (ə) buyurur: “Bizim üçün şəfaət vardır və bizim dostlarımız üçün də şəfaət vardır”. Başqa bir hədisdə oxuyuruq: “Şəfaət edənlər İmamlardır və möminlərin dostlarıdır”.
Bəli, İmam Hüseyn (ə) o Məsumlardandır ki, Qiyamət günü öz aşiqlərinə və dostlarına şəfaət verəcəkdir. İmam Hüseyn (ə) buyurur: “Hər kim mənim ölümümdən sonra məni ziyarət edərsə, ölümündən sonra mən də onu ziyarət edərəm”. Hədis nəql edənlərdən biri danışır ki, bu hədis mənim zehnimdə davamlı olaraq qalırdı və bir gecə İmam Hüseyni (ə) yuxuda gördüm və soruşdum ki, ağa, bu hədis doğrudurmu? Buyurdu: “Bəli, baxmayaraq ki, atəşdə olsa belə, onu çıxardaram”.
Dedim: “Ağacan, bu hədisi vasitəsiz sizin adınızdan nəql edə bilərəmmi?”.
Buyurdu: “Bəli”.[1]

Həzrət Seyyidi-şühəda (ə) öz davamçıları can verən zaman başlarının üzərinə gəlib onlara yardım etdiyi kimi, bərzəx aləmində də onların fəryadına çatacaqdır.

Hacı Şeyx Abbas Quminin oğlu mənim üçün (Ustad Ənsari üçün) nəql edir: "O zaman ki, atamı Nəcəfdə dəfn etdilər, yuxu aləmində onu ziyarət etməyə nail oldum. Onun halını

---

[1] İslami saytlara istinadən

soruşdum. O, sevincli üzlə mənə dedi: "O zamandan ki, bərzəxə daxil olmuşam, indiyə qədər məni üç dəfə Seyyidi-şühədanın (ə) yanına aparıblar. Mən də onu ziyarət etmişəm"".

Şəhid Mütəhhəri Ayətullah Hacı Mirzə Əli Şirazı barəsində yazır: "Bir gün o, dərs otağında göz yaşları saqqalından axa-axa bizə yuxusunu nəql etmişdi. O, demişdi: "Mən gördüm ki, ölümüm gəlib çatıbdır və ölməyi bizə təsvir etdikləri kimi gördüm. Özümü bədənimdən ayrı gördüm və müşahidə etdim ki, bədənimi qəbiristanda dəfn etmək üçün aparırlar. Sonra məni qəbrə qoyub dəfn etdilər. Mən tək qaldım. Başıma nələrin gələcəyindən nigaran idim. Anidən ağ rəngli it gördüm ki, qəbrə daxil oldu və hiss etdim ki, bu it mənim tünd və kobud rəftarlarımdır ki, bu cür təcəssüm olmuşdur. Bu zaman çox nigaran oldum və qoxdum ki, bu it mənə zərər vuracaqdır. Elə o halda idim ki, Seyyidi-şühəda (ə) gəldi və mənə buyurdu: "Nigaran olma, mən onu səndən ayıraram"".

Allahla Seyyidi-şühəda (ə) arasında qırılmaz bağlar vardır və bu bağlar aşiqlə məşuqun bağına bənzəyir. Ona görə də hər kim İmam Hüseyn (ə) müsibətinə görə qəmlənər və göz yaşı tökər, Allah yanında məqamı yüksələr və mənəvi kamala çatar. Çünki İlahi qürbə çatmaq üçün bu, ən yaxın yoldur. Hələ ki, fürsət var, siz də ondan faydalanın.[1]

Həzrəti İmam Rzadan (ə) rəvayət olumuş hədisdə öz zəvvarlarının əlindən tutacağı barədə məlumat var. İmam (ə) bir neçə çətin mərhələlər var ki orada Mütəal Allahın izni ilə öz zəvvarı olmuş kəslərin köməiynə yetişəcək.

Bu barədə mötəbər mənbələrdə qeyd olunur. Hətta Əhli

---

Kerbela.info ١

Sünnənin böyük alimlərində olmuş Hakim Nişaburi özünün Tarixi Nişabur kitabında ( səh-27) etiraf edir ki, İmam Rza (ə) insanlar üçün vəhşətli olacaq qiyamət günündə Allah Taalanın izni ilə öz zəvvarı olmuş kəslərə kömək əlini uzadacaq. İmamdan (ə) nəql olunmuş hədisdə buyurulur:
Hər kəs uzaq olmasına baxmayaraq məni ziyarət edə, qiyamət günü üç yerdə onun yanına (köməyinə) gələrəm və onu qorxudan, çətinlikdən qurtararam. Əməl dəftəri sağ və ya sol əlinə veriləndə, Sirat körpüsünü keçəndə və mizan tərəzisində əməli ölçüləndə.
Şeyx Səduq Əmali kitabında nəql edir (səh-119): Bəzənti deyir: İmam Rza (ə)dan eşitdim, buyurdu: Dostlarımdan hər kim arifanə şəkildə mənim ğörüşümə gəlsə qiyamət günündə mən ona şəfaət edəcəm.
İmam Baqir (ə) babasından nəql edir ki, Əmirəl Möminin Əli (ə) Peyğəmbərdən (s) nəql edib ki: Allah Rəsulu (s) buyurdu: Mənim bədənimin bir parçası Xorasanda dəfn olunacaq. Hər bir çətinliyə düçar olmuş onu ziyarət etsə Allah ona rahatlığ verər. Hər bir günahkar onu ziyarət etsə Allah onun günahlarını bağışlayar (Uyuni-Əxbari-Rza. 2:257) ( Əmali Səduq-119).

Hədislərdən göründüyü kimi İmam Rzanın (ə) ziyarətində kəramət vardır. Ziyarət insanın həm dünya, həm axirət həyatında dərin iz buraxır. Mütəal Allahın izni ilə dünyada insana mənəvi yüksəliş, günahların bağışlanması, çətinliklərin həlli, axirətdə isə hədisdə qeyd oluna 3 yerdə insanın dadına yetir.[1]

---

Ahlibeyt.ge[1]

Əhli-beyt (ə) baxçasının şəfaət gülü - Həzrət Zeynəb (s.ə)
İslamda şəfaətdən danışdıqda, Əhli-beyt (ə) bağçasının şəfaət vermək məqamına malik olduqca dəyərli güllərindən danışmaq lazımdır. Belə bir şəxsiyyətlərdən biri - Həzrət Zeynəbdir (s.ə). Həzrət Zeynəb (s.ə) haqqında danışmaq çox çətindir. Çünki onun mübarək adı müsibətlərlə, Kərbəla səhnələri ilə həmahəng olaraq çəkilir. Həzrət Zeynəb (s.ə) böyük şəfaət məqamına malik olan şəxslərdən biri olaraq tanınır. Onun bu məqamını tanımaq üçün ilk öncə həyatına qısaca da olsa nəzər salmaq önəmlidir.
Hər bir insanın yetişməsi, formalaşmasında üç amil çox mühümdür. Birincisi, onun hansı nəslə, hansı ailəyə mənsub olmasıdır. İkinci amil, insanın yetişməsi üçün zəruri olan mühitdir. Üçüncü, insanın özünün iradəsi və iradəsindən irəli gələrək istedadlarını inkişaf etdirməsi ilə bağlıdır.[1]

Həzrəti Məsumənin (s.ə) məqamı o qədər böyükdür ki, müsəlmanlara şəfaət verəcəkdir. Həzrət Məsumə (s.ə) alimlər və fəqihlər arasında “Əhli-Beytin (ə) kəriməsi” ləqəbini almışdır. Bu ləqəb ancaq o Həzrətə (s.ə) şamil edilir. Ayətullah Mərəşi-Nəcəfinin nəqlinə görə, bu ləqəbi o gözəl Xanıma (s.ə) Həzrət İmam Sadiq (ə) vermişdir. Ayətullah Mərəşi-Nəcəfi gördüyü sadiq yuxuların birində İmam Sadiqin (ə) Xanıma bu cür müraciət etdiyini eşitmişdir: “Eşq olsun sənə, ey Əhli-Beytin (ə) kəriməsi!”. Ayətullah Hacı Seyyid Muhəmməd Vəhidi seyyidlərin birindən nəql edir: “Gecə röya aləmində Həzrət Məsumə Fatimənin (s.ə) xidmətinə getmişdim. Aramızda maneə və pərdə yox idi. Hiss etdim ki, mən Xanım üçün məhrəməm. O, seyyidlərin bibisidir. Ondan soruşdum:

---

Musavat.com ١

“Siz Qum əhlinə şəfaət verəcəksiniz?”. Xanım cavabında buyurur: “Mirzə Qumi, Qum əhlinin şəfaəti üçün kifayətdir, mən isə bütün Əhli-Beyt (ə) davamçılarına şəfaət verəcəyəm””.

Bu yuxu İmam Sadiqdən (ə) gələn bu hədisi yada salır: “Onun (Həzrət Məsumənin (s.ə)) şəfaəti ilə bütün Əhli-Beyt (ə) davamçıları behiştə daxil olacaqlar”.

Allah bizlərə Xanım Məsumənin (s.ə) mənəvi məqamını tanımaq tövfiqini və şəfaətinə nail olmağı nəsib etsin![1]

Şəfaət insanda ilahi rəhmətə ümid yaradan ən böyük vasitələrdən biridir.

## Ədəbiyyat

1- ***Qurani-kərim***

2- ***Nəhcül-bəlağə***

3-Amedi, Əfulfəth, ***Qürərül-hikəm və dürəül-kərim, ,*** Qahirə: Darul-kotobil-İslamiyyə, 1380 h.ş.

4- Amoli, Hürr, Məhəmməd ibn Həsən, ***Təfsili-vəsailüş-şiə, fit-təhsili-məsailiş-şəriə,*** Qum: Alul-beyt müəssisəsi, 1367 h.ş.

5. Ahlibeyt.ge

6- Bürucerdi, Seyid Hüseyin, ***Camei-əhadisiş-şiə,*** Qum: əl-Mətbəul-elmiyyə, 1379 h.ş.

7- Dəstğeyb, Məad, Bakı nəşri

8- Feyz Kaşani, Möhsin, ***Məhəccətül-beyza,*** Qəzvin: İntişarate həkim, 1963

---

[1] Ahlibeyt.ge

9- Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, ***Müstədrəku ələs-səhiheyn,*** Beyrut: Darut-tasil, 1335 h.q.

10-Helli, Vəram ibn Əbi Feras, ***Tənbihül-xəvatir,*** **Qahirə:** Darul-afaqil-ərəbiyyə, 1430 h.q.

11- Hərani, Həsən ibn Əli, ***Tuhəful-üqul,*** Beyrut: Darul-elmil-ərəbiyyə, 1434 h.q.

12- Həmiri, Abdullah ibn Cəfər, ***Qürbul-isnad,*** Beyrut: Darul-elmil-ərəbiyyə, 1435 h.q.

13- Xarəzmi, İbn Əhməd, ***əl-Mənaqib,*** İstanbul: Darol-fikr, 1358 h.ş.

14- İbn Babəveyh, Səduq, ***əl-Xisal,*** Qum: Muəssieye nəşre İslami, 1380 h.ş.

15 -İbn Babəveyh, Səduq, ***Əmali,*** Tehran:Ərməğane Tuba, 2017

16- İbn Babəveyh, Səduq, ***Mən la yəhzəruhul-fəqih,*** Qum: Muəssieye nəşre İslami, 1363 h.ş.

17- İbn Babəveyh, Səduq, ***Məaniul-əxbar,*** Tehran:Muəssieye nəşre İslami, 1370

18- İbn Əbil Hədid, ***Nəhcül-bəlağənin şərhi,*** Beyrut: əl-Mətbəul-elmiyyə, 1374 h.ş.

19- İbn Əsakir, Əbu Qasim, ***Tarixi-Dəmeşq,*** Qahirə:Darul-kotobel-elmiyyə, 1983

20- İbn Əsir, İzzuddin, ***əl-Kamil fit-tarix,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1987

21- İbn Əsir, Cəzri, ***Üsdül-ğabə,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1989

22- İbn Hənbəl, Əhməd, ***əz-Zöhd,*** Qahirə: Darul-ketabil-İslami, 1380 h.ş.

23 -İbn Hişam, Əbu Məhəmməd, Beyrut: ***Sirətun-nəbəvi,*** 1994

24- İbn Şəhri Aşub, ***Mənaqib,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1983

25-İbn Qəyyim Cuzi, Muhəmməd bin Əbibəkr, ***Zadül-məad fi huda xeyril-ibad,*** Qahirə: Darul-afaqil-ərəbiyyə, 1428 h.q.

26- Məclisi, Məhəmməd Baqir, ***Biharül-ənvar,*** Qahirə: Darol-kotobel-İslamiyyə, 1315 h.ş.

27- Müfid, Məhəmməd ibn Məhəmməd, ***əl-İrşad,*** Qahirə: Darol-kotobel-İlahiyyə, 1355 h.ş.

28 - Məhəmməd Baqir Məhmudi, ***Nəhcüs-səadə,*** Bağdad: Nəşrul-elm, 1984

29- Məhmud Şərifi və başqaları, ***Musuətu-kəlimatil-İmamil-Hüseyn (ə),*** Qum: Usvə, 1383 h.ş.

30- Makarem.ir

31- Mütəhhəri, Mütrəza, ***Dastani-rastan,*** Tehran: İntişarate Sədra, 1357 h.ş.

32- Mühəddis Qummi, ***Kəhlül-bəsər,*** Qum: İntişarate Sübhan, 1962

# Quranın Hərtərəfli olmaq baxımından möcüzə olması

Elçin Əliyev[1]

## Abstrakt

Qarşınızdakı elmi əsər, Quranın möcüzəvi bir kitab olduğunu sübut etmək, eyni zamanda insanları Quranın zənginliklər ilə dolu olan mənaları ilə yaxından tanış etmək məqsədi ilə ərsəyə gətirilmişdir.

Bu yazıda əsasən vahid bir hədəfə tərəf addım atılır. Belə ki, Quran ayələrinin əhatəli olması haqqında danışılaraq, bu müqəddəs kitabın möcüzəvi bir kitab olması haqqında məlumat verilir. Yazının bu hissəsindən məqsəd budur ki, Quranın bir mövzu haqqında yox, çox sayda mövzular barədə məlumat verən bir kitab olduğu sübut olunsun. Yəni Quranda yalnız islam şəriətinə aid olan mövzulardan yox, bəlkə əxlaq, məntiq, tarix, tibb, hekayə, nəsihət, sosyologiya, ailə davranışları, yaradılış və bir çox fərqli mövzular haqqında danışılır.

Quran ilə yaxından tanış olmayan insanlar və ya bəzi İslam düşmənləri, Quranda danışılan tarixi hadisələrin uydurma olduğunu iddia edirlər. Bu elmi işdə onların iddiasının yanlış olduğu sübut olunur.

**Açar kəlmələr:** Quran, möcüzə, əhatəlilik, hərtərəfli

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

# Giriş

Quranın möcüzəvi bir kitab olduğu barədə fərqli dillərdə və çox sayda kitablar yazılıb. Həmin kitablarda Quranın bir çox möcüzələri barədə kifayət qədər məlumatlar var. Bunu nəzərə alaraq, həmin kitabların mövzusu olan möcüzələrinin bəzisinə işarə edib, daha sonra əsas mövzumuza keçəcəyik.

İndiyə qədər, Quran ayələri arasında ziddiyyətin olmaması, Quranı gətirənin (peyğəmbər) Ümmi (Təhsil almayıb) olması, Quranın Fəsahət və Bəlağəti, onun səlislik və ritorika, İfadə üslubu, əsaslandırma üsulu, qeybi xəbərləri, elmi xəbərləri, ədəbi möcüzəsi və bu müqəddəs kitabın təhrif olunmamaq baxımından möcüzə olması kimi çox sayda möcüzəvi cəhətləri əsas tutularaq, fərqli dillərdə kitablar yazılıb.

Biz isə bu elmi işdə Quranın fərqli və yeni bir xüsusiyyətini araşdırıb, onun möcüzəvi bir kitab olduğunu sübut edəcəyik. Təbii ki, Quran Allahın bəndələri üçün göndərdiyi sonuncu kitabıdır və bu kitab qiyamətə qədər insanlara nümunə olacaq. Bu baxımdan da, qiyamətə qədər Quranın daha fərqli və yeni möcüzəvi cəhətləri aşkar olunacaq.

Ümid edirəm ki, bu elmi iş Quranla daha yaxından tanış olmağa bir vəsilə olacaq və gün keçdikcə qəlbimiz Quran nuru ilə daha da işıqlı olacaq.

Quran insanları doğru yola dəvət etmək üçün nazil olan bir kitab olmasına baxmayaraq, bu kitabda şəriət qanunlarından başqa, digər mövzular barədə də kifayət qədər ayələr var.

Əgər Quranın ayə və surələrini diqqətlə oxusaq, çox sayda və fərqli mövzularda faydalı məlumatlara rast gələ bilərik. Belə ki, əgər Quranın bütün ayələrini oxusaq, görərik ki, orada yalnız şəriət ayələri yox, fərqli mövzularda da ayələr var.

Misal üçün ayələrə diqqət etsək, görərik ki, orada islam əxlaqı, irfan, rəhbərlik mövzusu, elmi həqiqətlər, iqtisadiyyat, səyahət, astranomiya, təlim-tərbiyə, turizm, ailə və bu kimi bir çox faydalı mövzular haqqında da ayələr var.

Quranda fərqli mövzuların olması, bu müqəddəs kitabın yorucu bir kitab olmadığını sübut edir. Çünki Quranda olan bu incəlik və fərqli mövzular, oxucuların yorulmamasına səbəb olur.

Quranın bu xüsusiyyətə malik olması, onun qeyri adi, möcüzəvi və Allah tərəfindən göndərilmiş bir kitab olduğunu bir daha sübut edilir.

## Quranın Hərtərəfli olmaq baxımından möcüzə olması

İslam Peyğəmbərinə (s.ə) Allah tərəfindən nazil olan müqəddəs Quran kitabı, digər Peyğəmbərlərə (ə) göndərilən kitablardan üstün bir kitabdır. Peyğəmbərin (s.ə) möcüzələri içərisində ən böyük və önəmli möcüzə də, elə Qurandır. Bunun

səbəbi isə Peyğəmbərin (s.ə) sonuncu Peyğəmbər olması və onun gətirdiyi dinin, qiyamətə qədər bütün insanlar üçün vahid bir din olmasıdır. Təbii ki, belə bir peyğəmbərin kitabı da digər səmavi kitablardan fərqi olmalıdır.

Ona görə də əgər Quranı digər səmavi kitablar ilə müqayisə etsək, Quranın həmin kitablardan üstünlüyünü açıq şəkildə görmək mümkün olar.

Belə ki, Qurandakı surələri diqqətlə mütaliə etsək, görərik ki, uca yaradan Allah bu kitabda müxtəlif mövzulara aid həqiqətlərdən söz açır və bu vasitə ilə insanları həm maarifləndirir və həmdə onları düz yola hidayət edir.

Baxmayaraq ki, Quran insanların doğru yola yönəlməsi üçün göndərilmiş səmavi kitabdır, amma bu kitabda fərqli mövzulara dair dəyərli məlumatlar və həqiqətlər də var. Belə ki, Quranda şəriət qanunlarından başqa, Əxlaq, İrfan, Təlim-tərbiyə, Ailə, İqtisadiyyat, Turizm, Elm və digər mövzulara aid ayələrə də rast gəlmək olar.

Quranın belə bir xüsusiyyətə malik olması, onun qeyri adi bir kitab olduğu, bəşər düşüncəsindən üstün bir düşüncə tərəfindən nazil olması və möcüzəvi bir kitab olduğunu sübut edir.

Aşağıda Quranın hərtərəfli bir kitab olmasına dair bəzi mövzuları, eləcə də onlara aid olan ayələri diqqətinizə çatdıracağıq.

## Fiqh mövzusuna aid olan ayə və hədislər

Fiqhi ayələrə işarə etmədən öncə, yaxşı olar ki, "Fiqh" sözünün mənası ilə tanış olaq. Fiqh sözü ərəbköklü bir sözdür və şəriət, dini qanunlar və əhkamlar anlamını daşıyır. Deməli " Fiqhi ayələr" dedikdə, dini əhkamlar və qanunlar barədə olan ayələr nəzərdə tutulur.

Quranda çox sayda Fiqhi ayələr var və alimlərin baxışlarına görə o ayələrin sayı fərqlidir. Bəzi alimlərin fikrinə əsasən Quran ayələrinin dörddə bir hissəsi Fiqhi ayələrdir. Bəzi alimlər isə Quran ayələrinin üçdə birinin Əhkam ayələri olduğunu bildirirlər.

Şiə alimlərinin çoxu bu qənaətdədir ki,  Qurandakı Fiqhi ayələrin sayı 500 ayədir. Əlbəttə 500 ayə ilə kifayətlənib, Quranın digər ayələrinin şəriətə aid olmadığını da düşünmək yanlış olar.

Çünki ola bilər bir alimə görə müəyyən ayə şəriət qanunlarını sübut etmək üçün mənbə sayılmasın, amma digər alimin fikrinə və düşüncəsinə əsasən, həmin ayə hər hansı bir şəriət qanunu üçün dəlil hesab olsun. Bunu nəzərə alaraq bu qənaətə gəlirik ki, Qurandakı şəriət ayələrinin sayı ən azı 500 ayədir və alimlərin Fiqh elmində istifadə etdiyi qanunlar və düşüncələrini nəzərə alsaq, həmin ayələrin sayı qeyd olunan rəqəmdən daha çox ola bilər.

"Fiqh" sözü və Qurandakı şəriət ayələrinin ümumi sayı ilə tanış olduqdan sonra, aşağıda bəzi şəriət ayələrini nümunə olaraq gətiririk.

Təmizlik hər bir insanın vicdanı və fitrəti ilə uyğundur və ona görə də təmizliyi hər kəs bəyənir. Elə bir insan tapılmaz ki, təmizlik yerinə, çirkablığı sevmiş olsun. Paklıq və təmiz yaşam tərzi, islam dininin əsas prinsiplərindən biridir. Əslində təmizlik və paklıq doğruluğun, murdarlıq isə batil və yanlışlığın rəmzidir. Elə buna görə də Allah insanların pak olmasına dəyər verir və paklığı sevir. İslamda paklığa verilən önəm barədə çox danışmaq olar, amma yazının uzanmaması üçün bu barədə bir neçə ayə və hədis gətirməklə kifayətlənirik.

(Ya Rəsulum!) Orada heç vaxt namaz qılma. İlk gündən binası təqva (Allahdan qorxub pis əməllərdən çəkinmək) üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) sevər! [1]

Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə (dirsəklərdən və ya dirsəklərə qədər) əllərinizi yuyun. (Yaş əlinizlə) başınızı və hər iki bəndə (oynağa) qədər ayaqlarınızı məsh edin. Əgər cünub (murdar) olmusunuzsa, qüsl edin (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin). Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin). Allah sizi çətinliyə salmaq istəməz, lakin

---

Tövbə, 108.١

O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz! [1]

O vaxt (Bədr vuruşunda) Öz tərəfindən (köməyindən) arxayınlıq əlaməti olaraq, Allah sizi xəfif bir uyğuya daldırmış, sizi (çirkdən-pasdan) təmizləmək (və ya dəstəmaz almaq), Şeytanın vəsvəsəsini sizdən çıxartmaq, ürəklərinizi (qələbəyə inamla) doldurmaq və (quma batmasın deyə) ayaqlarınızın altını möhkəm etmək üçün göydən üstünüzə yağış yağdırmışdı. [2]

Öz Rəbbini uca tut! Libasını təmizlə! (Nəfsini günahlardan pak et!). [3]

(Sizə oxunan) bu (kəlam) çox qiymətli Qurandır. (O, Allah dərgahında) qorunub saxlanılan bir Kitabdadır (lövhi-məhfuzdadır, yaxud lülələnib bükülmüş kağızlardadır). Ona yalnız pak olanlar toxuna bilər! [4]

Paklığa aid olan ayələri diqqətlə oxuyanda, başa düşürük ki, islamda iki növ paklıq var. Onlardan biri zahiri və cismi paklıq, digəri isə mənəvi və ruhi paklıqdır. İslam dini hər iki növ paklığa dəyər verir və insanın kamilliyə qovuşması üçün həm mənəvi, həmdə cismi paklığa riayət etməyi önəmli hesab edir.

Həmçinin əgər maidə surəsinin 6-cı ayəsinə diqqət etsək, görərik ki, Allah ayədə insanları çətinliyə salmaq üçün yox, bəlkə onları pak və təmiz etmək, eləcə də onlara öz nemətini

---

Maidə, 6.١
Ənfal, 11.٢
Muddəssir, 3-4.٣
Vaqiə, 77-79.٤

tamamlamaq üçün paklığa aid olan hökmləri bəyan edib. Yəni Allahın baxışına görə insanların ibadət zamanı cismi baxımından pak olması o qədər önəmlidir ki, paklanmaq üçün su tapılmasa belə, yenə də torpaq vasitəsi ilə təyəmmüm alıb, sonra ibadət etməyi vacib edir.

Belə başa düşülür ki, mənəvi paklığa yetişmək üçün, ilk olaraq cismi paklığa riayət etmək lazımdır.

Ənfal surəsinin 11-ci ayəsində isə yağışın pak edici olduğuna işarə edilir. Diqqət etsək, görərik ki, Allah yağışı yalnız cismi pak etmək üçün yox, bəlkə möminlərdən Şeytanın vəsvəsəsini uzaqlaşdırmaq və döyüş zamanı onların qəlbinə təskinlik bəxş etmək və ayaqlarının altını möhmək etmək üçün yağdırıb.

Vaqiə surəsinin 77-79-cu ayələrində isə Quranın əzəmətinə işarə edilir və bu əzəmətli kitaba təharətsiz və təmiz olmadan toxunmağın qadağan olunduğu bildirilir.

Yəni əgər insan təharətsiz olan halda Quranın yazılarına toxunarsa, günah işlətmiş sayılar. Yazılara toxunmaq üçün dəstəmazlı olmaq şərtdir. Bu, ayənin zahiri mənasıdır və zahiri mənası da elə zahiri paklıq ilə əlaqədardır. Əlbəttə ayənin batini mənası da var. Batini mənası bundan ibarətdir ki, Quranın həqiqi mənasını yalnız peyğəmbər (s.ə), İmamlar (ə) və bəzi mənəvi cəhətdən pak olan insanlar anlaya və dərk edə bilər.

Paklığa aid olan ayələrin sayı yuxarıda qeyd olunan ayələrdən çox olsa da, bu ayələr ilə kifayətlənir və mövzuya aid olan hədisləri gətiririk.

Peyğəmbər (s.ə) buyurur: Cəbrail (ə) diş fırçalamaq haqqında mənə o qədər tövsiyə edərdi ki, gümana gəlmişdim artıq bu iş ümmətimə vacib buyurulacaqdır. [1]

Peyğəmbər (s.ə) başqa bir hədisdə isə belə buyurur: Təmizlik imanın bir hissəsidir və iman insanı cənnətə aparar. [2]

İmam Sadiq (ə) buyurur: Hər meyvənin bir zəhəri var, (ona görə də) əlinizə meyvə götürərkən (onu) yuyun və ya suya batırın. [3]

Düşünürəm ki, qeyd olunan hədislər islamın təmizliyə verdiyi önəmi izah etmək üçün kifayət edir. Təbii ki, bu kimi hədislərin sayı çoxdur və bu sahədə araşdırma aparmaq istəyənlər, həmin hədislərə dini kitablarda rast gələ bilərlər. Ona görə də qeyd olunan hədislər ilə kifayətlənirik.

## Namaza aid olan ayə və hədislər

Allaha təşəkkür borcumuzu yerinə yetirmək üçün ən gözəl vasitə namazdır. Əgər insan varlıq aləmini, eləcə də bütün canlıları yaradan qarşısında baş əyib, ona şükr və itaət etmək istəsə, bunu ən gözəl tərzdə namaz qılmaqla yerinə yetirə bilər. İslam dinində namaz o həddə önəmlidir ki, namaz qılmayan insanların imanında ciddi boşluq olduğu bildirilir. Yəni namaz qılmayan müsəlman Allaha, Peyğəmbərə (s), qiyamət gününə, cənnət və cəhənnəmə inansa da, onun bu inancında zəiflik və boşluq var. İslam Peyğəmbəri Həzrət Muhəmməd (s.ə) islamda namazın əhəmiyyəti barədə buyurur: Namaz dinin sütunudur.

---

Biharul-Ənvar, c.2.səh.126.١
Mustədrəkul-Vəsail, c.1.səh.101.٢
Üsul-Kafi, c.6.səh.350.həd.4.٣

Əgər insanın namazı qəbul olarsa, başqa ibadətləri də qəbul olar, yox əgər namazı qəbul olmasa, digər əməlləri və ibadətləri də qəbul olmaz. [1]

Hədisə diqqət etək, görərik ki, Peyğəmbər (s.ə) açıq şəkildə namazı digər ibadətlərdən daha üstün hesab edir. Bu hədisi oxuyanda, iki mühim nöqtəni başa düşmək olur. İlk olaraq bunu anlayırıq ki, namaz dinin əsası və kökúdür. Yəni hər bir şeyin kökü və əsası olduğu kimi, islam dininin də kökü var.

Misal üçün ağacın kökü var və onun kökü sağlam olmasa, budaq, yarpaq, meyvə, kölgə və digər faydalı xüsusiyyətləri aradan gedər. Ona görə də kökü zəif olan, və ya kökü çürümüş bir ağacın yaxın bir zamanda məhv olma ehtimalı olduğu kimi, namaz qılmayan və ya namazında səhlənkarlıq göstərən bir insanın imanı, inancı və xeyir işlərinin savabı da məhv olub, aradan getməsi bir reallıqdır. Yəni namaz qılmayan insanın "Müsəlmanam" deyib, buna arxayın olaraq, namazdan uzaq düşməsi, ona fayda verməz. Çünki namaz islamın kökúdür.

Hədisdən başa düşdüyümüz ikinci mühim nöqtə isə budur ki, edilən ibadət və yaxşı əməllərin qəbul olma şərti, namaz qılmaq və qılınan namazı qəbul olma həddinə çatdırmaqdır. Yəni əgər ibadət və yaxşı əməllərimizin Allah tərəfindən qəbul olmasını istəsək, gərək namaz qılaq və qıldığımız namazın qəbul olma şərtlərinə riayət edək.

Başqa hədisdə isə Peyğəmbər (s.ə) belə buyurur: Allah qatında əməllər içərisində ən bəyənilər iş, namazı ilk vaxtında

---

Vəsailuş-Şiə, c.3.səh.22.١

qılmaq, ata-anaya yaxşılıq etmək , daha sonra isə Allah yolunda cihad etməkdir. [1]

Bu hədisə diqqət etsək, görərik ki, Peyğəmbər (s.ə) namazı ən dəyərli əməl kimi tanıtdırır. Yəni namazın Allah qatında o qədər dəyəri var ki, Peyğəmbər onu Ata-anaya yaxşılıq və Allah yolunda cihad etməkdən belə üstün hesab edir.

Həzrət Əli (ə) namazın əhəmiyyəti barədə buyurur: Əgər namaz qılan şəxs onun ilahi mərhəmətə necə məruz qaldığını bilsəydi, başını heç vaxt səcdədən qaldırmazdı. [2]

Düşünürəm ki, bu hədislər islam dininin namaza verdiyi dəyəri çatdırmaq üçün kifayət edir. Bunu nəzərə alaraq, mövzuya aid digər hədisləri gətirmirik və aşağıda namaz haqqında nazil olan ayələrə işarə edirik.

Uca və əzəmətli yaradanımız olan Allah, Quranın bir çox ayələrində dinin kökü olan namaz barədə söz açır və insanları namaz qılmağa dəvət edir. Həmin ayələrdən bir neçəsini nümunə olaraq gətiririk.

(Fərz, vacib) namazlara, (xüsusilə) orta namaza riayət (əməl) edin və Allaha itaət üçün ayağa qalxın (namaza durun). [3]

Əhlinə namaz qılmağı əmr et, özün də ona (namaza) səbrlə davam et (yaxud məişət çətinliklərinə döz). Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqva sahiblərinindir (müttəqilərindir)! [4]

---

Nəhcul-Fəsahə, hədis 70.١
Ğurərul-Hikəm, hədis 7592.٢
Bəqərə, 238.٣
Taha, 132.٤

Günortadan gecənin qaranlığınadək namaz qıl. Sübh namazını da qıl. Çünki sübh namazı (gecə və gündüz mələkləri, həmçinin bir çox insan tərəfindən) müşahidə olunur. [1]

Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, batildən haqqa (islama) dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur! [2]

Günahkarlar barəsində (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər): “Sizi Səqərə (Cəhənnəmə) salan nədir?” Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik;... [3]

Onlar namazı düzgün bir şəkildə qılar və verdiyimiz ruzidən infaq edərlər. [4]

Namaz barədə nazil olan ayələrə diqqət etsək, görərik ki, Allah namaza çox önəm verir. Allah ilk ayədə namazın vaxtına diqqət edib, ona riayət etməyi əmr edir. İkinci ayədə isə, insanlara əmr edir ki, ailə üzvlərinə namaz qılmağı əmr etsinlər. Yəni Allah ayədə bunu başa salmaq istəyir ki, insanlar həm özləri namaz qılsın, həmdə ailə üzvlərini namaz qılmağa dəvət etsinlər. Üçüncü ayədə isə yenə namazın önəmli olması barədə danışılır və eyni zamanda sübh namazının daha çox önəmli olmasını bildirilir.

---

Isra? 78.١
Bəyyinə, 5.٢
Muddəssir, 41-43.٣
Ənfal,3.٤

Allah daha sonrakı ayələrdə, yəni Müddəssir surəsinin 41-43-cü ayələrində, cəhənnəmə düşən insanların haqqında danışır və həmin ayədə buyurur ki, cəhənnəmə düşən insanlar namaz qılmadıqları üçün cəhənnəmə düşdülər. Bu ayələrdə açıq şəkildə bildirilir ki, əgər insan namaz qılmasa, cəhənnəmə düşər.

Namaz barədə olan sonuncu ayədə, yəni Ənfal surəsinin 3-cü ayəsində isə möminlərin xüsusiyyəti barədə danışılır. Allah həmin ayədə namaz qılmağı möminlərin ən önəmli xüsusiyyətlərindən hesab edir. Yəni əsl mömin o şəxsdir ki, namazını həm düzgün, həmdə haqqına riayət edərək qılsın.

## Oruc mövzusuna aid olan ayə və hədislər

İslam dini baxımından oruc tutmaq, vacib olan ibadətlər sırasındadır. Əgər insan Allaha əsl bəndə olub, dünyada və əbədi olan axirət aləmində xoşbəxt yaşamaq istəsə, oruc tutmalıdır. İnsan oruc tutmaqla həm Allaha olan sadiqliyini sübut edir, həmdə yüksək mənəvi məqamlara nail olur. Oruc tutmaq islam dinində böyük əhəmiyyətə malik olan ibadətlərdən biridir.

Oruc mövzusuna aid həm Quran ayələri nazil olub, həmdə Peyğəmbər (s.ə) və məsum imamlardan (ə) çox sayda hədislər nəql olunub. Aşağıda orucluq haqqında iki hədisi nümunə olaraq gətiririk. imam Məhəmməd Baqirdən (ə) buyurur: İslam beş sütun üzərində qurulub: Namaz, Zəkat, Oruc, Həcc və Vilayət. [1]

---

[1] Furuul-Kafi,c.4.səh.62.

Hədisə diqqət etsək, görərik ki, imam Baqir (ə) oruc tutmağı namaz, zəkat, həcc və vilayət ( Allah tərəfindən dini rəhbərliyin varlığına inanıb, o rəhbərə tabe olmaq) kimi önəmli mövzular içərisində xüsusi olaraq qeyd edir. Həmçinin imam (ə) bu hədisdə oruc tutmağı dinin əsas və önəmli ibadətlərindən biri kimi tanıtdırır.

Başqa bir hədisdə isə Peyğəmbər (s.ə) buyurur: Cənnətdə rəyyan adlı bir qapı var ki, o qapıdan yalnız oruc tutanlar keçə biləcək . [1]

Hər iki hədisi oxuyanda, islam dininin oruc tutmağa verdiyi dəyər, çox şəffaf şəkildə bəlli olur.

Bir qədər əvvəl qeyd etdik ki, islam dininə görə oruc tutmaq çox önəmli ibadətlərdən biridir. Bu baxımdan görürük ki, Quranda da orucluğa dair bəzi ayələr mövcuddur. Həmin ayələrdən bəzilərini nümunə olaraq gətiririk.

Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz! [2]

Ayəni oxuyanda, müsəlmanlardan qabaqkı ümmətlərə də oruc tutmağın vacib edildiyini başa düşürük. Yəni oruc tutmaq islam dinindən qabaqkı dinlərdə də vacib olub. Eyni zamanda Allah bu ayədə, ilahi dinlərdə oruc tutmağın önəmli olmasını bildirir.

(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər

---

Məanil-Əxbar,c.2.səh,443.١
Bəqərə, 183.٢

qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir! [1]

Bu ayədə isə Allah orucluğa aid olan iki şəri mövzuya toxunur. İlk olaraq orucluğun müddətinə işarə edir. Daha sonra isə oruc tutmağa taqəti olmayan, xəstə və digər şəxslərin hökmünü izah edir. Diqqət etsək, görərik ki, Allah imkanı və taqəti olan hər bir şəxsə oruc tutmağı vacib edir və bununla da oruc tutmağın önəmli olmasını açıqlayır.

İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu əkbər" deməklə) təzim və şükür edəsiniz. [2]

Sonuncu ayədə Allah yenə orucluğa aid bəzi məsələləri çatdırır. İlk olaraq Quranın məhz ramazan ayında nazil olduğunu bildirir. Daha sonra oruc tutmağın vacibliyini açıqlayır, xəstə və oruc tutmağa şəraiti olmayanları isə oruc tutmaqdan azad olduqlarını bildirir. Ayənin davamında islam

---

Bəqərə, 184.١
Bəqərə, 185.٢

dininin qanunlarının insanlara çətinlik yaratmaq məqsədi ilə yox, əslində yüngül və rahat yaşamaları, eyni zamanda düz yola yönəlmələri üçün vacib edildiyi bildirilir. Yəni islamdakı qanunlar əslindəı insanların pak fitrəti ilə uyğundur və bu qanunlara riayət etməklə insanlar doğru yola hidayət olurlar.

## Əxlaqa aid olan ayə və hədislər

Əxlaq dedikdə gözəl davranış nəzərdə tutulur. Heç bir ilahi dində yanlış və kobud davranışa qarşı müsbət baxılmadığı kimi, islam dinində də kobudluq mənfi qarşılanır. İslam dini gözəl davranışa çox önəm verir və əslində bu dinin ən önəmli hədəflərindən biri, gözəl davranış tərzini insanlara çatdırmaqdan ibarətdir. Ona görə də bütün ilahi dinlərdə başqalarına qarşı yaxşı rəftar etmək tövsiyə olunduğu kimi, islam dini də bu mövzudan yan keçməyib.

Əgər insan başqasının qəlbinə dəyib, ona qarşı laqeyd yanaşsa, günah işlədər və sonunda öz imanını korlamış olar.

Gözəl davranış haqqında həm Quranda, həmdə hədislərdə bir çox ibrətli cümlələr mövcuddur.

Quranda əxlaqa aid olan bəzi ayələri diqqətinizə çatdırırıq:

Yaxşılıqla pislik eyni ola bilməz! Sən (pisliyi) yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! Bu (xislət) yalnız səbr edənlərə verilir və yalnız böyük qismət (savab, fəzilət) sahiblərinə əta olunur! [1]

Ayədə açıq şəkildə bildirilir ki, yaxşılıq ilə pislik eyni olan bilməz. Yəni gözəl davranış ilə pis davranış eyni deyil. Bu ayə

---

Fussilət, 34-35.١

islamın gözəl davranışa verdiyi önəmi bir daha sübut edir. Ayənin ən maraqlı hissəsi budur ki, Allah bizə əmr edir ki, pisliyi yaxşılıq ilə dəf edək. Yəni bizə pis davranan insanlar qarşısında səbirli olub, onları gözəl davranış nümayiş edərək yola salaq.

Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan (yaxşılıq, kömək) edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" – deyə əhd-peyman aldıq. Sonra, az bir qisminiz müstəsna olmaqla, əhdinizdən döndünüz, çünki siz (İsrail övladı haqdan) üz döndərənsiniz. [1]

Diqqət etsək, görərik ki, bu ayədə Allah həm ibadətə, həmdə gözəl davranış və əxlaqa riayət etməyə təkid edir. Yəni əgər insan kamil insan olamq istəsə, yalnız ibadət etməklə buna nail ola bilməz. Ona görə də ibadətlə yanaşı, gözəl davranış və başqalarına yardım etmək də çox önəmli mövzulardan biridir. Ayədə, "insanlarla xoş danışın" deyə bir cümlə var. Bu xitab, islamın əxlaqa verdiyi dəyəri sübut etmək üçün kifayət edər.

Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir! [2]

Oxuduğumuz ayə, əxlaqi dəyərlərin nümunələrindən olan "Əmanət" və " Ədalət" mövzularına aiddir. Allah ayədə əmr

---

Bəqərə, 83.١
Nisa, 58.٢

edir ki, başqalarının əmanətinə qarşı diqqətli olaq və onları öz sahiblərinə olduğu kimi qaytaraq. Eyni zamanda da insanlara qarşı ədalətli olmağı əmr edir və buyurur ki, iki tərəf arasında hökm verib, fikir söyləyən zamanı, ədalətə riayət etməliyik.

Bu ayə də öz növbəsində islam dininin əxlaqa, gözəl və insaflı davranışa verdiyi önəmi bir daha sübut edir.

Bir qədər əvvəl qeyd etdik ki, əxlaq mövzusuna aid kifayət qədər həm Quran ayələri, həmdə hədislər var. Əxlaqa aid bəzi ayələr ilə tanış olduq. İndi isə bu mövzuya aid olan bəzi hədisləri gətiririk.

Peyğəmbər (s) buyurur: Mən, əxlaqi fəzilətləri tamamlamaq üçün seçilmişəm. [1]

Peyğəmbərin (s.ə) bu hədisini oxuyan hər bir şəxs, islamdakı əxlaqın yerini və dəyərini anlaya bilər. Çünki hədisə diqqət etsək, görərik ki, peyğəmbər (s.ə) Allah tərəfindən peyğəmbərliyə seçildiyinin əsas hədəfinin "Ən gözəl əxlaqı kamil etmək üçün" olduğunu bildirir. Buda bir daha islamın əxlaqa verdiyi dəyəri sübut edir.

Başqa bir hədisdə isə Peyğəmbər (s.ə) belə buyurur: Allah yanında ən sevilənəniz, ən əxlaqlı olanınızdır. [2]

Peyğəmbərin (s.ə) bu hədisi isə Allah qatında əxlaqa verilən dəyəri sübut edir.

İmam Əli (ə) buyurur: Əxlaq və davranışı pis olan şəxsin, ruzisi də az olar. [1]

---

Məkarimul-Əxlaq, c.1.səh,8.١
Məcməul-Bəyan, c.10.səh,87.٢

İmam Əlinin (ə) buyurduğu bu hədis isə çox maraqlı hədislərdən biridir. Təsəvvür edin ki, imam (ə) əxlaqın insan ruzisinə təsiri barədə danışır. Yəni əgər insanın davranışı və əxlaqı pis olarsa, ruzisi də az olar. Bu hədisi geniş mənada izah etsək, mövzu çox uzanar. Amma hədisi qısa şəkildə açıqlasaq, bunu deyə bilərəm ki, pis davranışlı insanlardan hər kəs uzaq durmağa çalışır. Belə olduqda isə həmin insanın başqaları ilə əlaqələri azalar. İnsanlar ilə əlaqəsi az olan insanının da iqtisadi inkişaf potensialı və imkanları da az olar. Nəticə etibarı ilə də həmin şəxsin pul qazanmaq imkanı da azalar.

İmam Sadiq (ə) buyurur: Gözəl davranış və əxlaqdan yaxşı və ləzzətli bir həyat yoxdur. [2]

Bu hədisdə isə İmam Sadiq (ə) gözəl davranışın insan psixologiyasına verdiyi müsbət təsiri barədə danışır. Yəni əgər insan başqaları ilə gözəl davranarsa, əslində bu onun özü üçün də xoş olar. Çünki başqaları ilə kobud davranmaq, insanın zehnində mənfi təfəkkür yaradır. Hər bir mənfi düşüncə isə, insan psixologiyasına pis təsir edir. Ona görə də yaxşı davranış insan zehnində aramlıq yaradır və nəticədə insanın yaşayışı da aram və xoş olar.

## İrfan mövzusuna aid ayə və hədislər

İslamda ən önəmli mövzulardan biri İrfan mövzusudur. İrfan sözü ərəb köklü bir sözdür və leksik mənası "Tanımaq" deməkdir. İrfan sözünün terminoloji mənası isə, Allahı tanımaq anlamındadır.

---

Ğurərul-Hikəm, h.8023.١
İləluş-Şərayi,c.2.səh,559.٢

Əlbəttə unutmamalıyıq ki, bu tanışlıq, xüsusi bir tanışlıqdır. İrfan tanışlığı hiss, təcrübə, əql və ya nəql yolu ilə əldə edilmir. Bu tanışlıq daxili və batini bir görüşlə bağlıdır. İrfan müşahidələr və mükaşifələrlə müşayiət edilir. Bu qəbil müşahidələr isə xüsusi məşqlər və riyazətlərlə əldə edilir. Uyğun istiqamətdə əməli üsullar, seyr-sülük ayinləri də irfan adlandırılır. Belə bir irfan əməli irfan adlanır. Çünki qarşı tərəfdə nəzəri irfan da var. Nəzəri irfanda isə əqli dəlillər görürük. Təsəvvüf sözü isə ehtimal edilir ki, suf sözündəndir və yun libas geyən mənasında işlənir. Bu baxımdan təsəvvüf dedikdə çətin dolanışıq və ləzzətlərdən uzaqlıq nəzərdə tutulur. Burada daha çox əməli irfana yaxınlıq görünür. Irfan isə nəzəri irfana daha çox münasibdir.

İrfan sözünün həm leksik, həmdə terminoloji mənası Allahı tanımaq ilə əlaqəli olduğunu nəzərə alsaq, bu mövzunun islam ilə dərin bağlılığının olduğunu başa düşmək olar. Çünki islam dininin ən mühim prinsiplərindən biri, tək Allahın varlığına inanmaqdır. Ona görə də irfan mövzusunun islam ilə çox yaxın bağlılığı var. Bunu nəzərə alanda belə bir nəticəyə gəlmək olar ki, Quranda irfan mövzusuna dair kifayət qədər ayələr olmalıdır.

Mövzumuz sırf irfana xas olmadığı üçün, irfan haqqında verdiyimiz qısa məlumat ilə kifayətlənir və aşağıda irfana aid olan ayə və hədisləri gətiririk.

(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların

əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman – təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar). [1]

Bu ayəni oxuyanda başa düşürük ki, Allaha inanc insanların daxilində mövcuddur. Yəni Allah insanları yaradanda, onların daxilində haqqa, ədalətə, doğruluğa və ən əsası da Allaha inanıb, onu axtarmağa dair bir hiss də yaradıb.

(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini (ibadəti) yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşarlar. [2]

Bu ayədə isə hətta müşriklərin daxilində Allahın varlığına inancın olduğu bildirilir. Çox maraqlıdır ki, bu ayədə insanların çətinlik zamanı Allahı xatırladıqları, rahatlığa çıxdıqları zaman isə yenə onu unutduqları bildirilir. Belə bir xüsusiyyət bir çox insanlarda var və demək olar ki, hər kəs belə bir hal ilə üzləşir. Yəni insan sıxıntı və problemlər ilə üzləşdiyi zaman Allahı xatırlayıb dua edir, problemi həll olduqdan sonra isə, yenə öz yanlış işləri ilə məşğul olub, Allahı unudur.

---

Rum, 30.١
Ənkəbut, 65.٢

Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun! [1]

Oxuduğumuz ayədə isə Allah İbrahim (ə) peyğəmbərə bir çox sirləri və qeybi xəbərləri göstərdiyini bildirir. Allah İbrahimə (ə) öz qüdrətini, yer və göylərin mülkünü və bir çox sirləri aşkar etdiyini açıqlayır. Allah İbrahimə (ə) bunları ona görə göstərir ki, onun qəlbinə təskinlik gəlsin və yəqinliklə inananlardan olsun.

Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır. Sizin özünüz də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. Məgər görmürsünüz? [2]

Əgər insan dünyadakı yaradılmışlara diqqət etsə və onların haqqında bir qədər düşünsə, dünyanın və dünyadakıların kamil bir varlıq tərəfindən yaradıldığını qəbul etmiş olar. Yəni Allah hər bir varlığı xüsusi incəlik və nəzmlə yaradıb. Heç bir vicdanlı və dərrakəli insan bu yaradılmışların öz başına və heç bir kamil vasitə olmadan yaradıldığını qəbul etməz. Allahın yaratdıqları içərisində ən kamil varlıq insandır. Elə buna görə də Allah ayədə buyurur ki, "Sizin özünüzdə (insanlarda) yaradanın birliyini sübut edən əlamətlər vardır".

Bu baxımdan da həm dünyadakı yaradılmışlarda, həmdə insanın özündə Allahın varlığını sübut edən dəlillər və nişanələr var.

---

Ənam, 75.١

Zariyət, 20-21.٢

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır. [1]

Sonuncu ayədə Allah yenə ümumi şəkildə göy, yer və yerdə olan külək, yağmur və bulud kimi varlıqları, eləcə də heyvanları tək olan Allahın varlığına bir sübut kimi nümunə gətirir.

Düşünürəm ki, “ Allahı tanımaq” mövzusu haqqında gətirdiyimiz ayələr kifayət edər. Amma əgər Quranı diqqətlə oxusaq, mövzuya aid çox sayda ayələrə rast gəlmək olar. Bir qədər əvvəldə demişdik ki, islamda irfanın xüsusi yeri var. Ona görə də mövzuya aid həm Quran ayələri, həmdə çox sayda hədislər mövcuddur. Bəzi Quran ayələri ilə tanış olduqdan sonra, sıra hədislərə çatdı və bunu nəzərə alaraq aşağıda “İrfan” mövzusuna aid bəzi hədisləri gətiririk.

Allahı tanımaq, insanın həyatındakı ən önəmli mövzusudur. Əgər insan öz yaradanını tanımasa, onun kimliyi və hansı xüsusiyyətlərə malik olduğundan xəbərsiz olarsa, yaşayışını düzgün qurub, lazım olan istiqamətdə addımlaya bilməz. Yəni yaradanı tanımadan düzgün həyat tərzi yaşamaq mümkün deyil.

---

Bəqərə, 164.١

Hər kəs bilir ki, insanı Allah yaradıb və onun üçün hansı qanunların yaxşı və ya pis olduğunu yalnız Allah bilir. Ona görə də həmin qaydaları tanımağın ən əsas yolu, elə Allahı tanımaq vasitəsi ilə mümkündür.

Allahı tanıdıqdan sonra, onun bəzi xüsusiyyətləri ilə tanış olmalıyıq. Həmin xüsusiyyətlər ilə tanış olduqdan sonra isə, bizim üçün Allah tərəfindən müəyyən edilmiş bəzi yaşayış qanunlar ilə tanış olmalıyıq. Ona görə də əgər insan Allahı tanımasa, təbii ki, onun qanunlarını da tanımayacaq. Nəticə etibarı ilə yanlış qanunlar ilə yaşamağa davam edəcək və bu yanlışlıqlara əməl etməklə, düzgün yaşayış xəttindən uzaq düşəcək.

Bu baxımdan Peyğəmbər (s.ə) və imamlarımız (ə) Allahı tanımaq mövzusundan yan keçməyib və bu barədə kifayət qədər hədislər söyləyiblər.

Bir qədər əvvəl Allahı tanımaq barədə bəzi Quran ayələri ilə tanış olduq. İndi isə mövzuya aid bir neçə hədis gətiririk.

Peyğəmbər (s.ə) buyurur: Hər kim üzünü tanısa, mütləq Allahını tanıyacaq. [1]

Bu hədis irfan mövzusuna aid olan hədislərdən biridir. Hədisi oxuyanda insanın zehnində bir neçə sual yarana bilər. Misal üçün zehnə belə bir sual gələ bilər ki, "Özünü tanımaq ilə, Allahı tanımağın bir-biri ilə nə əlaqəsi var?". Yəni necə ola bilər ki, insan özünü tanıyanda, Allahı da tanısın?

Və ya" Özünü tanımaq" dedikdə nə nəzərdə tutulur?

---

Təfsir Kəbir.c.1,Səh.91.١

Dünyada Allahı tanımayan və onun varlığını qəbul etməyən milyonlar ilə insanlar var. Həmin insanlar özlərini tanımayıblar?

Bu suallara çox geniş şəkildə cavab vermək olar. Amma əgər hədisin mənasına diqqət edib, qısa şəkildə açıqlaması ilə tanış olsaq, hansı anlamda olduğunu öyrənmiş olarıq.

Deməli Peyğəmbər (s.ə) buyurur ki, Hər kim üzünü tanısa, mütləq Allahını da tanıyacaq.

Bu cümlənin bir neçə məna və açıqlaması var. İlk olaraq Peyğəmbər (s.ə) bizə bunu başa salmaq istəyir ki, əgər insandakı keyfiyyət və xarakterlərə diqqət etsək, onu yaradanın xüsusiyyətlərini də tanımış olarıq. Bir çox şiə və sünni alimləri insan xüsusiyyətlərinin Allahın xüsusiyyətləri ilə zidd olduğuna inanırlar. Ona görə də əgər insandakı xarakter və keyfiyyətləri tanısaq, Allahı da tanımış olarıq. Misal üçün əgər insanın "Sonradan yaranan, Möhtac, Zəif" və bu kimi xüsusiyyətlərə malik olduğunu tanısaq, Allahın " Əzəli, Ehtiyacsız və Güclü" olduğunu da tanımış olarıq.

Böyük müctehid və alimlərdən olan ayətullah Məkarim Şirazi, hədisə başqa bir güşədən baxıb, onu fərqli baxışla açıqlayıb. Onun sözlərinə görə bu hədis əslində insanın ruh və cismində olan xüsusi nəzmi çatdırır. Yəni Allah insanın cism və ruhunu çox dəqiq və xüsusi nəzmlə yaradıb. Əgər insanın vücudundakı bir çox nəzm, incəlik və dəqiqliklərə diqqət yetirsək, görərik ki, bu incəlikləri yalnız nəhayətsiz və dərin

elmə sahib olan Allah yarada bilər. Nəticə etibarı ilə insanın vücudundakı incəlikləri kəşf etməklə, Allahı tanımaq olar. [1]

Başqa bir hədisdə isə Peyğəmbər (s.ə) buyurur: Hər kim qırx gün Allaha xatir ixlaslı olarsa, (işlərini Allaha xatir yerinə yetirərsə) hikmət bulaqları qəlbindən (axıb) dilində aşkar olar. [2]

Hikmət sözü bir çox mənalarda işlənir. O cümlədən: Dəyərli bilklər və onlara əməl etmək, yaxşı işləri tanımaq, insanın pis əməllərdən çəkinməsinə səbəb olan elm və hər bir şeyi öz yerinə yerləşdirmək kimi mənalarda işlənir. Başqa sözlə desək, hikmət mənalı, dəyərli, ruha və cismə faydalı olan elm və həmin elmə layiqincə əməl etmək anlamındadır.

Bu hədis insanın Allaha yaxınlığının dəyər və önəmini çatdırır. Yəni əgər insan günahdan uzaq olub, yaxşı işlərini sırf Allaha xatir yerinə yetirərsə, Allah ilə çox yaxın olar. Belə ki, bu yaxınlıq səbəb olar ki, Allah insanın qəlbindən hikmət bulağını onun dilinə gətirər və həmin insanın sözləri başqaları tərəfindən xoş qarşılanar və onlara müsbət təsir edər.

Əgər insan Allaha xatir addım atarsa, Allah da ona hikmət bəxş edər. Elə bir hikmət ki, danışığı, qələmi, həyat tərzi, yemək yeməyi, baxışı, geyimi və bütün yaşayış tərzi Allahın razılığı yolunda olar. Eyni zamanda da ətrafındakı insanlara örnək və dərs olub, onlara da öz müsbət təsirini bağışlayar.

İmam Hüseyn (ə) ərəfə duasında Allah ilə münacat edərək, bir çox dərin mənalı cümlələr və həqiqətlərə toxunur. O duanın qısa bir hissəsini gətiririk. İmam (ə) buyurur: İlahi, qəni və

---

Quranda Əxlaq, c.1. səh.328.١
Şəhabul-Əxbar, cild.1,səh, 192.٢

zəngin olduğum zaman Sənə möhtac idimsə, fəqirliyimdə necə möhtac olmayım? İlahi, elmli olduğum zaman nadan idimsə, cahilliyimdə necə nadan olmayım? [1]

Diqqət etsək, görərik ki, İmam (ə) bu duada özünün Allah qarşısında necə zəif və aciz olduğunu bildirir. Eyni zamanda da Allahın ehtiyacsız və alim olduğunu dilə gətirir.

Bu duada imam (ə) əslində biz insanlara başa salmaq istəyir ki, Allahı olduğu kimi tanımaq lazımdır və özümüzün zəif, cahil və möhtac olduğumuzu unutmamalıyıq. Yəni daim Allahı xatırlamalı, onun rəhmət və elm qapısından yapışmalıyıq. Belə ki, nəqədər də elmimiz, sərvətimiz olsa, yenə də Allaha möhtacıq, yenə də onu tanımalı, çağırmalı və ondan diləməliyik.

İmam Səccad (ə) dualarının birində Allah ilə münacat edərkən, belə buyurur: İlahi! Hər bir haram işlərə nisbət meyl və istəyimi sındır və hər günaha qarşı olan xəsisliyimi məhv eylə! [2]

İmamın (ə) cümlələrinə diqqət edəndə, başa düşürük ki, insan yaşayışının bütün sahələrində, hətta günahdan uzaq olmaq yolunda da Allahdan yardım istəməli, ona sığınmalıdır. Yəni necə ki, insan ruzi qazanmaq ardınca gedərkən əllərini açıb, Allaha dua edir, eyni ilə haram və günahlardan uzaq olmaq üçün də Allaha tərəf əl açıb, dua etməlidir.

Duadan başa düşülən başqa bir həqiqətdə bunadan ibarətdir ki, insanın daxilində günahlara qarşı bir istək və xəsislik

---

Məfatihul-Cinan, Ərəfə duasından.١

Səhifə Səccadiyyə, dua 39.٢

yarana bilər və belə olduğu zaman yenə Allahı çağırmalı və ondan kömək istəməliyik.

Peyğəmbər (s.ə) və imamlar (ə) heç bir zaman anlamsız söz danışmaz. Ona görə də duadan başa düşülən digər bir həqiqət də bundan ibarətdir ki, günahlara qarşı olan qəlbimizdəki istəkləri, Allaha dua etməklə aradan aparmaq olar.

Yenə imam Səccad (ə) buyurur: İlahi! Bizi öz qisas cəhənnəmindən xilas et. Ey o kəs ki, mərhəmət xəzinələrinin sonu yoxdur. [1]

Ümumiyyətlə əgər peyğəmbər (s.ə) və imamların hədis və dualarına diqqət etsək, belə nəticəyə gələrik ki, onların hamısı ilk olaraq insanlara Allahı tanıtdırmağa çalışıblar. Çünki əgər insan Allahı tanımasa, başqa işlərin ona heç bir faydası olmaz. Yəni əməllərin əsası Allahı tanımağa dayanır. Əgər insan Allahı tanımasa, digər biliklər ona çoxda fayda verməz. Bunu da unutmamalıyıq ki, Allahın varlığına inanmaq, onu tam şəkildə tanımaq mənasında deyil. Yəni ola bilər ki, çox sayda insan Allahın varlığına inansın, amma onu layiqincə tanımasınlar. Ona görə də Allahın varlığına inandıqdan sonra, ona aid olan xüsusiyyətləri də tanımaq vacibdir.

Bu baxımdan da əgər imamın (ə) duasına diqqət etsək, görərik ki, imam (ə) bu cümlədə iki həqiqətə işarə edir və bununla da yenə insanlara Allahı və onun bəzi xüsusiyyətlərini tanıtdırmağa çalışır.

İlk olaraq imam (ə) insanlara cəhənnəmi xatırladır və cəhənnəm sahibinin Allah olduğunu bildirir. Eyni zamanda da,

---

Səhifə Səccadiyyə, dua 5.١

cəhənnəmdən xilas olmağın yolunun Allaha dua etmək olduğunu bildirir.

Daha sonra Allahın "Mərhəmət" xüsusiyyətinə işarə edib, dua zamanı insanları Allahın həmin sifətini dilə gətirib, ona diqqət etmələrinin önəmli olduğunu başa salır.

## Elmi mövzuya aid ayə və hədislər

İslam dini insanlara göndərilmiş sonuncu ilahi dindir. Allah insanların xoşbəxtliyə nail olması üçün, islam dininin vasitəsi ilə Allahı tanıyıb, ona təslim olanlara çox sayda qayda-qanunlar göndərib. Təbii ki, həmin qayda-qanunların böyük bir hissəsi Quran vasitəsi ilə bəyan edilib. Quran peyğəmbərimizin (s.ə) həm əbədi möcüzəsi, həmdə özündə çox sayda maraqlı və ecazkar həqiqətləri toplayan misilsiz ilahi bir kitabdır.

Quranın əsas hədəfi, insanların düz yola yənəlib, düzgün yaşam tərzinə nail olmalarından ibarətdir.

Yəni Allah Quranı ona görə nazil edib ki, insanlar Qurandakı həqiqətlərə baxıb, onların haqqında düşünüb, haqq olan Allahın yolunu tapsınlar və Allah istədiyi kimi yaşamağa davam etsinlər.

Əgər diqqət etsək, görərik ki, Allah Quranda çox sayda və fərqli mövzular vasitəsi ilə insanları düz yola dəvət edir. Bəzən keçmişdə baş verən hadisələri danışır, bəzən gələcəkdən xəbər verir, bəzi vaxtlar isə Peyğəmbərlərin (ə) başına gələn hadisələri açıqlayır. Quran bu kimi fərqli mövzular ilə çox zəngindir və həmin mövzulardan biri də Qurandakı " Elmi mövzular"-dır. Elə Quranın möcüzəvi bir kitab olma

səbəblərindən biri də, onun fərqli mövzular barədə zəngin olmasıdır. Bu zənginliklərdən biri də, Quranın dərin və incə elmi mövzular barədə danışmasından ibarətdir.

Allah Quranın bəzi ayələrində elmi mövzular barədə danışır. Düzdür ki, Quran sırf elmə (dünyəvi elmə) aid olan bir kitab deyil, amma bir qədər əvvəldə dediyimiz ki, insanların düz yola yönəlməsi üçün Allah Quranda fərqli mövzulara toxunub və həmin mövzulardan biri də " Elmi" mövzulardır.

İslam dini elmə o həddə dəyər verir ki, islam peyğəmbərinə (s.ə) nazil olan ilk ayə " Oxu" sözü ilə başlayır. Allah "Ələq" surəsinin birinci ayəsində Peyğəmbərə (s.ə) xitab edərək, buyurur: Yaradan Rəbbinin adı ilə oxu! 1

Bu ayəni oxuyanda, islam dininin oxumağa və ümumiyyətlə elmə verdiyi dəyərin nə həddə olduğu məlum olur. Yəni əgər Allah elmə çox dəyər verməsə idi, ayəni "Oxu" sözü yox, başqa kəlmə ilə başlayardı.

Qurandakı elmi mövzular ilə tanış olmaq üçün aşağıda bir neçə Quran ayələri, eləcə də məsumlardan (ə) bu mövzuya aid bəzi hədisləri gətirəcəyik.

Həqiqətən, Biz insanı süzülmüş palçıqdan yaratdıq. Sonra onu sağlam bir məkanda (ana rəhmində) nütfə halına saldıq. Sonra nütfəni laxtalanmış qan (rüşeym) halına saldıq, sonra laxtalanmış qanı bir ət parçasına çevirdik. Sonra ət parçasını sümüklərə çevirdik, sonra sümükləri ətlə örtdük. Sonra da onu

---

Ələq, 1.١

başqa bir yaradılışla inşa etdik (insan halına saldıq). Yaradanların ən gözəli olan Allah çox ucadır! [1]

Allah bu ayədə insanın yaradılış mərhələsi barədə danışır. İlk olaraq Adəm peyğəmbərin (ə) yaradılışına toxunur, daha sonra ana bətnində insanın necə və hansı mərhələlər ilə yaradılması barədə məlumat verir.

Diqqət etsək, görərik ki, ayədə Allah ana bətnində insan yaradılışı üçün vasitə olan ilk murdar suya, yəni nütfəyə işarə edir, daha sonra həmin nütfənin laxtalanmış qana çevrilməsindən danışır. Ayənin davamında laxtalanmış qanın ətə, ətin isə sümüyə çevrilməsini açıqlayır.

İlk baxışda bu ayə insan üçün çox da qeyri adi görsənməyə bilər. Amma əgər bir qədər düşünüb,  ayənin 1400 il bundan qabaq nazil olmasını nəzərə alsaq, ayənin qeyri adi olduğunu, eləcə də dərin elmi mövzular barədə xəbər verdiyini başa düşərik.

Təsəvvür edin ki, günümüzdəki texnologiyanın olmadığı bir dövrdə, eləcə də tibb elminin dövrümüz ilə müqayisədə çox aşağı səviyyədə olduğu bir dövrdə, ana bətnində insanın yaradılışı barədə məlumat verilir. Həmdə elə bir məlumat ki, həkimlər həmin məlumatı uzun illər sonra və texnologiyanın vasitəsi ilə öyrənib, onu təsdiq edirlər.

Yəni Quranın 1400 il bundan qabaq və heç bir cihaz olmadığı bir dövrdə insanın yaradılış mərhələsi barədə verdiyi bir məlumatı, uzun illər sonra həkimlər xüsusi cihazlardan istifadə edərək təsdiqləyiblər.

---

[1] Muminun, 12-14.

Buda öz növbəsində Quranın elmi sahədə möcüzəvi bir kitab olduğunu bir daha sübut edir.

Ulduzların doğub-batdığı yerlərə and içirəm! Kaş bunun böyük bir and olduğunu biləydiniz. [1]

Oxuduğumuz bu ayə həm Quranın elmə verdiyi dəyəri başa salır, eyni zamanda da bu müqəddəs kitabın möcüzəvi bir kitab olduğunu sübut edir.

Ayədə Allah ulduzların müəyyən və dəqiq yerlərinin olması barədə danışır. Yəni Allah bizə başa salır ki, gördüyümüz və görmədiyimiz milyardlarla olan hər bir ulduzun özünə məxsus yolu var.

Doğrudur ki, ulduzlar bizdən çox uzaqdadır və onların hərəkət edib-etməməsi, eyni zamanda da hər birinin özünə məxsus yolunun olub-olmamasını müəyyən etmək çox çətindir. Amma nisbətən yaxın olan bəzi ulduzlar var və astronomlar xüsusi cihazlardan istifadə edərək, həmin ulduzların bəzi xüsusiyyətlərini müəyyən edə biliblər.

Astrononmların uzun illər araşdırmalarından sonra əldə etdiyi nailiyyətlərdən biri də bu olub ki, ulduzların hər birinin özünə məxsun yolu vardır.

Diqqət etsək, görərik ki, Allah bu elmi məlumatı 1400 il bundan öncə peyğəmbərə (s.ə) çatdırıb. Buda onu sübut edir ki, Quran insan kəlamı yox, bəlkə bütün yaradılışı yaradan, onların bütün xüsusiyyətinə bələd olan və hər şeydən xəbəri olan tək Allahın kəlamıdır.

---

Vaqiə, 75-76.1

Sən dağları görüb onların sabit durduğunu zənn edərsən. Halbuki, onlar buludların keçdiyi kimi keçərlər. Bu, hər şeyi mükəmməl edən Allahın sənətidir. Həqiqətən, O, sizin etdiklərinizdən xəbərdardır. [1]

Allah bu ayədə Yer kürəsinin hərəkət etməsindən danışır. Bildiyimiz kimi yer kürəsinin hərəkət etməsini ilk dəfə İtaliyalı Qalileo Qaliley16-cı əsrin sonlarında kəşf etmişdi. Yəni miladı tarixi ilə 16-cı əsrə qədər hələ heç kim yer kürəsinin hərəkət etməsi barədə fikir bildirib, bu barədə iddia etməmişdi.

## İqtisadiyyat mövzusuna aid ayə və hədislər

İslam dininin bəşəriyyətə təqdim etdiyi yaşayış proqramları həm dünya, həm də axirət həyatı üçün təxminən eyni səviyyədə tutulur. Yəni islam dini insanların həm dünyadakı, həmdə əbədi olan axirət yaşayışlarına önəm verir. Sonuncu din olan islam dinində insanların həm dünya həyatı, həmdə əbədi olan axirət yaşayışı üçün imkan və qaydalar açıqlanmışdır. Bu dinin inanclarına görə dünya həyatı müvəqqəti bir həyat kimi qəbul olunsa da, heçdə diqqətə alınmayan bir həyat kimi qəbul edilmir. İslam dininə görə əslində dünya axirət aləmi üçün bir keçiddir və dünya yaşayısı əbədi olan axirət həyatı üçün hazırlıq mərhələsi kimi tanıtdırılır. Dünya həyatının önəmli olmasını dərk etmək üçün, dünyanı əkilmiş torpağa, axirəti isə həmin torpaqda yetişən ağac və tərəvəzlərə bənzətsək yanılmarıq. Yəni dünya geniş bir torpaq sahəsinə, axirət həyatı isə o torpaqda yetişib, cürbə-cür meyvələr verən minlərlə ağaca bənzəyir. Bir anlıq təsəvvür

---

Nəml, 88.١

edək ki, minlərlə meyvə ağacı torpaq sahəsi, eləcə də su, hava, günəş və digər lazım olan vasitələr olmadan yetişib, meyvə verə bilərmi?

Dünya həyatı da elə meyvə vermək üçün lazım olan və böyük əhəmiyyətə malik olan bu vasitələrə bənzəyir.

Qısa olaraq belə nəticəyə gəlmək olar ki, insan həm cənnəti, həmdə cəhənnəmi elə bu dünyada qazana bilər.

Bir qədər əvvəldə qeyd etmişdik ki, Allah həm dünya, həmdə axirət yaşayışı üçün kifayət qədər qayda-qanunlar tətbiq edib. Dünya yaşayışı üçün çox önəmli qanunlardan biri də, "İqtisadiyyat" mövzusuna aiddir.

Əgər insan Allaha, Peyğəmbərə (s.ə), İmamlara, axirət aləminə, cənnət və cəhənnəmə inanırsa, bunu da qəbul etməlidir ki, Allah insanların yaşayışlarının bütün sahələrində müəyyən qaydalar açıqlayıb. Həmin qaydalardan bəzisi də insanın iqtisadiyyat mövzusuna aid olan qanunlardır. İslama görə Allaha inanan şəxs gərək qazanc yeri haqqında düşünsün. Yəni həqiqi müsəlman gərək islamın qadağan və haram etdiyi vasitələr ilə pul qazanmaqdan uzaq dursun. Eyni zamanda da insan gərək qazandığı halal pulların harada xərclənməsi haqqında da düşünsün və israfa yol vərmədən, pul xərcləmək sahəsində düzgün qərar verməyə çalışsın.

Bunların hamısını başa düşmək üçün ilk olaraq Quran ayələrinə, daha sonra məsumların (ə) tövsiyələrinə müraciət etmək lazımdır.

Təbii ki, Quranda iqtisadiyyat mövzusuna aid çox sayda ayələr var. Yazının daha çox uzanmaması üçün mövzuya aid

olan ən önəmli ayələri, daha sonra məsumlardan (ə) nəql olunan hədisləri gətirəcəyik.

Şübhəsiz ki, bir qövm özlərində olanı dəyişməyincə, Allah onlarda olanı (yaxşı xüsusiyyətlərlə) dəyişməz. Əgər Allah bir qövm üçün şər diləmişsə, artıq onu heç nə dəf edə bilməz. Onların Allahdan başqa heç bir himayədarı da yoxdur. [1]

Bu ayə bir başa iqtisadiyyat mövzusuna aid olmasa da, mənası geniş və əhatəli olduğu üçün, ayəni bu mövzuya da aid etmək olar. Allah bu ayədə müsəlmanlara əsasən iki mövzuyu başa salmaq istəyir. Onlardan biri budur ki, Allah burada "Özünə güvən" məsələsini xatırladır və bir-birinə güvənərək, müsəlmanların qabağa getməsini tövsiyə edir. Ayədəki ikinci önəmli mesaj isə bundan iabrətdir ki, Allah bizə başa salmaq istəyir ki, əgər insan özü zəhmət çəkməsə heç bir şeyə nail ola bilməz. Yəni zəhmət çəkmədən məqsədə də yetişmək mümkün deyil.

Ona görə də islam dini həyatın bütün sahələrində zəhmət çəkib, addım atmağı tövsiyə etdiyi kimi, iqtisadiyyat mövzusunda da insana həmin tövsiyələri xatırladır. Mövzunun daha rahat anlaşılması üçün, sadə bir misala diqqət edək. Təsəvvür edin ki, ac bir insan süfrə qarşısında dayanıb, amma əlini yeməyə uzatmır. Sizcə həmin şəxs bir neçə saat süfrə qarşısında oturub, əlini yeməyə uzatmasa, onun aclığı aradan gedərmi? Təbii ki, xeyr. O, zəhmət çəkib, əlini yeməyə uzadıb, yemək yeməsə, yenə də ac qalacaq. Ona görəd də, sırf süfrədə oturduğu üçün, onun qarnı doymaz. Bu deyilənləri nəzərə alanda, məlum olur ki, sadə məqsədlərə çatmaq üçün zəhmət

---

Rəd, 11.١

çəkib, addım atmaq lazım olan halda, çox önəmli olan iqtisadiyyat problemlərinin həlli üçün də insan gərək addım atıb, zəhmət çəksin.

Kim Allaha yaxşı bir borc verərsə (istəyənə faizsiz borc verər, yaxud malını Allah yolunda xərcləyərsə), Allah onun əvəzini (mükafatını) qat-qat artırar. Allah bəzilərini sıxıntıya salar, bəzilərinə də bolluq verər. Siz Ona qaytarılacaqsınız. [1]

Allah bu ayədə toplumun iqtisadi vəziyyətini yaxşılaşdıran amildən danışır. Ayədə "Borc vermək" mövzusuna toxunulur. Maraqlıdır ki, Allah ayədə "Kim Allaha yaxşı bir borc verərsə" cümləsini işlədir. Təbii ki, "Yaxşı borc" cümləsinin əsas mənası, faizsiz borc və Allah yolunda malın xərclənməsidir.

Ayədə Allah üç mühim nöqtəyə işarə edir. İlk olaraq Allah müsəlmanlara gözəl borc verməyi tövsiyə edir. Yəni inanclılara bunu çatdırır ki, bir-birilərinə borc versin və həmin borca görə qarşılıq istəməsinlər.

Daha sonra Allah borc verən şəxslərə müjdə verərək, buyurur ki, hər kim Allaha xatir gözəl borc verərsə, Allah da onun əvəzini qat-qat artırar. Yəni borc verən şəxs əslində verdiyi borc qarşısında, əlavə qazanca da sahib olar.

Ayənin davamında Allah insanlara dünya imtahanlarını xatırladır və buyurur ki, Allah bəzi insanları sıxıntıya salar, bəzilərinə isə bolluq verər. Bu cümlədən məlum olur ki, kasıbçılıq insan həyatında çıtinlik və sıxıntılara səbəb olur.

---

Bəqərə, 245.١

Ona görə də bu sıxıntılardan uzaqlaşmaq üçün insan zəhmət çəkib, çalışmalıdır.

Ayənin ümumi mənasından belə nəticəyə gəlmək olur ki, insan yaşayışındakı iqtisadi problemləri borc verib, borc almaq yolu ilə də həll etməyə çalışmalıdır.

## Nəticə

Deməli, islam dini, insanların həm bu dünyada, həmdə ki, əbədi olan axirət aləmində xoşbəxtliyə nail olmaları üçün Allah tərəfindən göndərilmiş sonuncu dindir. Bu dində və onun hərtərəfli olan müqəddəs kitabında bir çox qayda-qanunlar var ki, əgər insanlar ona riayət etsələr, həm bu dünyada, həmdə əbədi olan axirət aləmində xoşbəxt yaşamağı qazana bilərlər.

Bunu da unutmamalıyıq ki, islam dini sıxıcı bir din deyil və bu din həyatın ayrılmaz bir hissəsi olan əyləncə və gəzinti ilə heç bir zaman müxalif deyil. Əksinə, islamda gəzinti və səfərə çıxmaq, çox tövsiyə edilən işlərdən biridir.

Quranda və məsumların (ə) kəlamlarında bu qaydaların hamısı bəyan edilib. Təbii ki, həmin qayda-qanunlar bir-biri ilə fərqlidir. Belə ki, bəzi qanunlar var ki, həmin qanunlar insanlardan bir çox işlərin  yerinə yetirməsini tələb edir, bəzi qanunlar da var ki, insana əmr edir ki, müəyyən işlərdən çəkinmək lazımdır. Misal üçün islamın qanunlarından biri budur ki, hər bir müsəlman gərək gündəlik namazlarını qılsın. Digər tərəfdən isə başqa bir qayda da var ki, bizə qumar oynamağı qadağan edir. Bu iki qanuna diqqət etsək, görərik ki,

birində bizə müəyyən bir işi yerinə yetirməmizi, digərində isə müəyyən bir işdən uzaq durmağımıza əmr edir.

Əgər insan bu kimi əmr və qadağalara riayət etsə, həm dünyada, həmdə axirət aləmində xoşbəxtliyə nail olar.

**Ədəbiyyat**


1-Qurani-Kərim.

2- Nəhcülbəlağə

3-Səhifeyi-Səccadiyyə

4- Məclisi, Məhəmməd Baqir, Biharul-ənvaril-camiəti lidurəri əxbaril-əimmətil-əthar.

5- Nuri, Hüseyn, Müstədrakül-Vasail.

6- ibni Yəqub, Kuleyni, Məhəmməd, Üsuli-Kafi.

7- Hurr Amili, Əbu Cəfər, Məhəmməd, Vəsaiuş-Şiə.

8- İbni Əbi Əhməd, Seyyid Rəzi, Məhəmməd, Nəhcül-Bəlağə.

9- Əbdül-Vahid, Əbulfəth Nasihuddin, Ğurərul-Hikəm.

10- İbni Yəqub, Siqətul-İslam, Kuleyni, Muhəmməd, Furuul-Kafi.

11- İbn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Məhəmməd ibn Əli, Məanil-Əxbar.

12- Təbərsi, ibni Həsən, Fəzl, Məkarimul-Əxlaq.

13- Təbərsi, ibni Həsən, Fəzl, Məcməul-Bəyan.

14- İbni Hüseyn ibni Musa Bəbaveyhi əl-Qummi , Məhəmməd ibn Əli, İləluş-Şərayi.

15- Razi, Fəxruddin, Təfsiri-Kəbir.

16- Zeynul-Abidin, Əli ibni Huseyn, Səhifə Səccadiyyə.

17- Məkarim Şirazi, Nasir, Quranda Əxlaq.

18- Qummi, Şeyx Abbas, Məfatihul-Cinan.

19- Məğribi, Qazi Əbu Əbdullah, Muhəmməd, Şəhabul-Əxbar.

20- Qiraəti, Muhsin, Nur təfsiri.

21- Beyhəqi, İbni Huseyn, Əbul-Fəzl, Muhəmməd, Tarix Beyhəqi.

22- İbni Cümə Huvəyzi, Əbdu-Əli, Nurus-Səqələyn.

23- Tusi, Xacə Nəsruddin, Adabul-Mutəəllimin.

24- İbni Əbdul-Məlik Hindi,Əlauddin Əli, Kənzul-Ummal.

25- İbni Muhəmməd Şuəyri, Şeyx Tacəddin, Muhəmməd, Camiul-Əxbar.

26- Nəraqi, Muhəmməd Məhdi, Camius-saadat.

27- Anatomy of the Earth”, Cailleux ( Səhifə 71-dədi)

28- theQuranleadsthewaytoscienceaz.wordpress.com (S’hif’ 80)/

27- Şəhid Mütəhhəri, Mürtəza, İslam elmləri ilə tanışlıq.

# Mənəvi yolçuluq və Nikbinlik

Nəsimi Piriyev[1]

**Abstrakt**

İslamın insanlara aşıladığı gözəlliklərdən biri də hüsnü-zənn əxlaqı, yəni əşya və hadisələrə gözəl baxmaqdır. İnsanlar haqqında mümkün qədər hüsnü-zənn bəsləmək və yaxşı düşünmək əsas vəzifəmiz olmalıdır. Sui-zənn başqaları haqqında pis fikirləşmək demək olub insanı qeybətə sürükləyən başlıca mənəvi xəstəliklərdən biridir. Sui-zənn qəlbin qeybətidir və başqaları haqqında pis düşüncələrin qəlbdə özünə yer tapmasıdır. Sui-zənn qəlbi və ağılı xəstə, məzacı pozulmuş insanların mübtəla olduğu bir mərəzdir. O, toplumun maddi və mənəvi həyatına qəsd edən şeytani hiylədir.

Hüsnü-niyyətin dünyada yaxşi nəticəsi və mükafatı vardır. İnsanlar mə`sum olmadıqları üçün, xəta etmək imkanı onlarda vardır. Şübhəsiz, bir xətanın baş verməsi imkanı təbii, bu ehtimalı nəzərə almamaq qeyri-mümkündür. Lakin insan gərək bu zəif nöqtələrə göz yumub, əvəzində başqalarının gözəl əməl və müsbət cəhətlərini görməyə çalışsın.

١ - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

**Açar sözlər**

Quran, Əhli-Beyt (ə), bədbinlik, xoşbinlik, büsbət, mənfi

**Giriş**

Əvvəl bir məsələyə diqqət yetirmək lazımdır: İnsan Allaha yaxınlaşmaq üçün yaradılmışdır. Buna görə də onun bütün fəaliyyətləri Allahla əlaqəni qoruyub saxlamağa yönəlməlidir. İnsan əgər öz qüvvəsini digər işlərə sərf etsə, yəni Haqq yolundan qeyri işlərə bel bağlasa, ömrünü hədərə vermişdir. Bütün batini və zahiri qüvvələr, bütün nemətlər Allahla bağlılığa istifadə olunmalıdır. Sanki bütün bu cəhətlər, bizim ruhumuzun müxtəlif cəhətlərinə aid olan olduqca geniş və müxtəlif şəkilli yollardır. Çünki Allah-təala bizim ruhumuzu müxtəlif çöhrələrə, yönlərə malik qərar vermiş, bununla belə bir səmtə istiqamətləndirmişdir. Yəni müxtəlif yönlərə malik olmasına rəğmən ruhumuz bir cəhətə sarı hərəkət edir. Ola bilməz bizim vücudumuzun bir yönü Allahla bağlı olsun, amma başqa yönləri bu cür olmasın.

İnsanın vücudi yönlərini bölmələrə ayırmışlar. Məsələn, deyilir insan vücudunun bir yönü Allahla əlaqə yaratmaq, digər yönü özü ilə rabitə yaratmaq, başqa bir yönü digər insanlarla, o biri yönü isə sair məxluqatla bağlılıq yaratmaq üçündür. Bu bölmələr insanın üzləşdiyi ehkamlar baxımından düz sayıla bilər: İnsana özü ilə olan rabitəsi yönündən, ona hansı şeylərin xeyir, hansının zərərli olduğu bəyan edilir. Məsələn, deyilir filan şey halaldır, filan şey haram. Ehkamın bəzisi insanın Allahla əlaqəsini təyin edir; məsələn, namaz və oruc kimi. Ehkamın bəzisi insanın xalqla rabitəsini müəyyənləşdirir, məsələn ata, ana, qohumlar və dostlarla rəftar qaydaları kimi.

Bu bölgü qəbul ediləndir, amma bu o demək deyil ki, Allahın yolundan başqa, Ona sarı istiqamətlənən hərəkətdən başqa bizim başqa hədəfimiz də var. Əksinə, bilməliyik ki, bizim vücudumuzun bütün yönləri, onlarda olan qəribə təzadlara rəğmən, hamısı bir nöqtəyə istiqamətlənmişdir. Yəni insanın digər insanlarla olan bağlılığı da Allaha xatir olmalıdır.

Bizim işlərimizin zahiri şəkli fərqli görsənir: Biri namaz şəklindədir, biri dərs oxumaq və ya dərs demək, digəri hər hansı bir gündəlik iş şəklində. Amma bunların hamısı Allaha xatir olduğu təqdirdə bizə faydalı olacaq. Bunun üçün də insanın bütün işləri, hətta düşüncəsi də Allaha görə olmalıdır.

Bilməliyik ki, insanı insan edən Allaha olan bağlılıqdır, çünki insan kamalının son nöqtəsi Allahla bağlılıqdadır. Bu bağlılıq mərifət və əməllə əldə edilir. Bundan qeyri surətdə insan başqa heyvanlarla bir sırada, bəlkə də onlardan daha aşağı mərtəbədə yer alır: "...Onlar heyvan kimidirlər, bəlkə də, [ondan] daha çox zəlalətdədirlər...[1] ”[2]

Bu arada peyğəmbərlərin, övliyaların vücudu, onlarda zahir olan elm, qüdrət, hikmət nişanələri, onların Allahla olan bağlılıqlarının əlamətidir. Əlbəttə, deməliyik ki, hər bir mövcudun vücudu əqli təhlil baxımından eyni Yaradanla olan bağlılığı bəyan edir və yaradılmışın öz Yaradanı ilə bağlılıqda olmaması qeyri-mümkündür. Amma bu təkvini bağlılıq olub varlıq sisteminin toplusunda var olur və bu sistemdən kənarda qalması olacaq iş deyil. Allahla təkvini bağlılıqda heç bir mövcud kənarda qala bilməz. Bununla yanaşı insan başqa bir imtiyaza da malikdir. Bu imtiyaz Allah-təalanın insana əta etdiyi əqldən ibarətdir. Əqlin, şüurun köməkliyi ilə insan bu bağlılığı dərk edə bilər və onun dəyəri bu bağlılığı daha dərindən dərk etməsindədir.

---

- Hədid, 4 1
- Ayətullah Misbah Yəzdi, Axirət azuqəsi, səh. 203-204 2

Adətən dərkin və Allahla bağlılığın başlanğıcı hüsuli elmlərlə(Ənkəbut-65) əldə edilir. Yəni fikrimizi, əqli dəlillərimizi işə salmaqla buna nail oluruq. Amma bu dərk insanlıq kamalının sonu deyildir. Bununla insan son məqsədə çatmır və onda möhkəm etiqada səbəb olmur. Kamil dərk, hüzuri dərkdir. Yəni insan elə bir məqama çatır ki, bütün vücudu ilə Allahla bağlılığı dərk edir. Bu məqamda o nəinki bilir, bəlkə Allahla bağlılığın eyni olur. Həzrət Əlidən (ə) nəql edirlər ki, buyurur: "Elə bir şey görmədim ki, ondan qabaq və sonra və onunla Allahı görməmiş olum.”

Kamala çatmaq yolunda çalışmasına rəğmən bu dünyada həmin mərifəti kamil şəkildə əldə edə bilməyən şəxs nigaran olmamalı, o biri aləmdə kamil bağlılığı tapa bilməsi üçün bu dünyada zəminələri hazır etməlidir. Bu cəhətinə görə əhli-beytdən bizə çatan bəzi xəbərlərdə Allahla bağlılıq məsələsinə toxunarkən, həmin məsələni "[Allahı] görmək” təbiri ilə qeyd etmişlər. Rəvayətlərdə deyilir ki, behişt əhlinin ən üstün nəməti, onların öz kamal dərəcələrinə uyğun ilahi nuru müşahidə etmələridir. Ən yüksək məqama çatmış insanlar ilahi nuru həmişə müşahidə edirlər. Məqamları nisbətən aşağı olanlar üçün ilahi nurun təcəllisi az miqdarda özünü göstərir.

## Allahı düzgün tanımaq və Uca Yaradan ilə rabitə

**İbrətli hekayə**

Nəql edirlər ki, Tehranın iman əhli olan alimlərindən biri xərçəng xəstəliyi nəticəsində bu dünyadan köçür. Mərhumun ona həddən artıq bağlılığı olan yaxınlarından biri onu yuxuda görür və yuxusunun sadiq olduğunu yəqin edir. O öz yuxusunu Qumun üləmalarından birinə bu şəkildə danışırdı: "Həmin alimi yuxuda görəndə, ondan soruşdum ki, o biri dünyada imamları, məsələn İmam Hüseyni ziyarət edirsinizmi?" Cavabımda dedi: "Nə danışırsan? Bu aləmdə bizimlə İmam Hüseyn (ə) arasında otuz min illik fasilə var. Onun ziyarətinə nail olmaq üçün gərək otuz min il gözləyək!"

Bəli, baxıb görmək lazımdır insan ürəyini nəyə tapşırıbdır. İnsanın dəyəri, ürəyini verdiyi şeyin dəyəri qədərdir. İnsan ürəyini Allaha bağlayarsa, onun dəyəri nəhayətsiz olacaqdır.

"Ey Əbuzər! İstəyirsənmi sənə elə sözlər öyrədim ki, onunla Allah sənə xeyir əta etsin?" Dedim: "Bəli, ey Allahın rəsulu." Buyurdu: "Allahla əlaqəni qoru, Allah da səni qorusun."

Bura qədər deyilmiş bütün öyüdlər faydalı və dəyərli idilər. Deməli belə məlum olur ki, Peyğəmbər (s) Əbuzərə –"sənə elə sözlər öyrədim ki, onunla Allah sənə xeyir əta etsin”– deməklə, öndə deyilmiş mətləblərin cəmindən "bir dəstə gül” bağlamaq istəmişdir. Bununla peyğəmbər deyilən sözün xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır. Buna görə də Həzrət (s) Əbuzərin diqqətini bu mətləbə cəlb edir, ona eşitdirir ki, Allah Özü ilə sənin aranda təkvini olaraq bağlılıq yaratmışdır, çalış bu bağ qırılmasın; bu bağı qoruya biləsən, Allah da səni qoruyacaq.

Bəlkə də bəziləri üçün bu məsələ anlaşılmaz görünsün, desinlər mənimlə Allah arasında necə, hansı rabitə var ki, onu da qoruyum; Yer üzündə yaşayan mən insanla Allah-təala, ilahi ərş arasında nə rabitə ola bilər?!

Bu anlaşılmazlığın aradan qaldırılması üçün həzrət (s) buyurdu: "Allahla əlaqəni qırma ki, [İstədiyin vaxt Onu çağırmaq istəyəndə] Onu qarşında görə biləsən”

Yəni Allahla sənin aranda fasilə yoxdur, O həmişə sənin yanındadır və səndən ayrılmazdır: "...Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!”[1]

Beləliklə, əgər insan Allah-təalanın onu bəlalardan, şeytanın şərindən qorumasını istəyirsə (peyğəmbərin kəlamında "qorumaq” sözü mütləq formadadır və bu insanı hər cür maddi və mənəvi bəlalardan qorumağa şamil olur.) Allahla rabitəsini qoruyub saxlamalı, onu zəifləməyə qoymamalıdır.

- Əraf, ayə 2051

Allahın elçisi (s) buyurur: "Xoş halında (yaxşı günündə) özünü Allaha tanıtdır ki, dar günündə səni tanısın."
Dünya sistemində baş verən hər bir şey sonsuz qüdrət sahibi olan Allahın iradəsi ilə həyata keçdiyi üçün heç bir şey Onun iradə dairəsindən xaric deyil. Hər bir halda insan Allahı yad etməlidir. Əgər darda qalsa, nəzərini ancaq Allaha dikməlidir, qurtuluş yolunu Ondan diləməlidir. Həmçinin, xoş günə çıxanda da nəzərini Allahdan üzməməlidir, çünki rahatlıq nemətini ona Allah vermişdir.
Təbii ki, insan çətinliyə düçar olanda, xoşagəlməz hadisə ilə üzləşəndə Allaha sarı üz tutur, necə ki, Allah müşriklər barəsində buyurur: "(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini yalnız Ona məxsus edərək (ixlasla Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşarlar."(Nur-36)
Dara düşəndə, bəla dalğaları hər tərəfdən insanı əhatə edəndə Allaha üz tutmaq bir hünər deyil. Əlbəttə elə adamlar olur ki, Allahın dərgahından dəfələrlə qovulduqları üçün, hətta bəla ilə üzləşəndə də Allahın sorağına getmirlər. Amma ürəyində zərrə qədər imanı olan adam ən azı çətinliyə, çıxılmaz vəziyyətə düşəndə Allahı soraqlayır. Peyğəmbər (s) deyir: Əgər hər dəfə Allahın sorağına gedəndə sənə cavab verməsini istəyirsənsə, xoş günündə Allahla əlaqəni üzmə, Onunla rabitədə ol.

Bizim hamımız az-çox həyatda çətinliklərlə üzləşir, az sonra həmin çətinliklərdən azad oluruq. Amma onları tez unudur, sıxıntılardan sonra Allahın bizə verdiyi həmin nemətlər, yəni rahatlıq haqqında düşünmürük. Halbuki insanın düşdüyü bəlalar, üzləşdiyi problemlər onun qəflət yuxusundan oyanması üçündür.

Əgər – Allah eləməmiş – bizlərdən birimiz çətin xəstəliyə tutulsaq, ya da yaxın adamlarımızdan biri ağır xəstəliyə mübtəla olsa və əlimiz hər yerdən üzülsə, bütün ümidsizliklərə baxmayaraq biri bizə kömək etsə, məsələn bir nəfər təcrübəli həkim peyda olub dərdimizə əlac eləsə və düşdüyümüz bəladan sağ-salamat qurtulsaq, sizcə biz bu hadisədən nə nəticə çıxartmalıyıq? Deməliyik ki, bütün bunlar bir təsadüf idi və təsadüf nəticəsində bu cür oldu? Belə deyil, bütün bunlar Allahın lütfüdür. Onun inayətinin nəticəsində bu cür oldu? Belə deyil, bütün bunlar Allahın lütfüdür. Onun inayətinin nəticəsində xətər bizdən sovuşdu.

Yaradılış sistemində baş verən hər bir şey Allahın iradəsi dairəsindədir. Heç bir şey Onun istəyi olmadan həyata keçmir. Əgər insana bir nemət yetişirsə və ya ondan bir bəla dəf olursa, – hamısı Allahın iradəsi ilə olur. Bütün zəminələri, səbəbləri, şəraiti hazırlayan Odur. İstər həmin səbəblər adi olsun, istər qeyri-adi, istər biz bilək, ya bilməyək, insana ruzini yetirən Allahdır.

Allaha diqqət yetirməkdə insanları bir bölgü ilə üç dəstəyə ayırmaq olar: Birinci dəstə bütün hallarda – istər yaxşı günündə, istərsə də ağır günlərində diqqətini Allaha yönəldir. Quranın təbiri ilə desək, hər səhər-axşam Onu yad edir: "Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!"(Fussilət-51)
"[Həmin taxça və çıraq] Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi o evlərdədir [o məscidlərdədir] ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər.[1]"
Bu dəstənin bütün hallarda Allahı yad etmələrinin sirri ondadır ki, Allahın onlara əta etdiyi bütün nemətlərə baxmayaraq, onlar yenə də özlərini Allaha möhtac bilirlər, ən azı onlara verilən nemətlərin davamlı olması üçün özlərini Allahdan asılı görürlər. Çünki özlərinin məqam fərqlərini nəzərə alıb Allaha olan ehtiyaclarını dərk edirlər. Onlar üçün nemət və bəlanın təfavütü yoxdur. Onlar layiqli bəndələr olub həmişə Allahı yad edirlər və Allahın də nəzəri onların üstündən əskik olmur.
İkinci dəstə. Möminlərin əksəriyyəti bu dəstədəndirlər. Bu dəstəyə şamil olanlar xoş günlərində, nemət və firavanlıq içində olanda qəflətə düşürlər, amma elə ki, problemlə üzləşdilər, ayılırlar və Allaha möhtac olduqlarını izhar edilər. Bu dəstə nisbətən yaxşı bəndələr olur, amma Allah onlardan gileylənir ki, niyə nemət verdiyim günlərdə Məni unudurlar, neməti onlardan alan kimi Mənə üz tuturlar?

---

- Ənam, ayə 431

"İnsana nemət bəxş etdiyimiz zaman [haqdan] üz döndərər, uzaqlaşıb yan gəzər. Ona bir pislik üz verdikdə isə [Rəbbinə] uzun-uzadı dua edər.[1]"

Üçüncü dəstə o kəslərdir ki, heç bir halda, hətta çətin problemlə üzləşəndə belə Allaha üz tutmurlar. Bu dəstədən bir hissəsi bəzi bəlaların Alah tərəfindən olduğuna inanırlar. Buna görə də onlara həmin bəlalar nazil olanda duaya əl qaldırırlar. Çünki həmin bəlaların qeyri-təbii bir qüvvə tərəfindən göndərildiyini, Allahın qəzəb nişanəsi olduğunu bilirlər. Eyni ilə Yunus qövmü kimi... Yunus qövmünə gələcək bəlanın vaxtı yaxınlaşanda, onu ilahi qəzəbin nişanəsi hesab etdikləri üçün özlərinə gəlib istiğfar etməyə başladılar. Allah da onları bağışlayıb müqəddər olmuş bəladan nicat verdi. Bu dəstədən olanlar Allah tərəfindən nə kimi bəlaların nazil ola biləcəyini təsəvvürlərinə gətirmədikləri üçün Allaha diqqət etmirlər. Allah da bu dəstəni məzəmmət edərək buyurur: "Barı, əzabımız onların başlarının üstünü alanda yalvaraydılar. Lakin [inadları üzündən] qəlbləri sərtləşdi və Şeytan da onlara etdikləri əməlləri süslü göstərdi."("Üsuli-kafi" c.3, səh.219)

"Bundan sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da qatı oldu. Həqiqətən, bəzi daşların içərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan [uca yerlərdən, dağdan] yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən, əlbəttə, qafil deyildir!"(Hədid-22)

---

Bəqərə, ayə 741

Həzrət Peyğəmbər (s) insanın ancaq Allahdan kömək istəməsinə işarə edərək buyurur: "Bir şey istəməli olsan, Allahdan istə. Bir kəsdən kömək diləyəcək olsan, Allahdan kömək dilə. Çünki, qələm qiyamət gününə qədər olacaq bütün şeyləri yazmışdır."

Təbii olaraq insanın bir sıra ehtiyacları olur və o özü bütün ehtiyaclarını təmin edə bilmir. Belə olanda istər-istəməz ona kömək edə biləcək adamı soraqlayır. Peyğəmbər (s) Əbuzərə deyir ki, əgər bir kəsdən bir şey istəyəcək olsan, həmin şeyi Allahdan istə. Gördün ki, ehtiyacın var, özün onu əldə edə bilmirsən, başqasından kömək almağa məcbursan, həmin şeyi Allahdan istə. Çünki heç kim Allah qədər sənin ehtiyaclarını dəqiqliyi ilə bilmir və heç kim Onun qədər sinin ehtiyaclarını təmin edəcək gücdə deyil. Çünki bütün varlıq aləmi Onun mülküdür, Onun qüdrəti hər şeyi əhatə etmişdir. Bir işin həyata keçməsi Onun iradəsi ilə olur. Əlavə, Allah-təala hər kəsdən daha çox öz bəndəsinin qayğısına qalır və onun xeyrini istəyir. Buna görə də bəndəsinə göstəriş verir ki, hər bir çətinlikdə Onu çağırıb, Ondan kömək istəsinlər. Duada oxuyuruq: "İlahi, Səni çağırmağa və Səndən istəməyə mənə icazə verdin."[1]

---

- İftitah duası1

## Duanın əhəmiyyəti

Aydın məsələdir ki, Allah dua qapısını insanın üzünə açanda, duanı qəbul etmək, çağrışa cavab vermək üçün açmışdır. Bundan başqa, Allah hər zaman insana Öz nemətlərini əta etməklə onun boynuna haqq qoymuş olur. Şəksiz, Allahın nemətlərindən biri də insana düşdüyü bəladan nicat verməsidir. Bu nemət də Allah vasitəsilə insana əta olunur. İnsanın başına bir hadisə gələndə Allah xətəri ondan sovuşdurur. Hərdən də bəla gəlməzdən qabaq həmin bəlanı ondan dəf edir. Bu cəhətdən insan həmişə Allahın lütf və məhəbbəti ilə əhatə olunmuşdur. İftitah duasının başqa bir bəndində oxuyuruq: "Pərvərdigara, çox bəlaları məndən Sən dəf etdin, çox qəmləri, dərdləri Sən məndən uzaqlaşdırdın, bir çox günahlarımı bağışladın, geniş rəhmət qapılarını üzümə açdın, açılmaz bəla düyünlərini Sən çözdün."

İmam Sadiq (ə) buyurur: "Nə zaman sizlərdən biriniz Allahdan bir şey istəsəniz ki, onu sizə əta etsin, gərək Allahdan başqa hər kəsdən ümidinizi kəsəsiniz və ancaq Allahın yanında olana ümid bağlayasınız. Belə olan surətdə Allah onun qəlbinə baxar və istədiyi hər bir şeyi ona əta edər. "(Hədid-23)

Bizlərdən hər birimiz gündə, ən azı on dəfə "İyyakə nəstəin" deyirik, amma əməldə belə deyil. Bizim əksəriyyətimizin əməli onu göstərir ki, ancaq Allahdan kömək istəmirik; Allahdan kömək istəyə-istəyə, başqasından da kömək umuruq. Əlbəttə, sözlərində sadiq olan kəslər də vardır. Onlar "iyyakə nəbudu və iyyakə nəstəin" deyəndə sidq ürəklə deyirlər və həqiqətdə də ancaq Allaha ibadət edir, ancaq Ondan kömək istəyirlər. Amma bizim çoxumuz bu sözləri sidq-ürəkdən demirik. Dar günlərdə Allahdan çox ataya, anaya, bacıya, qardaşa, dostlarımıza ümid bağlayırıq, daha çox onlardan kömək gözləyirik.

Peyğəmbər (s) tapşırır ki, ancaq Allahdan kömək istəmək lazımdır. Bu sözlərdən sonra Əbuzərin diqqətini qəzavü-qədərə çəkir. Bundan qabaqkı bəhslərdə qəzavü-qədər haqqında danışılır. Qəzavü-qədərə inanmağın faydalarından biri də budur ki, insan xoş günündə sərməst olub özünü itirmir və ya xoşagəlməz hadisə ilə üzləşəndə o qədər də narahat olub xiffət çəkmir. Çünki baş verənlərin ilahi təqdir əsasında olduğunu bilir: "Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır."(Qəsəs-78)

Tarix boyu Allahın Öz saysız bəndələrinin hər biri üçün onunla əlaqədar baş verəcək hadisələri löhvi-məhfuzda qələmə alması ilk baxışda ağlasığmaz görünür. Amma bu, Allah üçün olduqca asan bir işdir. Çünki Allah bütün məlumatların yanında olmasını iradə edəndə, həmin məlumatlar eyni zamanda lövhi-məhfuzda da yazılır. Sonrakı ayədə həmin mətləbin dəlilini belə zikr edir: "Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən (özü ilə) fəxr edən heç bir kəsi sevməz!”(Yusuf-21)

İlahi təqdirə etiqad bəsləməyin faydalarından biri də budur ki, insanın gözü həmişə Allahın əlində olur. Çünki, Allahın müqəddər etdiyi şeyi istədiyi zaman dəyişə biləcəyini dərk edir. Bilir ki, başqasının bu arada görə biləcəyi bir iş yoxdur. Ona görə də Allahdan başqasına bel bağlamır. Əgər xoşagəlməz bir hadisəyə düçar olsa, bu hadisədə Allahın bir hikməti olduğunu düşünür. Əgər əlindən bir şeyi çıxsa, bilir ki, bu olacaq iş lövhi-məhfuzda belə yazılmışdır. Buna görə də bizə bir nemət yetişəndə, həmin nemətə görə havalanıb məğrur olmamalıyıq, özümüzü itirib Allahı yaddan çıxarmamalıyıq. Əksinə, həmin vaxtda Allaha diqqətimizi bir az da artırmalıyıq. Allahın bizə əta etdiyi istənilən neməti qarşısında şükür etmək lazımdır. Qarun kimi bizə əta olunmuş nemətləri öz səyimizin məhsulu bilmək düzgün deyil. Qarun əldə etdiyi mal-dövləti öz zəhmətinin nəticəsi bilirdi: "[Qarun] dedi: "Bunları məndə olan elm sayəsində əldə etmişəm.” Məgər bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdə ondan daha güclü və daha varlılarını məhv etmişdir?...”(Ənam-17)
Beləliklə, əgər sizə bir nemət verilsə, elə təsəvvür etməyin ki, onu öz zirəkliyiniz ilə əldə etmişsiniz. Bilməlisiniz ki, həmin nemət ilahi təqdirin, Allahın həkimanə tədbirinin səbəbilə sizə gəlib yetişmişdir. Həmçinin, həmin nemətin sizə verilməsi bir növ sizi imtahan etmək üçündür. Peyğəmbər (s) Əbuzərə Allahdan kömək istəməyi tapşırandan sonra, onun diqqətini ilahi təqdirə yönəldir: "Çünki, qələm qiyamət gününə qədər olacaq şeyləri yazmışdır.”

Əvvəldə dedik, indi də təkid edib deyirik ki, qəzavü-qədər məsələsindən sui-istifadə edilməməlidir. Bu məsələnin batinində yatan hikmətlərdən qafil olub elə düşünməməliyik ki, hər nə yazılıbsa, o da olacaq, bu arada biz heç kimik. Yazılan şey olacaq deyib özümüzü kənara çəkək və bütün məsuliyyəti çiynimizdən ataq! Bilməliyik ki, bizim çalışmağımız və hərəkətimiz də ilahi təqdir zümrəsindəndir. Bunun üçün də çox çalışmalı, öz vəzifələrimizə əməl etməkdə səy göstərməliyik. İlahi qəzavü-qədəri bəhanə edib tənbəllik etmək olmaz. Bu şeytanın vəsvəsəsidir.

Hədisin davamında Peyğəmbər (s) əvvəlki sözünə təkid olaraq buyurur: "Əgər Allahın sənə yazmadığı bir xeyri bütün camaat çalışıb sənə çatdırmaq istəsə, bil ki, bunu bacarmayacaqdır, eləcədə əgər, Allahın sənə yazmadığı bir zərəri bütün camaat səy edib sənə vurmaq istəsə, buna gücü çatmayacaqdır."

Əgər Allahın iradəsi bir işə aidiyyət tapsa, bütün dünyanın zahirdə güclü görünən qüvvələri onun qarşısını ala bilməz: "Allah Öz işində qalibdir, lakin insanların çoxu bilmirlər."(İnşiraq-5-6)

Başqa bir ayədə buyurur: "Əgər Allah sənə bir zərər yetirsə, Ondan başqa heç kəs onu səndən sovuşdura bilməz. Əgər sənə bir xeyir yetirsə [bil ki,] O, hər şeyə qadirdir."(Bələd-4)

Buna əsasən də son qərar və qəti iradə Allahındır. Belə olan surətdə, əgər bir kəsdən bir şey istəyəcəksənsə, onu belə bir iradəsi və qüdrəti olan kəsdən istə. Sənin kimi başqasına möhtac olan kəsə əl açmaq düzgün deyil. Bil ki, Allah istəməsə heç kim sənə kömək edə bilməz.

Peyğəmbər (s) Əbuzərin mərifətinin yəqin həddinə çatması üçün nəsihətin son bəndi olaraq ona deyir, əgər dediklərimə əməl etsən sənə çoxlu faydası olacaqdır. Deyir ki, Allahın müqəddər etdiyi hər bir şey hökmən həyata keçəcək, müqəddər etmədiyi heç bir şey baş verməyəcəkdir. Müqəddər olan bir şey boş və mənasız ola bilməz, diqqət edilsə hər bir hadisə həkimanə tədbir əsasında baş verir. Bu mərifətlə, mömin baş verən hadisənin onun məsləhətinin xeyrinə olduğunu dərk edir. Çünki, Allah Öz bəndəsinin zərərə düşməsini istəməz, xüsusilə də işlərini Allahın öhdəsinə qoymuş bəndəsinə ziyan yetirməz. Mömin bəndə xatircəmliklə öz işlərini görməyə çalışır. Onun, bütün hadisələrin Allahın həkimanə tədbiri əsasında baş verdiyinə yəqini olur.

Əlbəttə, bu yəqin, yüksək iman asanlıqla əldə edilmir. Hər kəs asanlıqla belə imanı öz qəlbində yarada bilməz, hər kəsin belə məqama çatmağa ləyaqəti olmur. Bu məqama çatmaq istəyən insan nəfsin paklaşdırılması yolunda çoxlu zəhmət çəkməlidir. Günahdan qubar bağlamış qəlbini çirkablardan təmizləməklə elə bir mərhələyə çatmalıdır ki, həmin mərhələdə nəfsin cilovunu əqlə tapşırmaqla, ilahi göstərişlərə əməl etməklə, Allah övliyalarının yolunu getməklə insanlığın ən ali mərtəbəsinə nail ola bilsin. Bu yola qədəm qoymuş şəxs həmişə Allahın istəyini öz istəyindən qabağa salmalıdır. Təbii ki, bu məqama çatmaq hər kəsin işi deyil. Peyğəmbər (s) tapşırır ki, əgər bir kəs yəqin dərəcəsinə çata bilməsə, yəni baş verən hadisələrin onun məsləhətinin xeyrinə olduğunu dərk edə bilməsə, heç olmasa baş verən xoşagəlməz və acı hadisələrin qarşısında səbir etsin. Bilsin ki, müqəddər olmuş hadisələrin müqabilində səbirsizlik göstərib iztirab çəkməyin insana heç bir xeyri olmur. Nə qədər həyəcan keçirsə, əl-ayağa düşsə də, sonra Allahın istədiyi şey olacaqdır. Onun qarşısını almağa bizim əlimizdən heç bir iş gəlməz.

## Müsibət zamanı nə edək?

Əgər başına bir müsibət gəlsə, xəstəliyə, kasıbçılığa düçar olsa, ümumiyyətlə başına nə iş gəlsə, hansı xoşagəlməz hadisə ilə üzləşsə səbir etsin ki, belə olan surətdə Allahın inayəti ilə qarşılaşacaqdır. Əlbəttə, bir hadisəni qabaqcadan təxmin etmək mümkündürsə, tədbir və düşüncə ilə onun qarşısını almaq olarsa, insan o hadisənin qarşısını almalıdır. Amma çox vaxt ən inkişaf etmiş ölkələr belə ixtiyarlarında son model texniki təchizatın olmasına baxmayaraq, qarşısını ala bilməyəcəkləri gözlənilməz bəla ilə üzləşməli olurlar. Bildiyiniz kimi Yaponiya zəlzələnin çox baş verdiyi ölkələrdəndir. Bu səbəbdən də orada zəlzələyə qarşı davamlı binalar tikilir; ehtimal olunan hər hansı zəlzələyə qarşı öncədən lazımi avadanlıqlar quraşdırırlar. Bu sahədə kifayət qədər təcrübələri olduqlarına görə, binaların təhlükəsizlik tədbirləri üçün lazım olan sərmayə yatırmağa gücləri çatır. Bununla belə dünyanın ən dəhşətli və dağıdıcı zəlzələləri Yaponiyada baş vermişdir.

Deməli hadisələr müqədər olmuşdur və vaxtı çatanda baş verirlər. Həmin hadisələrin əmri, aləmi Öz tədbiri ilə idarə edən kəsin əlindədir. Mümkündür, Allah eləməmiş, bizim də başımıza bir müsibət gəlsin. İndi, əgər Allahın həkimanə tədbirinə, kamil sisteminə yəqinimiz və mərifətimiz olsa, narahat olmayacağıq. Çünki, Allahın tədbirinə hüsnü-zənnimiz var və baş verən hər bir hadisəni öz xeyrimizə bilirik. Bir işdə əskiklik və zəiflik görəndə narahat oluruq, amma həmin işin yüz faiz bizim xeyrimizə olduğunu biləndə nə narahat oluruq, nə də qəmini çəkirik. Mümkündür kimsə hansısa xəstəlikdən əzab-əziyyət çəksin, amma görəndə ki, həmin xəstəlik onun xeyrinə qurtaracaq, istər-istəməz rahatlıq tapır. Eyni ilə dişi xarab olmuş şəxs dişini çəkdirəndə əldə etdiyi rahatlıq kimi. O öz dişinin çəkilməsinə razı olur, üstəlik bu işə görə pul da verir. Çünki, bu işi öz xeyrinə bilir. Heç vaxt narahat olub demir ki, niyə dişimi çəkdirdim. Bilir ki, xarab diş onun sağlamlığı üçün zərərlidir və onu hökmən çəkdirmək və ya əziyyətli də olsa müalicə etdirmək lazımdır. Hərdən insan üzləşdiyi ağır xəstəliyin müalicəsi üçün xarici ölkəyə getməyə məcbur olur. Bu yolda milyonlarla pul da xərcləyir və ya sağlamlığı xatirinə məcbur olur öz bədən üzvülərindən birini kəsdirsin. O buna məcburiyyət üzündən razılıq verir. Amma bu o demək deyil ki, bu şəxs riza məqamına çatmışdır. Yəni qəlbən baş vermiş hadisəyə razılıq verir və buna görə giley-güzar etmir. Mümkündür başına gələn işə görə gileylənsin, hətta ağzını açıb Allahdan da şikayət etsin. Necə ki, imanı zəif olanlar onlara bir hadisə baş verəndə taqətlərini əldən verib

Allahdan da gileylənirlər. Bu məsələni diqqətdə saxlayaraq Peyğəmbər (s) buyurur: "Əgər Allaha görə bir işi razılıq və yəqinlə görə biləcəksənsə, gör, əgər bacarmayacaqsansa, [heç olmasa] xoşagəlməz hadisəyə səbir et ki, bunda sənin üçün çoxlu xeyir var. Qələbə səbirlə yanaşıdır. Açılış (işlərin yoluna düşməsi) qəm-kədərlə yanaşıdır. Həqiqətən də hər çətinlikdə bir asanlıq da vardır."

Riza məqamı yəqin məqamının sayəsində kəsb edilir. Bu iki məqamın bir-biri ilə yaxın bağlılığı var. Bir kəs yəqin məqamına çatmayınca ilahi təqdirlərə razı ola bilməz. Əgər riza məqamına çata bilsən, xoş sənin halına. Bil ki, ən üstün insanlıq dərəcəsinə çatmışsan. Çünki, insanın ən yüksək məqamı ilahi hökmə razı olmasıdır. Belə olan təqdirdə çalış rəftarın riza və yəqinin əsasında olsun. Belə olarsa ruzigarın acı və şirin hadisələri sənə asan gələr və bu hadisələrdən narahat olub şikayət etməzsən. Əgər bu dərəcəyə çata bilməsən, çalış çətinliklər qarşısında səbirli olasan, özündən çıxıb hay-küy salmayasan. Əgər acı hadisələrə qəlbən razı ola bilmirsənsə, bil ki, sənin riza məqamına çatmamağının səbəbi mərifətinin yetkin olmaması üzündəndir. Heç olmasa təşviş keçirmə, faydasız yerə hövsələdən çıxma, öz imanını, əqlini qoru.

Hz. Peyğəmbər (s) buyurur: "Qələbə səbirin girovundadır. Hər qəmdən, kədərdən sonra bir şadlıq da gəlir, hər çətinliklə yanaşı bir asanlıq da var. Quranda Allah-təala buyurur: "Şübhəsiz ki, hər çətinlikdən sonra bir yüngüllük gələr!

Bəli, hər çətinlikdən sonra bir yüngüllük gələr!”("Bəqərə-155-156)

Qurani-kərimdə çox az mətləb təkid hərfi olan "innə” ilə zikr olunmuşdur. Bu həmin mətləbə Allahın diqət və inayətinin göstəricisidir. Yuxarıdakı ayədə Allah buyurur hər çətinlikdən sonra bir yüngüllük gələr. Sanki yüngüllük və asanlıq çətinliyin içərisində gizlənmişdir. "İnşirah” surəsində Allah lütfükar bir xitabla sanki Peyğəmbərə (s) bir təsəlli verir. Həqiqətdə çətinliklərin və problemlərin insan kamalının müqəddiməsi olduğuna işarə edir. Göstərir ki, bu çətinliklər insanın güc toplamasına səbəb olur. Bu baxımdan müsibətlər və çətinliklər insanın təkamülü üçün zəruridir: "Biz insanı məşəqqətdə yaratdıq! [İnsan doğulduğu gündən qəbr evinə gedənə qədər əzab-əziyyət içində çalışıb çabalayar, həyatı boyu müxtəlif çətinliklərlə üzləşər. Bu ilahi bir hikmətdir, həyatın qanunudur!]("Üsuli-kafi" c.3, səh.354)

Bu ayə insanın təkamülü yolunda məşəqqətlərin mühüm rol oynadığını göstərir. Əgər belə olmasaydı, rəhmət və məhəbbət çeşməsi olan, bəndəsinin səadətini arzulayan Allah onu heç vaxt zəhmətə, əzab-əziyyətə düçar etməzdi.

Hər halda, İnsan bu günkü ruzisinə qane olsa, başqalarına əl açmasa, çox rahatlıqla vaxtını öz kamilliyinə sərf edə bilər.

İmam Səccad (ə) buyurur: "Başqasından ümidsizlik hissini özündə zahir et. Həqiqətən də bu ehtiyacsızlıqdan, qənilikdən doğan bir hisdir.”("Bihar" c.103, səh.20)

Əli (ə) buyurur: "Ən üstün ehtiyacsızlıq uzun arzulardan qaçmaqdır.” ("Bihar" c. 103, səh. 22)
İnsanın Allaha olan ümidi, başqasına bağladığı ümiddən daha çox olmalıdır. Bu xislət Allaha güvən və təvəkkül olmadan hasil olmur. İnsan ziyanın və xeyrin Allahdan olduğunu biləndən sonra onda başqalarına möhtacsızlıq hissi yaranır. Hətta əlində dünya malından bir şey olmasa belə özünü qüdrətli, ehtiyacsız görür.
Necə ki Həzrət Peyğəmbər (s) buyurur: "İmkanlı olmaq və qənilik malın çoxluğunda deyil, güc və qənilik, qəni nəfsə malik olmaqdadır.”[1]

### a) Nəfsin islah olunması və səbrin əhəmiyyəti

Riza məqamı o kəslərin məqamıdır ki, bütün ilahi hökmlərin bəndələrin xeyrinə olduğuna inanırlar. Bu haqqda çoxlu rəvayətlər qeyd edilmişdir. O cümlədən İmam Sadiq (ə) buyurur: "Əcəba! Ola bilərmi ki, Allah bir nəfər müsəlmanın qəzavü-qədərini təyin etsin və orada xeyirdən başqa bir şey olsun? Əgər bədəni qayçı ilə tikə-tikə doğranmalısa, deməli xeyri bunda imiş və əgər bütün yer üzünə şərqdən-qərbə malik olacaqa, yenə də xeyri bu imiş.”
("Fəcr”, 27-28.)
İmam buyurur mömin üçün Allahın nəzərdə tutduğu qədərin hamısı xeyirdir. Ola bilsin işin zahiri onun xoşuna gəlməsin, amma xoşuna gəlsə də, gəlməsə də işin həqiqəti bundan ibarətdir. O xoşagəlməz bir hadisə ilə qarşılaşıbsa, deməli ya

- Misbah Yəzdi, Axirət azuqəsi, c. 2, səh. 212-213 1

dünyasına xeyri var, ya da axirətinə. Belə bir mərifəti kəsb etmiş şəxs qarşılaşdığı yaxşı-pis hadisələrdən narahat olmur, çünki bəndəlik məqamında əskikliyi olmayıb, boynuna düşən vəzifəsini yerinə yetiribdir. Ona görə də birdən ruzisi az olar, çox olar deyə nigarançılıq keçirmir və ya görəsən nə baş verəcək deyib özünü əbəs yerə qorxuya-hürküyə salmır: O, işini Allaha təpşırıb öz bəndəçiliyi ilə məşğuldur. Tam yəqinlə bilir ki, nə baş versə onun xeyrinədir. O bundan başqa bir şey istəmir. O bütün hadisələrə nikbin gözlə baxır. Qarşılaşdığı müsibətlərə razılıq verir: Əgər zindana düşsə gileylənmir; rəvayətdə göstərilən təbirlə desək, hətta bədənini qayçı ilə tikə-tikə doğrasalar da o bundan razı qalır, çünki öz xeyrini bunda görür.

Biz inqilab və müharibə dövründə çox adamlar görmüşdük ki, başlarına gələn hadisələri könül xoşluğu ilə qəbul edirdilər. Arxa cəbhədə elə atalar, analar, gəlinlər olurdu ki, əzizlərinin tikə-tikə olmuş və ya yanmış cənazələrini gətirib onlara təhvil verəndə onu könül xoşluğu ilə təhvil alırdılar və onlara belə bir iftixar nəsib olduğuna görə Allaha şükür edirdilər!

Bunları dildə demək asandır, amma həyatda yaşamaq olduqca çətindir. Allahın verdiyi yazıya dilxoş olmaq hər adamın işi deyil. Bu mənanı dərk etməyin özü də çətindir: Necə olur ki, Allah bəndələrindən bəziləri elə bir məqama çatırlar ki, onlara baş vermiş, baş verəcək hadisələrdən giley-güzarları olmur; Onlar üçün elə də önəmli deyil sabah nə olacaq, ruziləri çatacaq, ya yox. Əziz bir adamı cəbhəyə gedibsə onun ölümü üçün nigaran olmur və ya əgər özü haqq yolun fədailəri ilə

cəbhədə vuruşursa, artıq evinin, külfətinin nigarançılığını çəkmir. Çünki canını, varlığını şəhadətə hazır etmiş adam evinin, külfətinin fikrini çəkə bilməz. Belə insanlar cəbhədən qayıtdıqlarında çox yaxşı olardı ki, öz ruhiyələrini, mənəvi hallarını qoruyub saxlayardılar və fədakarlıq, Allahın qəzavü-qədəri qarşısında təslim olmaq dərsini başqalarına da verərdilər. Həmişə dillərinin virdi bu olardı ki:

**Dərd də versə, qənd də versə, dost verib**
**Dost verən şey dərd də olsa, qənd verib**

Rəhmətlik Molla Mehdi Nəraqi deyir: "Allahın qəzasına razılıq dinin ən yüksək məqamlarından, müqərrəblərin ən şərəfli mənzillərindən və Allahın əzəmətli qapılarından biridir. Bu qapıdan girən şəxs behiştdə daxil olar. Riza məqamının əhəmiyyəti o həddədir ki, peyğəmbərdən nəql edilən rəvayətlərin birində deyilir: "Allah qiyamət günü mənim ümmətimdən bir dəstəyə elə bir qanad verər ki, onunla onlar qəbirlərindən behiştdə doğru pərvaz edərlər və ürəkləri istəyən behişt nemətlərindən bəhrələnərlər. Mələklər onlardan soruşarlar: "Hesab-kitab üçün sizi saxlamadılar ki?” Onlar deyər: "Bizdən hesab sormadılar.” Yenə soruşarlar: "Sirat körpüsündən keçə bildinizmi?” Deyərlər: Biz sirat görmədik. Soruşarlar: Cəhənnəmi gördünüzmü? Deyərlər: Biz cəhənnəm, filan görmədik. Mələklər yenə soruşarlar: Kimin ümmətindənsiniz? Deyərlər: Məhəmmədin (s) ümmətindənik.
Mələklər onlara and verdirib soruşarlar ki, siz dünyada nə iş görmüsünüz, ürəyinizdə nə olub ki, bu cür şərəfə layiq görülmüşsünüz? Deyərlər: Bizim iki xislətimiz olub. Allah bu

iki xislətə görə, Öz fəzli və rəhməti ilə bizi bu dərəcəyə çatdırıb: "O xislətlərdən biri budur ki, xəlvətdə olduğumuzda Allahdan utanıb günah iş tutmamışıq, ikincisi də budur ki, Allahın bizə qismət etdiyi şeyə razı olmuşuq."
("Maidə", 19.)
Allah-təala riza məqamına nail olmuş kəs haqqında buyurur: "[Qiyamət günü Allah-təala mömin kimsəyə belə buyuracaqdır:]"Ey [öz imanından, əməlindən və Allahın vədindən] xatircəm olan kəs! [Və ya: "Ey arxayın nəfs!"] Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən!"
(Allahın yeganəliyinə imanı olan, Allahı, tək ibadət ediləcək məbud sayan şəxs. (Mütərcim))
Şərif olan bu ayə Riza məqamını və Allaha olan etimadı açıqlayır. Bu hal insanı hər cür sıxıntıdan, pərişanlıqdan, təşvişdən azad olmasına səbəb olur. Bu məqamın əsas xüsusiyyətlərindən biri də budur ki, insan həm razıdır, həm də razı olunmuş. Yəni arada qarşılıqlı razılıq var. Bu məna başqa bir ayədə belə bəyan edilir: "Allah onlardan, onlar da Allahdan razıdırlar..."("Mülk" 1-2)
"Raziyə" və "mərziyyə" kəlmələri haqqında rəhmətlik Əllamə Təbatəbai buyurur: "Allah-təala mütməinnə nəfsi ona görə "raziyə" və "mərziyə" kəlmələri ilə vəsf edir ki, qəlbin Allahla təskinlik və arxayınlıq tapması tələb edir ki, insan Allahdan razı olsun və onun başına gətirdiyi qəzavü-qədərlərə görə azacıq da olsa etiraz etməsin; istər o qəzavü-qədər təkvini olsun, istərsə də Onun hökm etmiş olduğu qələmi ilə olsun -

fərq etməz. Belə olan surətdə heç bir qəzəbləndirici hadisə onu qəzəbləndirməz, heç bir günah onun qəlbini [haqdan] döndərməz. Bəndə Allahdan razı olanda, təbii ki Allah-təala da ondan razı olacaqdır; çünki Allahın bəndəlik libasından çıxmağa səbəb olacaq heç bir başqa amil onu qəzəbləndirmir. Allah bəndəsi übudiyyət yoluna qədəm qoydusa, Allahın ondan razı qalmasına layiq görüləcəkdir. Buna görə də Allah "raziyə" və "mərziyə" kəlməsini gətirmişdir."

Deməli insan kamil arxayınlığa o zaman çatır ki, Allahdan razı olmuş olsun. Başqasından razı olmaq budur ki, insan onun sifət və işlərini bəyənsin.[1] Müvəhhid şəxs anlayanda ki, bütün aləmin işləri ilahi tədbir əsasında baş verir, elə ki, riza məqamına çatır, artıq heç bir hadisədən narahat olmur; çünki həmin hadisənin Allah tərəfindən, Onun tədbirinə əsasən olduğunu görür. Yəni baş vermiş hadisə ilə Allah-təala arasındakı bağlılığı dərk edir. Bilir ki, heç bir hadisə Allahın izni olmadan baş vermir. Buna görə də narahat olmamağı öz yerində qalsın, hətta həmin hadisə Allahın iradəsinə əsasən baş verdiyi üçün, yəni Allahın iradəsi həyata keçdiyi üçün ondan məmnun da qalır.

## Səbir məqamına bir baxış və onun əhəmiyyəti

Hər halda riza, mərifət və yəqin məqamı elə əzəmətli bir nemətdir ki, insan bu nemətə Allahın bütün təqdiratına razı

---

*1* - Biharül-ənvar, c. 77, səh-20

olmaqla nail olur. Çünki bilir Allah onun xeyirini istəyir. Amma hər kəs bu məqama çata bilmir, bu mərifət asanlıqla qazanılmır, ona çatmaq üçün özünütərbiyə və çoxlu çalışmaq lazımdır. Əgər kimsə bu yüksək məqama çatmasa, bunu da bilməlidir ki, Allahın təqdiratı xeyirdir. Düzdür ki, acılara, çətinliklərə dözmək onun üçün çox çətindir, amma səbrli olmağa səy etməlidir və özünə səbrdən don biçməlidir. Riza məqamına çatmamış mömin bu mərtəbəni aşmasına baxmayaraq üzləşdiyi hadisələr qarşısında səbirli olur. Belə insan xoşagəlməz hadisələrin baş verməsini istəmir. Amma bu cür hadisələrlə üzləşməli olsa öz vəzifəsinə əməl edir və görməli olacağı işlərdə əskikliyə yol vermir. Əgər düşmənlə cihad və mübarizə aparılmalı olsa, ilahi vəzifəsinə boyun əyərək cihada başlayır, baxmayaraq ki, bu cür acı hadisələrin baş verməsindən narahatdır, qəlbinin dərinliyində bu məsələyə, yəni döyüşün olmasına razı deyil, amma baş vermiş hadisədən boyun da qaçırmır, zəhmətə düşməli də olsa qəbul edib döyüşə gedir. Deməli riza məqamına çatmış şəxs üçün, riza məqamından sanra gələn səbr məqamı bəyənilləndir. Səbr məqamı islam əxlaqında çox tövsiyə edilən əxlaq məfhumlarından biridir. Bu kəlmədən başa düşülən şey nəfsani bir haldır ki, çətinliklərdə, müsibətlərdə xüsusi adamlar üçün baş verir. İnsanların xoşagəlməz hadisələrlə üzləşdiklərində keçirdiyi hallar fərqlidir. Bəziləri bu hadisələrin qarşısında dad-fəryad edirlər və bu nigarançılıq onların həyatına da təsir qoyur, belə ki, işdən-gücdən olurlar. Bunlar səbirsiz və taqətsiz adamlardır. Bu dəstənin müqabilində bəzi adamlar da var ki,

çətin hadisələrlə üzləşdiklərində özlərini ələ alır, səbirli olurlar. Xoşagəlməz hadisələr onların ruhiyyəsinə bir elə də təsir qoymur. Bu dəstə də səbirli və dözümlüdürlər. Düzdür ki, bu cür adamlar qəlblərində bu kimi acı və xoşagəlməz hadisələrdən razı qalmırlar, amma bu hadisələrin qarşısında dözümlülük nümayiş etdirirlər. Xoşagəlməz hadisələri xoşlamırlar, ürəkləri istəmir cəbhəyə getsinlər, şəhid olsunlar, amma cəbhəyə getmək lazım olanda, xətərə düşmək təhlükəsi gələndə də üz döndərmirlər, meyilləri olmasa da, boyun da qaçırmırlar. Ata-ana övladlarının cəbhəyə getməsini istəmir, amma təklifləri bunu vacib etsə, ona mane olmurlar, səbir edirlər, dişlərini bağırsaqlarına tutub dözürlər. Bilirlər ki, insan səbir göstərməklə çətinliklərə sinə gərir, insan səbrlə həyatına düzən verir və həmçinin axirət səadətini də bu yolla təmin edir. Hərdən səbri səhv təfsir edirlər, elə bilirlər səbr çətinliklərə, zillətə boyun əyməkdir, yəni başqalarının haqqında edilən zülmə, baş verən hadisəyə biganə, bitəfavüt olmaqdır. Səbr məfhumunun bu cür başa düşülməsi qələtdir. İslam sözlüyündə səbr, yəni insanın onu batil yollara çəkən, kamalının qarşısını alan amillər müqabilində göstərdiyi müqavimət və dözümlülükdür. Həmin amillər hərdən daxili olur, hərdən də xarici. İstər o amil insanı hərəkətə dəvət etsin, amma nahəqq hərəkətə, istərsə də sükuta, tərpənməzliyə dəvət etsin, amma nahəqq sükuta. Məsələn, insan acdığı zaman çörək yemək istəyir, amma ixtiyarında olan xörək haram və ya şübhəli yeməkdir. Bu anda insan təbiəti təbii olaraq bizi o yeməyi yeməyə dəvət edir, amma onu yemək haqq deyil. Bu anda

həmin təbii istəyin müqabilində başqa bir hiss baş qaldırıb müqavimətə başlayır, bu həmin səbrdir.

Döyüş cəbhəsində düşmən hücuma keçmişdir, hər yerdən güllə yağır, nəfs deyir qaç canını qurtar, amma Allah deyir müqavimət göstər ki, İslam qələbə çalsın. Burada insanı qaçmağa dəvət edən nəfsani amil qarşısında göstərilən müqavimət səbrdir.

Hərdən insanı nahəqqə dəvət edən amil xarici amil olur. Həmin xarici amil hərdən insanlar vasitəsilə həyata keçir və hərdən də qeyri insan vasitəsilə ki, bu da sonunda gedib Allahın qəzavü-qədərinə çıxır. Məsələn, zəlzələ baş verir və evin tavanı uçub tökülür, indi bu hadisənin müqabilində əgər özümüzü itirib haray-həşir qoparmasaq, soyuqqanlı olsaq, tələb olunan vəzifəmizə əməl etsək, səbrimiz var. Deməli rəvayətdə zikr edilən səbrin bölmələri arasında müştərək cəhət (itaətə və müsibətə edilən səbr) özünü kontrol edə bilmək və nahaqqa qarşı addım atmamaqdır və həmçinin insanı batilə dəvət edən amillər qarşısında müqavimət göstərməkdir.

Səbrin insanın həyatında, təkamülə çatmasında oynadığı rola və əlavə insan təkamülünün hanı yollarla hasil olduğuna diqqət yetirəndə səbrin əhəmiyyəti aydın olur. İnsanın təkamülü onun ixtiyari əməllərinin təsirindən hasil olur, yəni iki təzadlı qüvvə ilə üzləşəndə, onu kamala çəkən qüvvəni seçsə, düzgün olan bu seçim onu bir pillə kamala doğru götürür. İnsanın cöhəri və kamalı o zaman zahir olur ki, Allahın razı olduğu şeyi seçsin. Deməli insanın təkamülü iki zidd qüvvənin keşməkeşində, çəkişməsində üzə çıxır. Bu cür çəkişmələrdə insanın özündən

maya qoyması gərəkir, məhz belə bir anda–iki müxtəlif meylin dartışmasında–insan Allahın razı saldığı tərəfi seçməyi bacarmalıdır. Əgər bu halda onu haqqa dəvət edəcək imanı və fitri gücü güclü olarsa, öz layiqli kamalına çatacaqdır, amma əgər nəfsani və şeytani amil güc gələrsə, iki qüvvənin mübarizəsində insan büdrəyib onu uçruma salacaq səmtə yönələcəkdir. Bu həqiqətdə həmin ilahi imtahanın mənasıdır: "Hökm [hər şeyin ixtiyarı] əlində olan Allah nə qədər uca, nə qədər uludur. O, hər şeyə qadirdir! Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq [bəlli etmək] üçün ölümü və həyatı yaradan Odur...”[1]

Bəli, biz öz təkamül yolumuzda bizi müxtəlif cəhətlərə dəvət edən amillərlə üzləşirik. Əqlani, İlahi amillər bizi bir tərəfə sövq etdirirlər, heyvani və şeytani amillər isə başqa səmtə. Düzgün seçim budur ki, bizi batil yola dəvət edən amillər qarşısında müqavimət göstərək. Deməli biz əgər həyatımızın təkamülə doğru irəliləməsini istəyiriksə səbrdən özümüzə don biçməliyik. Rəvayətlərin birində deyilir ki, Peyğəmbər (s) Cəbrayıldan soruşdu ki, səbr nədir? Cəbrayıl ərz etdi: "Səbr odur ki, şad günlərində möhkəm və müqavimətli olduğun kimi, narahat günlərində də müqavimətli və sarsılmaz olasan. Həmçinin imkanlı olduğun vaxtlardakı kimi, kasıblığında, sağlam günlərində olduğu kimi, xəstələndikdə əzmini, hövsələni əldən verməyəsən. Deməli səbrli adam ona bir müsibət üz verdiyində, bir bəlaya düçar olduğunda, camaat yanında şikayət edib, öz halından gileylənməməlidir.”

---

- Biharul-ənvar, c.12, səh. 351

(Əraf', 179.)

Bəli, yəqin məqamına çatmayan kəslər–o kəslər ki, baş verən hadisələrin xeyir olduğunu aydın surətdə anlaya bilmirlər və açıq üzlə çətinliklərə sinə gərə bilmirlər – onların səbirli olması gərəkir və dua etməlidirlər ki, Allah istəklərini həyata keçirsin və qarşılaşdıqları çətinliklərdə dözümlü olsunlar. Dediyimiz kimi riza məqamına çatmış adam baş verən hadisələrdən narahat olmur, yəni başına bir müsibət gəldikdə özünü itirmir, Allaha şükr edir. Əgər övladı şəhid olsa, deyir: Əlhəmdülillah, ey kaş bir övladım da olardı, onu da göndərərdim cəbhəyə şəhid olsun. Belə adam nəinki narahat olmur, əksinə öyünüb iftixar edir ki, övladı müqəddəs amallar uğrunda şəhid olmuşdur. Amma bu həddə çatmayan insanlar çoxdur, Allah da buyurur: "...Bəndələrimdən [nemətlərimə] şükr edəni azdır!"

İnsanın ölümdən xoşu gəlmir, həmişə ondan qaçır, amma axırı ölüm onu haqlayıb öz kamına çəkir. Eləcə də insan öz ruzisindən qaçmaq istəsə, qaça bilməz, yenə də axırda gəlib ona çatacaq. Təyin edilmiş qədərdən qaçmaq olmaz. Əgər bir adam çox çalışsa, işləsə də, məlum deyil ruzisi çatacaq, ya yox. Çox görünüb ki, bəzi adamlar ruzi üçün canlarını oda-suya vurublar, amma axırda acından ölüblər. Bununla əlaqədar, həddən artıq varlı adamlar haqqında qəribə hekayələr nəql etmişlər. Deyirlər bəzi adamlar öz həyatlarında elə vəziyyətlə üzləşməyə məcbur olmuşlar ki, acından ölməmək üçün öz ayaqqabılarını yemişlər! Başqa bir tərəfdən də elə əlsiz-ayaqsız adamlar olub ki, əllərindən bir iş gəlməsinə

baxmayaraq Allah onlara saysız-hesabsız sərvət əta edibdir və qismətlərində olan dövlətə çatmışlar.
Bunula belə insan öz işindən qalmamalıdır. Daim çalışmalı, öhdəsinə düşən vəzifəsini yerinə yetirməlidir. Qəzavü-qədərə etiqad bəhanəsi ilə tənbəllik etməməlidir. Çünki Allahın tənbəl adamlardan acığı gəlir. Amma, əgər insan təhsil və başqa bir sənəti seçmək məsələsində azad olub onlardan birini seçmək vəzifəsini daşısa, ruzinin kasad olacağından qorxub elmi rədd etməməlidir. Əgər Allaha mərifəti, imanı olsa, ruzinin Allah tərəfindən yetişməsinə olan imanı onu vadar edəcək ki, xatircəmliklə elmin ardınca getsin və ruzi cəhətdən arxayın olsun. Çünki, imanlı şəxs müqəddər olmuş ruzidən məhrum olmayacağını bilir.[1]
Başqalarına bədgümanlıq isə adətən, günaha aludə olan, zəif təbiətli insanlardan baş verir. Yəni aludə insanlar başqalarını da özləri ilə müqayisə edir, özlərindəki rəzalət xislətlərinin inikasını onlarda görürlər. Buna görə də hamını özü kimi təsəvvür və öz xislətlərinə sahib olduğunu güman edib fikirləşir ki, hamı onun kimdir. Bədgüman şəxs bu vəziyyətlə mübarizə aparmaq üçün hər şeydən əvvəl, özündəki eyibləri islah etməlidir ki, başqalarını özü ilə müqayisə etsə, bədgümanlığa düçar olmasın. Digər tərəfdən, gərək başqalarını özü kimi fərz etməsin. Çünki onların daha yüksək və ali ruhiyyəyə malik olması mümkündür. Buna görə də layiq deyildir ki, özünün pis xislətlərini meyar qərar versin və öz din qardaşlarına qarşı pis xəyallar etsin. Deməli, sui-zən ilə

---

- Ayətullah Misbah Yəzdi, Axirət azuqəsi, c. 2, səh. 192 1

mübarizənin birinci yolu insanın öz nəfsini islah edib rəzalətlərdən paklamasıdır. Əli (əleyhis-salam) buyurur: "Xoş olsun o kəsin halına ki, özündəki çirkinliyi və pisliyi (barəsində fikirləşmək) onu, camaatın çirkinlikləri (eyibləri) barədə fikirləşməkdən saxlayır."[1]

## Nəticə

İnsanın əşya və hadisələrə baxışı necədirsə, xarakter və ruhi-mənəvi durumu da tədricən o düşüncə ətrafında formalaşmağa başlayır. Gözəl görmək gözəl düşünməyə zəmin hazırladığı kimi pis görmək də pis düşüncələrə gətirib çıxarır. İnsan xarakterinin formalaşmasında düşüncə və əməl bir-birini tamamlayan önəmli amillərdir. Gözəl görməyi vərdişə çevirmiş bir insan gözəl əməllər işləyər, əşya və hadisələrə müsbət yanaşar və həyatdan ləzzət alar. Əksinə, hər şeyi pis görməyə adət etmiş bir insan heç vaxt gözəlliyi seçə bilməz, müsbət düşünməz və həyatın həqiqi ləzzətini dada bilməz. Yüksək ruh və qüsursuz xarakterlər ortaya çıxaran ən mühüm güc gözəl düşüncə və təmiz niyyətdir. Bu cür insanlar həqiqi səadətin qoynunda səfa sürməklə yanaşı, müşk-ənbər saçan gül bağçası kimi ətrafa müsbət enerji verərlər.

Zənnin bir qismi gözəldir, digər qismi isə çirkindir. Gözəl olan hüsnü-zənn, çirkin olana isə sui-zənn deyilir. Allah və möminlər barəsində gözəl düşünmək vacibdir, insanlar barəsində pis düşünmək isə caiz deyildir.

1 - "Nəhcul-bəlağə", səh. 256, "Darul-hicrət" nəşriyyatı, Qum

Sui-zənn başqaları haqqında pis fikirləşmək demək olub insanı qeybətə sürükləyən başlıca mənəvi xəstəliklərdən biridir. Sui-zənn qəlbin qeybətidir və başqaları haqqında pis düşüncələrin qəlbdə özünə yer tapmasıdır. Sui-zənn qəlbi və ağılı xəstə, məzacı pozulmuş insanların mübtəla olduğu bir mərəzdir. O, toplumun maddi və mənəvi həyatına qəsd edən şeytani hiylədir.

Bir məsələyə, ya da bir şəxsə qarşı gizli məqsəd, pis niyyət və ədavətlə, həmçinin şüurlu şəkildə və qeyri-obyektiv yanaşmaya qərəz deyilir. Bir şəxsə əks arqumentlər, məsələnin doğru və əsl mahiyyəti göstərildiyi halda, o yenə fikrini dəyişmir və ilkin qərarında qalırsa, bu artıq onun qərəzli olduğunu göstərir. Qərəz digər insanlara və qruplara qarşı dözümsüz, ədalətsiz və ayrı-seçkili bir münasibət bəsləməkdir. Uzunmüddətli sosial-tarixi təcrübə nəticəsində şüurlarda kök salmış, daşlaşmış, qəlibləşmiş şablon fikirlər qərəz adlanmaqla yanaşı bunun digər adı da stereotipdir. Stereotiplər bir şeyə qarşı əvvəlcədən formalaşmış mənfi münasibətdir. Stereotiplər əksəriyyətlə yanlış və əsli olmayan məlumatlardır və fərdləri, insanları sosial qruplara, müxtəlif qəlib fikirlərə salaraq ümumiləşdirir. Bir insan stereotiplər vasitəsilə öz mövqeyini müdafiə etməyə çalışsa da, bu hal obyektivlikdən uzaq olmaqla yanaşı, mənzərəni tam təsvir etmək üçün də kifayət deyil. Həm qərəz, həm də stereotip haqqında kifayət qədər məlumat olmadan qarşıdakı şəxsə bəslənən mənfi münasibət və gizli düşmənçilikdir.

## Ədəbiyyat

1- ***Qurani-Kərim***
2- ***Nəhcül-Bəlağə***
3- ***Səhifeyi-Səccadiyyə***
4- Amidi, Təmimi, Əbdül-vahid, ***Dürərul-Hikəm, Tehran: 1984***
5- Amidi, Əbdülvahid Təmimi, ***Feheresti-Ğurarul-Hikəm, Beyrut: 1996***
6- Amuli, Hürr, Məhəmməd ibn Həsən, ***Vəsailüş-Şiə***, Qum: 1974
7- Cəfəri, Yəqub, ***Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996***
8- Cəfəri, Məhəmməd Təqi, ***Nəhcül-Bəlağənin tərcümə və təfsiri***, Qum: 1999
9- Cordaq, Corc, ***Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001***
10- Cövhəri, İsmayıl ibn Həmmad, ***Sihahül-Lüğət, Qahirə: 1997***
11- Ədibi, Hüseyn, ***İctimai təbəqələr sosiologiyası***
12- Ənsari, Məhəmməd Əli, ***Ğurərul-Hikəm və Durərul-Kəilim***
13- Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", Tehran: Dünyayi daniş nəşriyyatı1382
14- Firuzabadi, Məhəmməd ibn Yqub, ***Qamusül-mühit***
15- Xansari, Ağa Cəmaləddin, ***Ğurərül-Hikəm"in şərhi***

16- Gilani, Əbdür-rəzzaq, ***Misbahuş-Şəriənin şərhi, Tehran: 2003***

17- Həkim, Seyid Məhəmməd Təqi, ***Əli (ə) kəlamlarından ilham***

18- İbn Babəveyh, Səduq, ***Xisal, Qum: 1992***

19- İbn Meysəm, ***İxtiyaru-Misbahis-Salikin***

20-İraqi, Əlirza, ***İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış***

21- İbn Əbil-Hədid, ***Nəhcül-Bəlağənin Şərhi, Tehran: 1964***

22- Qumi, Abbas, ***Səfinətul-Bihar***

23- Səduq, Məhəmməd ibni Əli, "Üyunu əxbarir-Riza (əleyhis-salam)" Beyrut: 1956

24- Siyahət, Abidin, Nəhcülbəlağədə əxlaq, Naşir: Cameətül-Mustafa, 2022

25- Misbah Yəzdi, Sadiq yol axtaranlar üçün İmam Sadiqin (ə) nəsihətləri, Qum: 2014

# Regionda vəhdətin önəmi

Ramal Musayev

ABSTRAKT

Vəhdət sözü dini mətnlərdə geniş yer alsa da siyasi ədəbiyyatda bu sözə bir o qədər də yer verilməyib. Siyasi ədəbiyyatda daha çox qarşıya çıxan sözlər nasionalizm, panərəbizm, pantürkizm kimi sözlərdir. Siyasi ədəbiyyatda bu cərəyanların fövqündə dayanan birlik müxtəlif terminlərlə ifadə olunur.
Amma heç bir söz vəhdət sözünü əvəz edə bilmir. Vəhdət sözü fərqli sahələrdə bəzən fərqli mənalar daşıyır. Məsələn, İslam ümmətinin vəhdəti deyərkən coğrafi sərhədlərin aradan götürülməsi yox, düşüncə və əməldə birlik nəzərdə tutulur.
Ölkə daxilində vəhdət dedikdə adətən milli mənafelərə münasibətdə düşüncə və əməl birliyi nəzərdə tutulur. Bu gün bunu daha çox milli birlik kimi ifadə edirlər.
İstənilən bir halda vəhdət dini cəmiyyətin tərəqqisində daxili və xarici təsirlərə malikdir. Seyyid Cəmaləddin Əsədabadinin dövründən İmam Xomeyniyə (r) qədər vəhdət sözünün çeşidli mənaları olub.

Açar kəlmələr: vəhdət, din, Qafqaz, şiə, əhli-sünnə

## Giriş

Ali-İmran surəsinin 103-cü ayəsində "Vətəsimu" sözü ilə rastlaşırıq. Ayədə buyurulur ki, hamılıqla Allahın ipinə yapışın və parçalanmayın. Allahın sizə verdiyi nemətləri xatırlayın. Siz düşmən ikən O sizin qəlblərinizi birləşdirdi, Onun neməti sayəsində qardaş oldunuz.

Siz oddan olan bir uçurumun kənarında ikən o sizi xilas etdi...

Maidə surəsinin 2-ci ayəsində "Təavənu" sözü ilə rastlaşırıq. Ayədə buyurulur ki, yaxşılıq etməkdə, pis işlərdən çəkinməkdə əlbir olun, günah işlərdə düşmənçilikdə bir-birinizə kömək göstərməyin...

Başqa ayələrdə xalq arasında islah, müsəlmanlar arasında islah, vahid ümmət, orta ümmət, hizbullah, Allah rəngi, qardaşlıq kimi ifadələrlə insanlar vəhdətə dəvət olunur. Quran nəzərincə vəhdət mehvəri tövhid, ondan sonra İslam dinidir.

Qurani-Kərim Peyğəmbəri (s) kitab əhlinin görüşünə göndərir ki, onları tövhidə dəvət etsin. Hücurat surəsinin 11-ci ayəsində Peyğəmbərə (s) göstəriş verilir ki, kitab əhlindən müştərək söz ətrafında birləşməyi, Allahdan qeyrisinə pərəstiş etməməyi, bir-birlərini rəbb çağırmamalarını istəsin. Ayədə vurğulanır ki, əgər üz çevirsələr deyin ki, biz haqq qarşısında təslim olanlarıq.

Ayədə göründüyü kimi ittifaqın sərhədi tövhiddir. Müşriklər və kafirlər qeyri-tövhid mehvərində hərəkət edir. Onlar dini vəhdətdə qəbul olunmayacaq. Vəhdət mehvərinin

aydınlaşdırılması ilə bağlı başqa ayələr də var. Allahın Rəsuluna, əmr sahiblərinə itaət də şərt kimi göstərilir.
Əgər ayələrin təfsirinə nəzər salsaq həqiqi vəhdət haqqında Ali-İmran surəsindəki ayənin buyuruğunu yada sala bilərik: "Allahın ipinə möhkəm sarılın və parçalanmayın." Bu ayədə müsəlmanlardan istənilir ki, dünyadan İslam dinində getsinlər. Risalətsiz, peyğəmbərsiz tövhid bu baxımdan məqbul deyil.

Həzrət Əli (ə) peyğəmbərdən sonra xilafət yolu ilə razı olmasa da daha mühüm mənafeləri nəzərə alaraq müxalifətçilik göstərmirdi. Həzrətin sözləri bu baxımdan çox ibarətamizdir. Aydın olur ki, İslam vəhdəti olduqca mühümdür, hətta Həzrət Əli (ə) bu vəhdətə xatir razılaşmadığı bəzi məsələlərə göz yumur.

Əslində belə bir vəhdət koalisiyadır. Vəhdətə nail olmaq üçün bəzən haqqın müxalif tərəfin qəbul etdiyi hədi ilə barışmaq lazım gəlir. Həzrət Əlinin (ə) bir xütbələrində mənalı sükutla rastlaşırıq.

Həzrət öz söhbətlərində müəyyən məsələlərlə bağlı susur və bu sükut onun üçün öz təbirincə desək boğazda qalmış sümük, gözdə tikan kimidir. Bu ağrılara dözməkdə yeganə məqsəd müsəlmanların vəhdətini, İslam dinini yaşatmaqdır.

Həzrət Əli (ə) öz hakimiyyətinin əvvəllərindəki xütbələrdən birində buyurur: "And olsun Allaha, əgər müsəlmanlar arasında ixtilaf və parçalanmadan qorxmasaydım, əgər küfrün

qayıdışından ehtiyatlanmasaydım, dinin aradan gedəcəyi məni narahat etməsəydi, başqa bir mövqe tutardım."

Quran ayələri, peyğəmbər və məsum imamların buyuruqları və həyat yolundan aydın olur ki, İslam nizamının qorunması, ümmətin mənafelərinin hifzi şəxsi və qrup mənafelərindən önəmlidir. Həzrət Peyğəmbər (s) və məsumlar şəxsi haqlarından keçiblər ki, cəmiyyətdə təfriqə yaranmasın, ümmətin mənafeləri hifz olsun.

İmam Xomeyni (r) vəhdətə necə baxır? İslam məzhəbləri arasında olan fikir ayrılıqları ixtilaf üçün ciddi səbəb ola bilər. Bu sahədə vəhdət yaratmaq məqsədi ilə iki istiqamətdə təlaş göstərilir.

Bir qrup İslam məzhəbləri arasında yaxınlaşma məqsədi ilə ayağa qalxdı, şiə elm hövzələri ilə məşhur sünni elm mərkəzi olan Əl-Əzhər universiteti arasında əlaqə yaratmağa çalışdı. Başqa bir qrup məzhəbi ixtilafları bir kənara qoyaraq müsəlmanların dünyadakı müştərək mənafeləri əsasında siyasi birlik yaratmaq istiqamətində addım atdılar.

Düşüncə baxımından vəhdət yaratmaq istəyənlər arasında az bir qism müvəffəqiyyət qazana bildi. Onlardan biri Ayətullah-Üzma Brucerdi idi. Təəssüf ki, təəssübkeş fərdlərin maneçiliyi səbəbindən, eyni zamanda məzhəblərin yaxınlaşmasından qıcıqlanan rejimlərin maneçilikləri səbəbindən düşüncədə vəhdət hərəkatı son məqsədə çata bilmədi.

Vəhdət mövzusu İran İslam İnqilabı ilə gündəmə gələn mövzu deyil. İran İslam İnqilabından əvvəllər bu mövzu aktual olub, geniş dünya görüşünə malik alimlər bu istiqamətdə fəaliyyət göstəriblər.

İmam Xomeyni (r) Səhifeyi-Nurda yazır: "Biz qələbə rəmzi olan vəhdəti-kəlmə və Qurana istinadı qorumalıyıq. Hamımız birlikdə irəli getməli, İslam Cümhuriyyətini İranda möhkəmlətməliyik."

İmam İslam İnqilabının qələbəsindən sonra buyurur: "Əgər biz vəhdəti-kəlmə və hər şeyin toplandığı islamiyyəti hifz edə bilsək sona qədər qalibik. Əgər Allah eləməmiş, bilmədən səhv addım atılsa və ya biz süstləşsək, qalib gəldiyimizdən arxayınlaşıb fəallığı dayandırsaq pis bir sonluğa çatacağımızdan qorxuram. Möhkəm dayansaq, milli qüdrət olan qüdrəti hifz etsək, vəhdəti-kəlməni qorusaq qalib gələcəyik."

İmam Xomeyni (r) İslam və vəhdəti müsəlmanların öz həyatının davam etdirməsi üçün zəmin sayaraq buyurur: "Əgər müsəlmanlar ilkin İslam dövründəki əzəməti yenidən əldə etsələr, İslam və vəhdəti-kəlmə səhnəyə qayıtsa, bu ittifaq fövqəladə bir qüdrət və şücaət ərsəyə gətirər."

İmam Xomeyninin (r) nəzərincə siyasi hərəkat dini bir vəzifədir. Bu baxımdan siyasətdə iştirak, məsələn seçkilərə qatılmaq, aksiyalarda və yürüşlərdə iştirak etmək siyasi

düşüncə baxımından xalqın hüququ sayılan yolda addım atmaq imamın nəzərincə vəzifədir.

İmam vəhdətə biganəlik və ona diqqət göstərilməməsini kəbirə günah hesab edərək buyurur: "İstənilən bir zamanda belə bir vəziyyət yaransa bu günah sayılır. Bu gün vəhdətin zəifləədilməsi çox böyük günahdır."

Vəhdət zərurəti bir çox məqamlarda xüsusi bir şərait yaradırdı və İmam öz baxışlarına münasib olmayan, amma ümmətin mənafeyinə münasib olan addımı qəbul edirdi. Məqsəd təfriqələrdən çəkinmək, vəhdəti qorumaq idi. İmam buyururdu: "Biz nəfsimizin qarşısını mütləq şəkildə ala bilmərik. Belə bir gücümüz yoxdur. Amma bunu izhar etməyin qarşısı almaq gücümüz var. Bir şəxsə qarşı müxalifiksə, onu qəlbən qəbul etmiriksə bu münasibəti dəyişmək gücündə deyilik. Amma həmin münasibəti bildirməmək gücümüz var və bunu etməliyik."

İmamın nəzərində vəhdətin sərhədləri hara qədər idi? İmam vəhdəti çox geniş mənada qəbul edirdi. Həm millət, həm də ümmət arasında vəhdətə diqqətli idi.

İnqilabın qələbəsindən öncə imam ölkə daxilində vəhdətə xüsusi diqqət ayırırdı. Daxili qüvvələr arasında vəhdətin yaranması üçün çalışır, zəruri addımları atırdı. İmam elə bir şəxsiyyətə malik idi ki, ölkədəki iki cinah, ruhanilər və universitet əhli onu qəbul edirdi.

İmam hövzə ilə universitet arasında ixtilaf təhlükəsini başa düşür və buna mane olmağa çalışırdı. İmam buyururdu: "Biz uzun illər çalışmışıq ki, universiteti ruhanilərə, hövzəyə, mədərəsələrə yaxınlaşdıraq.

Biz bazarı, ticarət əhlini həm hövzə, həm də universitetə yaxınlaşdırmışıq. Bu ayrı-ayrı cəbhələrin yaxınlaşması həmişə diqqət mərkəzində olub. Çalışmışıq ki, bu zümrələr arasında vəhdəti-kəlmə, birlik olsun."

Sonra imam hövzə və universitetdəki ixtisasları yada salır, bir qrupu dini, digərini ölkənin idarəçiliyi, iqtisadiyyat sahəsində mütəxəssis kimi tanıtdırır. Hər iki zümrənin ölkənin gələcəyində mühüm rol oynayacağını bildirir.

İmam İslam İnqilabının nəticələrini təhlil edərkən buyurur: "İnqilabın nəticəsi təkcə ziyalılarla ruhanilərin vəhdəti olsa belə bu çox münasibdir."

İmamın nəzərincə hövzə ilə universitet bir-birini təkmilləşdirən sahələrdir. Bu məqsədlə buyurur: "Bu iki mərkəz bir pak ağacın iki budağı kimidir. Əgər hər kəs öz məsuliyyətini hiss edərək əl-ələ versə, Xaliq və məxluqun xidmətində dayansa, milləti mənəvi və maddi cəhətdən kamala çatdırar, ölkənin müstəqillik və azadlığını qoruyarlar."

İranda İslam İnqilabının qələbəsindən sonra daxildə ixtilaf zəmini gücləndi. Hətta inqilabi qüvvələr arasında müəyyən nigarançılıqlar yarandı. İmam dəfələrlə inqilabi qüvvələr

arasında vəhdətin zərurətini vurğulayaraq onları vahid yumruq kimi birləşməyə çağırırdı. Bu qüvvələrin parçalanmasını müharibədən məğlubiyyət kimi dəyərləndirirdi. İran çoxmillətli bir ölkədir.

Belə bir şəraitdə düşmən qüvvələri fitnəkarlıq edir, millətarası münasibətləri qızışdırırlar. İnqilabdan sonrakı dövrdə ixtilaf zəminəsi olan istənilən bir sahədə fəaliyyət var idi. İmam öz təbliğatını millət arasında birliyə yönəltmişdi. Bütün xalqı islamiyyətdə birləşdirməyə çalışırdı.

İmam inqilabın qələbəsindən sonra dövlətlə millət arasında vəhdət mövzusunu nəzarətdə saxlayırdı. Ayrı-ayrı dövlət qurumları arasında rabitələrin möhkəmliyi, ölkə ərazisində ayrı-ayrı tayfların münasibətlərinin tənzimlənməsi imamın nəzarəti altında idi.

İmamın ən böyük arzularından biri dünya müsəlmanları, əzilmiş xalqların vəhdətinə nail olmaq idi. İmam inqilabdan sonra da bu mövzu üzərində ciddiyyətlə dayanmışdı.

İmamın əksər bəyanat və məktublarında millət və ümmətə ünvanlanmış bir çağırış var. Bu çağırış İsrail əleyhinə, qəsbkar rejim əleyhinə, məzlum Fələstin xalqının azadlığı yolunda birləşməkdən ibarət idi. Maraqlıdır ki, imam təkcə İslam Respublikası qurulandan sonra İsrailə qarşı çıxmayıb.

Şəmsi 1342-c ildə, yəni inqilabdan 15 il öncə imam qəsbkar rejimin dünya üçün, müsəlmanlar üçün təhlükəsindən danışırdı. Bir zaman şah rejimi dövründə sionizmin muzdurları İranda iş başında idi. Şahın SAVAK adlanan kəşfiyyat,

casusluq şəbəkəsi sionist mütəxəssislərin təlimatı ilə işləyirdilər.
İran dövlətçiliyində sionistlərin nüfuzu böyük idi. İmam İraqda sürgündə olduğu zaman böyük şücaətlə İsrailə qarşı çıxışlar edirdi. "Mənim məqsədim Quran və ruhaniyyətdir...
Biz sonistlərlə mübarizədə təhqir olunmalı, həbsə düşməli, edam edilməli, düşmənlərə etiraz yolunda qurban getməliyik. Mən bir məsuliyyət hiss edərək dünya müsəlmanlarına Quran və İslamın təhlükəyə düşməsi ilə bağlı xəbərdarlıq edirəm. Müsəlmanların müstəqilliyi, iqtisadiyyatı təhlükə altındadır."
İmam sionist cinayətkarlara qarşı çıxdığı üçün həbsə alınır, sürgünə göndərilir, amma mövqeyini dəyişmir. O başqa bir məqamda buyurur: "Mən iyirmi ilə yaxındır ki, beynəlxalq sionizmin təhlükələrindən danışıram.
Onların bu gün də dünyanın azad inqilabları, İran İslam İnqilabına qarşı təhlükəsini keçmişdəkindən az görmürəm. Bu qan içən zəlilər müxtəlif üsullarla dünyanın əzilən xalqlarının qiyamına qarşı dayanıblar. Dünyanın azad xalqları bu təhlükəli fitnəkarlıqlara qarşı şücaətlə etiraz bildirməlidirlər."
Digər tərəfdən imam mübarək ramazan ayının son cümə gününü Qüds günü elan edərək, bütün dünya müsəlmanlarını Fələstin xalqı ilə həmrəyliyə çağırır.
İslam ümməti arasında mümkün vəhdəti üç qismə ayırmaq olar. Bunlardan biri mütləq vəhdətdir. Mütləq vəhdət dedikdə bütün əqidələrdə birlik, vahid baxış nəzərdə tutulur. Belə bir vəhdət istəyi mövcud vəziyyəti nəzərə aldıqda qeyri-mümkün görünür.

Ayrı-ayrı məzhəblər arasında vahid əqidənin qəbul etdirilməsi inandırıcı deyil. Xüsusi ilə, xüsusi zövqə malik olan mütəfəkkirlər arasındakı baxış fərqlərini aradan qaldırmaq demək olar ki, mümkünsüz bir işdir.

Vəhdətin başqa bir şəkli İslam ümməti üçün böyük zərbə olacaq təhlükələri aradan qaldırmaq üçün müştərək nöqtələrdə ittifaqa gəlməkdən ibarətdir. Buna vəhdəti-məsləhəti deyirlər. Bəzən İslam cəmiyyətləri üçün ixtilaf təhlükələri yaranır. Bu təhlükələr o qədər güclü ola bilər ki, ümmətə böyük zərbə vursun.

Bu zaman məzhəblər və firqələr ixtilaf yaradan məsələlərə göz yummaqla ümmətin məsləhətinə xatir əl-ələ verir, sülhə gəlirlər. Əslinə qalsa bu gün İslam məzhəbləri arasında olan fikir ayrılıqlarını ümmətin məsləhətinə xatir nəzərə almamaq mümkünsüzdür. Məzhəblər arasında elə fikir ayrılıqları var ki, bunlar sırf məzhəb etiqadları ilə bağlıdır və onları aradan qaldırmaq istəyi yersizdir.

Vəhdətin üçüncü növü şəxsi baxış və əqidələri kənara qoymaqla, müştərək nöqtələrdə birləşmək, məhz bu nöqtələr üzrə birlikdə hərəkət etməkdir. Buna vəhdəti-məqul deyirlər. Bu vəhdətə çatmaq üçün mütəfəkkirlərin, böyük dini şəxsiyyətlərin təlaş göstərməsi zəruridir. Bu vəhdətə çatmaq üçün təəssübü kənara qoymaq, İslam ümmətinin ümumi faydaları istiqamətində hərəkət etmək lazımdır.

Necə ki, belə bir vəhdət sayəsində Məhəmməd ibn Tarxan Farabi, İbn Sina, İbn Rüşd, Əbu Reyhan Biruni, Həsən ibn Heysəm, Məhəmməd ibn Zəkəriyya, Cəlaləddin Məhəmməd

Mövləvi, Mir-Damad, Sədrül-Mütəəllihin və başqa bu kimi mütəfəkkirlər tərbiyə olundu. Bu insanlar ayrı-ayrı məzhəblərə mənsub olsalar da bütün ümmət və bəşəriyyətin faydalanacağı fəaliyyətlər ortaya qoydular.

Yada salmalıyıq ki, İslam ümməti təkcə şiə və sünnülərdən ibarət deyil. Bu böyük dində onlarla məzhəb var. Digər tərəfdən, İslam tarixinə baxsaq bu vaxta qədər heç bir mütəfəkkir digər mütəfəkkiri təkfir etməyib.

Qeyd edək ki, bəziləri də vəhdətin ideoloji bir hadisə olduğunu düşünürlər. Vəhdəti ideoloji vəhdət, strateji vəhdət, taktiki vəhdətə bölürlər. İdeoloji vəhdət deyəndə bütün əqidələrin vahid baxışı nəzərdə tutulur.

Belə vəhdət adətən marksist məktəbinə bənzər ictimai məktəblərdə özünü göstərir. Kommunist rejimi belə bir vəhdətin üzərində işləyirdi. Strateji vəhdət əqidə üzərində vəhdət deyil. Bu vəhdət əsasən hərəkət üsuluna aiddir.

Taktiki vəhdət isə ayrı-ayrı problemlərin həllində eyni şəkildə hərəkət etməkdir. Müştərək düşməni olan insanlar nə qədər ki, o düşməni məhv etməyib bu sayağı vəhdətdən bəhrələnirlər.

Bəs İmam Xomeyninin (r) nəzərdə tutduğu vəhdət hansı vəhdət idi? Onu yuxarıda nəzərdən keçirdiyimiz hansı vəhdətə aid etmək olar? İmamın sözlərindən aydın olur ki, imam siyasi baxışlarda, ideoloji yanaşmalarda vəhdəti nəzərdə tutub.

İmamın vəhdətlə bağlı düşüncələrinə sadəcə söz kimi baxmaq olmaz. İmam vəhdətə İslam ümmətinin həyatverici amili kimi

baxırdı. İnqilabdan əvvəl və inqilabdan sonra bu prinsip üzərində dayanır, ümmətin birliyinə çalışırdı.
Əgər ölkə daxilində siyasi partiyaların birliyini istəyirdisə, ölkə xaricində İslam ölkələrinin birliyi üçün çalışırdı. Məlum məsələdir ki, istər ölkə daxilində, istər ölkə xaricində ayrı-ayrı qüvvələrin müştərək məqsədləri var.
Ortaya qoyulan ciddi suallardan biri bu idi ki, əgər İslam ümməti birləşməsə İsraillə mübarizə aparmaq mümkündürmü? Təkcə bu sualın cavabı sübuta yetirir ki, ayrı-ayrı müsəlman dövlətlər və millətlər əl-ələ vermədən müştərək düşməni zərərsizləşdirə bilməz.

## İslamda vəhdətin əhəmiyyəti

İslam təlimlərində vəhdət və birlik ideyası onun əsasını təşkil edən yalnız "tövhid" prinsipindən qaynaqlanmır. Bunu biz bütün peyğəmbərlərin və səmavi kitabların çağırışında müşahidə edə bilərik. Məsələn, İslamın qanun və hökmlərindəki obyektivlik və onun müraciətlərindəki qeyd-şərtsiz insan obrazı tamamilə bəhsimizə aydınlıq gətirir. Hətta ibadətlərdəki formulu araşdıranda görürük ki, onlar yalnız insanı oyadır, təfəkkürə çağırır. Onun inzibat və tərbiyəsində, sadəliyə sövqü və nəfsi istəklərini cilovlamasında mühüm rol oynayır. Deməli, İslamın ibadətlər bölümü də vahid məqsədə qulluq edir və onların bir dildə (ərəbcə) yerinə yetirilməsi də vəhdət və birliyin nişanəsidir. (Ərəb dilinin vəhy üçün seçilməsi onun inkişafı, potensiallığı və s. səbəbləri ola bilər.)

İslamda birliyi nümayiş etdirən nümunələr çoxdur. Bunu biz camaatla birgə yerinə yetirilən ibadətlərdə, o cümlədən, onun ən ali formasını “həcc” mövsümü zamanı müşahidə edə bilərik. Cismən və ruhən bir-birindən minlərlə fərsəx fasiləsi olan müxtəlif millətlərin nümayəndələri bir məkana yığışıb, düşüncə və şüarlarında vəhdət təşkil edirlər. Yaradılış aləminə hakim kəsilən yeganə nizamın simasında cilvələnən bu izdihamın xüsusi şövkət və əzəməti vardır. Həqiqətdə, İslam ruhən varlıq və yaradılış aləmi ilə həmahəngdir. Əgər fərz olaraq bir anlıq səmadan camaat namazlarının sıralarına nəzər salınsa, onların bir-birini əhatə edən dairələrini bir mərkəzə yönəlmiş surətdə, kamil vəhdətin nişanəsi kimi müşahidə edəcəyik. Hətta İslam bir sıra ölçüləri belə mümkün qədər – hər hansı tayfa və irqə mənsub olmayan təbii parametrlərdən almış, “addım”, “qarış”, “ovucun içi” kimi hamının qavradığı terminlərlə üstünlük verilmişdir.

Amma mövzu ilə bağlı əsas məsələ cəmiyyətdə əxlaqın inkişafı, əxlaqi normalara riayətdir və onsuz heç bir cəmiyyət rahatlıq üzü görə bilməz. Bütün dünyanı əhatə edən böyükmiqyaslı icmanın təşkili üçün fikri-ideoloji inkişaf zəruri olduğu kimi, əxlaqi inkişafa da ehtiyac var. Əxlaqi inkişafsız heç kəs digərinin bütün fikir və rəftarları ilə həmişə razılaşa və çox vaxt qarşıya çıxan müxtəlif fikir ayrılıqlarını layiqincə həll edə bilməz. Bu qismin əhəmiyyəti peyğəmbərlərin təlimlərinə ehtiyacı bir daha artırır.

İslam insanda ictimai əxlaqın formalaşması, kütləvi həyata hazırlığı üçün əsaslı təlim və proqramlar nəzərdə tutur ki, aşağıda onların bir hissəsini qeyd edəcəyik. Məsələn, " لَو عَلِمَ النّاسُ كَيْفَ خَلَقَ اللهُ هذا الخَلْقَ لَمْ يَلُمْ اَحَدٌ اَحَداً" (Əgər insanlar Allahın bu məxluqu necə yaratdığını bilsəydilər, heç kim digərini pisləməzdi!) və"اَلنّاسُ مَعادِنٌ كَمَعادِنِ الذَّهَبِ وَالْفِضَّةِ" (İnsanlar qızıl-gümüş mədənləri kimidir!) – məşhur hədisləri xilqətdə olan fərqlərə, onların cismani və ruhi müxtəlifliklərinə toxunur. (Birinci hədisin mənbəsi: “Biharul-ənvar”, c.70, səh.143, hədis: 7. İkinci hədisin mənbəsi: “Kafi” c.8, səh.177.)

İnsanların ruhi-psixoloji, milli-irqi və dünyagörüşlərindəki hədsiz fərqlər düzgün qavranıldıqda, onların rəftarlarındakı bir çox zahiri problemlər, ictimai təzadlar aradan qalxacaqdır. Məsələn, çox vaxt valideynlər uşağın (bir qabı sındırması, yaxud geyimlərini çirkləndirməsi kimi) təbii işinə görə bərk narahat olur, bəzən onu ağır cəzalarla tənbeh edərək, hətta döyürlər. Halbuki belə işlərə görə, nə əsəbiləşmək, nə də uşağı danlayıb-döymək lazımdır.

Adətən, uşaqların qabların əhəmiyyəti, onların yerə düşdükdə sınıb-sınmama ehtimalı haqda kifayət qədər məlumatı olmur, yaxud bütün bunları bildiyi təqdirdə, onlarda tam psixoloji hazırlıq hələ yaranmayıb, yaxud da acizlikləri ucbatından baş verir.

Əgər biz özümüz də hal-hazırda onları qoruyub-saxlayırıqsa, uşaqlıq çağlarımızdakı sınaq və təcrübələrimiz sayəsindədir. Çünki uşaqlıq çağları başdan-başa sınaq və insanın ətraf mühitlə tanışlığı üçün ən gözəl dövrdür. Belə ki, əgər özümüzü

uşağın yerinə qoysaq, onun bizim nəzərimizə böyük günah və xəta görünən işləri nə günahdır, nə də xəta! Bu təcrübəni böyüklər üzərində də apara bilərik. Məsələn, çox vaxt dostlar bir sıra bəyənilməz adətlərinə görə dostluqlarını qırmağa məcbur olurlar. Lakin onların hər biri digərinin əhval-ruhiyyəsindən, yaşadığı və tərbiyə gördüyü mühitdən xəbərdar olsaydı, ondakı nöqsanları təbii qarşılayardı. Yaxud qonşunun ucadan danışığı bizi narahat edir və onun səviyyəsi, hansı mühitdə böyüyüb yaşa dolması və tərbiyəsini nəzərə aldıqda, elə də müqəssir görünməyəcək. Yəni xəta və səhvlərini həddən artıq böyütməyəcəyik. Amma burada səhvə yol verilməsin. Biz bununla ("cəbrilər" kimi) hər kəsin əməllərində xətasız olduğunu demək və hər şeyi qeyri-ixtiyari və xarici amillərin üstünə atmaq və ya tərbiyənin zəruriliyini inkar etmək istəmirik. Bu o demək deyil ki, insanlar özbaşına olub, istədikləri kimi rəftar edə bilərlər. Əksinə, insan belə halları nəzərə almaqla yaranan ixtilaf və etirazların həlli üçün hazırlıq tapır, ətrafında baş verənləri asanlıqla qarşılayır. Təəssüf ki, insanlar kiçik fikirayrılığı nəticəsində bəzən bir-birindən küsür, çox sadə anlaşılmazlıqları həll edə bilmirlər.

## Güzəştə getmək

Gündəlik qarşılaşdığımız hadisələr içrə səhv və xətadan insan haqlarının pozulması halları daha çox təsadüf olunur. Əgər hər kəs "intiqam" almaq fikrinə düşsəydi, ictimai durumu saxlamaq qeyri-mümkün olardı. Çünki insanın istənilən vaxt intiqam hissini idarə edib, normal saxlaması çətin məsələdir və adətən, getdikcə şiddətli forma alır. Hətta onun idarə olunub normal vəziyyətdə saxlandığı təqdirdə belə, yenə cani ilə cinayətə məruz qalanın ilk əvvəl baş verən cinayət hadisəsinə baxışı eyni cür olmur. Məsələn, qarşı tərəf hətta insafla intiqam almağa çalışsa belə, yenə onun baxışında ədalət bərpa olunmamış görünür və buna görə də onu yeni bir qisasa sövq etdikcə, ixtilaf və çəkişmələr də uzanır. Keçmişdə və indinin özündə davam edən əksər qəbilə-tayfa ixtilaflarının səbəbi məhz həmin məsələdir. Yəni hər kəs başqasının cinayətini ağır cinayətlə cavablandırdıqca, dava-dalaşlar da sona çatmır. Burada fitnə odunu söndürə bilən yeganə amil güzəşt, əfv və hər hansı qarşıdurmadan çəkinməkdir.

Qeyd edək ki, əfv və güzəşt ixtilaf və ədavətə son qoymaqla bərabər, şəxsin özünə insani-əxlaqi bir keyfiyyət kimi faydalı olub, gələcəkdə onu məruz qala biləcəyi bir çox zərər və zədələrdən uzaqlaşdırır, rahat edir. Əgər düzgün araşdırsaq, görəcəyik ki, qisas və intiqamın insana müvəqqəti təskinlik və xəyali qürurdan başqa heç bir müsbət təsiri yoxdur. İnsan həmişə qarşı tərəfin qisasının intizarını çəkdiyi halda,

“güzəşt”in bəxş etdiyi rahatlıq qat-qat çox, ruhi və ictimai təsiri olduqca əhəmiyyətlidir.

İslam mənbələrində bu məsələ çox zərif ibarələrlə ən mühüm dini vəzifə kimi tanıtdırılır. Aşağıdakı nümunələr bu müddəaya şahiddir:

1. “Nur” surəsinin 22-ci ayəsində buyurulur:

{وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ}

“Onları əfv edib, göz yumsunlar. Məgər siz Allahdan bağışlamağınızı istəmirsinizmi?”

Bu ayədən məlum olur ki, heç kəs təqsirsiz deyil. Əgər Allahdan günahlarınızın bağışlamasını istəyirsinizsə, din qardaşlarınızla yaranan ixtilaf və çəkişmələrdə haqqınızdan keçib güzəştə gedin. Diqqəti cəlb edən budur ki, ayədə qeyd olunan “əfv” və “səfh” (göz yummaq) sözləri lüğəvi baxımdan fərqlənir. “Səfh”, “əfv”dən daha dərin məna kəsb edir, yəni məzəmmət və qınaqsız güzəştə deyilir. (Rağib İsfahaninin “Müfrədat” kitabı.)

Amma qisası sinəsində boğub, lakin dili, yaxud küsülü qalması ilə qarşı tərəfin təqsirini daim xatırladan kəs həqiqətdə onu bağışlamamışdır. Əslində, həqiqi əfv və güzəşt hadisəni tamamilə unutmaq, öz dilimizlə desək, ona göz yummaqdır.

2. “Bəqərə” surəsinin 219-cu ayəsində buyurlur:

{وَيَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلِ الْعَفْوَ}

“(Ya Peyğəmbər!) Səndən infaq barəsində soruşanlara de: “Əfv (etsinlər)!”

Təfsir alimləri arasında məşhur nəzərə görə, qeyd olunan “əfv” sözündə məqsəd ailənin ehtiyacından əlavə, illik gəlirdən artıq qalan malın zahirən Allah yolunda xərclənməsi olsa da (lüğəvi kökünə əsasən), heç də demək olmaz ki, onun digər işlək mənası (güzəşt) nəzərə alınmamışdır. Maddi infaq barədə verilən sualın cavabının əxlaqi infaqa – əfv və güzəştə yönəldilməsi diqqəti cəlb edən zərif məsələdir. Odur ki, infaq yalnız mal-dövlət və əmlakla bitmir və bəlkə də bu qədər sorğu-suala ehtiyac yoxdur. Əksinə, insanın başqası ilə əlaqədar öz hüquqlarından keçməsi və güzəşti daha mühüm məsələdir. Doğrusu, bu güzəşt çoxlarının qisas ruhiyyəsi ilə zidd olduğundan, onunla razılaşmaq daha çətin olur. Amma ictimai nizam-intizamın, ədalətin bərqərarı baxımından isə onun təsiri olduqca çoxdur.

## PİSLİYİ YAXŞILIQLA ÖDƏMƏK

İslam mənbələrində – Qurani-Kərim və hədislərdə əfv və güzəştin ən yüksək həddi olan “pisliyi yaxşılıqla cavablandırmaq” məsələsi diqqəti cəlb edir. Şübhəsiz, bu, insanlığın ən uca zirvəsi olub, əxlaqi inkişafsız mümkün deyildir. Eləcə də, ədavət və kin-küdurətlə dolu qəlbləri yumşaltmaqda təsiri misilsizdir və həddi aşanlara, günahkarlara verilə bilən ən yaxşı “dərs”, bəzən də ən tutarlı cəza, həm də onları cilovlayan amildir. Bütün bu – ədavət,

düşmənçilik və kin-küdurətlərə son qoymaq kimi təsirli xassələrinə görə, İslam onu əlverişli metod sanır. Məsələn, Qurani-Kərimdə buyurulur:

{ ادْفَعْ بِالَّتِی هِیَ أَحْسَنُ فَإِذَا الَّذِی بَیْنَکَ وَبَیْنَهُ عَدَاوَةٌ کَأَنَّهُ وَلِیٌّ حَمِیمٌ وَمَا یُلَقَّاهَا إِلَّا الَّذِینَ صَبَرُوا وَمَا یُلَقَّاهَا إِلَّا ذُو حَظٍّ عَظِیمٍ}

"Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda, aranızda düşmənçilik olan şəxsi, sanki, səmimi dost görərsən. Buna (bu məqama) yalnız səbir edənlər yiyələnər və yalnız böyük bəhrə (iman və təqva) sahibləri nail olarlar!" ("Fussilət" surəsi, ayə 34-35.)

Birinci ayədə pisliyi yaxşılıqla ödəməyin qəribə təsirindən, onun sayəsində düşmənin səmimi və yaxın dosta çevrilməsindən, sonrakı ayədə isə bu dərəcəyə yalnız iman, təqva, əxlaq və fəzilət sahibləri, nəfsani istəklər müqabilində səbir edib dözənlərin nail ola bilməsindən söz açılır ki, bunların hər ikisi inkaredilməz bir həqiqətdir. Pisliyi yaxşılıqla ödəməyin qəribə təsiri haqda bunu demək olar ki, adətən, həddi aşanlar qarşı tərəfin nahiyəsindən qisas intizarını çəkir və çox güman ki, vicdanında bunu özünə layiq bilirlər. Lakin onların (qarşı tərəfdən gözlənilən) cəza intizarına əks olaraq pisliyi yaxşılıqla verildikdə, yatmış vicdanları oyanır, daxillərində dərin iz buraxır. Belə hallarda onlar qarşı tərəfi günahsız, özlərini isə günahkar hesab edərək, tutduqları işdən bərk peşman olurlar. Bəzən bu təzyiq o qədər şiddətli olur ki, kimsə ona davam gətirib, ədavət hissindən dönməyə bilmir.

Buna görə də, bəzən insanın düşməni belə tutduğu yolu dəyişir, təsirlənir.

Peyğəmbəri-Əkrəm (s) və məsum imamlardan nəql olunan dərin ifadələrdə bu səciyyə ən yüksək insani sifət kimi göstərilir.

1. Peyğəmbəri-Əkrəm (s) buyurur:

اَلا أُخْبِرُكُمْ بِخَيْرِ خَلائِقِ الدُّنْيا وَ الْآخِرَةِ؟ اَلْعَفْوُ عَمَّنْ ظَلَمَکَ، وَ تَصِلُ مَنْ قَطَعَکَ، وَالْإِحْسانُ اِلی مَنْ اَساءَ اِلَيْکَ، وَاِعْطاءُ مَنْ حَرَمَکَ

“Sizə dünya və axirətin xeyrindən xəbər verimmi? – Sənə zülm edəni bağışla, səninlə əlaqəni qıranla əlaqəni kəsmə, sənə pislik edənə yaxşılıq et və səni məhrum edənə də bəxşiş et!” (“Biharul-ənvar”, 71-ci cild, səh.399.)

Peyğəmbəri-Əkrəmin (s) müsəlmanlara buyurduğu bu hədisə əsasən, dünya və axirəti təmin edən ən yaxşı əxlaq güzəşt və pisliyə qarşı yaxşılıqdır. Hədisdə qeyd olunan dörd buyruqdan üçü pisliyi yaxşılıqla ödəməyə, biri isə əfv və güzəştə aiddir.

2. İmam Baqirdən (ə) belə nəql olunur:

ثَلاثٌ لا يَزِيدُ اللهُ بِهِنَّ الْمَرْءَ الْمُسْلِمَ اِلّا عِزّاً: الصَّفْحُ عَمَّنْ ظَلَمَهُ، وَاِعْطاءُ مَنْ حَرَمَهُ، وَالصِّلَةُ لِمَنْ قَطَعَهُ

“Üç şey müsəlmana yalnız izzət və başıucalıq gətirər: Ona zülm edəni bağışlamaq, onu məhrum edəndən bəxşişi

əsirgəməmək və onunla əlaqəsini qıranla əlaqə yaratmaqdır.” (“Biharul-ənvar”, 71-ci cild, səh.403.)

Bu hədisdə də üç şey bəndənin izzətini artıranların sırasında göstərilir və onun ikisi pisliyə yaxşılıqla cavab verməyə, biri isə əfv və güzəştə aiddir.

Əlbəttə, bu nöqtəni də unutmaq olmaz ki, zülmkar düşmənin müqabilində əfv və güzəştin mənası yoxdur. Burada təslim olmaq gücsüzlük, şəxsiyyətsizlik, zillət və bədbəxtlik, güzəşt isə başıucalıq və şəxsiyyət nişanəsidir. Əfv və güzəşt ictimai-hüquqi məsələlərə deyil, fərdin şəxsi mülkiyyət və hüdudlarına aiddir. Amma şəxsi məsələ və fərdi hüquqlarda güzəşt qarşı tərəfin cürətini artırarsa, belə hallarda güzəştə yer yoxdur. (“Əxlaq syəsində sağlam həyat”, Ayətullah Məkarim Şirazi, səh.141-144.)

## SƏRTLİYİ TƏRK ETMƏK

İctimai aləmdə, xüsusilə, beynəlxalq problemlərin həllində sərtliyə əl atmağın ağır zərərləri, belə çəkişmələrin təhlükəli və acı nəticələri hamıya məlum məsələdir. Bunlar ürəklərdə ədavət və kin-küdurət hissini oyadır, intiqam atəşini şölələndirir. Sərtlik nəinki böhran və çətinlikləri azaltmır, əksinə, çox vaxt onları şiddətləndirir, artırır və bir çox gərginliklər elə oradan qaynaqlanır. Onun xeyrindən çox zərəri vardır və belələri ona görə həmişə ağır cərimələr ödəməli olurlar. Lakin bu əməlin bütün nöqsanları, təhlükələri və

acınacaqlı aqibətini anladığımız halda çoxlarımız hər hansı çətinliyi aradan qaldırmaq üçün onu ilkin yol görürük. Deməliyik ki, sülhməramlı yollardan istifadə və sərtlikdən uzaqlaşma şüurun, sərtlik isə hiss və həyəcanın əlamətlərindəndir. Bunu da bilirik ki, şüurun inkişafı insani təkamülün son mərhələsi, hiss və həyəcanın dövranı isə ondan çox geridir. Həqiqətdə insanların əksəriyyəti hiss və duyğular içində yaşayır və həmişə onun təsirinə məruz qalırlar. Uşaqlıq çağları duyğuların inkişaf dövrü olsa da, mövcud insanın üzərində aparılan sosioloji araşdırmalar göstərir ki, onların çoxu psixoloji baxımdan uşaqlıq dövrünü ötüb keçə bilmir və çox vaxt böyüklərin sərtlik, zor və həddiaşma halları həmin çatışmazlığın əlamətləridir. İlk baxışda çoxları belə halları təbii, məqsədəuyğun saysa da, problemlərin həlli baxımından onların dəyər və yeri tam arxa plana düşür və insanın üzünə hər bir ağıllı məsləhət və üsulun bağlandığı təqdirdə, həmin reaksiyalara icazə verilir. Bildirməliyik ki, yenilməz şəxs, yaxud yenilməz xalq isə ictimai problemlərini aradan qaldırmaq üçün hər yerdə sərtliyə zərurət görmür. Onların çoxunu sülh yolu, məsləhət və götür-qoyla həll etmək mümkündür.

İslam bu məsələyə yüksək əhəmiyyət verərək bəşərin həyatında sülh, dostluq və mehribanlığın rolu barədə faydalı təkliflər irəli sürür, ardıcıllarını da həmin ideya uğrunda yaşamağa çağırır. Hədislərdə sülh və dostluğa dair tövsiyələr

ayrıca bir fəsli təşkil edir və bu məsələ ilə bağlı İslamın nəzərini bilmək üçün bir neçə hədisi qeyd edirik:

1. Peyğəmbəri-Əkrəm (s) buyurur:

اِنَّ فِی الرِّفْقِ الزِّیادَةَ وَالْبَرَکَةَ وَمَنْ یُحْرَمُ الرِّفْقَ یُحْرَمُ الْخَیْرَ

“Dostluq və mehribanlıqda vüsət və bərəkət vardır. Ondan məhrum olan isə xeyirdən məhrumdur.” (“Biharul-ənvar”, 75-ci cild, səh.60.)

Bu hədisdə açıq-aydın deyilir ki, xeyir-bərəkət dostluq və mehribanlıqdadır və onsuz xeyir-bərəkət də çəkilir.

2. Peyğəmbəri-Əkrəm (s) buyurur:

ما اَصْطَحَبَ اثْنانِ اِلّا کانَ اَعْظَمُهُما اَجْراً وَاَحَبُّهُما اِلَی اللهِ اَرْفَقَهُما بِصاحِبِهِ

“İki dostdan hansı biri digərinə qarşı daha çox mehriban olsa, savabı daha çox və Allah yanında daha sevimlidir.” (“Biharul-ənvar”, c.76, səh.268.)

Bu hədisə görə də həyatda dostluq və mehribanlığı artıq olanlar Allah yanında böyük savab və məhəbbətlə müjdələnirlər.

3. İmam Baqir (ə) buyurur:

مَنْ قُسِمَ لَهُ الرِّفْقُ قُسِمَ لَهُ الْاِیمانُ

"Hər kəsə dostluq nəsib olsa, iman da nəsib olar!" ("Kafi", c.2, səh.118.)

Mərhum Feyz Kaşani "Vafi" kitabında dostluq və mehribanlığın imanla əlaqəsini belə izah edir: "Adətən, sərtlik insandan ixtiyarı alır və əsəb sistemini pozur. O zaman şəxs hər bir xəta və küfrə də yol verə bilər." Bu əlaqəni başqa cür də izah edə bilərik. O da budur ki, adətən, sərtlik insanı Allahın məxluquna, sonra da Xaliqə qarşı bədbin edir və bunların heç biri kamil imanla uyğun gəlmir. Başqa sözlə, həmişə sərt və qəzəbli adamların dostu az olur və bununla da, onlar yavaş-yavaş cəmiyyətdən uzaq düşürlər. Cəmiyyətdən ayrılmağın özü məxluq və Xaliqə qarşı bədbinlik nişanəsidir.

4. İmam Baqir (ə) Peyğəmbəri-Əkrəmdən (s) belə nəql edir:

اِنَّ الرِّفْقَ لَمْ يُضَعْ عَلى شَيْءٍ اِلّا زانَهُ و لا نُزِعَ مِنْ شَيْءٍ اِلّا شانَهُ

"Dostluq və mehribanlıq hər nəyə qoşulsa, onu zinətləndirər və hər nədən ayrılsa, o şey gözdən düşər." ("Kafi", c.2, səh.119, hədis 6.)

Bu hikmətli hədisə əsasən, sülh və dostluq hər şeyə gözəllik bəxş edir, sərtlik isə hər şeyi, hər işi və hər kəsi pis və çirkin göstərir.

Burada mühüm məsələ odur ki, çox vaxt İslam düşmənləri ona sərt don geyindirməyə, onda baş verən müharibələri bəhanə edərək, hər yerdə onu gözdən salmağa çalışırlar. Halbuki

Peyğəmbərin (s) təkcə həmin müharibələrdəki onun qanına susayan, dəvəti müqabilində təhlükə yaradan düşmənləri, eləcə də əsirlər, məğlubiyyətə uğrayan qövmlər və müharibə meydanlarında yaralılarla rəftar və davranışı ilə tanış olduqda, İslamın sülh və dostluq münasibətlərindəki parlaq səhifələrinin şahidi olacaq, onun zor və sərtliyə qarşı qəti mövqeyi aydınlaşacaqdır. Bundan da mühüm məsələ odur ki, bəzən ruhaniləri orta əsrin qəddar xristian keşişlərinə bənzətməklə, yaxud ictimai dünyagörüşü aşağı olan bir sıra din xadimlərinin yönsüz fikir və rəftarlarını əldə dəstək etməklə həmin şübhələri daha da qabartmaq istəyənlər az deyildir. Deməkk, biz müsəlmanlar da sərtliyin tərkinə dair İslamın yetərli göstərişlərinə itaət etməli, cəmiyyət arasında davranışlarımıza diqqət yetirərək, İslamın sülh və dostluğa dair həqiqi simasını nümayiş etdirməli və müxalif qüvvələrin zəhərli təbliğatlarını öz əməllərimizlə beyinlərdən silməliyik. İslam müharibələrinə gəldikdə isə, onların müdafiə və yaxud azadlıq uğrundakı səbəblərini aydınlaşdırmaqla şübhələri aradan qaldırmaq çətin deyildir.

Amma sülh, dostluq, mehribanlıq və ya sərt davranışa əl atmamaq dedikdə, zülmkarların, zor tətbiq edənlərin, inadkar düşmənlərin və istismarçıların müqabilində təslim olmaq nəzərdə tutulmur. Bu məsələ Qurani-Kərimin "Fəth" surəsinin 29-cu ayəsində belə açıqlanır:

{أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ}

"Onunla birlikdə onlar kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mehribandırlar."

Beləliklə, müsəlmanlar inadkar və rəhmsiz düşmənləri müqabilində mütləq sərt mövqe seçməli, dostlarına qarşı isə mərhəmətli olmalı və qələbə çaldıqları düşmənləri ilə də onlar tərəfindən yeni hücum ehtimalı verilməyənə qədər mehriban davranmalıdırlar.

Xülasə:

Ayətullah Məkarim Şirazinin görüşündə İslam alimlərinin konvergensiyasını gücləndirən amillər

İslam təriqətləri arasındakı ixtilaflarları böyütməklə, onlar arasında qarşıdurma, düşmənçilik və müharibə alovunu alışdırmağa çalışan "əllər" var... Müsəlmanlar, düşmənlərin buna nail olmalarına imkan verməməlidir.

İslam təriqət və məzhəblərinin alimləri arasında qarşılıqlı münasibət zərurəti İslam ümmətinin vəhdət qazanmasında çox mühüm və inkaredilməz məsələlərdəndir. Bu məqama diqqət etmək lazımdır ki, söhbət fiqhi nəzərlərin ixtilaf amillərindən və müxtəlifliyi ilə birgə malik olduğu sahədən, yəni İslamın kamil fiqh və şəriətinin yalnız "məhdud sahə"sindən gedir və əksər fiqhi məsələlərdə İslam məzhəbləri yekdil fikirə malikdirlər. Bütün fiqhi babların külliyyatı; namaz, oruc, xüms, zəkat, həcc, cihad, ticarət və müamilə növləri, ictimai və ailə müqavilələri kimi, həmçinin bir çox əsas element, əhkam

və şərtlərinin hər biri; namazın rüknləri, təkbir, niyyət, qiraət, ruku, səcdələr, təşəhhüd, salam kimi və şərtləri; təharət, qiblə və s. kimi, eləcə də birbaşa Quran ayələri, yaxud Peyğəmbərin (s) mütəvatir hədislərinin bəyan etdiyi bütün hökmlər və İslam fiqhinin sair vacbiləri birlikdə İslam fiqhinin müştərəkliyidir; İslam məzhəblərinin bütün fəqihləri onlarda yekdil nəzərə sahibdirlər (1).

Odur ki, İslam alimlərinin bir-biriləri arasında vəhdət və konvergensiyanı gücləndirmək sahəsində bütün lazımi potensiallardan faydalanmaları vacibdir. Təkfirçi cərəyanlara qarşı müsəlman alimlərinin birliyi məqsədilə, keçən il Ayətullah Məkarim Şirazinin rəhbərliyi altında "İslam alimlərinin görüşlərində ekstremist və təkfirçi cərəyanlar" adlı dünya konqresinin təşkili önəmli bir addım idi ki, öz növbəsində İslam ümmətinin vəhdətini güclənməsinə səbəb oldu, habelə İslam məzhəblərinin alimləri arasında qarşılıqlı münasibətlərin mümkün qədər yüksəlməsinə zəmin yaratdı.

Vəhdət zərurətdir!

Müsəlmanlar arasında vəhdət İslamın mühüm mövzularındandır. İran İslam İnqilabının qələbəsindən sonra müsəlmanların vəhdəti yolunda ciddi addımlar atıldı. Vəhdət strateji bir məsələ idi. İnqilabın ümumbəşəri mahiyyətinin təyinində vəhdət prinsipial mövzulardan idi. İmam Xomeyni (r) şah rejiminin süqutu və İslam Hökumətinin təsisindən sonra İslam briliyi bayrağı qaldırıb ictimai sistemdə qlobal islahatlara başladı. İslam hərəkatının ən səmərəli tövhələrindən biri vəhdət həftəsi oldu. Bu islahat təkcə İran yox, bütün İslam dünyası üçün həyati məsələ idi. Vəhdət həftəsi günlərini yaşayırıq və bu günləri əhəmiyyətli sayıb İslam birliyi üçün çalışmağımız zəruridir.

Vəhdət həftəsi İslam birliyi yolunda çalışanlar, o cümlədən imam Xomeyninin (r) əziz xatirəsinin yada salınması üçün mühüm fürsətdir. Bu günlər həm də İslam birliyi kimi müqəddəs hədəfin riallaşmasında əhəmiyyət daşıyır. Bu kiçik məqalədə vəhdət həftəsinin mahiyyətini nəzərdən keçirəcək, bu birliyə mane olan amillərə nəzər salacağıq.

Şübhəsiz ki, kütləvi informasiya vasitələrinin vəhdət həftəsinin işıqlandırılmasında ağır məsuliyyəti var. Xüsusilə televiziya insanların vəhdət həftəsi ilə tanışlığında dəyərli işlər görə bilər. Vəhdət həftəsinə əhəmiyyət vermək, onun cəmiyyətdə yaşanması və dünyaya yayılması yolunda təlaş göstərmək İslam hökumətinin prinsipial siyasətlərindəndir. Mətbuat da bu işdə öz missiyasını yerinə yetirməlidir. Vəhdət həftəsi İslam

birliyinin iki əsas toplumu olan şiə və sünnə əhli arasında qardaşlığın təminatçısıdır. Şiə və sünnə əhli cəmiyyətlərində vəhdət düşüncəsinin köklü şəkildə yer alması üçün zəruri addımlar atılmalıdır. Vəhdət həftəsi sadə bir mövzu deyil və mütəxəssislər bu mövzunun cəmiyyətə transformasiyasında öz işini görməlidir.

Böyük Rəhbər Ayətullah Xamenei vəhdəti fəlsəfəsi ilə bağlı buyurur: "Bizim ideoloji, etiqadi, ictimai və elmi baxışlarımızın bünövrəsi olan tövhid vəhdətdədir. Şirk üzərində qurulmuş cəmiyyətdə insanlar arasında fərqlər yaranır. Tövhid cəmiyyətində yaranışın başlanğıcı, varlıq, dünyaya müdiriyyət bir Allahın ixtiyarındadır. Varlıq aləmində baş verən bütün hadisələr Onun iradəsindən asılıdır. Tövhid cəmiyyətində insanlar təkbətək Allaha bağlandığından onlar arasında rabitə mövcuddur. Onlar eyni bir mənbədən yardım alırlar. Vilayətin də mənası budur. Vilayət deyəndə sıx rabitə, qırılmaz bağlar nəzərdə tutulur. İslam cəmiyyətində vilayət mövcuddur. Yəni bu cəmiyyətin bütün üzvləri eyni bir mərkəzə bağlıdır…"

Əsl vəhdət dərin və büdrəmələrdən uzaq baxışa ehtiyaclıdır. Bunun üçün mərifət lazımdır. Şiə və sünnə əhli arasında vəhdət ruhiyyəsinin hakim olması üçün bu toplumlarda prinsipial islahatlar aparılmalıdır. Hər iki cəmiyyətdə vəhdətə mane olan amillər var və bu amillər arasında vəhabi təfəkkürü əsas yer tutur.

Müsəlmanlar arasında vəhdət üçün ən məqbul amil bir Allah, bir Peyğəmbər və bir kitaba etiqaddır. Həzrət Peyğəmbərin (s)

bütün bəşəriyyətin vicdanına ünvanlanmış mübarək kəlamı var. Bu kəlam bəşəriyyəti parçalayan, onlar arasında təfriqə salan millətçilik, tayfaçılıq qaranlıqlarını öz nurunda əridir. Kor olsun o gözlər ki, imanlı insanları qardaş simasında görmür! Sınsın o əllər ki, ümmət arasında təfriqə toxumu səpir. Müsəlmanlar yaddan çıxarmasın ki, onlar cəhalət və təfriqə qaranlığında azdıqları bir zaman Allah-Taala onlara peyğəmbər göndərib, aralarında mehribanlıq bağları yaratdı. Həzrət Peyğəmbər (s) “la ilahə illəllah” şüarı ətrafında bütün insanları birlik və qardaşlığa çağırdı.

Vəhdət həftəsi İslam İnqilabının banisinin yadigarıdır. İmam Xomeyni (r) bütün müsəlmanların qardaşlıq şüarını vəhdət həftəsi ilə gündəmə gətirdi. Bilməliyik ki vəhdətə təmayül dərin baxışdan, ixtilafa rəğbət səthi düşüncədən yaranır. Vəhdət peyğəmbərlərin mirasıdır və cəhalət qaranlığı vəhdət nuru ilə işıqlanır. Vəhdət həftəsinin şüarı budur ki, biganələrin təfriqə planları al-üst edilsin. Müsəlmanlar Quran, sünnə, Peyğəmbər buyruqları sayəsində birliklərini hifz etməlidirlər. İnsan yalnız Allah və onun rəsuluna tabe olmaqla doğru yolu tuta bilər.

Quran buyruqlarını həyat şüarına çevirənlər üçün eniş-yoxuşlu yollarda qorxu yoxdur. İslam ümməti la ilahə illəllah şüarı altında dünya imperializminə, küfr dünyasına qalib gələ bilər. Əgər bu gün Fələstin və İraqda

qurbanlar veririksə bunun əsas səbəbi vəhdətin olmamasıdır. Görün Qəzzə zolağında nələr baş verir! Bu xalq İslam ümmətinin bir parçasıdır. Əgər müsəlman dünyası məsuliyyət hissi ilə bu günahsız insanların müdafiəsinə qalxmasa ümmətin aqibəti daha acı olacaq.

Vəhdət həftəsi müsəlman dünyasının bayramıdır, həzrət Peyğəmbər, imam Cəfəri-Sadiq məktəbinin şad günüdür. Bu günlərdə məzhəblər arasında qardaşlığa yönəli proqramların icrası üçün münasib fürsət yaranır. Böyük Rəhbər Ayətullah Xamenei buyurur: "Bu tövhid prinsipi və Allahın birliyinə etiqad İslam cəmiyyətinin əksər fərdi və ictimai sahələrinə təsirlidir. Vəhdət sayəsində İslam cəmiyyətində həmahənglik yaranır…"

İslam dünyasının birliyi Əllamə İqbal Lahurinin əsas fəaliyyət istiqamətlərindən olub. Bu böyük mütəfəkkir və şairin nəzərincə, müsəlmanlar vahid ümmətdir və onları sərhədlərlə ayırmaq olmaz. Müştərək dəyərlər müsəlmanların iftixarıdır. İqbal Lahuri inanırdı ki, İslam dəyərlərini parçalmaq qeyri-mümkündür. Yəni müsəlman dünyası böyük bir ailədir, onların sevinci də, qəmi də müştərəkdir. Lahuri bu dəyərləri sübh şəbnəminə (şehinə) bənzədərək deyirdi ki, Hicaz, Çin, İrandan olan bizlər bir sübh şehini yaşayırıq.

İslam dünyasının problemlərinin həllində ən önəmli iş vahid İslam cəbhəsinin yaradılmasıdır. Böyük Rəhbər bu barədə buyurur: "Dünya müsəlmanları bir araya gəlməli, düşmənçilik

etməməlidir. Mehvərimiz Allahın kitabı, Peyğəmbər sünnəsi, İslam şəriətidir. Müsəlmanlar öz həyatlarını İslam prinsipləri üzərində qurmalıdır ki, bütün sahələrdə uğur qazansınlar. Əgər müsəlmanlar tarix boyu bir olsaydılar, İslam və Quran göstərişlərinə əməl etsəydilər, düşmənin hiylələri puça çıxardı, imperializmin oxları daşa dəyərdi.”

## Nəticə

Müsəlmanlar arasında vəhdətin bərpası üçün əsas işlərdən biri təfriqə yaradan ədəbiyyatın qarşısının alınmasıdır. Böyük Rəhbər buyurur: “Görüləsi işlərdən biri təfriqə yaradan kitabların qarşısını almaqdır. Həm şiə, həm də sünnə əhli arasında bu iş görülməlidir. Arada düşmənçilik yaratmaq üçün kitablar yazılır, pullar xərclənir. Əgər bacarırıqsa bunun qarşısını almalıyıq. Dünyanın müxtəlif nöqtələrində mənə göndərilən kitablardan aydın olur ki, ümmət arasında kin-küdurət yaratmaq üçün çalışanlar var.”

İmam Xomeyni (r) daim ümmətin vəhdətini parçalayan amillərin üzə çıxarılması və bu amillərlə mübarizənin zəruriliyini yada salırdı. İmam (r) müsəlmanlar arasında ixtilafı onların əsas probelmi kimi qeyd edirdi. İmam düşünürdü ki, bu ixtilafların daxili və xarici kökləri var. Söhbətlərindən birində belə buyurmuşdu: “İslamı əsl yolundan döndərməklə, ümmət arasında təfriqə yaratmaqla ən böyük iqtidar amili olan din qardaşlığını, müsəlman birliyini səhnədən tədricən çıxardılar.”

Hazırkı şəraitdə İslam dünyasının əsas problemi məzhəblər arasında ixtilafdır. Böyük Rəhbər buyurur: “Doğrudan da, məzhəblər arasında ixtilaflı durum təəssüf yaradır. Tarix boyu müsəlmanların istedadları təfriqələrə sərf olunub. Məzhəblər arasında qarşıdurmalar dünyanın super gücləri tərəfindən idarə olunur. Bəni-Abbas dövründən başlayaraq müxtəlif əqidə sahiblərini bir-biri ilə qarşı-qarşıya qoyublar. Əgər bu cəmiyyətlər sülh və həmkarlıq şəraitində yaşasaydılar heç bir problemləri olmazdı. Bu gün də müsəlmanları parçalamaq üçün ikiqat təlaş göstərirlər. Müsəlmanların vəhdətə ehtiyacı artdıqca düşmən də öz səylərini artırır.

Şübhəsiz ki, müsəlmanların müvəffəqiyyəti onların ictimai birliyindən asılıdır. Əgər müsəlmanlar parçalansalar qeybi yardımlardan məhrum olacaqlar. Ümmət Quran və Peyğəmbər sünnəsi, Məsumların həyat yolunu əsas götürdükdə qeybi yardımlardan bəhrələnir. Cənab Rəhbər buyurur: “Əməli yaxınlaşma, yəni müsəlmanların həmkarlığı ortadakı fərqləri aradan qaldırır. Biz xüsusilə İslam İnqilabından sonra cəmiyyətimizdə şiə və sünnə əhli arasında qardaşlığa şahid olduq. Onlar elm, siyasət və digər sahələrdə elə həmkarlıq edirlər ki, sanki aralarında məhzəb fərqi yoxdur.”

Şəhid Seyid Məhəmmədbaqir Sədr müsəlman toplumuna ehtiram arxasında İslam dəyərlərinin dayandığını buyurur. Alimin nəzərincə, bəzi İslam hərəkatlarının müvəffəqiyyətsizliyinin əsas səbəbi onların İslam düzgün tanımamasıdır. Şəhid Sədr düşünür ki, müsəlmanlar yalnız vəhdət sayəsində böyük uğurlara imza ata bilərlər. Müsəlman

alimlər arasında rabitə, dini şəxsiyyətin dirçəldilməsi, müştərək düşmənin tanınması, məzhəblər arasında qarşılıqlı hörmət, hissləri qızışdırmamaq, danışıq və yazıda nəzakət, beynəlxalq konfransların təşkili, milli təəssüblə mübarizə şəhid Sədrin vəhdət yolunda tövsiyələrindəndir.

Əllamə Seyid İsmail Bəlxi vəhdət nidasını dünya müsəlmanlarına çatdıran agah ruhanilərdəndir. Bu şəxs ömrünün sonuna qədər həmin ali məqsəd yolunda təlaş göstərmişdir. Əllamə Bəlxi vəhdətə çatmaq üçün məzhəblər və millətlər arasında təfriqələrin aradan qaldırılmasını zəruri sayırdı. İslam ümmətinin geri qalmasını bu təfriqələrlə əlaqələndirirdi.

Tacikistan alimləri vəhdət barədə deyirlər: "Müsəlmanların birliyi üçün hamımız çalışmalıyıq. Bir bayraq altında çiyin çiyinə dayanmalıyıq. Təfriqədən uzaq olmalıyıq. İslam bizi hər şeydən öncə birliyə dəvət edir:  "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!"

**Ədəbiyyat**


1. Dr. Nazim Cəfərsoy (Rusiya və Şimali Qafqaz)

2. Kaspi qəzet, 215-ci sayı, 1902-ci il.

3. "Anar İsgəndərov. İslam dünyasının nüfuzlu din xadimi. Şeyxülislam Allahşükür Paşazadə – 70. Xalq qəzeti, 23.08.2019, № 183, s.4"

4. M.Rəhim, "İslamda məzhəblərarası yaxınlaşma konsepsiyaları", Bakı, 2012.

5.Kırzıoğlu, Fahrettin. Osmanlıların Kafkas ellerini fethi (1451-1590). - Ankara, 1993.

6. RƏŞAD CABAROV (Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi). Şimali Qafqazda İslamın inkişaf mərhələlərinin təsviri izahı məqaləsi.

7. qafqaz.ir/az/vəhdət-həftəsi

8. Vilayet.nur-az.com

# Günahın İnsana Təsiri

**Samir Quliyev**[1]

## Abstrakt

Allah insanı məxluq kimi dəyərli bir varlıq olaraq yaratdı.Yaradılmış məxluqatların arasında insan ən mükəmməlidir.Mükəmməl sözü ən üstün olan bir dəyərdir ki Allah da bu dəyərli vücudumuzda bizə yol getmək üçün lazım olan hər bir şeyi qoymuşdur. Günahımızın olması bizə bu yolda dəyər tapmaqımızı necə və hansı şəkildə doğru yol üzərində olmağımızı Allahı düşünərək və ibadət və itaət əməllərimizi saflaşdırmaq doğru istiqamət tapmalıyıq.Rəhman və Rəhim olan Allah bizlərə bu yolda dəyərli olduğumuzu göstərmişdir.

**Açar sözlər**

Allah, İslam, Quran, İnsan, Nəfs, Günah

---

1 - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## Giriş

Varlıq aləmində ən qəribə və ən maraqlı hekayə insan hekayəsidir.Allah tala insana çox böyük bir istedad verib və onu varlıq aləmində ən üstün tutmuşdur.Allah bütün məxluqatı insan üçün və insanı da özü üçün yaratmışdır.Yəni insanı özünə yaxınlaşdırmaq üçün xəlq etmişdir.Qurani kərim buyurur; “O,yer üzünü sizin üçün bir beşik etdi və doğru gedəsiniz deyə,orda sizin üçün yollar meydana gətirdi.”(1) Allah insanı doğru yol üzərində yaradıb,insanlar bu doğru yoldan saparaq günaha meyilli olmaqnan yer üzündə fəsada səbəb olurlar.İnsan özünü günahlardan qorumalıdır,Allaha yaxın olmalıdır,insan iman gətirməsə cənnətə girə bilməz.Allahın rızasını qazanmaq üçün ibadətlər etməlidir.Allahın rızasını qazanmaq üçün həqiqi iman və saleh əməllər lazimdır. Belə bir işi gördüyümüz zaman hər hansı çətinliklərnən,sıxıntılarnan qarşılaşa bilərik və buna görədə səbr etməyimiz lazim gəlir.İnsanın cəhənnəmə girməsinə vəsilə olan günahlardır,insanı dünya və axirətdə rahatsız edən günahlardır,insanın üzünü qaraldan rüzisini azaldan günahlardır, insanın ömrünü qısaldan yenə günahlardır,yaradılmışların nifrətini qazanan günahlardır.Günahlardan gücümüz çatdığı qədər çəkinməliyik. Onun ucbatından bəzi dövlətlər və ümmətlər yox edilmişdir və cəzalandırılmışdır. Uca Rəbbimizə sığınaraq öz rəhmətiylə bağışlayıb həqiqi qullarının sırasına qəbul eyləsin.Amin![1]

İnsan kimdir?

1 - Müraciət olsun: Qurani kərim, əz-Zuxruf, ayə 10

Insan ruhən və cismən yaşıyan bir varlıqdır.Cahiliyyət dövründə insanlığa verilən dəyər çox aşağı olduğundan məhz peyğəmbərlər tərəfindən müəyyən dövrlərdə bu tamamilə öz nizamını tapmışdır.Nədir insanlıq,əsas bu fikir hamı üçün bir başlanğıcdır.Allah insana verdiyi dəyəri Qurani-Kərimdə təsdiqləyir.''Biz insanı ən gözəl şəkildə yaratdıq''. Biz insanlar yaradılışdan bir fitrət üzərində yaradılmışıq.İlk öncə Rəbbimiz bizi yaradıb,bizə duyğu orqanları vermiş,düşünmək üçün ağıl vermişdir.Cismani və ruhani bir varlıq olmağımız bizi üstün etmişdir.Cismən yatırıq, yeyirik, günümüzü dünyəvi işlərlə keçiririk və sonucu təlatümlə nəticələnən günahkar bir insan oluruq.Əslində bizlər doğru din üzərindəyik sadəcə biraz səyy edib Rəbbimizin bizə çatdırdıqları əmanətə əməli şəkildə riayət etməliyik.İnsan özünü ət və sümükdən ibarət olduğunu görməməlidir.İnsanı fərqli olan tərəfi zatən yaradılışdan insan olmasıdır.Məsələn; insan başqa canlilardan (vəhşi heyvanlardan) zəif olmasına baxmayaraq,insan bunlara hökm edir.İnsan fərqli bir varlıqdır.İnsanlarda ruh deyilən və heyvanlarda olmayan bir üstün varlıqdır.İnsanın ağlı var bura aid olanlar idrak,xəyal,yaddaş,anlayış bu qüvvətlər ağıla bağlıdır.İnsan ruhunu bəsləsə imanını qüvvətləndirsə,Allahın əmirlərinə itaət etsə,əxlaqını düzəltsə,mələkləri də keçə biləcək bir qabiliyyətə malikdir.Əksinə,bunları etməssə,düşmən olsa,nəfsinə tabe olsa nə olar,Qurani kərim buyurur; "Yoxsa onların çoxunun (sənin dediklərini) eşitdiyini və ya düşündüyünü güman edirsən? (Xeyir) onlaryalnız heyvanlar kimidirlər,hətta daha azğındırlar.(çünki heyvanlar yaradılışın hədəf və məqsədi istiqamətindəki yollarını inistinklə düzgün gedirlər,bunlar isə yox!).(1)"İnsan iki tərəfli

bir varlıq olduğu üçün,cismini və ruhuna xidmət etməlidir.cismi xəstələndikdə necə ki ona qulluq edir dərman verir həkimə müraciət edir,eləcədə ruhunu diri tutmaq üçün Allaha iman etməsi,doğru olmasi,bəndə olmasi,Quran oxumasi lazimdır ki ruhu bəslənsin.Əgər bunlari etməssə nəfsi ona hakim olub cəhənnəmə gedər.Allah tala insana qiymət vermişdir,qiymət verməyinin də səbəbi onun ruhudur.Əsas olanda ruhunun qüvətlənməsidir.Əgər ruh qüvvətləndirilməssə,bəslənməssə insan heyvandan aşaği olar.İnsanın heyvani sifətlərə yiyələnməsi onun cahil kimi yaşamaq istəyindən irəli gəlir.İndiki zaman ilə müqaisədə o dövrün cahilləri ilə bu dövrün arasında fərq bu dövrün cahillərinin mədəni cahil olmasıdır.Məsələn:Qadının və ya kişinin haram məclislərdə oturması ,haram musiqilər dinləməsi, bu kimi şeytani vəsvəsələrin adını çəkmək olar.İlk öncə insan Əmmarə nəfsdən özünü azad etməlidir.Nədir əmmarə nəfs?Ərəbcə” Əmmarə nəfs əmr edən” deməkdir.Tərk etməli olduğumuz ilk mərhələ əmmarə nəfsdən xilas yolunu tapıb müalicə olunmalıyıq.[1] Əmmarə nəfsi günah içində batmış bir nəfsdir,bu nəfs insanı cəhənnəm odunda yandırar.İnsanı pisliyə çağıran nəfs Əmmarə nəfs adlanır.Bu nəfsə mane olunmasa insan böyük günaha bata bilər.Məsələn:İnsanın yeməyə olan meyli təbii meyldir,amma bu meylə nəzarət olunmadıqda insan halal-haram,xeyir-zərər bilmədən qarnını doldurar.Belə insan nəfsi əmmarə halındadır.İkinci nəfs Ləvvamə nəfsdir.Ləvvamə nəfsin

1 - Müraciət olsun:.Furqan surəsi, ayə 44

ərəbcəsi “Özünü qınayan nəfsdir”.Hər birimizin günahı olduqda özümüzü qınayırıq.Kaşki belə etməyəydim.Allah üzərində olan doğru yol yalnız din yoludur.Ləvvamə nəfsdə olan insan özünü qınayar,Allaha doğru yol alar.Üçüncü nəfs isə Mütməinnə nəfsdir.Bu nəfs ərəbcə”Arxayın qəlb”deməkdir.Arxayın nəfs artıq ilahi dərgahda bağışlanmış səbrli bir nəfsdir,mütləq cənnət əhlidir.Buna misal olaraq Həzrəti İbrahim Peyğəmbərin rəvayətini göstərmək olar.”Həzrəti İbrahim (ə)-ın oda Nəmrud tərəfindən atılarkən od İbrahim (ə) üçün sərin oldu.Bu hadisədə nə baş verdi?-İbrahim Peyğəmbərin oda atılması hadisəsində artıqarxayın qəlb Ləbbeyk Allah deyərək od onun üçün sərin oldu.Biz insanların qəlblərində yer tapmalıyıq.Necə ki, İslam Peyğəmbəri (s.a.v.)yaşadığı dövrdə insanları dinə dəvət etməmişdən öncə onların qəlblərini qazanardı.Qurani Kərim buyurur “Ey arxayın olan nəfs dön Rəbbinə,sən ondanoda səndən razı olan halda “.Mütməinnə nəfs müxtəlif təhlükələri adlamış,ali dərəcəyə çatmış həmin nəfsdir.İnsan da məhz arxayın olmaq üçün öz Rəbbinə dönməlidir.İnsan elə bir varlıqdırki,gecə ikən yuxusuna haram qatıb Rəbbi ilə söhbət edər.Kainatda hər şey Allaha zikr edər,bununla yanaşı bütün canlılarda zikr edər.Hər Allah dediyimizdə bir daha ucalırıq.Uca olan Rəbbimiz bizə bütün nemətlərini əta etmişdir,bununla yanaşı biz yenədə şükr etməyi bacarmalıyıq.Qurani Kərim buyurur “Biz sizə doğru yolu göstərdik,isdər şükr et istər küfr”.İnsan kimdir soruşduqda Allahın yer üzərindəki möhürüdür.Ay nə üçün yenidən doğar,Günəş niyə batar,gündüz niyə gecə olar ,çeşmələr niyə axar,bunların hamısı insan üçündür.Kainatdakı bu qədər

gözəlliklər insanın ixtiyarına verilibki həhat tapsın,hüzura qovuşsun,insan şükr etsin,ancaq insan nankordur.Baxar amma görməz,eşidər amma hiss etməz,qüdrəti daim özündən bilər.Bir vaxtlar Məkkə müşrikləri qızlarını diri –diri totpağa basdırardı.Peyğəmbərimiz onlara insan olduqlarını xatırlatdı,insanlıq hüzura çatdı.Varlığın dərki ondadır.O bizlərə göydən su endirər,Onun hüzurundasəslənib şükr edərik.Bizləri yox ikən yaradan odur.Öləndən sonra dirildib nəfəs verəndə odur.Biz düşünürük Allah insana necə dəyər verib?Bitkilər ,sular,ağaclar,daşlar,uca dağlar,meşələr hər şeyi insanın hüzuruna verib.Xaliqin məxluqa etdiyi bəxşlər sonsuzdur.Bu dəyəri insana verən Allahdır.Bəs biz bunun qarşılığında Rəbbimizə necə şükr edirik.Sonsuz həmdlərə məxsus olan Allah deyər ki,mənim sizə ehtiyyacım yoxdur.Çünki Allah sonu bilinməyən gözəlliyə məxsusdur.Mömin kəslər Rəbbinə gecə və gündüz şükr edər.Şeytanın vəsfəsələrinə qulaq asmaz, bunlardır möminlər.İnsan olmaq üçün gərək din əhlinə yaxın olsun.İnsan öz –özünə sual verə bilərki mən kiməm? Mən ehtiyyac sahibiyəm ,mən ölmə məhkumam,mən yanlışları doğru,doğruları yanlış bilənəm.Vücudumuzun qocalması bizim əlimizdə olmadığı kimi ölümümüzdə bizim əlimizdə deyil.Alimlərdən biri meşəliyə gedər orada bir ağac ilə oturub düşünər və deyər ki,Allah mənim dəyərim nədir? Orada oturmuş alim ilə ağacın  arasında bir it gəlib durar,alim deyər ağacin kökü ( baş hissəsi) yerin altinda səcdə edər və budaqlari bar verər.Təvəzökar bir təbiət.Sonra itə baxar itin başi ilə şəhvəti  bir istiqamətdədir.Alim özünə baxar başim şəhvətimdən üstün yerdədir.Allah ən uca yerdə ağlimi qərar

verib.Qurani kərim buyurur; “İnsan var mələk kimidir insan var heyvandanda aşağadir.Ey insan,özünü tanı : Sən ətrafında olan bir çox şeyləri tanısanda,lakin özünə ən yaxın olan nəfsi tanımırsan.İnsan imkan aləminin ağası,mehvəri və meyvəsi oldun,lakin bir şərtlə ki,üzərinə vacib olan əməlləri yerinə yetirib nəfsini pak saxlayasan.Allah bizə özümüzü tanımağımızdan danışır.Özümüz özümüzü tərbiyələndirib insan kimi yaşamağa başlamalıyıq.Lakin nəfs o qədər qəliz bir şey deyil ki,biz onun əlində giriftar qalmışıq.Nəfsimiz bizə əmr etsə sadəcə bunun əksini etməklə Allahın rizasını qazanmış olarıq.Bağbanın tərbiyə etdiyi ağacın iradəsi olmadığı halda,insanın iradə və istəyi onun başqa mövcudlardanda fərqləndirir.Bağban öz istəyi ilə və iradəsi ilə ağaca qulluq göstərir,ona su verib dibini yumuşaldır və artıq budaqlarını kəsir.Tam olaraq ağac bağbana tabedir.Ağac şəraitə təslim olduğu halda,insan öz iradəsi ilə şəraitə təsir göstərir.Bir sözlə insanın tərbiyəsində onun istəyi əsas şərtdir.insanı bəzənbir tikə (qida),bir söz və ya bir baxış batırır.Bəzən bir kompyuter və ya televizor ekranındakı görüntü qəlbin bəzi duyğularının xıstələnməsinə, hətta ölümünə səbəb olur.Zahirən gözəl,həzz verici görünən şeylər aldadıcı ola bilər.Bu ləzzəti,bu istəyi istəyən nəfsimizdir,yoxsa ruhumuz? Bunun müəyyən edilməsi mühüm rol oynayır.Bəzən bir insana artiq söz deyəndə insan içində vicdan əzabi çəkir.Bəzən məclislərdə riyakarcasina söylədiyi bir söz mənən insani sindirir.Haram yolla qazanilmiş bir tikə insanin axirətini məhv edər.İnsan bəzən deyər,mənim qəlbim təmizdir,bunu demək asandir,ama qəlbi qorumaq çətindir.Qəlbimizin zikrə namaza,oruca,ehtiyaci vardir.Elə isə Allahi zikir

etməkdə,ikinci,üçüncü bilməməliyik,bunu birinci dərəcəli iş kimi saymaliyiq.İnsan dininə görə narahat olmursa,həyacan keçirmirsə o öz nəfsini hesaba çəkməlidir.Qurani kərim buyurur; "Məni qinamayin öz nəfsinizi qinayin".Şeytan burda hər şeyi mən etmirəm deyəcək şəkildə yazilib,siz özüvüzün nəfsinə baxib düz nədir onu edin.Bəli insanda elə duyğular vardırki,xəta ilə hər şeyi əldən çıxır.Artıq onları yenidən bərpa etmək,insan üçün çətindir.Böyük bir günah işləmək bir insanin iflic və ya qorxulu bir vəziyyətə salir.Bir əhvallatda buyurulur; " Günahkar bir insan dünyasini dəyişir,Muhəmməd Peyğəmbər (s.a.v.) vəhy olunurki get cənazə namazini özün qil,özün dəfn elə,həmin məntəqəyə gəlib görürki evi xarabaliqdadir,günahkar olduğuna görə dəfinində heçkim yoxdur.Peyğəmbər dəfin namazini qilandan sonra Allahdan soruşurki İlahi məni bura niyə göndərdin,Allah buyurar; axır vaxtlari idi baxdi gördü heç kəsi yoxdu,belə dua elədi "Ey dünyanin və axirətin sahibi rəhim elə o,kəsəki nə dünyası var nədə axirəti" məndə baxdim məndən başqa heç kimi yoxdur bağışladım".(1) Bu qədər sadədir biz bu halnan Allaha tərəf getsək bağışlanarıq,əslində bağışlanmaq kiçik haldır,hara istəsək gedib çata bilərik.İşimizi ona həvalə edə bilsək axirətimizidə təmin edə bilərik.Tövbə qapısı hər zaman hər kəsin üzünə açıqdır.Qəlb mələklərin məskənidir,mələklər ordan çıxsa,yerini mütləq şeytan tutar.Buna görədə insan qəlbini,təfəkürlə,zikirlə,bəsləməlidir və onu şeytan yuvasına çevirməməlidir.Buna görə insan,qısa çəkən ibadətlərnən kifayətlənməməlidir.Ona axirəti gətirəcək,müstəhəb ibadətlər ilə məşğul olmalıdır.İnsan öldükdən sonra cismi aradan gedir.Ruh isə həyata davam edir.ölüm insanın yox olması

deyildir,insan öldükdə ruh bədəndən ayrılır,qiyamət gününədək bərzəx aləmində yaşayır.Qurani Kərim buyurur; “Daha sonra onu yeni bir məxluq olaraq yaratdıq”.Hər bir insan tək Allahlılıq fitrətində yaradılıb.Heç kim dünyaya günahkar gəlmir.İnsan ağıl sahibi olduğundan o,məhsuliyyət daşıyır və o əməllərinə görə cavabdehdir.Dünyada baş verən hadisələr isanın əməllərinin nəticəsidir.Kim özünü dərk edib tanıyırsa Allahda onu tanıyır.Onun əzəmətli olduğunu dərk etmiş olar.Allahi tanimaq insan kimi formalaşmaq deməkdir.insan kimi formalaşmaq,Allahin riyazətini,cənnətini,daimi olan rifahını qazanmaq deməkdir.Bizlər hər şeydən faydalanırıq bir insan kimi,məsələn; yemək,içmək,yatmaq,gəzmək kimi,cismimizi nə qədər sevirik,bəs bunu ruhumuzada göstərsək necə olar,bax bunda insan kamillik ordusuna daxil olar.Əməllərimizin müqabilində bizlərə verilən mükafatın bizi əbədi olaraq cənnətdə var olmağımızı təmin edəcək.Dünyada nə iş görmüşdüksə qiyamət günü hammısı bir bir hesaba çəkiləcək.Dünya həyatında ikən cismimizin üzvlərini qorumaqnan sorğu-sual günü Rəbbim bizə əbədi həyat bəxş edəcək.

Allah insanın qəlbinə elə bir xüsüsiyyət vermişdirki insanin göz yaşları onu islah edər.Namaz qılarkən belə ruhən rahatlıq tapıb göz yaşlarımız axır.Hər bir şeyə diqqət ayırdıqda görürük ki,Allah insan üçün yer üzünü necə, döşəyib.Ulduzları,ayı,günəşi,dənizi,dağları,varlıq aləmində olan hər şeyə baxdıqda görərik ki necə nizam ilə düzülüb.Allah bəndələrini tamam təmin edib.İnsanlarda elə bir

hökümü vardır ki,hər şeyi onun ixtiyarına verib.Ondan başqa Allah yoxdur.O,öz müqəddəsliyində əzəmətlidir.Uşaqlar dünyaya gəndə tərbiyyə olunmuş halda gəlir.Uşaqlarin tərbiyyəyə ehtiyaci yoxdur.Uşaqlar dünyaya gələndə xalis günahsiz halda dünyaya gəlir.Riya bilmirlər nədir,özlərini kimsəyə göstərmirlər,sadiqdirlər,sadədirlər,düz danışandırlar,səmimidirlər,yalanı qəmi qüssəni sonradan örgənirlər və o,İlahi tərbiyyəni sonradan yaşayaraq örgənmiş olurlar.İnsanlar dünyaya gəldiyi anda tərbiyyə olunmuş halda gəliblər,sonradan tərbiyyələrini itiriblər.Ən gözəl tərbiyyə edən Allahdır.Özümüzü onun əlinə versək yenə əvvəlki halimiza qayıda bilərik.Tərbiyyə olunmasaq dəyərimizdə yoxdur.İnsan gərək özünə diqqət ayırsıın.Cismimizə,gözəlliyimizə vaxt ayırırıq,xarici görünüşümüzə vaxt ayırırıq,amma ruhumuz batıb gedir.İnsan elə bir varlıqdırki Allah ilə rabitəsini kəsdikdə imanı zəfləyir.Başimiz qarişıb cismimizi doydurmaqnan.Cismani həyatı heyvanlarda yaşayır.Heyvanda yeyir,içir,yatır,dincəlir,baxır,insanda heyvanların etdiklərini təkrar edir.Bizim heyvanlardan fərqimiz.bizim ruhumuzun olması,ağlımızın olmasıdır.Ağıl insanın xilaskarıdır.Şeytanın olması insanların qiyamət gününədək imtahan olunması deməkdir.Qurani kərim buyurur; “İnsan ziyan içindədir.Yalnız iman gətirib yaxşı əməllər edən,bir-birinə haqqi tövsiyə edən və səbri tövsiyyə edən kimsələrdən başqa.(1).Bİz gərək Allaha iman gətirək.Şeytan çox həsəd aparan varlıqdır.Çünki o Allah dərgahindan qovulub.İnsanın Allaha yaxınlaşmasınıida qəbul edə bilmir.Lənətə gəlmiş şeytan bəşərə təhqir gözu ilə baxaraq,”məni oddan,onu isə torpaqdan yaratmısan,od

torpaqdan üstündür" demişdir.İndi həmin insan onun qovulduğu məqama sahib olurqu.Qurani Kərim buyurur; "Ordan (cənnətdən) aşağı en.Orda sənə təkəbbür göstərmək yaraşmaz.(ordan) çıx, çünki sən alçaqlardansan". İnsan bəndəlikdə Allaha yaxınlaşmaq istəyir,şeytan isə insanı azdırmaq istəyir. O lənətlənmiş uzun müddət ibadət etməsinə baxmayaraq,sonda təkəbürlük edib özünü həlak etdi.[1]

Əzəmət və böyüklük Allaha məxsusdur.Şeytanin cənnətdən qovulduqdan sonra belə dediyi nəql olunur; "İlahi,bəs mənim alti min illik ibadətlərim necə olacaq,cavabında nə istəsən, verərəm nidası gəlir.[2] O da dedi;Mənə qiyamət gününə qədər möhlət ver,Allah tala buyurdu; sən möhlət verilənlərdənsən".İnsan iki yol ayırıcındadı ya şeytanı seçib onun dalı ilə düşəcək yad ağlına tabe olub,nizam intizama əməl edəcək.İnsan bəndə kimi müvəffəq olmaq üçün Allahın razılığını qazanmaq üçün,əbədi olaraq normal yaşamaq üçün,gərək öz nəfsi maraqlarından keçsin.İnsan kimi yadda qalmaq çətin işdir.İnsan təfəkkür etməlidir öz yaradılışı haqqında."Məhbubundan uzaq düşmüş insan daim nigarandır.Bu nigarançılıq o,zaman zirvə həddinə çatır ki məhbubunu görə bilməyən insan bu məhbubun onu gördüyünü hiss edir.Buna oxşar halda "Nüdbə duasında rastlaşa bilərik.Orda İmam Zaman (ə) müraciətlə belə deyir; Hamını görüb səni görə bilməməyim mənə çətin gəlir."(1)İnsan Allahın varlığını dərk edə bilsə bu yolda müvəffəq olar.Allahın həqir bəndəsi,Cəfər ibn Hüseyn Şüştəri deyir;

1 - Müraciət olsun: Əsr, ayə 2-3 və Əraf, ayə 13
2 - Mizhab yəzdi, Allaha doğru.səh. 196 və Xəsaüsul-hüseyniyyə, səh. 3

”Gördüm cavanlıq dövrüm keçdi,qocalıq günlərim yetişdi bədənimin əzaları zəifləməyə başladı,ömrümdən altmış il ötdü,amma bu həyatda nə bir şey hasil etdim,nə də bir fayda gördüm.Düşündüm ki,həmən bu vəziyyətdə dünyamı dəyişəcəm,öz qafil və günahkar nəfsimə xitab edib dedim; Vay olsun sənə,nə qədər qafilsən,cavanlıq baharın küskün payıza dönüb.Əkin zamanı bir toxum da səpmədin,məhsulda yığmadın.Heç olmasa ömründən qalan  bu iki günün qiymətini dərk elə.Öz məhsuldar ömür torpağını tələf etdin,buna görə də qalan bu qısa müddətdə əbədiyyət toxumu əkməyə tələs.Ömrünün sərmayəsini əldən verdin,qalan bu cuzi nemətin qədrini bil.”(2) İnsanın dünyaya gəlməsinin məqsədi var.Bəzi insanlar deyərlər ki,biz yemək içməyə gəldik,bəzi insanlar deyərlər ki,biz kef çəkməyə gəldik əslində insanın dünyaya gəlməsinin qayəsi başqadir.insan yaradılış qayəsini bilsə qəlbi boş qalmaz.İnsan məqsəd ilə yaşayar,hər kəsin bir məqsədi vardır ki bu məqsədlərində qayəsi fərqli-fərqlidir,bəziləri deyər;mənim cibim dolu olsun,bəziləri deyər mən çox varlı olacam,bəziləri deyər mən məhşur olacam,məqsədsiz bir insan olmaz,hər kəsin bir məqsədi vardır.Bunların hamısı əsas məqsəddir? Yox əsil məqsəd Allaha qulluq etməkdir,Allahın rızasını qazanmaqdır.Çox pul qazanmaq,bu kimi fikirlər ilə yaşayanlar bunlar uduzarlar.Çox pul qazanmaq Allaha getmək üçün mane olmur,bunları adət halına salan ifrat həddində edən ziyana uğrayar.Buna məsəl olaraq həzrəti Süleyman Peyğəmbərin var dövlətini göstərmək olar.Mal,varlıq,şöhrət,bunlar məqsəd olarsa

insan ziyana uğrayar.Allah yol açdi insan məhşur oldu,bununla insan Allahın rızasını qazanmaq üçün yol tapmalıdır.Süleyman

(ə) ın hər şeyi vardı,cinlər əmirində,heyvanlar əmrindəydi,külək əmrindəydi,belə bir sətlənəti var idi,Amma Qurani kərim Süleyman peyğəmbər üçün nə gözəl quldur demişdir.Məqsədimiz Allah talanın rızasını qazanmaqdır.İşimiz bizə əsil məqsədimizi unutdurmamalıdır.məqsəd şöhrətli olmaq,varli olmaq deyildir,əsil məqsəd Allah talanın rızasını qazanmaqdır.İnsan qəlbən varlıda,şöhrətlidə ola bilər,amma bunlar günah etdikdə əldən çıxar və əzaba düçar olar.Günahlar üzündən Allah bəzi qövümləri məhv etdi və onları yerin dibinə keçirmişdir,Günahlar üzündən Allah bəzi kimsələrin üzərinə daşlar yağdırmışdır.Günahların ziyanı çox böyükdür,insani bu dünyada və axirətdə rahat buraxmayan günahlardır.Bu dünyada ayrıldığımız anda hər şey insan üçün qurtarar və qapılar bağlanar və sorğu sual başlayar.Tək qalacaqımız o gecə bizə günahlarımız aman verməyəcək ki,ətrafımız nurlansın,bütün bədən üzvlərimiz əlimizdə olmuyacaq ki qoymayaq çürüsün.Yalnız mömin kəslər hidayət tapar dünya və axirətdə.Günahlar qısqanclıq duyğusunu da öldürür,günahlar üzündən işlərimizdə çətinə düşür,günahlar üzündən bir çox ruzilərdən də məhrum oluruq.İnsan günah edərsə qəlbi qaralar,günah işləməyə davam edərsə o ləkələr artar,qəlbin hər tərəfini əhatə edənə qədər.Çoxlu günah edərsə o kimsənin qəlbi möhürlənər.İnsan günahlardan çəkinməlidir.İçki içmək,zina etmək,haram yemək,qul haqqına girmək,yalan danışmaq,fəsad törətmək bunlar hammısı günahlardır,bu günahlara görə Allah tala insana bəla göndərir və qövümləri ümmətləri yerlə bir edir.Allaha şirk qoşmaq ən böyük günahdır.Bir çox gözəlliklərdən,ruzilərdən məhrum

olmaqımızın səbəbi işləmiş olduqumuz günahlardır.Günahlara yaxın durmamaq üçün və günahlardan qurtulmaq üçün dua etəliyik namaz qılmalıyıq və əməl etməliyik.Allah bizi hər cür günahlardan qoruyar.Dua Allaha sığınmaq üçün ən gözəl yoldur.Günaha düşmüş bir insan qulun qabağında əyilməz,amma dua edərkən Allahın qarşısında izzət ilə əyilər.Qul özü bilər ki heç kim onu bağışlamaz,o yenədə Allaha dönər.Dua Allah ilə insan arasında olan bir pəncərədir,bu pəncərəni bizim daim açıq qoynaqımız rabitəmizi gücləndirər.Biz ömrümüzü insan kimi yaşamaq istəsək,ruhumuzda olan istedadlar da ortaya çıxar.Təbiətə baxdıqda arı öz yuvasından çıxar və ruzisinə gedər geri qayıdanda hardan çıxıbsa ora girər.Arı harda çiçək varsa orda ruzisini tapar,qidası olan çiçək zibillikdədir və arı o zibillikdən başqa bir şey axtarmaz sadəcə qidası üçün ora gedər.Arıya verilən ruzi ilə o,ona qane olar.İnsanda ona verilən ruzi ilə qane olmalıdır,ona verilən həyat ilə qane olmalıdır,onun üçün gəldiyi dinə boyun əyməlidir,bu işdə şücaət göstərməlidir və möhkəm olmalıdır.İnsanı bədbəxtçiliyə aparan yol nəfsi azad buraxmasıdır,nə qədər ki insan

nəfsi qınamasa,onnan razı olsa,ona sən hələ cavansan qocalanda ibadət edərsən ruhiyyəsi ilə yaxınlaşar və cavanlıqını insanlıqdan çıxmış bir heyvani hislər kimi yaşatsa sonu cəhənnəm olar.İnsan dəyərli olduğunu anlamalı,onun həyatında baş verən sıxıntıları,bəlaları,imtahan kimi qəbul etsə və bu imtahanın Allahın bir rəhməti kimi qəbul etsə,Allahın rızasını qazansa mütləqdir ki bağışlansın.Allahın lütfü böyükdür onun rəhmətinə sığınaraq ona tərəh hərəkət etməliyik.Onun bizə verdiklərini və bundan sonrada

verəcəklərini əsla heç bir varlıq verə bilməz,o yenilməz və qüdrət sahibidir.

İnsanın yaradılışı.

Allah insanı mükəmməl olaraq yaratmışdı.”Ana bətnində rüşeym (əmbrion) üç zülmətin arxasında qalır:Qarın,rəhm və uşaqlıq.Bura elə bir yerdirki rüşeym qida əldə etmək və zərərdən uzaqlaşmaq üçün özü heç bir fəaliyyət göstərmir.Nə öz mənfəətini bilir,nə də özünü zərərdən qoruyur.Sonrada ana bətnində onun vücudu kamala çatır, bədəni möhkəmlənir, dərisi hava ilə uyğunlaşıb, gözləri işıq görməyə qüdrət tapır.Darısqal bətndən geniş dünyaya çıxır.”(1)Sonradan ana ona süd verir, yavaş-yavaş hər şeyi tanımağa başlayır.Uşaq böyüdükcə Allahı tanımağa başlayır.Uzun ömr yaşayacağını hiss edir.Lakin nə vaxtsa ölümü bilsəki yaxındır o öz həyatından ləzzət almaz .Həmçinin insan ömrünün çox olmasına əmin olsa o uzun ləzzətlər ardınca qaçmaz.O, ömrünün sonunda tövbə edəcəyinə ümüdvar olaraq daim öz şəhvətinin dalınca gedəcək.Lakin Allah belə bir əqidədən razı olmaz , onu bağışlamaz.Qurani Kərim buyurur :” Hər kim zərrə qədər yaxş iş etmişsə onun qarşılığını görəcəkdir, hər kim zərrə qədər pis iş görmüşsə onun qarşılığını görəcəkdir.”(2)Quran hər bir şeyi bəyan edən kitabdır.Azmış insanlar şeytanın tüğyanı dalınca gedirlər, onlar ilk yaradılışını unudaraq fəsad törətmək üçün can atırlar.Zahirən gözləri var görmürlər, qulaqları var eşitmirlər, dilləri var danışmırlar, onlar düşünürlərki doğru yoldadırlar.Mən deyilən qüvvəni

içimizdən yox etməliyik,özümüzü susuz hiss etməliyik.Allah bizə buyurub ,şeytan alti min il Allaha ibadət etdi.Sonra Adəm (ə) ın adi çəkilən kimi,küfürü ortaya çixdi.Şeytani nəfsani istəklərimiz bizi bir neçə il geri salir,hətta mümkündürki ömrümüz boyu ziyana uğrayaq.Allah insani gözəl şəkildə xəlq edib,axi insan özünə niyə zülm edir.[1]

Şeytanin Allahin qanun vericiliyini qəbul etməməsi,onun fitnə-fəsad istəməsini göstərir.Onun qururu,istəyi,imkan vermədiki insana səcdə etsin.Bu məqalədə insan və şeytan arasinda fərq çoxdur,insanlar var Allahın görüşünə tələsir,insanlar var nəfslərinin dalinca qaçir.[2] Hər ikisinə baxdiqda, Alahı istəyən də,ölümə yaxinlaşir, şeytanin dediklərini edən yəni nəfsinə bağli olaninda ömrü ölümə yaxinlaşir.Ölümün var olmasi günahkari dirildməlidir.Allaha olan istək bütün isanlarin qəlbində var.Qurani Kərim buyurur; "Bilinki qəlblər ancaq Allahı zikir etməklə aram tapar."(1)İnsan ilahi neymətləri dərk etməklə,onda ibadət şövqü yaranir,ən yüksək mənəvi dəyəri Allaha pərəstişdə görür."İnsanlarin ibadətləri üç hissəyə bölünür; birincisi,cəhənnəm əzabı qorxusundan Allaha ibadət edənlər,ikincisi,cənnət və mükafat əldə etmək məqsədi ilə Allaha ibadət edənlər,birincidən və ikincidən tam fərqli olaraq,üçüncü qisim insanlar,yalniz Allahin raziliğini əldə etmək üçün ibadət edirlər."(2) Bu ibadətlərdən görünürki,hər üç ibadət növü axirətin xeyirli olmasi və ruzisinin olmasi deməkdir."İnsanlar qəlbin əslində sağlam yaradildiğini da bilirlər çünki hər bir körpə fitrətlə yaradilir.Lakin həmin sağlamliğ və pakliği günahlarin toz-torpaği nəticəsində

1 - Müfəzzəlin Tövhidi. Səh-24
2 - Zəlzələ, ayə 7

yaranmiş qaranliqla əldən verirlər.”İnsan qüdrətli olmasini istəyir.Hər bir insan onu öz daxilində hiss edə bilər.İnsan çalişir,can atirki bu qüdrətindən daha da qürətli olsun,bu istəklər günah üzərində özünü birüzə verməsin.”Bütün bunlarla yanaşi,insan bu ali istiqamətdə,tərbiyələndirilməlidir.Oxuduğu dualarda.qildiği namazlarda,etdiyi bütün yaxşi işlərdə bu əməllərin savabina yox əməlin özünə və əhatə dairəsinə baxmalidir.”İnsan özünü sevdiyi kimidə öz elimini və biliyini sevir.Əbədiyyətə olan sevgi insanin özünü istəməyindən gəlir.Əbədi qalmaq istəyi daim insan fitrətində var.Buna görədə daim yaşamasini istəyir.Təbiyyət gözümüzün önündə ölüb dirilir,fəsillər gəlib gedir,gecə gündüzə qarişir,bu bir hikimətdir.Fəsillərin dəyişməsi Allahin bizə göstərdiyi bir neymətdir,yayda təbiət diri olur,qişda isə təbiət ölür və bunu bizə unutduranda günahlarımızdır.Bizim Allaha möhtaclığımız var.Bu istək və ehtiyyac bizi doğru yola aparır.Möminlərin qüdrəti nə qədər çoxalsa,onlarin qüdrəti Allah qarşisinda bir o qədərdə özlərini aciz hesab edərlər.Başqa insanlara qarşi daha təvəzökar olarlar.Şübhəsizki bunlar onlarin elmi və dünya görüşündən yaranir. Nəticə; bütün bunlardan bu nəticəyə gəlirik ki insan özünü zəif və aciz bilsə,təvəzökar olar və təkamül yolunu özü-özü üçün asanlaşdirar.Əksinə insan özünü daha qüdrətli bilsə dahada qürurlanacaq və təkəbbürə düşüb özünü günahkar edəcək.Qüdrət əldə etməyin heç bir eybi yoxdur.Həqiqi qüdrətin nə oluğunu anlamaliyiq.Bizim qüdrətimiz öz əlimizdə deyil bu Allaha məxsusdur.Alahın qüdrəti daha böyükdür.Qurani Kərim buyurur; “Ona; Allahdan qorx-deyildiyi zaman lovğaliğ onu günah törətməyə davam

edər.”Qüdrətə çatmiş bir insan bəzən onu saxlamaq üçün təhlükəli işlərə əl atir.Deməli qürura düşməmək üçün Allahi unutmamaliyiq.[1]

Allah nəyi yaradıbsa heç bir şeyi boş-boşuna,məqsədsiz,hikimətsiz yaratmayıb hər şeyin bir məqsədi vardır.Allah yaratdığı məxluqat içərisində insana qiymət vermişdir.Cənnəti və cəhənnəmi insan və cinlər ilə dolduracaqını bildirmişdir.Cənnət neymətlərin olduğu yerdir,cəhənnəm əzabların olduğu yerdir.Allah belə qərar vermişdir,yaradanların bir qismini cənnətə bir qismini cəhənnəmə qoysa o,zaman cəhənnəmdəkilər sual verə ki Ya Rəbbi bizi niyə bura qoydun,yəni xəta olar,Allah ona görədə bu dünyanı imtahan yeri olaraq yartmışdır.Allah insanı dünyaya göndərir,ağıl verib,seçim verib,bir də insanlara yol göstərən bir Peyğəmbərlər göndərmişdir.Bunuda insanlardan göndərmişdir.Dünyanın yaradılış məqsədi onun axirətinin qazanmasıdır.Allah insana bir iradə vermişdir ki insan bu iradəni gözəl şəkildə sərf etsin.Allah buyurub; oğurluq etməyin,zina etməyin,yalan deməyin,heç kimin malina əl qoymayın,qumar oynamayın,bunların hamısına əməl edilərsə insanlar da yer üzündə hüzur içində yaşayar.Axirətdəki mükafatı isə cənnət neymətləridir.Dünya sevgisini insan qəlbinə salmamalıdır.Dünyani sevən ora meyl edər,orda qalar nəticədə axirət əldən çıxar.İnsan dünyaya gələr can qazanar,böyüyər güc qazanar,gücünü verdiyi qərarlardan alar,əgər verdiyi qərar ədalətli olubsa,ədalətində insan olubsa onda kamil olar.”Canlar canını tapar ölsədə bədəni ölər,amma

1 - Bax: Rəd, ayə 28

o,sonsuzdək yaşayar.”(1)Həyatımızda belədir nəsə çatışmayanda insan kamil olmur.Kamil olmayanada bəşər deyilər bəşərdə dəri deməkdir,dəridə bir vaxtan sonra çixib gedər.Amma o,sonsuzadək yaşayar.İnsan o,zaman insan olar.İnsan torpağın altında qalsada ölməz haqqa aşiqdir çünki.”Ölən heyvan imiş aşiqlər ölməz”.[1]

İnsanın yaradılışı mükəmməl,bədəni və ruhu,bu mükəmməlliyini imanı ilə ibadətləri ilə əxlaqı ilə saleh əməlləri ilə yüksək hədəfləri ilə və ən son iman ilə şərəfli və dəyərli şəkildə Rəbbinə çatmaq cənnətə yetişməkdir.İnsan hər şəkildə əxlaqını və imanını qorumalıdır.İnsanın şərəfi ləyaqəti onun yaradılışındadır.Allah insanları yaradılmışların ən üstünü tutuub,başqa yaradılanlara verilməyən neymətlər insana verilib.İnsan istər kafir olsun istər zalım olsun istər mömin olsun,Allah insanları bir potensial varlıq kimi yaratmışdır”.İnsan Allahın qatında təqvalıdırsa üstün olar,təqvalı deyilsə heç bir dəyəri də yoxdur.İnsanlıq bir ailə kimidir,bir insanı öldürmək bütün insanları öldürmək kimidir,bir insanı diriltmək bütün insanı diriltmək kimidir,buyurmuşdur,Hz Peyğəmbər (sav)”.İnsan özünə dəyər qiymət və üstünlük verməlidir.İnsan Allah üçündür,Allah üçün olmayan insan başqası üçündür.İnsanın Allahdan başqasına tapması öz-özü ilə müharibəyə çıxmasıdır,bu dünyada Allah üçün her şeyini itirmiş insan bir fəlakətnən üz-üzədir.İnsan oğlu Allahın bir əmanətidir.

1 - Yunus Əmrə

İnsan dəyərli bir varlıqdır.Allah gorünən və görünməyən varlıqlara yəni cinlər və insanlara dəyər vermişdir.İnsan seçim edən bir varlıqdır,Allah nəzərində dəyərli bir varlıqdır.İnsan öz dəyərini biləsi üçün gərək Allahı tanısın.Özünü tanımaqdan keçər bu yol,özünün necə bir varlıq olduqunu və nə üçün yaradıldıqını bilməlidir.Yaradılışların ən gözəli insandır,dəyərli olmaq çox mühüm bir məsələdir,bir kəsə dəyər verəndə həmən insan qarşı tərəf üçün çox əziz olur,dəyərini verdiyimiz hər hansı bir əşyanında bir çəkisi var.Əslən bu dəyərli hər bir şey biz ona yaxın edər.Allahın da bizə verdiyi dəyər,bizim onun daha dəyərli olduğunu və ondan başqa dəyərli bir şey olmadığını anlamamız lazımdır.İnsana hər bir yol göstərildi,ona bu yolda hər şey verildi,onun üçün hər şey aydın oldu.Bütün məxluqat Allahın qullarıdır,daşlar belə Allahı zıkir edər,onlar danışarlar ama insanlar onu duymazlar,yalnız bəsirəti açıq olanlardan başqa.İnsanlar onlara verilən vaxtdan səmərəli istifadə etməlidirlər,öz halları haqqında vəziyyətləri haqqında,durumları haqqında fikirəşməlidirlər,ki mən nə edirəm hardayam,ildən-ilə qocalıram,aləm gedir Allaha tərəf.İnsan bu dünyaya birimtahan kimi baxsa işləri düzələr,buranın dəyərini bilər,bura çox önəmlidir,bura keçid kimi baxsın,burdakı hallardan,burdakı neymətlərdən,fürsətlərdən istifadə etsin.İnsan keçid kimi baxmasa bu dünyaya nəticəsi çox pis olacaq.İnsanda hüzur olmalıdır rahatlıq olmalıdır ki,bəşər kimi formalaşsın,qəlblər narahat olmamalıdır.Allah bizlərə haqqı batildən ayıran ağıl qüvvəsi vermişdir.Ağlımız ən ütün bir yerdə dəyər tapmışdır,bu dəyərli olan ağlımız nə heyvanda nədəki təbiətin hər hansı bir yaranışında var.İnsanın fitrətində

Allah istəyi var,bu istək ağıl ilə müqayisə olunduğunda və dəyərləndirildikdə haqqı batildən ayıran bir tərbiələnmiş bir vücud yaranar.Bizə lazım olan görməyə göz,eşitməyə qulaq,nəfəs almaq üçün burun,yerimək üçün ayaq,və s.lazım olan hər bir şeyi əta etmişdir.Yatmağımız belə bizi Allahdan ayrı salmamalıdır. Bizə verilən bu dəyər ki var bizi ən üstün bir kəs etmiş,buna görədə Allaha həqiqi ibadət etməliyik.Əslən Allahın bizim ibadətlərimizə ehtiyacı yoxdur,o hər bir şeydən münəzzəhdir,əsil ibadət olunası odur.Ondan başqa ibadət olunası varlıq yoxdur.Ucadır və əzəmət sahibidir.

**GÜNAHİ ARAŞDİRMAQ**

Günah ərəb dulində “Zənb”,“isim” və məsiyyət sözləri ilə ifadə olunan günah xəta,itaətsizlik və üsyankarliq mənasini daşiyir.Həm ərəb dilində həm də başqa dillərdə günahin ümümi mənasi,qanundan boyun qaçirmaq deməkdir.Bu barədə Qurni kərimdən misal gətirmək olar; “Hər kəs Alaha Peyğmbərinə itaət edərsə,Allah onu (ağaclarin) altindan çaylar axan cənnətə əbədi olaraq daxil edər” buda Allaha və Peyğəmbərinə itaət etməyib günah edərsə Allahda onu cəhənnəm oduna daxil edər.Qurani kərim buyurur; “Onu rüsvay edici əzab gözləyir.”(1)Bu ayədəndə başa düşmək olurki,həm dünya qanunlarindan həm axirət qanunlarindan boyun qaçirmaqla günaha düşür.Günaha düşməklə insan bir çox xeyirli əməlləri unudub əzab-əziyyət içində yaşamaqi üstün tutur.Buda insani xeyir işlərdən uzaqlaşdirir.Oğurluq,qeybət,adam öldürmək bu kimi şeylər

insan həyatini puç edər.Qeybət,yalan,töhməy,iftira,qəzəb,həsəd,riya,tamah,təkəbbür,kin-küdurət bunlarin hər biri bir milləti məhv etməyə qadirdir.İmam Həsən (ə) buyurmuşdur; “Bütün günahlar bir evə yiğişsa o,evin açari yalan olar.”(2)Günah kiçik yalan olsa belə onu dilə gətirməməliyik və günahin unudmaliyiq.Bu səbəb yaradar ki biz Allaha tərəf gedərik.Günahi düşündükcə dünah insani izlər və bizi rahat buraxmaz.İnsanin günahi xatirlamasi onu günaha sövq edər.İmam Əli (ə) buyurur; “Hər kəs günah haqda fikirləşsə bu onu günaha tərəf çəkər.Hər bir insanin qarşisinda iki yol var;küfr və iman.Küfür şeytana ibadətdir və isani cəhənnəmə doğru çəkər.İman isə Allaha itaətdir insani behşitə aparar.insani imandan uzaqlaşdirib küfrə sürükləyən əsas amil şəhvət və qəzəbdir.Qəzəb və şəhvət sönən kimi insan əvvlki halina qayidir.”Rəvayətlərd buyurlurki “Mömin günah etdikdə,Allah bu günahi qeyd edən məlkləri yeddi saat yubatmaqla mömindən tövbə gözləyir.”[1]

İnsan özünə nəzarət etməlidir ki,baş verən günahlar,insan üçün təhlükə yaratmasın.Etdiyimiz günahlar,bizi bir daha sövq edir ki,həmən günahı bir daha edək.Çünki günahın ləzzəti nağd olduğu üçün bu ləzzətlərdən nəfsimiz keçə bilmir.Nəfsimizi kontrol etməknən,günaha meyilli olmağimızı söndürməliyik.Keçici ləzzətlər daimi ləzzətlərin yanında heçnədir.Nəzarətimizə keçirə biləcəyimiz bizdə olan şəhvani istəklərə ifrat həddində yaxinlaşmamaqdir.Hər bir istəyin orta həddi var biz nə ifrat həddini nə də ki təfrit həddinə düşməkdən,yalnız orta həddi tapmaqnan bu məsələnin həll

1 - Nisa, ayə 13

yolunu tapmalıyıq.Şəhvət daim insanda baş qaldiracaq bir istəkdir.Şəhvət hissi insanı cəhənnəmə apara biləcək sürətli yoldur ki,buna nəzarət olunmasa,insan heyvani bir varlığa çevrilər.İnsan öz nəfsini aclıqla və şeytanın yollarını bağlamaq istəsə nəfsi Allaha təslim olub üsyankarlıq və həddi aşmaqdan dayanacaq və nəticə etibarı ilə dünyada məhv olmayıb,onu axirətdən üstün tutmayacaq.Bütün günahların mənbəyi şəhvət qüvvəsdir.Şəhvət qüvvəsinin mənbəyi yemək və içməkdən ibarətdir.Yemək yeyən insan həddindən çox yeməklə özünü yükləyir gecəni yatıb qalır və beləcə ömrünü ziyan içində keçirir və qəlbi daşlaşır.Ona verilən nemətlər əldən çıxır.Cinsi ehtiras kontrol edilməsə və ağıl vasitəsi ilə etidal həddində saxlanılmasa insanin həlak olması üçün ən böyük amillərdən biri sayılar.Cinsi ehtiras ifrat və təftit həddini aşsa insan ziyana uğrayar.Cinsi ehtirasın ifrat həddində olması ləzzətlər içində saxlanılması öz iradəsini yox olmasına gətirib çixardar.İnsan Allaha doğru getməkdən məhrum olar.Belə olan halda insan pis və əxlaqsız hala düşər.Ağlımız bizim hakim yerimizdir və o qərarı verər nəticə yaranar,ağlımız şəhvətə xidmət etdikdə süst Allaha itaət etdiyində güclü olar.Qurani Kərim buyurur; “(ya Peyğəmbər) mömin kişilərə de kigüzlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə,haram şeylərə və haram səhnələrə baxmasınlar) örvətlərini (zinadan) qorusunlar.”(1)Dil insanın böyük neymətlərindən,dəyərli və yaxşi üzvlərdən sayılır.İnsanın bu kiçik üzvü balaca olmasına baxmayaraq,çox böyük xəta və üsyankarlıq məqamına sahibdir.Onu öz başına buraxan həlak və ziyankarlığa uğrayar.Buna görədə dilimizi kontrol altında tutmalıyıq .” Rəvyətə görə,bir gün Əmirəlmuminin İmam Əli (ə) küçədə

bihudə və mənasız sözlər dannışan bir kişini gördükdə dayanıb belə buyurdu “ ey kişi! Sən bu sözlərinlə səni qoruyan iki mələyə Rəbbinə çatdiracaqları bir məktubu yazdırırsan! Elə isə dərdinə dərdinə dəyən sözləri dilə gətir və sənə fayda verməyəcək sözləri danişma”!(2)İnsan boş-boşuna danişsa ömrünü bihudə verər.İnsan öz dilinə görədə qiyamətdə hesaba çəkiləcəkdir.İnsan dili vasitəsi ilə

söz gəzdirməsi onun həlakına səbəb olar.qurani kərim buyurur; “Çox eyib axtarana söz gəzdirənə xeyrə daim mane olana (zülm) etməkdə həddini aşana günaha batana;kin saxlayana,daş ürəkliyə,(kobud və eyni zamanda) əsli nəsəbi bilinməyən haramzadəyə (itaət etmə).”(1)Qəzəb insanı cəhənnəmə aparan bir yandırıcı yoldur.Qəzəb qəlbi qaraldır,ağlı öldürür.Qəzəbin səbəb və amilləri bunlardır;təkəbbürlük,zarafat,özünü bəyənmək,iztehza,zəlillik,eyib axtarmaq,hiylə etmək,bunların hamısı pis və xoşa gəlməzdir.Həmin amillərdən hər hansısı insan vücudunda olsa insanın şəfa tapması qeyri mümkündür.Buna görədə qəzəbi aradan aparmaq istəyən insan bunlara müxalif çıxmalıdır.Bu yolda zəhmət çəkmək lazımdır.Onları tanımaqnan insan belə bir xoşa gəlməz xüsusiyyətlərdən üz döndərir,onların çirkinliyinə qarşı nifrət edir.İnsan qəzəbləndikdən sonra bilməlidir ki,şeytan ona qalib gələcək və bu alovu söndürməsi insan üçün vacib olan bir amildir.Buna görədə insan qəzəbləndikə ayaq üstə olduqda oturmalı,əyləşən halda olduqda uzanmalı,həmiçinin soyuq su ilə dəstəmaz almalı və qüsl etməlidir.İslam Peyğəmbəri buyurub; “Sizlərdən biriniz qəzəbləndikdə dəstəmaz alıb qüsul etsin! Çünki həqiqətən də qəzəb oddandır.”(2)İnsan

qəzəbləndikdə intiqam ala bilmir,çarəsizlikdən bunu fikir halına salıb,ağlını məşğul edir və qəlbinə salıb kin yaranır.Başqasina qarşi nifrət hissi yaranır.Bir insana müəyyən bir nemət verildikdə,digər insan,o nemətə görə narahat olur.Bu nemətin aradan getməsini istəyəndə həsəd yaranır.Əksinə bunu etməməklə özünə həmən nemətdən arzulamaqla həsədi aradan aparmaq olar.Qurani kərim buyurur;“(Ey möminlər!) Kitab əhlindən bir çoxu təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi,iman gətirmiş olduğunuz halda,yenidən küfrə sövq etmək istərlər.”(3)Özünü bəyənməyin fəsad və ziyanlari həddindən artiq çoxdur.Özünü bəyənmək təkəbbürün amillərindən biri olduğu üçün insanı təkəbbürə tərəf sürükləyir.Təkəbürdəndə bir çox fəsadlar yaranır.İnsanın öz günahlarını unutmsaı və onlara heç bir etina etməməsi o,cümlədəndir.Çünki belə insan özünü gördüyü əməllərinin araşdırılmasından ehtiyacsız görür.”[1] Özünü bəyənməyin nadanlıqdan başqa heç bir səbəbi yoxdur.Özünü bəyənməyin müalicəsi onun ziddinə getməklə mümkün olur. İnsana vacibdir ki,öz həyatını ağıl ilə bu təhlükələrdən qorusun.Buna görədə insan,həyatını təhlükəyə atan xəstəliklərdən,həlak edici xətalardan uzaqlaşması daha vacibdir.Qurani Kərim buyurur; “Ey möminlər! Hamınız Allaha tövbə edin ki,nicat tapasınız![2] İnsani bu vəziyyətə gətirən isə təkrat-təkrar günah etməsidir.Günah haqda fikirləşmək qəlbi qaraldir,pakliği aradan aparir.Allah ilə insan arasindaki rabitəni yox edir.Bu hadisələr insanin namazinada təsir edir.Namaza ehtinassiz yanaşir.Günaha alüdə olan şəxs gündən-günə şeytana boyun

---

1 - Qələm, ayə 11-13

2 - Seyid Abdullah Şübbər, Əxlaq.səh 225.Müəllif;.

əyir.Qurani kərim buyuru; ”Şübhəsiz ki, şeytan sizin düşməninizdir,sizdə onu düşmən sayin.O öz tərafdarlarini od sakini olmağa çağirir.”(1)Onun daim pusquda olduğunu,sizi bir an belə rahat buraxmayacaqindan əmin olun.İnsan bundan qəfləttə qalmamalidir.İslam bir tərəfdən insanlari təqva pəhrizkarliqa dəvət edir,digər tərəfdəndə günahlarin qarşisini törədən amillərin qarşisini alir.Məsələn; İslam müsalman şəxsi günahkarla oturub durmaqdan,günah məclisində iştirak etməkdən,hətta günah haqqinda fikirləşməkdən də çəkindirir.İslam tarixinə nəzər salanda görürük ki doğrudanda bunlara əməl olunan vaxta qədər nadir hallarda insanlar günaha alüdə olur.Rəvayətlərdə günahkari danlamaq qadağan olmuşdur.Ola bilsinki, bunun səbəbi xəstəlik,günahkarin isə bir növ xəstə olmasindan ibarətdir.Xəstəni danlamaq düzgün olmadiği və onu danlamaq əvəzinə müalicə etmək lazim olduğu kimi,günahkarida danlamaq düzgün deyil.Müalicə metodlarindan istifadə edərək onu sağaltmaq lazimdir.İmam Səccad (ə) buyurmuşdur; “Həzrəti Xizir (ə) Musa Peyəğəmbərə dedi axirinci vəsiyyətində dedi; “Kimsəni günaha görə heç vaxt danlama.”(2)İnsan günahi taniyib onunla necə rəftar etməyi bacarmalidır.İmam Hüseyn (ə) Kərbəla hadisəsində günahkar insanlara qarşi vuruşmaqla bizlərədə bu mövzuda bir nişanə buraxmişdır.Döyüş başlamamişdan qabaq,Hürrün düşmən tərəfdən İmam Hüseyn (ə) tərəfə keçib günahini ehtiraf etməsi,Allahdan bağişlanmaq istəməsi,İmam Hüseyn (ə) kimi bir dəyəri anlamasi bu günahkar insanin tövbəsinin bağişlanmasindan danişir.Hürr azad bir insan oldu Allah tərəfindən bağişlandi və İmam Hüseyn (ə) tətəfindən qəbul edildi.İnsan Allaha dönərək bağişlanmasini istədikdə,ilk

öncə günahinin xəcalətini çəkərək üzr istər və bu şəkildə dua edər; kaşki mən günah edənlərdən olmayaydim,günahim məni səndən uzaq salib,məni dünya istəklərina bağli edib.Bu kimi dualar insani tərbiələndirir.İnsani özünü danlamasi,günahkar olduğunu başa düşməsi və bu günah ilə cəhənnəmə gedəcəyini bilə-bilə yenidən günah etməsi,qəlbin ölümündən danişir.İstəyi tövbə olsa Quran bu barədə buyurur; “Qəlblər Allahı zikir etməklə aramliq tapar.”(3)[1]Bu ayədən başa düşmək olurki Rəbbimiz bizə zikir kimi böyük bir yol açib.İnsan qarşilaşdiği zərərlərdən Allaha siğinmaqla nicat tapir.insan düşmən qarşisinda silaha sarilib hər zaman səfərbər olmalidir.O Allaha arxalanmaqla özünü müdafiə etməli,canina,malina,namusuna və hər şeydən əvvəl dininə xətər yetirməsinə imkan verməməlidir.Allahı dayaq bilməklə yanaşi,düşmən müqabilində iman silahina sarilmaq lazimdir.Qurani kərim buyurur; “Həqiqətən,iman gətirib yalniz öz rəbbinə təvəkkül edənlərin üzərində şeytanin heç bir hökümü yoxdur”(1).Şeytanin şərrindən amanda qalmaq üçün yaradana siğinmaqdan başqa çarə yoxdur.Allah Quranda şeytani bəşərin düşməni kimi tanitdirib,onun şərrindən uzaq olmaği,onunla müxalif olub düşmənçilik etməyi əmr edib.Qurani kərim buyurur; “Ey insanlar! Yer üzərindəki qidalarin təmiz,halal olanlarini yeyin,şeytanin izi ilə getməyin! Həqiqətən,o (Şeytan) sizinlə açiq-açiğina düşməndir.”(2)Həzrəti Yusif (ə) “Heyvani şəhvətlərdən nicat tapmiş və Allahın sevgisi ilə zinətlənmişdi.Qəlbi mütləq camalin (Allahın) eşqi ilə dolmuşdu.Bunun sayəsində də qəlbində kiçik və fani camallara

1 - Bax: Biharul ənvar- 73 cild, səh. 386

yer verməzdi.”(3)İnsanin kafir olmasinin və küfrə düşməsinin səbəbi Ggünahdir.İnsan günah vasitəsi ilə bəzən kafir olur.Günah insanin fikrini qarişdirir.İnsan Allaha inanir Peyğəmbərə inanir axirda günah üstünə günah edir nəticədə etiqadi zəifləyir və haqqin tərəftari olduğu halda günaha çevrilmiş bir insan olur.Allahin həqiqətlərini qəlbən qəbul edə bilmir.İnsanin imansizliğin kökündə bəzən günah dayanir.İnsanlar dindən çixirlar.Allahin ayələrini inkar edirlər,İmam Hüseyn (ə) ın qatillərida günahkarlar idi və onlarin etiqadlarida zəif idi.İnsan gərək günah etməsin harama düşməsin,buna görədə insan gərək gündə beş dəfə namaz qilsin və bunun sayəsində insan günah etməsin.Ayətullah Qazi,Məliki Təbrizi,Ayətullah Şahabadi onlarca alimlər elə bir məqama çatdilarki insanlarin batinini gördü elə ali məqamlara çatdilar.Bu alimlər günahdan uzaq durmaqnan bu məqama çatdilar.Dünyada nə ziyanlar var günahin ucbatındandır.Günahda insani zəlil edir qiymətsiz edir,dəyərsiz edir,Allahin yaninda hörmətddən salir,insanin ömrünü xaraba edir.İnsan özünü bu dünyada qiymətdən salir,sonunda qiyamətdədə tərəzisi yüngül olur qiymətsiz olur.İnsan gərək tövbə etsin birdə Əhli Beytin məhəbbəti ürəyində olsun.insan bir balaca diqətsizlik etsə qəlbi ölər.İnsanlar zalimlara məhəbbət bəsləməsi onlarin qəlblərini öldürər.Biz günah edirik və bu günah varliq aləminə təsir qoyur.Varliq aləmində nə görürüksə biri-birinə zəncirvari birləşib zəncirin bir başini tərpətsən o biri başina da təsir qoyacaq.Hər bir hadisə bizim taleyimizə təsir qoyur.Günah ediriksə bu ola

bilsin beş ildən sonra bu günah bizim talehimizə təsir qoysun.Başimiza nə hadisə gəlirsə əməllərimizin nəticəsidir.Əməllərimiz bizi qiyamət günü nə olacaqimiz göstərəcək.Gərək çalişaq ki əməllərimizi günah ilə zay etməyək.İnsan gərək yixildiqinda durmasinida bilsin,Qurandan yapişaraq durmaq bizi oyadar.Ayətullah Behçətin oğluna yazdiği məktub; "Bahar mehri kimi və xoş iyli güllər kimi salami sənə təqdim edirəm.Əziz oğlum! Ey,bahar ümidim! Ümid edirəm ki,külək kimi axtarişda və işıq kimi zülmətləri aralayan olasan.İstəyirəm ki,dəniz olasan,köpük deyil.Pənahi olmayan çaylarin və yağiş damcilarini öz sinəndə qərar verəsən.Öz lütfünlə hamini bəhrələndirəsən.Dəniz kimi ol ki,batinin zahirdən yaxşidir.Köpük kimi olma ki,zahiri bəzənmiş və batini xarabdir.Batininə riya pərdəsi çəkmişdir.Ona görədə aqibəti pisdir.Meh pərdəsini cirar,külək abrini aparar.İstəyirəm ki,dalğalardaki güllər kimi olasan.Uzaq yerlərə səpələnərlər ki,ətri ilə pərişan qəlbləri və qəmli canlari sevindirsinlər.Məbada şölə kimi öz ətrafina dolanasan.Görmürsənmi ki,şölə təkəbbürü özündən uzaği və yaxini yandirar,fəzani qaraldar."

Günahi necə dəf edək.

Günahi özümüzdən uzaqlaşdirmaq üçün ilk öncə ona əhəmiyyət verməmək,Məsələn; Küçə ilə gedərkən,içtimai yerdə oturarkən ,iş yerində,hər hansi bir yerdə olarkən,günah etməmək üçün,Allahi zikir etmək və Allahi yad etmək,boş vaxt tapan kimi,yaradışılığımız haqinda fikirləşməliyik.Biz niyə bu dünyaya gəlmişik,nə etməliyik,vəzifəmiz nədir,bu fikirlər günahi dəf edər və bizi uca Allahin neymətlərinə

çatdirar.Allah bizi ən gözəl şəkildə yaradib.Bizə göz,qulaq danişmaqa dil,bəxş edib.Bu səbəbdən dəyərli olduğumuzu anlamaliyiq.Rəbbimiz hər zaman günahlari bağişlayandir.Bizi günah edərkən görən odur.Bizi özümüzə qaytaranda odur.Allahin insanlarin qəlbində qoyduğu məhəbbət sonsuzdur.Bu məhəbbətlə Allaha sevgi bəsləsək,biz əsla günah barədə düşünmərik.Hər zaman Allah tövbə qapisini açiq qoymşdur.Bu tövbə qapisi bizə bir işiq kimidir.Özümüzü unudan kimi,qəlb evimizi tərk edən kimi,günaha batib məhv oluruq.Lakin külək ağaclarin yarpaqlarini tərpədib onlarin tozlarini tökdüyü kimi,məhz nəsim küləyidə bizim günahlarimizi tökməlidir.Allah bizə günah barədə Qurani kərimdə buyurmuşdur; "Bəli,günah qazanan və qazandiği günahlara əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar."(2)Alahi tez-tez yada salmaqla,istiğfar etməklə,məkruhdan uzaq durmaqla biz günahin tərk edə bilərik.

Xəta etmək insan üçün bir maneədir,nə qədər xətamiz olsa,aldiğimiz nəfəs belə bizi axirətə yaxinlaşdirar.Günahi tərk etməkdədə çətinlik yaşayariq.Allah insani imtahanla sinağa çəkir,çoxluğuynan,azliğiynan,ruzisi ilə imtahan edir.Biz buna şükür etməklə Allah itaət etməliyik.Günahkar bir bəndənin xəlvətdə Allah ilə razu niyaz etməsi,onun üçün qəlbinin aydinlanmasina gətirib çixardır.İlahi sənə güvənirəm,sənə doğru gəlməkdə mənə yardim et,bəlalari məndən kənar et,ey günahkarların rəbbi,bəlkə mənim sənə suzuzluqum yarana məni günah odundan azad et.Belə dualar bizlərə gözəl əhval ruhiyyə sevinc bəxş edər və rabitəmizi gücləndirər,sevgimizin artmasina səbəb olar.İnsan özünə bəla gəldiyində artiq bunun

nə şəkildə necə edəcəyini də bilir.Bizi bəlalardan qoruyan odur.Ona siğinsaq günah haqqinda heç bir şey fikirimizə gətirmərik.İnsan həyatda lazim olan asayişi qazanmaq üçün Allah dərgahina üz tutmasinin böyük rolu vardir.Bizə arxayinliq və mənəvi sükünət bağişlayan amil,yalniz Allahi yad etmək,əlaqə yaratmaq və dua etməkdir.Bu mənəvi əlaqənin kəsilməsi ilə bizim həyatimiz cəhənnəmə şevrilir.”Hər vaxt insan günah etsə qəlbinə,qəlbinə qara bir ləkə düşər.Əgər tövbə etsə həmin ləkə təmizlənər.Əgər günahi təkrar etsə qara ləkə yayilaraq bütün qəlbini örtər və insan daha xöşbəxtliyi görməz.”İmam Sadiq (ə) buyurmuşdur;”Həqiqətən insan günaha düşdükdən sonra,gecə namazindan məhrum olurş.”(1)Günahlarimizin çox olmasi,dualarimizin qəbul olmasina mane olur.Kumeyl duasinda deyilir; İlahi duanin qəbul olmasina mane olan,günahlarimi bağişla.”Həmin duanin başqa bir hissəsində buyurulur; “Öz izzətinə xatir səndən istəyirəmki,pis əməl və rəftarım,duamın sənin dərgahinda qəbuluna mane olmasin.”Dua səmimi qəlbnən olmalidir ki günahmizi anlaya bilək.Qurani Kərim bu haqda buyurur; “ Əli hər yerdən üzülüb darda qalan bir kimsə ona dua etdiyi zaman onun duasini qəbul edən,şəri sovuşduran,sizi yer üzünün varisləri edən kimdir.”(2)İnsanin tərbiyyəsi ağacin tərbiyyəsindən digər mühüm bir fərqi,özünü tərbiyyə qabiliyyətidir.İnsan ağacdan fərqli olaraq,özü üşün təkamül şəraiti yarada bilər.Tərbiyyəçinin köməyi olmadan öz zəhməti hesabina tərbiyyənin müəyyən mərhələlərini tək başina qət edə bilər.Müstəqil şəkildə elm öyrənmək,mümkün olduğu kimi,müstəqil şəkildə tərbiyələnməkdə mümkündür.Müəllim

və tərbiyyəçinin rolu inkar olunmazdir.İnsan oturub müəllim və tərbiyyəçi yolu gözləməməlidir.Bir çox mərhələləri tərbiyyəçisizdə qeyd etmək olar.İnsan yerə göyə baxib Allah haqqinda düşünə bilər.Allahin yaratdiqlari üzərində düşünüb təfəkkür edə bilər.İnsan qiyamət günü,sorğu suala çəkildiyi zaman,tərbiyyəçim yoxdu deyə üzür gətirə bilməz.Ən azindan günaha düşməmək üçün öz-özümüzü

tərbiyyələndirə bilərik.Ali mərhələlərdə bir müəllimə ehtiyac olur.Amma ibtidai mərhələdə tək başina hərəkət edə bilər.Ustad yoxdursa dayanmaqda olmaz.Əhli Beytinin marifi,əxlaq alimlərinin kitablari,müəllimi əvəz edə bilər.Qurani Kərimdə buyurulur; “Məgər özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi?(1)Onlara yer üzündə sizə vermədiyimiz imkanlar vermişdik.Göydən onlara bol yağiş göndərmiş və yerlərində çaylar axitmişdiq.Biz onlari günahlarina görə məhv etdik və onlardan sonra Başqa yeni bir nəsil yaratdiq.”Bu ayədən Allah bizə əvvəllərdə bizdən neçə-neçə nəsillər yaşayib onlar məhvə düçar olmasi barədə bizə bunlari xatırladır.Cənnəti qoyub cəhənnəmə niyə gedək,nəfsimizin üstünə ayaqimizi qoya bilsək,bax bu əsil dəyişik bir nəfs olar.Biz gəzdiklərimiz yerlərə səcdə edirik,ayaqlarimizin qoyulduqu yerlərə,alnimizi qoyuruq səcdə edib dua edirik.Nəfsimizi sındırıb ayağımızıda günahların üstünə qoyub dur demək lazimdir.İnsan Allah qarşisinda öz zəifliyini və möhtacliğini hiss etməlidir.İnsan yaradılış etibarı ilə zəif bir varliqdır.O,müxtəlif xəstəliklər,bəlalar,müsibətlər qarişisinda acizdir.Onu bunlardan qoruya biləcək,yeganə bir güc və qüdrət sahibi vardisa o da Allahdir.İnsan tövbə edib bağişlanmaq istədiyi zaman şeytan tövbəyə imkan

vermir.Şeytan deyər; Günah etmələri üçün bu qədər əziyyət çəkirik.Tövbə etdiklərində isə bunlar hədərə gedər.Günahdan uzaq durmayanlarin vücudunda şetan özünə yer edər.Şeytan iman gətirmiş kəslərin qəlbinə yol tapmaq üçün can atar.Onun Allahı yad etdiyini görüb qaçar.Günahi özündən dəf etmək üçün insan gərək ölümü yad etsin.Həftədə heç olmassa bir dəfə qəbristanlıqa gedib təfəkkür etsin.Qəbr əhli və orda olmaq ölümü xatirlamaq insan günahi fikirindən daşindirar.Ölüm,axirət və əbədi həyat aləminə qapidir.Ölümü tez-tez yada salmaq,günahları unutdurur.Ləzzətləri aradan aparani tez-tez xatirlayin.Həzrəti Muhəmməd (s.a.v.) ölümü yad etməyən şəxs dünyaya daha çox bağli olar.”Bu da günaha meyilli olmaği gətirib çixardir.”(2)İmam Sadiq (ə) buyurub; “Ölümü yad etmək nəfsi şəhvətləri öldürər,qəflətin köklərini qirar.Qəlbdə Allahın vədlərinə ümidi artirar,havayi-həvəsin nişanələrini aradan qaldirar,hərislik alovunu yatirar,dünyani adamin gözündə kiçildər.”(3)Kimsə ölümdən qurtula bilməyəcəkdir,hər bir insan bir gün ölümü dadacaqdır.Dirildəndə öldürəndə Allahdır.Biz diri ikən ölümü dadmaliyiq,günah yükündən azad olmalıyıq.Heç kim deyə bilməzki günah bizə xeyir gətirib.

Nə edək ki imanimiz güclənsin və küfürdən azad olsun? İnsan istək və iradə cəhətdən azad bir varliqdir.Xeyir yolunu o,özü seçməlidir.Hər bir əməl insanin iradəsi ilə həyata keçir.İnsanlarin istəklərinin dərəcələridə müxtəlifdir.İnsan birdən birə övliyalarin yolunu gedmək istəyir.Bu ilk baxişdan onun üçün asan görünə bilər.Hərçənd övliyalar da bu yolu keçib gəlmişdirlər.İstək əsas məsələ olduğu üçün bir yol

göstərənə ehtiyac olur.İnsan özünü tərbiyələndirmək istədikdə Allaha üz tutar.Müasir alimlərdən sayilan mərhum "Əllamə Təbatəbai o qədər həyali olmuşdur ki,gözünü ətrafindkılarının gözünə dikmədən belə çəkinmişdir."(1)Rəvayətlərdəndə belə görünür ki,axirət əhli həyali olur.Kimsəyə qarşi ədəbsizlik etmir.Axirət əhli daim özünü ədəbli aparar və xəcalətli olar.Dünya əhli isə bunlarin əksi olaraq ədəbsizlik edər və günaha yönələrlər.Bu böyük şəxsiyyətlərin bu İlahi dəyərlərə boyun əyməsi onlarin dünya və axirətinin təmin olunmasini göstərir.Biz ən çox şəxsiyyət pərəstliyə üsünlük verdiyimiz üçün,Allahin üstün dəyərləri yaddan çixir.Adət olunmuş günahlardan çəkinmək üçün,böyük səbrə və dözümə ehtiyac var.İlk öncə asan işdən başlamaq lazimdir.İnsan birdən-birə ağir çəkili daşi qaldira bilməz.Amma yüngül daşlari qaldirmaq nəyəsə nail olmaq olar.Bu işdə bir yol göstərənə ehtiyac var.İnsani əlindən tutub irəli aparsin.O,insan tədricən günahdan çəkinəcək.İnsan günaha şərait yaradan insanlardan uzaq durmalidır.Əgər harda günah varsa ordan uzaq durmaq lazimdir.Günah doğuran səhnələrdə, musiqilərdən,sözlərdən,baxişlardan çəkinən insan,günaha batma ehtimali çox azdir.Günahdan uzaq olmaq istəyən öz yeməklərinə,nəzarət etməlidir.Xüsusilədə insani bərk peşiman edən,ona ağır əzab verən,ən təsirli insan öldürmək kimi günahlardan qaçinmalidır.Necəki Habili öldürən Qabil onu dəfn etməkdə aciz qalir.Bu hekayədə buyurulur; "Beləliklə nəfsi onu qardaşini qətlə yetirməyə həvəsləndirdi və (bu işi ona) asan göstərdi.Beləliklə, onu öldürdü və ziyana uğrayanlardan oldu.İnsan çarəsiz qalanda,hansisa bir maddi çətinliyə düşəndə ona lazim olan mənəviyyatdır ki o,hüzur

tapib pis işlərə qoşulmasin.Naz insani tərbiyyə edər,zülmətdən aydinliğa çixardar.Bunun əksi olaraq qardaşini öldürəni aciz bir bir vəziyyətdə görürük.Qurani kərim buyurur; “Allah ona qardaşinin görünməməli olan cəsədini necə gizlətməsini göstərmək üçün (nəyisə basdirmaq üçün) yeri qazan bir qarğa göndərdi.O dedi vay olsun mənə! Məgər mən bu qarğa kimi olub qardaşimin cəsədini gizlətməkdən də aciz olmuşam! Beləliklə o peşiman olanlardan oldu”(2).İnsan əgər özünü tərbiyyə edə

bilməzsə,həyatda heç bir nailiyyət əldə edə bilməz.İnsan əgər nəfsinə qalib gələ bilmirsə,şübhəsiz ki,həvayi nəfsinin qurbani olur və axirətini əldən verir.İnsan özünü islah edə bilməsə,dinində sabit və möhkəm ola bilməz.Buna görədə insan özünü tanimalidir.Tanimaqin yolu,əxlaq və irfan kitablari mütaliə olunmalidir.İmanimizin kamil olmasi üçün elimimizi artirmaliyiq.Cəmiyyətə baxışlarımızı dəyişməliyik.Məsumlarin (ə) ardinca gedməliyik.Dağin böyüklüyünü bilmək üçün gərək dağa tərəf hərəkət edəsən.Günahdan çəkinməyin ən rahat yolu zəhərli və günah mühitinə düşməməkdir.İnsanin ruhuda cismi kimi xəstələnə bilər.Bizi yoldan saxlayan amillər; Tamah,şəxsiyyətpərəstlik,qənaət etməmək,sadə yaşamaği sevməmək bu kimi amillər bizim yolumuzu kəsir.Günah boy atmamiş onu çixardib kökündən atmaq lazimdir.Bataqliqa hücum edən milçəkləri bir-bir öldürmək çarə deyildir,çarə bu bataqliqi kökündən qurutmaqdir.Hər an zikir deməklə Allahi xatirlamali.Qeybətin,günahi var olduğu məclislərdən uzaq durmali.Yağiş yağarkən bütün yerdəki batan nə varsa

təmizlədiyi kimi,insanin həqiqi göz yaşlarida onun günahlarini yuyub aparar.Xalis göz yaşlari axidar".Əgər gecə vaxti səhərə yaxin,xəlvət bir yerdə qəlbin yandi və günahlarina görə göz yaşi axitdin,bil ki,bunun çox təsiri vardir!(1) Həqiqətən demək olar ki,bu ixlasa çox yaxindir.Əməl tərəzisində Allah qorxusundan axıdılan bir damla göz yaşından daha ağır bir şey yoxdur! Bir damla göz yaşının əsla maddi çəkisi yoxdur,ancaq xalis olan zaman,yalnız Allaha xatir olan zaman çox əsəri vardır.Çox işləri görə bilir.Dəryalarda atəşi söndürür."Ölümü fikirləşmək və ölümün olmasi insanı günah ardinca düşməkdən çəkindirir.Hər kəs üçün hər bir halda ölüm ehtimali vardir,istər sağlam olsun istər sağlam.Məsələn,nəfəs getdi və gəlmədi,harda olursan ol,kimliyindən asli olmayaraq,hər bir halda ölüm ehtimali vardir.Əksinə ölümü gözünün önünə gətirib de ki,bəlkə bu gün mənim axirinci günümdür.İnsan namaza qalxarkən belə axirinci namazi kimi qılmalıdır.İnsan fikirində tez-tez ölümü xatirlasa,günaha meyli bir o,qədərdə azalar.İnsan əgər ölümü yad etsə bəndə olar.Daha mənəm-mənəm deməz.Özünü müstəqil bilməz.Qüdrət Allahındir,mənim malim,mənim gücüm,deməz.Öz mallarini Allah yolunda xərcləyər.İsanin əlinə pul gələn kimi necə şad olur,amma o var əldən çixan zaman insan üzülür.Üzülməyimizin səbəbləri də,yarananin yaradana olan meyilsizliyidir.Zaman keçdikcə insan ömrü Allaha yaxinlaşir,ölüm insan üçün yaxin olur,günahdan kənərlaşmaq insani təqvalı edər.

İnsan və Günah bu ikisi arasindakı əlaqə

işlərdə həddən artiq mira edən şəxs kor İnsanlar günah etdikcə Allahdan uzaqlaşar,sonu xeyrli olmayan cəhənnəm odunda yanar.Allah bizə doğru yolu göstərib bu yol haqdir.Günahimiz çox olduqca,insanlıqdan çixar,heyvani hislərə yiyələnərik.Günahimiz bizə insan olmaqımızi unutdurar,səsimizin tonu,hərəkətlərimiz,davranişlarimiz,yemək yeməyimiz dəyişər.İnsan və günah bunlar biri-birinə olduqca yaxindir.Bu ölümə qədər gedən bir prosesdir.Ölüm gəldi,vaxt bitdi,günahkar cəhənnəmə günahsiz cənnətə gedər.İnsanın günahdan uzaq durmasi onu aliləşdirər,onu saflaşdirar.İnsan mira kimi günaha sürüklənərsə,öz səhvini belə qəbul etməz.Çünki nə etdiyini qəbul etmir.Belə ki,başqalarinda səhfi axtarmaqnan öz səhvini görmür.İmam Əli (ə) buyurur; “Batil olar,haqqi görməz.”(1)Günah olmasaydi insanlarin hamisi eyni cür olardi,zövqlər eyni olardi,Allaha tərəf getməkdə bir istəkdə olmazdi.Allah nə yaradibsa ən gözəlin və xeyirli olanini yaradib.Varliq aləminə badiqda belə görürük ki,bir saniyyə içində nələr baş verir,təbiətin coşmasi,dənizli dalğalarin tufan qoparmasi,ildirimin səsində ki o,qorxuducu,vahiməli səslər bizlərin ehtiyyac sahibi olduğumuz bir daha aydin olur.Allah bir an nəfəsimizi kəssə hər şey bitər.Yerdə və göydə olan hər bir şey onundur,onun bizə ehtiyaci yoxdur,əksinə bizim Allaha ehtiyacimiz olmalidir ki  gedib haqqa çataq.İnsanin günaha meyilli olmasi onun yaradılışının qayəsidir və bu belədə olub,günahdan çəkinməklə insani dəyərlərə malik oluruq,insanliqdan çəkinməklə heyvani istəklərə boyun əymiş oluruq.Dünya əslində bir oyundu bizə bu tamaşanin bir aktiyoru,Allah bizi buraxib ki görsün hələ bəndə necə özünü

aparacaq.Zövqnənmi yaşamali,təqva libasını geyinib yaşamali bu seçimi Allah insani azad buraxmaqnan imtahan edir.İnsan asanan görünən bir işi özü-özünə cətinləşdirir.Xeyirimizi güdüb istəyimizin ardinca gedirik fəsada düçar olmaq da məsh bunnan yaranir.Fəsada düşən insanin bir dəyəri yoxdur,onu dəyərli edən onun namazi,orucu,saleh əməlləridir.Günahimizin saflaşdirilmasi üçün bir an olsun belə gecikməməliyik aninda həll yolunu tapib Rəbbimizə dönməliyik.Əyləncələr dünya ləzzətləri,kef məclisləri,bunlar hamissi dünya üçündür.Möminin ləzzəti onun duasidir,uzun səcdələridir,bizə uzaq görünən əslində çox yaxindadir.İnsan günah edə bilər,amma Allahdan ayri düşsə məhv olar.Hər gün bir insanliğdan çixar və Allahdan ayrilar.İnsanlar dünyanin aldadici keçici olan gözəlliyinə aldanirlar,ona urək bağlayirlar.Lakin onlar bilmirlər ki,hər bir şeyin yaxşisi Allah dərgahindadir.İnsanlar maddi neymətləri əsas götürürlər.Lakin onlardan da daha yaxşisini Allah hüzurunda olmasindan xəbərsizdir.Allah insanlara bildirir ki,cənnətdə böyük neymətlər var,çaylar axan bağlar vardir və onlar həmin neymətlərdən yararlanacaqdır.O,nəfsi ilə mübarizə aparmali və öz həyatini puç etməməlidir.Əgər insan həyatini dünya ləzzətləri içində keçirdsə,onun ağli və düşüncəsi günaha qərq olub axirəti ziyan içində olar.Quani Kərim buyurur; “Etdikləri əməllərin mükafati olaraq möminlər üçün göz oxşayan nə cür neymətlər gizlənib saxladiğini heç kəs bilməz.”(1)Burda insan və günah anlayişi arasinda qaldiqda ən yaxşisini seçməlidir.Çünki insan dünya və axirət xoşbəxtliyini asan əldə etmir.Hal bu ki həyat zəhmətsiz əldə edilmir.İmam Əli (ə) buyurur; “oğlu İmam Həsən (ə)-a vəsiyyətində buyurmuşdur;

dünya əhlinin seçdiyi və ürək bağladiği şeylərə əsla aldanma.!(2) Həqiqətən dünya əhli hürən itlərə və qan içən yirticilara bənzəyir ki,bir-birinin üstünə hürür,güclü gücsüzü yeyir,böyük kiçiyi xar və zəlil edir.”İnsanın əgər qəlbi ölsə onun qəlbini şövqə gəlməsi üçün lazim olan namazdır,duadır,zəlillikdən çıxar və dəyərli edən bir varliq olar.İnsan öz qəlbinin qapisini açmalidir ki,elimin nuru ona yol açsin.Qəlbinin qarşısında əgər bir səs varsa o,səddi sindirmalidir.İnsan özündən razi olmamalidir.Nəyi varsa Allahdandır.Öz nəfsindən Allaha şikayət etməlidir.Allahim nəfsim məni həlak etdi,şeytan və nəfsim məni rahat buraxmir.Əgər insan həqiqətən” iyyakə nəstəin”desə Allahdan kömək istəsə Allah hökmən ona kömək edər.Rəvayət olunur ki”(3) Bir şəxs səhər evdən çixmaq istəyəndə şeytanlar onun dövrəsini alib gözləyirlər,evdən çixib deyəndə ki,Allaha iman gətirmişəm və Allaha təvəkkül edirəm.”Bu zaman şeytanlar qaçib gedirlər.İnsan bilməlidir ki qarşisina çixan hər bir müşkül və günah onu Allahdan ayri salmamalidir.İnsan öz məqsədinə çatana qədər qarşisina çox maneələr çixir,bu maneələri dəf etməklə məsh öz istəyinə çata bilər.Bütün varliqlar Allahi təsbih edir.Qalaktikada nə varsa onu zikr edir.Qurani Kərim buyurur; “Göylərdə və yerdə nə varsa,(hamisi) Allahi təsdiq edib şəninə təriflər deməkdədir.”(4) Onun təkamülü üçün hər bir şərait yaradilmişdir.Şeytanin hiyləsinə uymayan insan həm dümya həm də axirət hədəfinə nail ola bilər.Hər bir insanin içində əbədiyyət sevgisi vardir.İnsanin bu yaşamaq hissi fitrətən gəlir.Əbədiyyətə olan meyl insanın özünü istəməsindən irəli gəlir.Hər bir şəxs özünü sevdiyindən təbii ki,həyatda əbədi

qalmasinida arzulayir.İnsanın özünü sevməsi o deمək deyil ki,o hazirki anda özünü sevir,lakin gələcəyinə biganə yanaşir.Əksinə,insan hər vaxt özünü sevir,elə bu səbəbdən də yaşamasini arzulayir.

## Nəticə

Allah insanı məxluq kimi dəyərli bir varlıq olaraq yaratdı.Yaradılmış məxluqatların arasında insan ən mükəmməlidir.Mükəmməl sözü ən üstün olan bir dəyərdir ki Allah da bu dəyərli vücudumuzda bizə yol getmək üçün lazım olan hər bir şeyi qoymuşdur.Günahımızın olması bizə bu yolda dəyər tapmaqımızı necə və hansı şəkildə doğru yol üzərində olmağımızı Allahı düşünərək və ibadət və itaət əməllərimizi saflaşdırmaq doğru istiqamət tapmalıyıq.Rəhman və Rəhim olan Allah bizlərə bu yolda dəyərli olduğumuzu göstərmişdir.Günahkar və mömin insanlar hər hansı olursa olsun,Allah üçün hər ikisidə dəyərlidir,günahkarın tövbəsi,möminin xeyir əməli bunlar doğru yola aparır.İnsanın günah etməsi Allah bunu insanın üsyankarlıq etməsi kimi görür.Bunun əvəzində Allah günahkarlara qiyamət günü əzabı dadıracaq.Hər bir şeyin sonu olduğu kimi insan ömrünün də bir sonu vardır,sonumuzu özümüz xeyirli və ya xeyirsiz etməklə aydınlaşdırırıq.İnsanlığın ən şərəflisi haqqa boyun əyəndir,haqqı bilməkdir,haqqa ibadətdir,haqqı sevməkdir.İlk öncə Allah insandan razı olmalıdır.Allaha qul olduğumuz üçün ibadət edərik.İnsanlar görmürlər ki onlardan əvvəlkilər,ataları,babaları,əjdadddarı hara getdilər,bu dünyadan hər gün insanlar gedir.Heç bir əşyamızı ora

götürməyəcəyik,bir şey götürəcəyik o da etdiyimiz əməllərimizi.Qəlbimizi hazırlayan Allahdır,ona görə Allahı sevməliyik.Çünki Allah bizim fitrətimizdə onu sevməyimizi qoyub.İnsanın fitrətində vardır sevmək.Bizə hər zaman nemətlər ehsan edən Allahdır.Bizlər hər saniyyə onun neymətlərindən faydalanırıq.Allahın sevməyimizin nədəni budur.İnsan Allahı sevməlidir çünki yer üzündəki dağları,göyləri,dənizləri yaradan odur.İnsan bunları biran düşünüb qəbul etməlidir.Allahın sevgisi üçün nə edə bilərik,Allahın sevgisini qazanmqa üçün nə etməli,qəlimizdə günahlar var Allah üçün bunlardan keçməliyik.Əgər Allahı sevirsənsə dua edib bağışlan və qəlbinin başqa şeylərnən qaralmasına izin vermə.Onun rızasını qazanmaq üçün biz fədakarlıq etməliyik.Allah tövbə edəni sevir,əmin olmalıyıq ki fədakar olsaq dəyərimiz artar.O zaman Allahdan daha comərd kimsənin olmadığını görərsən.Allah Qurani kərimdə belə buyurur; "Möminlərin Allaha olan sevgisi daha güclü bir sevgidir"(1).

## İstifadə olunan ədəbiyyat

1.İslamda əqidə əsasları.Müəllif;" Ustad Cəfər Sübhani".Bakı, "Mirasnəşr",2012.

2.Əxlaq.Müəllif; “Seyid Abdullah Şübbər”.Nurlar,bakı 2014.

3.Qurani Kərim.Şərhləri tərcümə edən “Ayətullah Mirzə Əli Meşkini Ərdəbili”.çap 2009.

4.Allaha sığınmaq.Müəllif; “Ayətullah Şəhid Əbdülhüseyn Dəstğeyb”Bakı 2013.

5.İlahi rizaya aparan İbadətlər.Müəllif; “Nazim Əkbərov”.Bakı,xəzər Nəşriyyatı 2013.

6.Allaha doğru.Müəllif; “Ayətullah Mishab Yəzdi”.Çap tarixi-2011.

7.Günahın Acısı.Müəllif; “ Seyid haşim Rəsuli Məhəllati”.çap tarixi-2007.

8.Quranda Əxlaq.Müəllif; “Mishab Yəzdi”.Bakı 2011.

9.Müfəzzəlin Tövhidi.Müəllif; “İmam Cəfər Sadiqin (ə),sahabəsi Müfəzzələ Dünyanın qəribəlikləri barədə buyurduqları”.Çap tarixi-2013.

10.Ruhun tərbiyyəsi.Müəllif; “Ayətullahul-üzma seyid Kamal Heydəri”.Bakı 2013.

11.İlahi Əxlaq.Müəllif; “Ayətullah Müctəba Tehrani”.Çap tarixi-2013.

12.Feyz yağışı.Tərcümə edən “Elşən Eldar oğlu Mahmudov”.Bakı 2014.

13.Kəlamlardan Məqamlar.Müəllif; “Ustad Abdullah Fatimi Niya”.Bakı 2015.

14.Xəsaisul-Hüseyniyə.Müəllif; “Ayətullah Cəfər Şüştəri”.Bakı 2014.

15.Xütbə.”Hacı şahin”.Günahkar bəndə.Link; https//youtu.be/3wDULqP8dQ.

## Svilizasiyalararası toqquşmalarda müsəlmanların əsas işi

Saleh Kamilzadə[1]

**Abstrakt**

Bu məqalə düşmənin mədəni istilası və müsəlmanların bununla necə mübarizə apardıqları barədə hərtərəfli və aydın təsəvvür yaratmağa çalışır. Mədəni təcavüzün beş ölçüsünü - mahiyyətini, məqsədlərini, prinsiplərini, üsullarını və alətlərini - tədqiq və sadalamaqla biz strateji düşüncə baxımından düşmənin mədəni təcavüzə strateji yanaşması olduğunu görürük. Digər tərəfdən, mədəni aqressiya ilə effektiv qarşıdurmanın ölçüləri nəzərə alınmaqla, mədəni aqressiyaya qarşı mübarizə sahəsində strateji düşüncənin zəruriliyi izah edilir. Hazırkı araşdırmada mədəni istilanın strateji yanaşması baxımından mədəni işğalın aydın və hərtərəfli mənzərəsini çəkmək və müvafiq olaraq onunla effektiv mübarizə aparmaq yollarını izah etmək üçün hərtərəfli öyrənilmiş və təhlil edilmişdir. Bu araşdırmanın əsası ondan ibarətdir ki, mədəniyyət sahəsində yeni mövzuların tərtibi keçmişin mühüm və strateji məsələlərinin, o cümlədən düşmənin mədəni işğalının diqqətdən kənarda qalmasına gətirib çıxarmamalı və əvvəlki mövzuların nailiyyətlərindən asılı olmayaraq əvvəldən başlamalıdır. Lakin mədəniyyətin idarə edilməsi sahəsində yeni ideyalara əsaslanmalıdır.

**Açar kəlmələr:** Svilizasiya, toqquşma, müsəlman, vəzifə

1 - İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## Giriş

Biz XXI əsrin insanlarıyıq. Qloballaşaraq rabitə kommunikasiyaları, internet, peyk antenaları, sosial şəbəkələr sayəsəində "kiçilən" dünyanın sakinləriyik. Uşaqlıq dövrümüz sovet illərinin informasiya blokadası şəraitində keçsə də, sovet rejiminin süqutundan dərhal sonra informasiya seli tüğyan edib blokada sərhədlərini yıxdı. Biz gözümüzü açıb nə olduğunu anlayana qədər anidən hücuma keçmiş bu selin nəhəng dalğaları bizi "olduğumuz yerdən" çox-çox "uzaqlara" apardı. Özümüzə gəlib bu selin içində tutunmağa bir yer tapıb ətrafa boylananda isə nə "oldumuz yer" var idi, nə də ki, "aparıldığımız yer" görünürdü. Sanki bu tüğyankar sel, aşıb-daşan çay bizi ucu-bucağı bilinməyən dəryaya çatdırmış, bizi bu dəryanın ortasında sərgərdan qoyub, heç nə olmamış kimi bizi tərk edib getmişdi. Bu dərya sivilizasiyaların toqquşduğu amansız dəryadır; eynilə şahə qalxıb qarşısına çıxanı məhv edən sunami dalğaları kimi. İndi gəl bu dəryanın ortasında çatmalı olduğun sahili tap və nicat tap.

Bu informasiya və təbliğat dəryası çoxlarını məhv etdi və etməkdədir; yalnız, əziz İslam Peyğəmbərinin (s) bizlər arasında qoyduğu iki əmanət – Quran və Əhli-Beyt (ə) dəyərləri, mənəvi səciyyələri və əxlaqi keyfiyyətləti əsasında yaşayan insanlar, dəyər tapdı və tapmaqdadır.

Daha öncə də qeyd etdiyim kimi, məsum rəhbərlərimiz olan Böyük İslam Peyğəmbəri (s) və o Həzrətin pak Əhli-Beytinin (ə) bizə verdiyi xəbərlərə əsasən Zühur Əsrində yaşayırıq. Görünən budur ki, Allah Təala Özünün yer üzündəki son höccətinin zühuru üçün şərait hazırlamağı biz xoşbəxt nəslin öhdəsinə qoymuşdur. Bizlər bu zəmini hazırlamaq üçün əvvəla yaşadığımız zamanı və mühiti tanımalı, sonra isə vəzifələrimizi bilməliyik; ilk olara özümüzü, sonra isə yaşadığımız cəmiyyəti

islah etməyə çalışmalıyıq. Bunun üçün isə müəyyən məsələlərə agah olmağımız vacibdir.
Yaşadığımız dünyanı, onun bu günkü vəziyyətini tanımadan, dünyada baş verən ixtilaflardan xəbərdar olmadan, haqqı batildən ayıra bilmədən, qarışıqlıqlar arasından haqq yolu seçə bilmədən bəsirət sahibi olmağımız və vəzifələrimizi qüsursuz şəkildə yerinə yetirməyimiz qeyri-mümkündür. Bu baxımdan da araşdırdığım mövzunun həm özüm, həm də başqaları üçün yararlı ola biləcəyini düşünürəm.
Mənim bildiyim qədər bu mövzu ətrafında, kiçik həcmli məqalələr xaric,  doğma Azərbaycan dilimizdə elə də geniş həcmli təhqiqat işi yazılmamışdır. Hər halda araşdıırmalar zamanı mənim qarşıma başqa bir elmi iş çıxmadı. Bu baxımdan da ağır bir məsuliyyətin altına girdiyimi anlayıram.
Bu yazıda əsasən elektron materiallardan və ünvanlardan istifadə etdim. Çünki Azərbaycan dilində mənim seçdiyim mövzu üçün müraciət edə biləcəyim kitablar bir o qədər də çox deyil. Olanlar da əsasən tərcümə edilmiş kitablardır. Əlbəttə türk və fars dilində olan kitablardan da istifadə etmişəm. Lakin bu kitabların da əlimdə olmaması, yenə də mənim elektron kitabxanalara müraciət etməyimə səbəb oldu. Ümumiyyətlə, demək olar ki, istənilən kitabın elektron variantını bir neçə saniyədə əldə edə bilmək Mütəal Allahın son əsrdə bizlərə etdiyi böyük lütflərdəndir.
Mənim seçdiyim mövzu demək olar ki, bilavasitə günümüzə aiddir.  Hər gün dünyamızda baş verən hadisələri izləməm bu işin yazılmasında çox mühüm rol oynadı. Məlum məsələdir ki, bu barədə kitabların yazılmasını gözləyə bilməzdim və baş verənləri mütəmadi olaraq araşdırıb, onlar haqqında da öz fikirlərimi bu işdə qeyd etməli idim.

Hazırda dünyada baş verən hadisələrin xəbərləri bir neçə dəqiqə sonra kütləvi informasiya vasitələri ilə bütün dünyaya yayılır. Düşünürəm ki, bu da mənim işimi bir qədər asanlaşdıran faktor oldu. Çünki insan bu hadisələri izlədikcə agahlığı daha da artır. Bu yazını yaza bilmək üçün isə dünyada baş verən hadisələrdən xəbərdar olmağın çox mühüm rolu var.

## MƏDƏNİ HÖKMRANLIĞA CƏHD VƏ ONUN YOLLARI

### Mədəni hücum nədir?

Mədəni hücum, siyasi, yaxud iqtisadi bir qrupun öz maraqlarından irəli gələrək başqa bir dəstə və ya cəmiyyətin inanclarına, dəyərlərinə, etiqadlarına, əxlaqlarına hücum etməsi və həmlə etmək üçün planlaşdırılmış, mütəşəkkil səyidir. Mədəni hücum, hədəf qərar verilən tərəfin dünyagörüşünü, baxış tərzini, meyllərini dəyişməyə yönəlmiş münəzzəm, çoxtərəfli və əhatəli proqramlar silsiləsidir. Mədəni hücum, bir millətin mədəni və milli mənsubiyyətinin inkarıdır. Mədəni hücum qarşısında təslim olmaq isə yadların mədəni-fikri hakimiyyətini qəbul etmək, öz inanc və rəftarını hücum edənə aid olan dəyərlərlə dəyişməkdir.

### Mədəni hökmranlıq

Mədəni hökmranlıq, mədəni ünsür və fenomenlərin birtərəfli şəkildə dəyişməsidir. Belə ki, hökmranlıq etmək istəyən, inancların qüdrətinə söykənərək öz dəyər və rəftarlarını digər millətlərə hakim etməyə çalışır.

### "Mədəniyyət" və "sivilizasiya" kəlmələrinin anlamı

İnsan mədəni bir varlıqdır. Mütəfəkkirlərin fikrincə, insanı digər canlılardan fərqləndirən cəhət, elə onun mədəni varlıq və

düşüncə sahibi olmasıdır. İbn Xəldun deyir: "Mədəniyyət müstəqil cövhər deyil, bəlkə başqa bir cövhərin xüsusiyyətidir ki, həmin cövhər insandır"[1].

Gəlin əvvəlcə "Sivilizasiyalar toqquşması"nın nə olduğunu anlamağa çalışaq. Bunun üçün öncə "mədəniyyət " və "sivilizasiya" kəlmələrinin hansı mənanı daşıdığına nəzər salmalıyıq.

Bəşərin tarix boyu əldə etdiyi maddi və mənəvi nailiyyətlərin hamısı "mədəniyyət" kəlməsi altında toplanır. Mütəfəkkirlər bu sahə ilə bağlı təqribən iki yüz əlli müxtəif və fərqli anlayış müəyyən etmişlər ki, bunlara elm, incəsənət, ədəbiyyat, memarlıq, inanclar, inamlar, əxlaqlar, adətlər, qayda-qanunlar, texnologiyalar, bir sözlə, kəsb edilərək nəsildən nəslə ötürülə bilən bütün qabiliyyətlər daxildir.[2]

Mədəniyyətlə bağlı terminlər müzakirə edilərkən qarşımıza iki termin çıxır: **"mədəniyyət"** və **"sivilizasiya"**. "Mədəniyyət" kəlməsi ərəb dilindəki مدينةkəlməsindən götürülmüşdür və "şəhərləşmək", "şəhər həyatını mənimsəmək" mənasını daşıyır. "Sivilizasiya" kəlməsi isə latın dilində "ci-vitas" kəlməsindən yaranan – ingiliscə "city", "civic" (şəhərə aid), "civit" (kübar) sözləri ilə eyni mənaları daşımaqdadır.[3]

Bəs həmin kəlmələri bir-birindən fərqləndirən nədir? Bu barədə mütəfəkkirlərin iki müxtəlif görüşü var. Bəziləri sivilizasiya və mədəniyyətin eyni anlama gəldiyini qeyd etdiyi halda, başqa bir dəstə bu iki kəlmənin hər birinin özünəməxsus mənası olduğu qənaətindədirlər. İkinci görüşə qısaca nəzər salaq:

---

1 http://www.hawzah.net/fa/Magazine/View/5211/7149/87155 ( محمدعلی یوسفی زاده،مجله حوزه و دانشگاه، انسان موجودی فرهنگی، سال سوم، شماره ۹)

2 http://www.hawzah.net/fa/Magazine/View/5211/7149/87155/

3 http://alarbaeen.ir/Read/Literature/21198, Səadət Məhəmmədova, "Din və mədəniyyət"

**1. Mədəniyyət**. Mədəniyyət və sivilizasiyanın fərqli mənalar daşıdığını hesab edən mütəfəkkirlərin görüşünə əsasən, mədəniyyət bir millətin, bir ümmətin maddi təzahürlərinə deyilir. Məsələn: şəhərsalma, memarlıq, rəssamlıq, xəttatlıq və s. kimi.
**2. Sivilizasiya**. Qeyd edilən mütəfəkkirlərin sivilizasiya kəlməsi haqqındakı nəzəri isə belədir ki, elm, maarif, ənənələr, dəyərlər, inanclar, inamlar, qısası, mənəvi olan bütün mədəni məfhumlar sivilizasiya kəlməsi ilə ifadə olunur.[1]

Beləliklə aydın olur ki, mədəniyyətin iki növü var: maddi mədəniyyət və mənəvi mədəniyyət. Adətən maddi mədəniyyət mənəvi mədəniyyətin təsiri altında formalaşır. Çünki maddi mədəniyyətin formalaşmasında dünya görüşünün, inancların, adətlərin böyük rolu var. Lakin bu o demək deyildir ki, mədəniyyətin bu iki növü mütləq paralel inkişaf etməlidir. Dünya ölkələrinin bir çoxuna nəzər salsaq, görərik ki, bu ölkələrdə maddi mədəniyyətin ən yüksək səviyyədə inkişaf etməsinə baxmayaraq, mənəvi mədəniyyət tənəzzül edib və ya tamamilə süquta uğrayıb. Başqa qisim ölkələrdə isə bunun əksi görünür. Buna istər tarixdən, istərsə də günümüzdən misallar gətirə bilərik. Mütəal Allah Qurani-Kərimdə bizə Ad və Səmud qövmündən xəbər verir. Bu qeybi xəbərlər sayəsində onların həyat tərzi ilə tanış olduqda görürük ki, onlar ən üstün maddi mədəniyyətlərə malik qövmlər olmuşlar. Lakin mənəvi olaraq süqut etdiklərindən onlara ilahi bəlalar nazil olmuşdur.

## Mədəniyyətin nə kimi xüsusiyyətləri var?

Mədəniyyətin özünəməxsus bəzi xüsusiyyətləri vardır ki, aşağıdakı kimi şərh edilə bilər:

---

1 əl-Mustafa universiteti, Ustad Muhəmməd Baqir Saivərin "İslam mədəniyyəti" dərsləri, birinci dərsin səs yazması.

1. **Öyrənilə bilən və kəsb edilə biləndir**: Yəni fitri deyildir. Hər bir nəsil, mədəniyyəti özündən əvvəlki nəsildən miras alıb, özündən sonrakı nəslə miras qoya bilir.
2. **Diridir:** Mədəniyyətin təsirli olması onun diri olmasına bağlıdır. Mədəniyyətdəki durğunluq onun "ölüm"ünə bərabərdir.
3. **Mahiyyət bəxş edəndir:** Yəni ictimai rabitələri tənzimləyir və yeni baxışın yaranmasına zəmin hazırlayır.
4. **Nisbidir:** Yəni növbənövdür. Mədəniyyət hər ümmətin, millətin, ölkənin, hətta insanlar arasındakı təbəqələrin belə hər birinin özünə görə dəyişir. Bu dəstələrin hər biri özünə görə təfəkkür tərzi, adət-ənənə və xüsusiyyətə sahibdir.
5. **Ötürülə biləndir:** Hər cəmiyyət öz mədəniyyətini başqa bir cəmiyyətə ötürə bilir.[1]

**Qərb və Şərq mədəniyyəti**

Bu gün dünya ölkələrinin mədəniyyətini ümumi şəkildə iki qismə bölürlər: Qərb və Şərq mədəniyyəti. Qərb və Şərq, coğrafi baxımdan əlavə, siyasət, hikmət, irfan kimi sahələrdə də qarşı-qarşıya dayanır. Qərb mədəniyyəti deyildikdə, miladdan sonrakı Yunan və renesansdan sonrakı Avropa dünya görüşü nəzərdə tutulur.[2]

**Qərb və Şərq mədəniyyətinin prinsip və xüsusiyyətləri**

**Qərb mədəniyyətinin bəzi xüsusiyyətləri:**

1. Güc və qüdrətin əsas götürülməsi;
2. Maddiyyatın əsas götürülməsi; ;
3. Düşüncə və əməldə nizam;
4. Rasionallıq;

---

1 http://www.hawzah.net/fa/Magazine/View/5211/7149/87155/
2 Həmid Cavidani Şahedin, "Hövzə və universitet" jurnalı, "Mədəni işğalın hüdudlarının tanınması üçün müqəddimə" (درآمدی بر شناخت ابعاد تهاجم فرهنگی), 35-ci say

5. Humanizm.

**Şərq mədəniyyətinin bəzi xüsusiyyətləri:**
1. Tövhid mərkəzlilik;
2. Ruhun əsas götürülməsi;
**3. Millətçilik, yerlibazlıq, qəbiləpərəstlik.** [1]

## Sivilizasiyaların toqquşması nədir və mədəniyyətlərarası müharibənin tarixi

İlk insanın – Adəm (ə) və onun həyat yoldaşının, yarandıqları gündən, onları və onların nəslindən gələn Adəm övladını hər vasitə ilə olur-olsun doğru yoldan çıxarmağa and içmiş Şeytan kimi xəbis düşməni var. Allah Təala onlara – ***"Bir-birinizə düşmən olaraq yerə enin" dedik"***[2] – deyə buyurur. Bu Quran ayəsinə əsasən, insanla Şeytan arasındakı haqq-batil müharibəsi elə insanın yarandığı ilk gündən başalyıb.

Şeytan və onun insanlardan olan züriyyəsi, düşmən olaraq heç zaman qəflətdə olmayıb, bir an da olsun öz vəzifəsini yerinə yetirməkdən yorulub usanmayıb. O, əsrlərlə topladığı təcrübələr sayəsində öz düşməninə haradan və necə zərbə vurmağın yollarını yaxşı bildiyi üçün, hər dövrün özünəməxsus fitnə planlarını da işləyib hazırlayıb. Bu açıq-aşkar düşmən, öz hədələrinə yetişmək üçün bəzən silahlı, bəzən və əksərən isə soyuq müharibə planlarını həyata keçirib.

Tarixə baxsaq görərik ki, mədəniyyətlər arası müharibələr daim olmuşdur. İstər İsa Məsihin ilahi təliminin şirk ayininə

---

1 Pəriçöhr İbrahimi, "Təəmmoli bər fərhəng, təfavote fərhəng şərq və ğərb" ("Mədəniyyət haqqında bir düşüncə, Şərq və Qərb mədəniyyətinin fərqi") پریچهر ابراهیمی،تأملی بر فرهنگ، تفاوت فرهنگ شرق و غرب

2 Bəqərə 36

çevrilməsinə nəzər salaq, istər Abbasi gövründə Yunan fəlsəfəsinin Müsəlman aləminə, onların əqidələrinə qoyduğu təsirə baxaq, istərsə də Müsəlmanlar tərəfindən fəth olunmuş İspaniyanın 800 ildən sonra, yumşaq müharibə sayəsində yenidən xristianlaşmasına; bunların hamısının mədəniyyətlər müharibəsi sayəsində baş verdiyini anlayarıq. Lakin o zaman "mədəniyyətlərarası müharibə" termini bir termin olaraq meydana gəlməmişdi.

Günümüzdə insanların agahlığı, fikri olaraq inkişafı, millətlərin Şeytanın əli olan imperializm tərəfindən hərbi yolla əsarət altına almasının – müəyyən qədər də olsa – qarşısını alır. Bu üzdən də istismarçı qüvvələrin idarə etdiyi dövlətlər, ikinci növ hesab etdikləri millətləri öz əsarətləri altına almağın "yumuşaq yollar"ını tapmışdır; bəli, minlərlə "silah"ı və milyonlarla "əsgər"i olan mədəni hücumlar vasitəsi ilə.

Təqribən yarım əsrdən artıqdır ki, imperialist qüvvələr bu yolla öz məşum hədəflərinə çatmaq üçün sürətlə hərəkət etməkdədirlər. Bu qüvvələr müxtəlif ölkələrin insanlarını öz nüfuzları altına almaq üçün, öz dəyərlərini, mədəniyyətlərini cürbəcür yollarla onlara yeridib, onları kökündən dəyişməyə çalışırlar. Bax bu hərəkətlər "yumuşaq hücum", "mədəni hücum" adlanır. Əlbəttə hücuma məruz qalanlar da bu hücumları dəf etmək üçün hərəkətdədir. Bu qarşılıqlı yumuşaq müharibələr "sivilizasiyalararası toqquşma", "sivilizasiyalararası müharibə" "mədəniyyətlərarası savaş" terminləri ilə ifadə olunur. "Sivilizasiyalrın toqquşması" bir termin olaraq son dövrlərdə yaranmış bir anlayışdır.

Bu gün həmin müharibənin zərbə vurmadığı ev və ailə qalmamışdır. Axirəz-zaman haqqında bizə çatan rəvayətlərdən birində Həzrət Peyğəmbərin (ə) belə buyurduğunu görürük:

***"Mənim ümmətimə dörd fitnə varid olacaqdır… Dördüncü fitnədə isə kar və korluq hamını əhatə edəcək… "***[1] Başqa bir rəvayətdə isə belə buyurur: ***"O zaman bir fitnə yaranar və nə qədər bu fitnənin sona çatdığını desələr də yenə davam edər. Onun girmədiyi bir ev, zərbəsini hiss etməyən bir müsəlman qalmaz. Bu fitnə mənim ailəmdən olan bir kişi zühur edənə qədər davam edər"***[2]. Bəlkə də əziz Peyğəmbərimiz (s) öz nurlu kəlamı ilə məhz bu mədəni müharibələrin xəbərini vermişdir.

**Yumuşaq müharibənin bəzi xüsusiyyətləri**

Yumuşaq müharibədə də, elə hərbi müharibələrdə güdülən hədəflər güdülür, amma daha geniş, daha dərin və daha əhatəli şəkildə.[3] Silahlı müharibələrdən fərqli olaraq, yumuşaq müharibə açıq-aşkar, dərk və hiss ediləcək bir şəkildə getmir. Hətta bəzi hallarda qarşı tərəf öz zərbəsini vurur, amma bu zərbənin hədəfi olan toplum sanki yuxulu vəziyyətdə olduğuna görə, ona edilən hücumu hiss etmir.[4] Yumuşaq müharibənin əhatə etdiyi təhdid, təhlükə və qarışıqlığın ölçülərini dərk etmək olduqca çətindir. Bu – adi silahlı müharibənin əksinə – aşkar, hiss edilə bilən və anlaşıla bilən deyildir. Hətta təəssüf ki, bu oyun elə gözəl tətbiq edilir ki, bəzən qarşı tərəfin öz zərbəsini endirməsinə rəğmən, hədəf alınan toplumun hücumu dərk etmədiyini və hələ də qəflətdə olduğunu dəfələrlə görmüşük.[5] Qanlı müharibədən fərqli olaraq, mədəni müharibədə zərbə alan tərəfin özü, özü də bilmədən düşmənin köməkçisi olur.

1 Əli Kurani "Zühur əsri", səh. 22
2 Əli Kurani "Zühur əsri", səh. 23
3 https://rasthaber.com/ayetullah-hamanei-ve-yumusak-savas/
4 Ayətullah Xameneinin televiziya və radio işçiləri ilə görüşündən http://leader.ir
5 https://rasthaber.com/ayetullah-hamanei-ve-yumusak-savas/

## Mədəni hücumlar hansı məqsədləri güdür?

Bu gün İslam ümməti əvvəllki dövrlərdə olduğu kimi yarıyuxulu halda deyil, oyanmış və ayağa qalxmış vəziyyətdədir. Buna görə də, İslamın dünyaya hakim olmasının bünövrəsi olan islami oyanışın qarşısını almaq üçün dünyanın harasında olur-olsun, müxtəlif bəhanələr altında həqiqi Muhəmmədi İslamın ardıcıllarına, xüsusən İslam İnqilabının tərəfdarlarına təzyiq edilməkdədir. İslam İnqilabının Böyük Rəhbəri İmam Xamenei buyurur: "İslam təfəkkürünə və İslam quruluşuna qarşı mədəni mübarizənin çoxlu şaxələri var. Onları araşdırıb saysaq, çox geniş bir dairəni əhatə etdiyini görərik. Misal üçün, mətbuatda, müxtəlif kitablarda, tərcümələrdə və hətta tarixi araşdırmalarda "siyasi İslam" təfəkkürü sual altına alınır. Halbuki bu inqilab İslamın siyasi təfəkkürü üzərində dayanmışdır. İslamın siyasi təfəkkürü olmasaydı, onun əsasında inqilab baş verməz və İslam quruluşu yaranmazdı".[1]

## İslam dünyasında müxtəlif ixtilaflar icad etmək

Müstəmləkəçilərin öz məqsədlərinə çatmaq üçün istifadə etdikləri əsas alətlərdən biri dünyanın ən qiymətli təbii sərvətlərinin xəzinəsi olan müsəlman torpaqlarını parçalayıb onların sahib olduğu sərvətləri talamaq və ya ucuz qiymətə ələ gətirmək, digəri isə İslam ümməti arasında müxtəlif ixtilaflar, xüsusilə Sünni-Şiə ixtilafı icad edərək böyük İslam ümmətini zəif hala düşürüb onlar üzərində hakimiyyət etməkdir. Onlar müsəlman qardaşlar arasında ayrılıq salmaq üçün həssas mövzuları qabardır, tarixdə baş vermiş ixtilaflı məsələlərə həssaslıq yaradır, millətçi hissləri təhrik edir, bununla da

1 "Mədəniyyət və mədəni ideoloji hücum", Böyük Rəhbər Ayətullah Xameneinin çıxışlarından

kifayələnməyib bu dəstələri gücləndirib bir-birinin canına salmaq üçün əllərindən gələni edirlər. Satılmış, azğın fərdlər, təşkilatlar, hətta bəzi hökumətlər də bu yolda hegemonlara muzdurluq edirlər. Vəhhabi kimi azğın, vəhşi cərəyanları həqiqi İslam olaraq təqdim edib həqiqi İslamı gözdən salmaq imperializmin və sionizmin əsas alətlərindəndir.

**İnsanlarda İslama qarşı ümidsizlik yaratmaq**

İslam təlimlərində ümidsizlik küfr kimi təqdim olunur. Mütəal Allah Qurani-Kərimdə buyurur: ***"Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər!"***[1] Ümidsizliyin və məyusluğun insanda, xüsusən də gənclərdə asanlıqla təsir qoyduğunu bilən İslam düşmənləri, xüsusi olaraq internet və sosial şəbəkələrdən yararlanaraq, bu mövzuda geniş təbliğat aparırlar: "Əgər Allah varsa niyə axan qanlar dayanmır?", "Allah ədalətli olsaydı zalımlar gün-gündən rifaha, kasıblar da əzab-əziyyətə düçar olmazdı", "Din, kasıbları istismar etmək üçün varlıların uydurmasıdır" və s. düşüncələri yaymaqla, insanı Allahdan naümid etməklə onu küfrə sürükləmək nəzərdə tutulur. Artıq iş o yerə çatıb ki, gündəlik xəbərləri izləyərkən – məktəb yaşlı uşaqlardan tutmuş 70-80 yaşlı qocalara qədər – hər gün ən azı iki-üç nəfərin intihar etdiyin görürük. İnsan yalnız ümidsizliyin son pilləsinə çatanda öz şirin canına qıya bilər. Belə insanlar şeytanın planlarını həyata keçirməklə onu sevindirir, Allahı isə qəzəbləndirirlər; həm dünyalarını əldən verirlər, həm də axirətlərini.

Əlbəttə, mal-dövlət toplamağa çalışmaq, dünya ehtiraslarına qurşanmaq, onları əsas saymaq, yalnız maddi dəyərlər uğrunda əlləşib-vuruşmaq da, bugünkü insanın hədəfinə çevrilmişdir.

1 Yusif surəsi 87

Təəssüflə qeyd edilməlidir ki, belə bir təfəkkür tərzi cəmiyyətin həm avam təbəqəsi, həm də ziyalı təbəqəsinə hakim kəsilmişdir. Məsələn, bir zamanlar müəllimlər elmi yaymağı bir şərəf bilirdisə, bu gün bəzi müəllimlər öz peşəsini yalnız pul qazanmaq vasitəsi bilir. Yaxud bir zamanlar Hipokrat andı içib insanları müalicə etməyi öz vəzifəsi bilən həkimlər bu gün öz aralarında, həmçinin apteklərlə iş birliyi yaradıb xəstələri yağlı müştəri hesab edərək onları amansızcasına talayır. Bu gün bir gənc, bəzən bütün səy və təlaşını, bütün maddi imkanlarını yalnız öz zahiri görünüşünü bəzəməyə, son model maşın, mobil telefon əldə etməyə sərf edir. Məhz dünyapərəstlik təbliğlərinin nəticəsidir ki, gənclər yalnız Qərbin bizə standart olaraq təqdim etdiyi model tipli qızlarla ailə qurmağa meyl edir, iffət, sədaqət kimi mənəvi dəyərlər əsas götürülmür; alicənab, ağırtəbiətli, təhsilli, ailə tərbiyəsi görmüş qizlar isə zahirən "avropa standartına uyğun olmadığı üçün" evdə qalıb qarıyır. Son illər baş verən boşanmaların əksər hissəsi, məhz maddi tələblər və zahiri görünüşü əsas götürərək ailə quranların payına düşür.

**Uşaqların Qeysəriyyə əməlliyyatı ilə dünyaya gəlməsinin asan olduğunu təbliğ etməklə insanların sayının kontrol altına alınması**

Bu təbliğlər nəticəsində demək olar ki, artıq çox az qadın təbii yolla övlad dünyaya gətirir. Bütün hamiləlik boyu, "hamiləliyini yataqda keçirməsən, uşaq tələf olar", "filan-filan dərmanları qəbul etməsən, gələcəkdə uşaqda filan-filan çatışmazlıqlar meydana gələr" deyərək qadınlar aldadılır. Maraqlıdır ki, televiziya verilişlərində, internet qəzetlərində qeysəriyyə əməliyyatının ziyanları barədə təbliğat aparılır və bu üsula yalnız zəruri hallarda müraciət etməyin lazım olduğu bildirilir. Lakin

demək olar ki, həkimə müraciət etmiş bütün qadınlara, onda yaranmış hansısa problem üzündən övladının təbii yolla dünyaya gətirməsinin riskli olduğu bildirilir. Qorxuya mübtəla olmuş gənc ailə övladın cərrahi əməliyyat yolu ilə dünyaya gəlməsinə razılıq verir. Bu barədə daha bir düşündürücü məqam, övladın təbii yolla və ya qeysəriyyə əməliyyatı ilə dünyaya gətirmək üçün xətəxanaya ödənilən məbləğ arasındakı fərqin çox çüzi olmasıdır. Bu da bir çox qadınların can-başla daha "asan" olan qeysəriyyə əməliyyatını seçməsinə səbəb olur.

**Qeysəriyyə əməliyyatının gələcək nəsil üçün zərərləri**

✓ Ananın daxili orqanlarının əməliyyat zamanı zədə alması; [1]

✓ Uşağın təbii halda 41-ci həftədən sonra dünyaya gəlməsinə rəğmən qeysəriyyə əməliyyatının 37-38-ci həftələrə salınması nəticəsində uşağın ana bətnindəki inkişafının natamam qalması;

✓ Uşaqda asma və ağ çiyər xəstəliklərinin yaranması; [2]

✓ Uşağın ana südündən imtina etmə riski və bu səbəbdən də gələcək nəslin Qərb tərəfindən istehsal edilən, tərkibi şübhəli qidalarla böyüdülməsi; [3]

✓ Ana və övlad arasındakı bağlılığın azalması;

✓ Qadının iki uşaqdan artıq övlad dünyaya gətirməkdən məhrum olması[4] və s.

Ümumiyyətlə abortlar və qeysəriyyə əməliyyatları barədə statistikanı nəzərdən keçirən hər bir vicdanlı insan hayqırmaq, bu hala üsyan etmək istəyir. Bütün bunlar müsəlmanların sayının

1 http://www.jinekolojivegebelik.com/2012/02/sezaryen-dogumun-zararlari-riskleri.html

2 http://www.jinekolojivegebelik.com/2012/02/sezaryen-dogumun-zararlari-riskleri.html

3 http://www.jinekolojivegebelik.com/2012/02/sezaryen-dogumun-zararlari-riskleri.html

4 Nadir hallarda üçüncü uşağın dünyaya gəlməsinə izn verilir

azaldılması istiqamətində cəmiyyətimizdə, mətbuatımızda düşməncəsinə aparılan təbliğinin ağrıdıcı nəticələridir.

**Yoluxucu xəstəliklərin qəsdən yayılması**

Hemfer öz xatirələrinin davamında müstəmləkəyə çevrilməsi nəzərdə tutulan ölkələrdə yoluxucu xəstəliklərin yayılmasının da plana daxil edildiyini qeyd edir: "Bu ölkələrə sahib olmaq üçün, biz hər bir vasitədən istifadə etmək məcburiyyətində idik; həmin ərazilərdə təfriqə, cəhalət, yoxsulluq, hətta yoluxucu xəstəlikləri yaymaq üçün ardıcıl planlar hazırlayırdıq".[1]

Bəzi xəstəlik və viruslar vardır ki, düşmən laboratoriyalarında hazırlanıb insanlara yoluxdurulur, bunun əvəzində isə, fantastik rəqəmlər qarşılığında, tibbi avadanlıq və dərman mafiyasının dəyirmanı ağlagəlməz sürətlə işləyir. Hər il müxtəlif virus növlərinin yayılması, hətta yayılmazdan qabaq ona ad qoyulması, qısa zaman sonra da həmin virusun guya dərmanının tapılması, həmin virusun laboratoriyalarda hazırlandığını sübut edir. SPİD, hepatit növlərinin sürətlə yayılması da ürək ağrıdıcı məqamlardandır. Xəstəliklərin yayılma yolları barədə mətbuatda elə bir təbliğat gedir ki, sanki bu xəstəliklər yalnız əxlaqsız və ya narkoman insanlar arasında yayılır. Bununla da insanları mənəvi olaraq öldürmək də nəzərdə tutulur. Halbuki artıq çoxlu iffətli insanlar belə bu xəstəliklərə yoluxublar. Bu da həmin xəstəliyin təsadüfən yayılmadığını isbatlayır. Əlbəttə, insafən, bəzən bu xəstəliklərin qan köçürmə zamanı, gözəllik salonlarından və stomatoloq xidmətindən istifadə etdikdə yayıldığı da yazılır.

1 İ. Əliyev, "Mister Hemferin xatirələri", s. 12

**Bazarların genləri dəyişdirilmiş məhsullarla doldurulması**

Azərbaycan Fövqəladə Hallar Nazirliyinin saytında genetik modifikasiya olunmuş məhsullar haqqında belə yazılır: "GMO-nun yaradılması üzərində ilk təcrübələr XX əsrin 70-ci illərində aparılmağa başlanmışdır. Artıq 15 ilə yaxındır ki, milyonlarla istehlakçı heyvan və bitki mənşəli GMO məhsullardan istifadə edir. Genetik modifikasiya olunmuş orqanizmlərin əldə edilməsi zamanı heyvan geninin bitkiyə və ya əksinə, bitki geninin bitkiyə, heyvan geninin heyvana köçürülməsi baş verir. Balıq, əqrəb, siçan, müxtəlif həşəratlardan və sair orqanizmlərdən təcrid olunmuş genlər donor kimi istifadə olunur. Məsələn, şimal balıqlarının soyuğa davamlılıq xüsusiyyətini daşıyan geni pomidor və çiyələk bitkilərinə köçürülür. İlandan alınmış genin qarğıdalıya köçürülməsi ilə qarğıdalının ziyanvericilərə qarşı davamlılığı artır. Bir sıra inkişaf etmiş ölkələr bu məhsulları geniş istehsal edərək iqtisadi cəhətdən geridə qalmış ölkələrə ixrac edirlər. Avropada transgen məhsulların əkilməsi qadağan edilmiş, yalnız bəzi bitkilərin ölkəyə idxalına icazə verilmişdir". [1]

Genetik modifikasiyaya uğradılmış toyuq ətlərinin, meyvə-tərəvəz və dənli ərzaq məhsulları insanlarda hormonal xəstəliklərin, piylənmənin və xüsusən də sonsuzluğun yayılmasına səbəb olub. Bunun ən bariz nümunəsi sonsuzluğun heç zaman olmadığı həddə çatmasıdır. Genləri dəyişdirilmiş məhsulları istehlak etmək əsrin bəlası sayılan xərçəng xəstəliyinin də əsas səbəbidir.

**Bioloji silahlar vasitəsi ilə xəstəliklərin yayılması**

Bioloji silahlar da, eynilə kimyəvi silahlar kimi hədəfə müxtəlif raket, artilleriya, fuqas, mərmi, mina, qumbara, xüsusi

1 http://fhn.gov.az/newspaper/?type=view_news&news_id=1268

səpmə qurğuları vasitəsilə və ya su mənbələrini, qida anbarlarını, rəqib milli valyutasını və s. yoluxdurmaqla, istehlak bazarına bu maddələrlə yoluxdurulmuş ərzaq ixrac etməklə, ayrı-ayrı təşkilatlarına bu maddələrlə yoluxdurulmuş məktub göndərməklə və s. yollar ilə çatdırılır ki, sonrakı mərhələdə artıq o, kimyəvi silahdan fərqli olaraq eskalasiya, zəncirvari reaksiya doğuraraq epidemiya şəklində yayılır.[1]

Günümüzdə Amerika və İsrailə arxalanan məlun vəhhabi-Səud rejimi Yəmənin məzlum xalqına tətbiq etdiyi bioloji silahla vəba xəstəliyini yaymışdır. Bu xəstəlikdən artıq minlərlə insan öz dünyasını dəyişmişdir.

**Düşüncəyə yönəldilmiş hücumlar**

Bu növ hücumda tərəf müqabilinin düşüncə və fikri hədəf olaraq qərar verilir. Bu növ hücum ən qorxulu hücumdur. Çünki onun əsərləri uzun illər sonra meydana çıxıb bir neçə nəsildə öz təsirini buraxa bilir. Bu növ hücumda keçmiş nəsillərin düşüncəsinin qüsurlu və geridəqalmış olduğu təlqin edilir, bu yolla həmin cəmiyyətdə keçmişdəkilərə qarşı utanc hissi yaratmaqla istənilən düşüncə cəmiyyətə yeridilir. "Keçmişə olan inancın dəyişdirilməsi və içərisinin boşaldılması yumuşaq müharibənin güddüyü hədəflərdən biridir".[2]

Düşmənin təqdim etdiyi əxlaqsızlığı təlqin edən film, disk, əyləncə verilişləri və başqa vasitələr məhz insanın düşüncəsinin dəyişdirilməsini hədəfləyir. Bu növ proqramlar bütün yaş hədləri üçün özünəməxsus şəkildə incəliklə hazırlanır. Məsələn övladının əxlaqa zidd filmlərə, verilişlərə baxmamasına diqqət

1 https://az.wikipedia.org/wiki/Bioloji_silahlar
2 https://rasthaber.com/ayetullah-hamanei-ve-yumusak-savas/

edən valideyn özü, onun saatlarla müxtəlif cizgi filmlərinə baxmasına şərait yaradır. Hətta övladının bu halına şükür edir. Halbuki elə məhz bu cizgi filmləri övladının gələcək düşüncəsini, həyatını formalaşdırır, onun dinsiz, asi, ipə-sapa yatmayan, ailəsindən qopuq şəkildə formalaşmasına ən gizlin və "mehriban" köməkçi olur. Düşüncəyə yeridilmiş əqidələr insanı o qədər dəyişə bilir ki, onun zahiri siması belə öz millətindən çox, düşüncəsini daşıdığı millətin simasına bənzəyir. Əgər biz diqqət etsək cəmiyyətlərdə bir çox belə insanların varlığına şahid ola bilərik.

**İqtisadi hücumlar**

İqtisadiyyata qarşı olan hücumlar ölkələri uzunmüddətli böhrana sürükləyir. Düşmən, ölkələrə qarşı sanksiya tətbiq etməklə, embarqo qoymaqla, dünya birjalarında ABD dollarının və avronun dəyər qazanması sayəsində süni infilyasiya yaratmaqla ölkələrin iqtisadi təməllərini ciddi sarsıntılara məruz qoya bilir. Hədəfə alınan ölkələr, təbii ehtiyatlar baxımından zəngin və ehtiyacsız olsa da, onlar idxala vadar edilir, yerli istehsalın qarşısında maneələr yaradılır.

Bundan başqa düşmən, müxtəlif ölkələri kredit borcları almağa vadar etməklə onları özlərindən iqtisadi cəhətdən asılı hala gətirirlər. Əhali arasında, onların gəlirlərinin qarşılaya bilməyəcəyi qədər istehlak təlbi yaratmaqla, süni marketinq hiylələri ilə, insanlar borc tələlərinə salınır. Banklar, müxtəlif kredit təşkilatları bu işdə aparıcı rol oynayır. Bununla yanaşı yüksək faizlə borc verən lombardlar və riba ilə məşğul olan fiziki şəxslər də ağır iqtisadi vəziyyətdə olan əhalini iqtisadi çəhətdən çöküşünü sürətləndirir. Belə ki hazırda, banklara, kredit təşkilatlarına, məişət əşyalarının satıldığı dükanlara borcu olmayan ailələri barmaqla saymaq olar. Lombardlardan yüksək

faizlə borc götürmüş insanlar çox zaman bu bataqlıqdan heç cür qurtula bilmirlər. Sadaladığımız iqtisadi prolemlərin ağır məngənəsindən qurtula bilməyən və bu səbəbdən də ağır psixoloji problemlərlə üzləşən insanlar intiharı çıxış yolu olaraq görürlər.

Təsadüfi deyildir ki, din alimlərimiz zərurət olmadan banklar qarşısında borclanmağa icazə vermirlər. Bir neçə il öncə ölkəmizdə önəmli bir hadisə baş verdi. Tarixdə ilk dəfə olaraq bir mərcəyi-təqlid – Ayətullah Nuri Həmədani – ölkəmizə səfər etdi. O cənab öz çıxışlarından birində xalqımıza iki mesaj verdi. Onlardan biri ümmət arasında vəhdəti qorumaq, ikincisi isə kredit təşkilatlarına və banklara borclu olmaqdan çəkinmək idi. Çünki düşmən bu iki məqamdan xüsusi incəliklə istifadə edir; vəhdəti aradan aparmaqla xalqı mənəvi zəlalətə, əhalinin böyük hissəsini borclu etməklə isə onları maddi zəlalətə sürükləyir. Sonra da özünü xilaskar kimi təqdim edib xalqı özünə minnətdar etməklə qul səviyyəsinə endirir.

## Axirətə inamı dünyapərəstlik və materializmlə əvəzləmək

Son iki əsrdə yaranmış anti-din fəlsəfi görüşlərdən biri materializmdir. Bu zahirən fəlsəfi bir görüş olsa da, onun məqsədyönlü şəkildə siyasilər tərəfindən yaradıldığına inanılır. Materializm materiyanı var olmanın əsası və başlanğıcı olaraq təqdim edir.

Ümumiyyətlə XIX-XX əsrlərdə yaranmış fəlsəfi və ictimai cərəyanların əksəri materialist, qeyri-dini və ya antidin istiqamətə malik olmuşdur. Maraqlıdır ki, bu görüş iki əsr öncə Qərbdə sənayenin inkişafa başlaması ilə meydana gəlmişdir.

Materializmin əsas hədəfi mənəviyyat, ilahi təlimlər, xüsusi olaraq isə İslam dini idi. *"Materialistlər dünyanın hər bir yerində İslam düşüncələrinə hücuma keçdilər. Bu hücum İslam dünyasının şərqindən - yəni Hindistandan onun qərbinə - yəni Əlcəzairə qədər hər yerdə həyata keçdi. Fransızlar Əlcəzairə daxil olub İslama qarşı mübarizə apardılar. Hindistanda da ingilislər eyni işi gördülər. Müstəmləkə işində İngiltərə və Fransa rəqib olsalar da, rəqibləri və vurduqları nöqtə bir idi. Onlar dünyada din və mənəviyyatı günbəgün zəiflətdilər, insanları əxlaq və mənəviyyatdan uzaqlaşdırdılar"*.[1]

Materializm həqiqətdə kapitalizmin maraqlarına birbəbir cavab verən və onun inkişafının təmin olunmasına xidmət edən bir görüşdür. Çünki mənəvi dəyərlərin aradan getməsi öz növbəsində maddi dəyərlərin qiymət tapmasına səbəb olacaq ki, bu da Qərbin səcdəgaha çevrilməsini təmin edəcək və belə olarsa, onların müsəlmanlar üzərindəki maddi hakimiyyəti bərqərar olacaq.

Təəssüf olsun ki, bu görüş müsəlmanlar arasında geniş surətdə yayılmış, onların düşüncəsinə, həyat tərzinə, ailəsinə və ictimai münasibətlərinə daxil olmuşdur. Materializmin gələcək üçün təyin etdiyi hədəf İslamın və mənəvi dəyərlərin var olmadığı bir dünyaya çatmaqdır.

**Kompüter oyunları**

Amerikanın xüsusi kəşfiyyat orqanı olan CIA, dünya xalqlarını zehni olaraq idarə etmək üçün, kompüter oyunları sahəsinin idarə olunmasını da öz nəzarət dairəsində saxlayır. Bu kompüter oyunlarında Amerika daim xilaskar rolunda təqdim

1 Böyük Rəhbərin din alimləri, ruhanilər və cümə imamları ilə görüşdəki çıxışından: 1990.

edilir. Bununla da hədəf qərar verilən ölkələrin xalqları tərəfindən təqdir edilib alqışlanmağı təmin etməyə çalışırlar. [1]

Uşaqlar üçün hazırlanmış oyunlarda azğın fikirlərdən tutmuş maşın firmalarının şüuraltı reklamına, hətta intihara sürükləməyə qədər, hər sahədə istifadə edilir. Son zaman ortaya çıxmış "Blue Whale Challenge"[2] oyunu dünyanın müxtəlif ölkələrində bir çox uşaq və yeniyetmənin intihar etməsinə səbəb olmuşdur. Türkiyə Nəqliyyat, Dənizçilik və Xəbərləşmə naziri Əhməd Arslan tərəfindən qaldırılmış bu məsələ[3] sonradan CHP tərəfindən Türkiyə Böyük Millət Məclisinin gündəminə də gətirilib.[4] Belə ki, bu oyun ona qoşulan uşağı 50 gün ərzində intihara çatdırır. Artıq oyunun dünya üzrə 250-dən artıq qurbanı var. Bu cür oyunlar və onların törətdiyi fəsadlar haqqında çoxlu məlumatlar vardır ki, bu yazının həcmi onların hər birinə yer ayırmağa imkan vermir.

**Nəticə**

Adətən hər bir xalqın ziyalı təbəqəsinin düşüncəsi ümumi olaraq həmin xalqın düşncəsi hesab olunur. Belə demək mümkünsə, ziyalılar xalqın güzgüsüdür. Gənclər arasında da ən nüfuzlu söz ziyalı sözüdür. Əgər hər hansı ziyalı kənardan maddi gəlir qarşılığında yadlara muzdurluq edib onların sözçüsü olarsa, həmin "ziyalı"nın şüurlarda qoyduğu təsirin izləri də zəlzələdən sonrakı daşıntılara bənzəyər. Dinini, vicdanını satmış muzdur qələm sahibləri, elm və mədəniyyət mənsubları az deyil. Belələrinin yazılarını mətbuatdan tez-tez izləyirik. Məxsusən,

---

1 https://rasthaber.com/irana-karsi-yumusak-savasla-ilgili-yeni-belgeler-ortaya-cikti/
2 Mavi balina
3 http://rasthaber.com/turkiye/haber/12563-bu-oyunu-oynayanlar-kendini-olduruyor-nedir-bu-mavi-balina-salgini
4 http://rasthaber.com/turkiye/haber/12669-mavi-balina-oyunu-meclis-gundeminde

Məhərrəm ayı gələndə. Bəzən ortaya çeynənmiş bir söz atıb sosial şəbəkələrdə bir "tufan" yaradırlar ki, baş qarışdırsınlar. Necə deyərlər, "bir dəli quyuya bir daş atdı, min ağıllı yığışıb onu çıxara bilmədi".

Bəziləri də türkçülüyü bəhanə edib Əhli-Beyt (ə) ardıcıllarını farspərəst olmaqda suçlayılar. Başa düşmürlər ki, bir insanın fars, türk, ingilis, hind, rus olması onun milliyyətidir. Yəhudi, Xrisrtian və ya Müsəlman olmaq isə onun dini inancı. İslam dini də ki, İranda yox Ərəbistanda yaranıb. Əhli-Beytsevərləri farspərəstlikdə yox, ərəbpərəstlikdə suçlasa idilər daha məntiqli olardı. Bu insanlar bu qədərini belə anlamağa qadir deyillərsə, onlara necə ziyalı demək olar? Yox əgər anlayırlarsa, deməli məqsədli şəkildə danışırlar; demək dilləri, qələmləri satılıb. Doğrusunu bir özləri bilir, bir də Allahları.

Habelə açıq-saçıq, təhrikedici qadın və qızlardan televiziya verilişləri, jurnallar, reklamlar, sosial şəbəkələrdə, bir sözlə, həyatın ağlımıza gələn və gəlməyən hər bir sahəsində istifadə etmək Qərb siyasətinin mühüm elementlərindən biridir.

Avstriya psixoterapevti Vilhelm Rayxın termin olaraq istifadə etdiyi "cinsi inqilab" anlayışı ən qısa zaman içində – XX əsrin ikinci yarısından başlayaraq – dünyanın əxlaq kodeksinə çevrildi. Bu görüş Qərb tərəfindən dünyaya ixrac olunaraq insanlığın idarə olunması üçün ən mühüm "silah"a çevrildi. Bəs imperializm bununla nəyi əldə etmək istəyir? Psixoloq Rövşən Abdullaoğlu qeyd edilən məsələni öz məqaləsində aydın şəkildə izah edir: *"Qərbdə cinsi hissin kütlələrdə alovlandırılması cəmiyyətlə rahat manipulyasi etməyin amillərindəndir. Belə ki, cinsi ehtirasların alovlandırılması insanlarda, məxsusən də cəmiyyətin ən güclü hərəkətverici hissəsini təşkil edən yeniyetmə və gənclərdə süni şəkildə narahatlıq və cinsi qayğı yaradacaqdır. Psixoloji araşdırmalar sübut edir ki, cinsi qayğı və cinsi təşviş kimi*

*insanın fikrini qarışdıran, düşüncələrində özünə yer edən və nəticədə də cinsi ehtirasın söndürülməsindən başqa heç bir şeyi düşünməyə imkan verməyən ikinci bir hiss yoxdur. Cinsi qayğıları olan əyyaş, əhli-kef cəmiyyəti idarə etmək daha asandır. Həmçinin belə bir cəmiyyət daha təhlükəsizdir. Çünki belə cəmiyyətin beynində ancaq cinsi istəklər, əyyaşlıq ilə əlaqəli fikirlər dolaşmaqdadır. Qədim antik dövrdən günümüzə qədər mövcud olmuş bir çox hakimlərin ölkəni əyləncə və əyyaşlığı yaymaqla idarə etdiklərinin şahidi oluruq. İnsanlar hər nə qədər əylənərlərsə, kefləri kök olarsa, şəhvani istəklərinin içində boğularlarsa, onları idarə etmək də bir o qədər asan olar. Bax Qərbin idarə siyasəti budur… Qərbdə XX əsrin ikinci yarısından başlanılmış cinsi azadlıq inqilabının əsl mahiyyəti də elə bundan ibarətdir: insan kütlələrini heyvan səviyyəsinə salmaq, nəticədə də rahatlıqla idarə etmək".*[1]

**Nəticə**

Cəmiyyətin zahiri olaraq Qərb mədəniyyətinin daşıyıcsı olmasında qadın gözəllik salonları və kişi bərbərxanalarının xüsusi yeri olduğunu heç kim təkzib edə bilməz. Məhz onlar hər gələn müştərini dəb adı ilə eyni "rəng"ə boyamaqdadırlar. Üst-üstə yaxılmış kosmetik boyalar altında mimikaları belə itmiş və inkubator cücələri kimi eyni şəklə salınmış gəlinləri, ruhsuz oyuncaq gəlinciklərə bənzədən də bu salonların işçiləridir. Hər biri xüsusi bir gözəlliyə sahib olan qızlarımız öz toy günündə hansısa yabançı bir müğənniyə və ya manikenə bənzəyir. Həyatının ən yaddaqalan günündə onun təravətli simasından heç

---

1 Rövşən Abdullaoğlu, http://qedimqala.az/index.php?do=yazi_inner&id=33&beyenirem=1

bir əlamət qalmır. Sanki üzdəniraq gözəllik yarışmasının iştirakçısıdır.

Kişi salonlarının reklam lövhələrinə baxarkən orada təsvir olunan insanların hamısının saqqallı olduğunu görərik. Bəli yeni moda saqqallı olmağı tələb edir. Amma onların saç düzümünə baxdıqda hansısa xarici reper və ya aktyorun əksi olduğunu zənn etmək olar. Bununla da İslam dininin möminlər üçün vacib bildiyi və mömin kişinin zahiri əlamətlərindən sayılan saqqalın dəyərsizləşdirilməsi hədəflənir.

Dünya xalqları üzərində hakimiyyət etmək imperializmin ümdə siyasətlərindən biridir. Hegemonların öz varlıqlarını sürdürə bilməsi məhz bu siyasətə bağlıdır. İmperializm, bir dövlətin və ya millətin öz maraqları istiqamətində başqa bir dövlət və millətə təsir etməyə çalışmasıdır. Təsir edən tərəf özündə, təsir altında qalan tərəfin maddi qaynaqlarından yararlanmaq haqqı görür, həmin tərəfin mənəvi dəyərlərini öz mənəvi dəyərlərinin rənginə boyamağa çalışır. İmperialist ölkələr müstəmləkəçilik baxımından bir-birinə rəqib olsalar da, bəzən ümumi çıxarları üçün bir hədəfə vura bilir və ümumiyyətlə zahirən birgə hərəkət edirlər.

## Ədəbiyyat

1. **Qurani-Kərim**; Ərəbcədən tərcümə və şərhlərin müəllifi: Ayətullah Mirzə Əli Meşkini; Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli; Nurlar nəşriyyatı, Bakı, 2009
2. **Nəhcül-bəlağə**; Toplayan: Seyyid Rəzi; Şərhçi: Ayətullah Feyzul-İslam; Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev; Nurlar nəşriyyatı, Bakı.
3. **Mizanul-hikmət**; Ayətullah Muhəmməd Muhəmmədi Reyşəhri; Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev; Nurlar nəşriyyatı, Bakı, 2005
4. **"Mədəniyyət və mədəni ideoloji hücum"**; Ayətullah Seyyid Əli Xameneinin çıxışlarından; (elektron variant: az.islamic-sources.com)
5. **"Qadın"**; Ayətullah Seyyid Əli Xameneinin çıxışları əsasında toplanmışdır; Ofuqe-fərda, 2013
6. **"Qadın əzəmt və gözəllik güzgüsündə"**; müəllif: Ayətullah Cavadi Amuli; tərcüməçi: Famil Şirvanov; Nurlar nəşriyyatı, Bakı, 2013
7. **"İslami dünyagörüşü"**; müəllif: Şəhid Mürtəza Mütəhhəri; tərcüməçi: Ağabala Mehdiyev
8. **"Kamil insan"**; müəllif: Şəhid Mürtəza Mütəhhəri; tərcüməçi: Ağabala Mehdiyev; Dinin fəxri nəşriyyatı, 2000
9. **"Zühur əsri"**; müəllif: Əli Kurani Amuli; tərcüməçi: M. Əlizadə; Dinin fəxri nəşriyyatı
10. **"Yaxınlıqdakı Allah"**; müəllif: Müslim Gerivani; "Zərdabi LTD" MMC, Bakı 2015
11. **"Tərbiyə üsulları"**; müəllif: İbrahim Əmini; tərcüməçi: Rəsul İsmayılzadə; Tehran, 2003
12. **"Mister Hemferin xatirələri"**; müəllif: İ. Əliyev, elektron variant (maide.az)
13. **"İslam və Qərb mədəniyyəti"**; müəllif: Seyyid Müctəba Musəvi Lari; Darul-Bəşir nəşriyyatı, 2004
14. **"İlahi nəsihətlər"**; müəllif: Misbah Yəzdi (elektron variant)

# İslamda qadın və cəmiyyət

Elnarə Abdulova

Abstrakt

İslam dinin qadına verdiyi dəyəri, qadının qarşısında olan vəzifələri , ailədə qadının mövqeyi , qadının hüquq və vəzifələri , övlad tərbiyəsində ananın rolu və bu kimi digər məsələlər hər zaman diqqət mərkəzində olmuşdur. Nə qədər müazkirə olunsa da , nə qədər məqalələr və kitablar yazılsa da yenə də dönə-dönə bu mövzuya müraciət olunmuşdur. Xüsusilə cəmiyyətin inkişafında , tərəqqisində qadınların rolunun araşdırılıması və müazkirə olunması mühümdür.

Açar kəlmələr: İslam , evlilik , qadın, hüquqlar , mərhəmət, vəzifələr , təbliğat , uğur.

Giriş

Qadın hər zaman cəmiyyətdə önəmli yer tutmuşdur. Qadının qiymətini Qurani Kərimdə Allah Təala vermişdir. Qadın cəmiyyətin ən dəyərli üzvlərindəndir. Qadına olan hörmət , qadına cəmiyyətin verdiyi dəyər onun ən yüksək mərtəbədə olmasına dəlalət edir. Bir cəmiyyət ki , qadına dəyər vermir, qadını alçadır , ondan ancaq müəyyən məqsədlər üçün istifadə edirsə o cəmiyyətin mədəniyyətinin , elminin , uğurunun , yüksəlişin , inkişafının yüksəlməsinə və tərəqqisinə şübhə var.

Qadının cəmiyyətdəki mövqeyi haqqında , onun xidmətləri haqqında nə qədər məqalələr , kitablar yazılsa da, araşdırmalar aparılsa da yenə də bu mövzuya tələbat var. Qadın və onun cəmiyyətdəki mövqeyi bu gün də öz aktuallığını saxlamışdır. Bu mövzunun aktual qalmasının və ona müraciətin çox olmasının bir çox səbəbləri vardır. Bu səbəblərin əksəriyyəti qadına qarşı zorakılıq , qadın haqlarının pozulması və bu kimi digər səbəblərdəndir. Ümid edirəm ki , İslam dininin qadına verdiyi dəyər geniş auditoriyalarda insanlara çatdırılacaq və dünyada qadın hüquqlarının pozulması faktları kəskin dərəcədə azalacaqdır.

Qadın qoynunda insanlar yetişdirib cəmiyyətə təqdim edə bilən yeganə varlıqdır ki , onun əməyi sayəsində sağlam bir cəmiyyət , hətta cəmiyyətlər yaranıb son dərəcə yüksək və insani dəyərlərə yönələ bilər.

“Bir gün məni rayonlardan birinə qonaq dəvət etmişdilər. Cümə günü məsciddə xütbə oxumaq üçün minbərə dəvət edildim. Məscidə diqqətimi bir şey çəkmişdi.....

(Məscidin kişilər əyləşən hissəsində gördüm ki , altlarına döşəkcə qoyub oturublar. Qadınlar tərəfə baxdım. Onlar quru yerdə oturmuşdular....)

Minbərə çıxıb dedim:

“Bismilləh...Əziz kişilər, baxıram ki , xanımlar quru yerdə oturublar, siz isə döşəkçə üzərində. Mən sizə hansı Qurandan , hansı Əhli-beytdən , hansı ictimai ədalətdən danışım ? Vəssalamu aleykum və rahmətullah”- deyib minbərdən düşdüm.”

Ustad Möhsün Qiraəti

Qadın Musa Sədrlə görüşmək üçün əlini irəli uzatdı. Musa Sədr isə əlini sinəsinin üzərinə qoyub ona salam verdi. Qadın onu incitmək naminə dedi:
“Qorxdun nəcis olar?”
Musa Sədr dedi:
“Əksinə , paklığını qorumaq istədim...”

Hüseyn Cavid -Qadın

Qadın! Ey sevgili həmşirə, oyan!
Ana! Ey nazlı qadın, qalx! Uyuyan

Daima mövtlə həmduş oluyor,
Zillü möhnətlə həmaquş oluyor

Çəkmə ah, eylə mükəddər, məhzun,
Ağla göz yaşların axsın, coşsun!

Ağla , fəryadını duysun ərlər,
Bəlkə insafa gəlib rəhm edələr.

İştə sıyrılmada həp zülmətlər!..
Ağarır dan yeri, qalx,iştə səhər!..

Oyan, ətrafını seyr et də düşün!
Bütün övladi-vətən iştə bu gün

Yalınız səndən umar sədrə şəfa,
Yalınız səndə bular ruha qida.
dur!

Ana övladını bəslər, böyüdür,
Anasız millət, əvət, öksüzdür.
Çalış!

Sənin aləmdə vəzifən, hissən
Nə böyük, həm nə ağırdır, bilsən?!
al!

Qadın! Ey sevgili, şəfqətli mələk!
Bu qədər səbrü təhəmmül nə demək?

O lətafət, o nəcabətlə sana,
Bu əsarət, bu həqarət nə rəva?!

Sən nəsən?.. Kəndini bil, zəfi burax!
Həp nəsibinmi sənin sillə, dayaq?

"Ağla, həp ağla!" dedim, çox yanılış...
Çınlasın, mövcələnib yüksəlsin

O səsin qüvvəti, təsiri böyük...
Ağla, ta lərzəyə gəlsin yer, gök

Bax, bax insan nə qədər aldanıyor?
Hayır, əsla məni sən dinləmə,

"Ağla, həp ağla!" dedim, çox yanılış.
Ağlamaqdan nə çıxar sanki?

Oluyor iştə hüququn pamal,
Çalış, öyrən, ara, bul, haqqını

Pərdeyi-zülmət içindən sıyrıl!
Qəhrəmanlar kimi qovğaya atıl!

Fəzlü ürfanla mücəhhəz olaraq
Cəhli yıx, qəfləti yax, əczi burax!

Kimsədən gözləmə yardım əsla;
Yalınız kəndinə kəndin ağla!

## Qadının dəyəri

Qadın , Quran və rəvayətlərdə həyat libası , Tanrı neməti və gül budağı kimi gözəl dəyərləndirilmişdir.

Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurmuşdur:
-“ Qadın qəhrəman yox, xoş ətirli bir güldür.”
Deməli , onun solmaması üçün əlimizdən gələni əsirgəməməliyik.
Məhəmməd peyğəmbər (s.ə.a.s.) buyurur:
-“Bir ləyaqətli qadın , min ləyaqətsiz kişidən daha dəyərlidir”.

Qadına vəhy olur.

Qurani-Kərim :
“Mələklər dedilər:Ey Məryəm , doğrudan Allah səni seçdi , paklaşdırdı və səni aləmin bütün qadınları ilə fərqləndirdi.”
Allah Taala Musanın (ə) başına gələnlərlə bağlı Quranda belə buyurur:
-“Biz Musanın anasına (ilham yolu ilə , yaxud röyada) :”Onu Musanı əmizdir; elə ki ondan ötrü qorxdun , onu dəryaya (Nil çayına) at. (Uşağın
suda boğulacağından ) qorxma və (ayrılığına da ) kədərlənmə . Biz onu sənə qaytaracaq , özünü də (şəriət sahibi olan ) peyğəmbərlərdən edəcəyik !- deyə bildirdik.”

Qadının əcri.

İmam Sadiq (ə):

Qadın öz ərinin evini səliqəyə salmaq məqsədilə nəyisə yerbəyer etdikdə , Allah Taala ona Öz nəzərini yetirər. Allah taala rəhmət nəzəri ilə baxdığı heç bəndəyə əzab verməz.
Ümmü Sələmə soruşdu :
"Bütün savablar kişilərə məxsusdur. Yazıq qadınlar üçün nə qalıb ki?"
Həzrət Peyğəmbər (s) buyurur:
-"Bəli . Qadın , hamilə olduqda , oruc halında gecələri ibadətlə məşğul olan , malı-canı ilə Allah yolunda cihad edən şəxs kimidir. Övladını dünyaya gətirdikdən sonra onun üçün elə bir mükafat nəzərdə tutulmuşdur ki , əzəmət və ehtişamını təsəvvür belə edə bilməzsən. Övladına süd verdiyi zaman onun hər qurtumu müqabilində İsmayıl peyğəmbərin(s) övadlarından birini azad etməsinin savabı qədər savab qazanar. Süd verib qurtardıqdan sonra isə bir mələk onun böyürünə vurar və söyləyər: Həyatına yenidən (günahsız olaraq ) başla , çünki bağışlanmısan.

Qadın və uğur

Qurani Kərim:
"Aranızda olan subay kişi və ərsiz qadınları əməlisaleh (yaxud evlənmək həddinə çatan ) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa Allah öz lütfü ilə onları dövlətli edər. Allah lütfü , mərhəməti geniş olan və hər şeyi biləndir."
Allahın rəsulu buyurur: "Kimə bu dörd şey qismət olsa dünya və axirətin xeyir-bərəkətini qazanar.

1.Gümrah bədən
3.Zikr edən qəlb
2.Zikr edən dil
4.Saleh əməlli həyat yoldaşı.

Allahın Rəsulu buyurur:
“Ruzi həyat yoldaşı və evliliklə birgədir.
Kişinin xöşbəxtliyindən biri də ləyaqətli həyat yoldaşına sahib olmasıdır.”
İmam Kazım buyurur:
“Xeyir –bərəkətin çoxu qadındadır.”
İmam Sadiq buyurur:
“Mömin şəxs üç şey üçün (axirətdə)hesab verməz ; yediyi yemək, geydiyi paltar və ona günahlardan uzaqlaşmaq üçün yardım edən ləyaqətli qadın.”

Qadın aramlığa səbəb olur

Qurani Kərim:
“Onların (qadınlar) yanında aramlıq tapasınız deyə sizin üçün (mələklərdən , cinlərdən və başqa məxluqlardan deyil) öz cinsinizdən zovcələr yaratması və sizin aranızda (ər –arvadın , yaxud insanların arasında) dostluq əlaqəsi , batini mehr-məhəbbət yaratması onun nişanələrindəndir , həqiqətən , bunda düşünən qövm üçün (Allahın tovhidi , qüdrəti və himətinə dair) nişanələr vardır.”

Qadınlara sevgi imandadır.

Allahın rəsulu buyurur:
“Ən imanlı insanlar , xoş xasiyyəti olanlar və ailələrinə qarşı ən mehriban olanlardır. Mən sizlərin arasında ailəsi ilə ən mehriban davranan şəxsəm.”

“Möminlər arasında imanı ən kamil olan şəxs onların ən xoş xasiyyətli olanı və ailəsi ilə ən mehriban rəftar edənidir.”

“Bəndənin imanı artdıqca həyat yoldaşına məhəbbəti də çoxalar.”

Peyğəmbərin (s) qızlarına olan sevgisi

Qeys bir gün Məhəmməd Peyğəmbərin (s.) öz qızlarından birini dizinin üstündə əyləşdirdiyini gördü. Dedi:
“Bu qoyun balası nədir ki , onu bu qədər öpürsən?”

Həzrət buyurdu:
“Bu mənim qızımdır.”

Qeys dedi:
“Allaha and olsun ! mənim çox sayda qızım olub , onların hamısını diri-diri torpağa basdırmışam , heç birini bu qədər öpüb , əzizləməmişəm.

Peyğəmbər (s) qəzəblənərək buyurdu:
“Vay olsun sənə! Allah mərhəmət hissini sənin könlündən silib. Allah-taalanın insana bəxş etdiyi ən dəyərli nemətlərin qədir-qiymətini anlamamısan.”

“Fatimə mənim bədənimin bir parçasıdır. Onu sevindirən məni sevindirib və onu qəmləndirən məni qəmləndirib, Fatimə mənim üçün ən əziz şəxsdir”

Ən yaxşı qadın.

Allahın rəsulu (s) buyurur:
“Ümmətimin ən yaxşı qadınları onların ən gözəlləri və ən az mehriyyə tələb edənləridir.”
“Dünyanın ən gözəl neməti ləyaqətli qadındır.”
Cabir ibn Abdullah Ənsari deyir:
“Həzrət Peyğəmbərin (s) hüzurunda əyləşmişdik . Qadınlar haqqında və onların bəzilərinin digərlərinə nisbətən daha üstün olmaları barəsində söhbət edirdik. Allahın elçisi buyurdu :
“Sizə bu haqda danışımmı?”
Səhabələr dedilər :
“Bəli.”
Həzrət buyurdu:
“ Sizin qadınlarınızın ən dəyərlisi övlad dünyaya gətirən , mehriban , iffətli , qohum -əqraba yanında hörmət qazanmış,ərinin qarşısında təvazökar və itaətkar olan qadınlardır. Onlar yalnız həyat yoldaşları üçün zinətlənər , başqa kişilərə qarşı etinasız olar , ərinin sözünə baxar , ona tabe olar , xəlvət yerdə özlərini yalnız ona təslim edərlər.”
Həzrət Əli (ə) buyurur:
“Sizin ən yaxşı qadınlarınız beş xislətə nalikdir. Güzəştə getmək və həyat yoldaşına qarşı çox tələbkar olmamaq ,

yumşaq xasiyyətli olmaq , bağışlamağı bacarmaq , əri əsəbləşdikdə hər hansı bir yolla onun ürəyini almaq , ıəi yanında olmadıöı zaman onun heysiyyetini qorumaq. Bu xüsusiyyətləri özündə toplayan qadın Haqq tərəfdarıdır. Qoy Allah –taalanın rəhmətindən məyus olmasın.

İmam Sadiq buyurur:
“Sizin qadınlarınızın ən üstünü ona bir şey əta edən zaman təşəkkür edən , bir şeyi qadağan edən zaman isə etiraz etməyən , razılaşan qadındır.

Nümunəvi qadınlar

Qurani Kərim:
(Ya Peyğəmbər!)Xatırla ki , bir zamanlar mələklər belə demişdilər:
“Ya Məryəm , həqiqətən , Allah səni seçmiş , (eyblərdən) təmizləmiş , (cəmi) aləmlərin (bütün dünyanın ) qadınlarından üstün tutmuşdur .”

Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə binti Məzahimi ) misal çəkdi . O zaman o dedi:
“Ey Rəbbim !Mənim üçün Öz dərgahında –Cənnətdə bir ev tik .
Məni Firondan və onun əməlindən qurtar . Məni zalım qövmdən xilas et.” -demişdi.
Allahın Rəsulu buyurur:

"Kim Xədicə kimi ola bilər?! O hər kəsin mənə qarşı olduğu bir vaxtda iman gətirib , mənə himayədarlıq etdi."

Allah taala dərgahında dörd seçilmiş qadın var: Məryəm, Asiya ,
Xədicə , Fatimə.

İslam tarixinin qəhrəman və imanlı xanımları

İslam tarixinin ilk şəhid xanımı –Süməyyə

İslam tarixinin ilk dövrlərində Əmmarın atasını , yəni Süməyyənin əri Yasəri İslamı qəbul etdiyinə görə şəhid edirlər. Onu şəhid edən İslam düşmənlərinin ürəkləri bununla soyumur . Onlar Süməyyəni də hədələyirlər:

-"Əgər Muhəmmədi inkar etməsən , ayaqlarının hər birini bir dəvəyə bağlayıb , iki tərəfə çəkərək səni şaqqalayacağıq". Ancaq bütün vücudu "Allah" – deyən Süməyyəyə onların bu hədə-qorxusu təsir edərdimi?! Elə hey Peyğəmbərin(s.ə.a.s) sözü qulağında cingildəyirdi:

-"Yasərin ailəsi , səbr edin, sizin yeriniz Cənnətdir."

Nəhayət, qana susamış düşmənlər ona ağır işgəncə verməklə öz qəlblərini yatırtmaq qərarına gəlirlər və onu şəhid edirlər.

Beləliklə, onun adı İslam uğrunda canını qurban verən ilk şəhid xanım kimi tarixin səhifələrinə yazılmış olur.

Heç bir zülmdən , əziyyətdən , min bir məşəqqətdən qorxmayan və heç bir zaman İslam dininin əmr etdiyi yoldan dönməyən bu xanım kimi digər bir neçə xanım qəhrəmanlar

vardır ki , onların da adlarını qeyd edərək qısa məlumat vermək istəyirəm .

İndi isə haqqında yazacağım xanım İslam Peyğəmbəri Muhəmməd (s.ə.a.s)-in altı bibisindən biridir.

Səfiyyə xanım Peyğəmbərin əmisi Həzrət Həmzə ilə eyni ata-anadan doğulmuşdur. Atası Əbdülmütəllib , ansı isə Halə ibni Vəhəbdir. Cahillik dövründə Haris ibni Hərbə ilə ailə qurmuşdur və bu nigahdan bir oğlu dünyaya gəlmişdi. Həyat yoldaşı Harisin vəfatından sonra Həzrət Xədicənin qardaşı , Əvvam ibni Xuveylidlə ailə qurur. Bu evlilikdən onun üç oğlu dünyaya gəlir. Oğullarının adı Zubeyr , Saib və Əbdülqədədir. Bu uşaqların ən məhşuru Zubeyr ibni Əvvamdır.

Səfiyyə qardaşı oğlu Muhəmmədi (s.ə.a.s) çox istəyirdi. Hələ uşaqlıqdan ona qayğı bəsləyirdi. Atasının yoxluğunu hiss etdirməmək üçün əlindən gələn fədakarlığı edərdi.

Aradan uzun illər keçir , böyük sevgi göstərdiyi Muhəmməd (s.ə.a.s) Allahın seçdiyi sonuncu nəbi olur və İslam dinini əvvəl gündən gizli təbliğ etməyə başlayır. Nəhayət Qurani – Kərimin Şura surəsinin 114,115-ci ayələrinin hökmünə əsasən Peyğəmbər qohumlarını bir ünvana toplayır. Ayədə belə deyilir:

-"Əvvəl ən yaxın qohumlarına tövsiyə et. Sənə inanan möminlərə mərhəmət qanadını endir (onlarla yaxşı davran)" .

İslma dinini qohumlarına təbliğ etdikdən sonra Səfiyyə xanım və oğlu Zubeyr İslam dinini qəbul etdilər və Peyğəmbərə (s.ə.a.s) qoşuldular. Səfiyyə xanım çox çalışdı ki , qardaşı Əbu Ləhəb də İslam dinini qəbul etsin. Lakin əmisi Əbu Ləhəbin

Muhəmmədə (s.ə.a.s.) olan kin-küdurəti həddini aşmışdı. O, müsəlmanlara əzab verir , onların keçdikləri yollara tikan səpir , hətta təhqirini belə açıq –aşkar etməkdən çəkinmir, yeri gələndə zor tətbiq edirdi. Səfiyyə xanım hər zaman Allah rəsulunu qorumağa çalışırdı. Bir gün eşitdi ki , Əbu Ləhəb onu narahat edir. Oraya gəldi və dedi:

-"Əbu Ləhəb! Qardaşım oğlunu və onun dinini köməksiz köməksiz qoymaq sənə yaraşırmı ? Kitab əhlinin alimləri Əbdülmütəllibin soyundan bir peyğəmbər dünyaya gələcəyini bilmirdilərmi ? Bu sənin qardaşın oğludur ."

Onun yanıqlı sözləri Əbu Ləhəbə təsir etsə də o, qürur və təəssübkeşliyindən dönmədi və bacısına belə söylədi :

-"Qadınların sözü həmişə kişilərə ayaq bağıdır."

Bu sözlərdən sonra Səfiyyə xanım məyus halda oradan ayrıldı.

Qardaşını yola gətirə bilməsə də oğlu Zubeyr ibni Əvvam bir islamçı kimi yetişdirməkdə Səfiyyə xanımın səyləri boşa getmədi. Bir sıra mənbələrdə Zubeyr Peyğəmbərin hər zaman yanında olduğu gostərilib hətta onun Cənnət əhli olmasını iddia edirlər. Lakin tarixə nəzər saldıqda görürük ki , Cəməl müharibəsində onun Həzrət Əliyə (ə) qarşı olması , beyəti pozması ağır və bağışlanılmaz hallardandır.

Səfiyyə xanım heç bir zaman Allah rəsulu və Əhli-beytin yolundan dönmədi. Müşriklərin zülmündən sonra oğlu Zubeyr ilə birgə Məkkədən Mədinəyə köçdü. İslam dini uğrunda malı və canı ilə hər zaman mübarizə apardı. O, İslam tarixində hərbdə olan ilk qadın idi. Həzrət Muhəmməd (s.ə.a.s.) Uhud müharibəsində olan zaman qadın və uşaqları bir

yerə toplayıb Mədinədə təhlükəsiz bir ev sayılan Həsən ibni Sabitin evinə apardı. Bu kişi yaşlı və şikəst olduğu üçün müharibədə iştirak etmirdi. Səfiyyə xanım nəql edirdi :
-" Mən qadın və uşaqlardan bir dəstə ilə çadırda oturmuşdum. Həsən də bizimlə idi. O gün döyüş uzun çəkdi. Bizimlə Allahın rəsulu arasında o qədər məsafə vardı ki , əgər düşmən bizə gecə hücum etsəydi bizi düşməndən müdafiə etməyə gələ bilməzdilər. Biz xeymədə olanda yəhudi kişi xeyməyə yaxınlaşdı. Həsənə dedim:
-"Bu kişinin bizi qətlə yetirəcəyini hiss edirəm , qalx və bu kişini burdan uzaqlaşdır.
Həsən ibni Sabit dedi :
-"Əbdülmütəllibin qızı, Allah bilir ki , mən onun yanına gedənə qədər qüvvətim olsaydı Allah rəsuluna Uhud döyüşündə kömək edərdim".
Səfiyyə xanım Həsənin bu sözlərindən sonra cuşa gələrək ayağa qalxdı və qərara gəldi ki , düşmənin həmləsini özü dəf etsin. Silahsız olmasına baxmayaraq bu barədə qərarı tez verərək xeymənin sütununu silah kimi əlinə aldı və düşmənə hücum etdi . Səfiyyə xanım yəhudini qetl edənə kimi onunla döyüşdü. Səfiyyə xanım İslam tarixinin qızıl səhifələrinə düşməni qətlə yetirən ilk cəsur xanım olaraq adını yazdırdı.
Yəhudini öldürdükdən sonra o , döyüş meydanına nəzər yetirdi. Müsəlmanlar çox təlaşlı idilər. Hətta müharibədən məğlubiyyət xəbərləri gəlməyə başladı. Nəhayət o, qardaşı oğlunun başına gələ biləcək ağır hadisənin təhlükəsindən qorxuya düşərək bir neçə qadınla Ühüd meydanına gəldi.

Qardaşı oğlunun sağ olması , qardaşı Həmzənin şəhid olmasını eşitdi. Qardaşını görməyə tələsdi. Bundan xəbər tutan Peyğəmbər (s.ə.a.s) Zubeyrə buyurdu:
-"Ananın qarşısını kəs!"
Zubeyr Peyğəmbərin(s.ə.a.s) əmrinə itaət edərək anasını döyüş meydanına girməkdən çəkindirdi. Qəlbi parçalanan Səfiyyə xanım dedi:
-"Məni qardaşımla onun bədəninin tikə-tikə doğrandığı üçün görüşməyə qoymursunuzsa bu islam yolunda kiçik birşeydir. Mən bu hadisə ilə razılaşmışam. Mən buna səbr edərəm və bunu Allah dərgahında hesaba gətirəcəyəm." Bundan sonra o , Həzrəti Muhəmmədi (s.ə.a.s.) gördü və ondan soruşdu:
-"Ya Rəsulullah , atamın oğlu Həmzə haradadır?" Peyğəmbər ona cavabında buyurdu:

-"O , şəhidlər arasındadır." Səfiyyə xanım irəli gəldi, qardaşının parçalanmış bədənini gördü və ağladı. Peyğəmbər (s.ə.a.s.) də ona qoşulub ağladı. Sonra Peyğəmbər (s.ə.a.s.) iki əlini Həmzənin sinəsinə qoyub onun üçün dua etdi.

Səfiyyə xanım mətanət və qəhrəmanlığı ilə yanaşı şairəliyi ilə də tanınmışdır. Rəsuli Əkrəm (s.ə.a.s.) dünyadan köçdükdən sonra onun üçün söylədiyi mərsiyələr məşhurdur. Onlardan birinin məzmunu belədir.

"Ey Allahın Rəsulu (s.ə.a.s.) , sən bizim ümid dayağımızdın. Bizə qarşı daima yaxşılıq edərdin.

Allahın Rəsuluna (s.ə.a.s.) atam , anam ,öz nəfsim fədadır. İnsanların Rəbbi səni bizə buraxsaydı xöşbəxt olardıq.

Amma Allaha can fədadır . Allahın salamı olsun sənə ya Rəsulullah(s.ə.a.s.).

Bu xanım Peyğəmbərdən (s.ə.a.s.) sonra on il yaşadı . Hicrətin iyirminci (Miladi 640) ilində 73 yaşında Ömər ibni Xəttabın xilafəti zamanında vəfat etdi. Mədinədə ,Bəqi məzarlığında dəfn olundu.

Təsadüfi deyildir ki , Əmmar Yasirin anası Süməyyə xanımın düşmənlərin ən ağır işgəncələrinə dözərək əqidısindən , ianmından dönməmiş , elə buna görə də müşriklər tərəfindən amansızlıqla qətlə yetirilmişdi. Belə ki , o , İslam dünyasının ilk şəhidi sayılır.

Peyğəmbərin (s.ə.a.s.) dövründə müharibələrdə döyüşçülərə qulluq edən , onların qayğısına qalan müsəlman qadınlar bundan əlavə hətta ən çətin anlarda da döyüş meydanına atılaraq qəhrəmancasına vuruşmuşlar. Ümmü Amir ləqəbli Nəsibənin Ühüd döyüşündə , Həmzənin bacısı Səfiyyə xanımın Xəndək müharibəsində düşmənə qarşı vuruşaraq göstərdiyi rəşadətlər üçün Peyğəmbərimizin (s.ə.a.s.) onlar behişt vəd etməsi də buna misal ola bilər.

Mövzunun bu məqamında Səfiyyə xanımdan başqa bir neçə qəhrəman xanımlar da vardır ki , onların adını çəkərək həyatına qısa nəzərə salaq.

1. Lubəynə xanım bəni-Muməl tayfasının kənizi idi. Ömər ibni Xəttab, İslamı qəbul etməmişdən əvvəl ona çox işgəncə verərdi. Lakin bu qadın heç vaxt təslim olmayıb və İslam dinindən dönməyib.

2.Zinnirə xanım bəni-Məxzun tayfasından idi . Əbu Cəhl müsəlman olduğuna görə ona əziyyətlər versə də onu əqidəsindən döndərə bilməyib.

3.Nəhdiyyə bəni-Nəhd tayfasının kənizi idi. Nəhdiyyə İslamı qəbul etdiyinə görə öz xanımının işgəncələrinə məruz qalsa da öz əqidəsindən dönməyib. Nəhdiyyə xanımın kəznizi olduğu xanım bəni-Əbuddar qəbiləsindən idi.

4. Xənsa bəni –Səlim tayfasından idi. Onun təbliği nəticəsində bütün qəbiləsi İslam dinini qəbul etmişdi. Bəzən Xənsa özünün şeir və şüarları ilə müsəlmanları kafirlərin əleyhinə qaldırardı. Bütün bu etdikləri ilə kifayətlənməyən Xənsa xanım Qadisiyyə döyüşündə oğlanlarının dördünü də döyüş meydanına göndərmiş və dördü də bu döyüşdə şəhid olmuşdur.

5.Ümmü Ziyad Əşcəiyyə Xeybər döyüşündə iştirak etmiş beş qadından biridir. Peyğəmbər (s.ə.a.s.) onların gəlişinin səbəbini soruşduqda onların cavabı belə olmuşdu:
-“Yaralılara tibbi yardım göstərməklə sizə kömək etmək istəyirik.”
Peyğəmbər (s.ə.a.s.) onların qalıb yardım etmələrinə icazə vermişdi.
İslam tarixinin qəhrəman xanımlarından biri də Cabir ibn Həkimin qızı Qəziyyə kimi tanınan Ümmu Şərik Əsəd idi. O,

Qureyş tayfasının bəni Amir qəbiləsindən idi. İslamın ilk dövrlərində müsəlman olan bu xanım , bütün bacarığı ilə dinin təbliği üçün çalışmışdı . O,gizlin və aşkarda insanları- xüsusən də xanımları İslama dəvət etdiyi üçün ağır işgəncələrə məruz qalıb. Hətta bir dəfə onu palansız dəvəyə mindirib üç gün ac-susuz vəziyyətdə saxlayıb , sonra isə əl-ayağını bağlayıb qızmar günəş altında yolun üstünə atıblar. Əgər Allahın lütf və mərhəməti olmasaydı şübhəsiz o , tələf olardı.

Bir neçə şücaətli xanımın adını çəkdikdən sonra istərdim ki , birlikdə Peyğəmbərin (s.ə.a.s.) kənizi Ümmu Əymənin həyatına qısa nəzər salaq.

Bu xanımın adı Bərkə idi. Bərkə xanım həm də şəhid vermiş analardan biridir. Həzrət Peyğəmbər (s.ə.a.s.) onu kənizlikdən azad edərək Übeydə Xəzrəci ilə evləndirmiş və onların bu izdivacından Əymən adlı oğlu dünyaya gəlmişdi.

Ümmu Əymənin əri vəfat etdikdən bir müddət sonra Peyğəmbər (s.ə.a.s.) onu Zeyd ibn Haris ilə evləndirmiş və bu izdivacdan da Üsamə adlı oğlu dünyaya gəlmişdi. Ümmu Əymən çox qoşaq və şücaətli bir xanım idi. O , yaralılara tibbi yardım göstərmək üçün Ühüd döyüşündə iştirak etmiş və döyüşün qızğın anında bir dəstə müsəlmanın fərariliyini görəndə ovcunu torpaqla doldurub onların üzünə ataraq demişdi:

-“Kişi döyüşdən qaçmaz. Siz arvad kimi hərəkət edirsinizsə , gedin arvad cəhrəsi arxasında da oturun. Vay olsun sizə!”Ümmu Əymən bununla da kifayətlənməyib , əlinə qılınc

alaraq İslam və Peyğəmbərimizin (s.ə.a.s.) müdafiəsinə qalxmışdı.

Onun fəziləti , cəsurluğu barəsində çox yazmaq olar. Ümmu Əymən Rəsuləllahdan (s.ə.a.s.) sonra da əqidəsində möhkəm qalmış və həmişə Həzrəti Fatimeyi Zəhra (s.ə.) və onun ailəsi ilə birgə olmuşdu. Bu fəzilətli xanım haqqında bunu demək kifayət edir ki ,onun oğlu Əymən Hüneyn döyüşündə misli görünməmiş qəhrəmanlıq göstərərək şəhid olmuş , digər oğlu Usamə isə hələ 17-20 yaşlarında ikən sərkərdə məqamına kimi yüksəlmişdi.

İslam tarixində ağır döyüşlərdən biri də Ühü döyüşüdür. Bu döyüdə Mədinə müsəlmanlarının bir çoxu şəhid vermişdir. Maraqlıdır ki , xanımalr öz övladlarının , ərlərinin və qardaşlarının halını xəbər almazdan öncə , Peyğəmbərin(s.ə.a.s.) halını soruşurdular.

Qeysin qızı Suda da belə xanımlardan biri idi. Ühüd döyüşündə o, övladlarının şahid olduqlarını bilsə də , onlar haqqında xəbər almazdan öncə soruşdu :

-“ Peyğəmbərdən (s.ə.a.s.) nə xəbər var?”

-“Peyğəmbər (s.ə.a.s.) sağdır.”

Suda dərhal özünü Peyğəmbərə (s.ə.a.s.) çatdırdı. Sağ-salamat olduğunu görəndə dedi:

-“Başıma gələn müsibətlər mənə asanlaşdı. Təki siz sağ-salamat olasınız , daha heç bir qəmim yoxdur.”

Bu möhkəm iradəli xanım döyüş meydanından oğlanlarının cənazəsini tapıb dəvənin belinə yükləyərək Mədinəyə tərəf

yollanarkən yolda rastlaşdığı insanlar ondan Peyğəmbəri (s.ə.a.s.) soruşduqda cavab verdi:
-"Peyğəmbər (s.ə.a.s.) sağ-salamatdır.

İslam tarixinin qəhrəman xanımları haqqında danışdıqdan sonra düşünürəm ki , İslam dininin yaşamasında çox önəmli mövqeyə sahib olan Kərbəla hadisəsi haqqında və bu hadisəni bizə çatdıran qəhrəman xanımlar haqqında məlumat verəm. Xüsusən də məqaləni Səfər ayında yazıramsa Kərbəla hadisəsinə toxunmağı özümə borc bilirəm.

Kərbəla qadınları

Bəzən sual verirlər ki , İmam Hüseyn (ə) tutduğu yolda şəhid olacağını , ailəsinin , qadın və uşaqlarının düşmən qoşununa əsir düşəcəyini və yüzlərlə əzablara qatlanacağını bilirdisə ,bəs nəyə görə onları özü ilə apardı?

Bu sualın cavabını belə bəyan edirik.

1.İmam Hüseyn (ə) Yezidin cinayətkar və qəddar olduğunu bildiyi üçün öz ailəsini Mədinədə başsız qoymağa qorxdu. Ona görə ki , bu despot hökumət qadın və uşaqları girov götürüb İmamı(ə) öz hədəfindən saxlaya bilərdi. Yezidin qarşısına qoyduğu məqsəd Hüseyn ibni Əlidən (ə) hər bir yolla olursa –olsun beyət almaq idi. Hətta əgər bu iş İmamın (ə) arvad-uşağını girov götürüb zindana salmaqla belə mümkün olsaydı edərdi.

O zaman Mədinənin hakimi Vəlid ibn Utbə idi . Vəlid özü azacıq mülayim insan olsa da onun ətrafında olan Mərvan

kimi canavarlar onu hər bir çirkinliyə vadar edirdilər. Elə imamın (ə) qiyamı ərəfələrində Əhli-beytə (ə) düşmənçilikdə məşhur olan Əmr ibn Səid Mədinə şəhərinə hakim təyin olundu. O İmam Hüseynin (ə) şəhadət xəbərini eşitdikdə sevincindən bayram etdi. Xalqa İmam Hüseynə (ə) əzadarlıq saxladığına görə belə müraciət etdi:

"Siz gərək yalnız Osman üçün ağlayıb ona əza saxlayasınız.Hüseyn ibni Əliyə (ə) yas tutmaq əbəs bir işdir."

Hətta o , İmamın (ə) şəhadətindən sonra göstəriş verdi ki , Bəni –haşimə aid olan evləri xarabalığa çevirsinlər.

Təbiidir ki , İmam Hüseyn (ə) belə bir şəxsin hakim olduğu şəhərdə ailəsini başsız qoyub hökumətin əleyhinə qiyam etmək üçün oranı tərk edə bilməzdi. Elə bunun üçün də İmam (ə) məcbur qalıb ona yaxın olan bütün qadın və uşaqları özü ilə apardı.

2.İmam Hüseynin (ə) ailəsini özü ilə aparmasının və onları Peyğəmbər (s.ə.a.s.) şəhəri sayılan Mədinədə qoymamasının mənası budur ki , Hüseyn ibni Əli (ə) bu hökumətin namuslu olmasına inanmır və Yezid kimi ləyaqətsiz adamın hakimiyyət etdiyi dövlətdən hər bir iyrənc iş gözləyir.

İmamın (ə) bu hərəkəti siyasi və ictimai baxımdan Yezidin dövlətinə böyük zərbə sayılırdı. Ona görə ki , İmamın (ə) bu işi ilə hamının zehninə belə bir sual gələcəkdi ki , nəyə görə Hüsyn ibni Əli (ə) belə bir ağır səfərə qadın və uşaqlarını da özü ilə apardı? Məgər Peyğəmbər (s.ə.a.s.) balası bu dövlətə öz qadın və uşaqlarını belə etibar edə bilmir.

3.Bəzi rəvayətlərə görə İmamın (ə) ailəsinin özü ilə aparması Tanrı istəyi ilə həyata keçdi. Uca Allah o həzrətin zalım hökumətə qarşı mübarizəyə qalxıb bu müqəddəs yolda şəhid olmasını və bu yolda ən əzizlərinin , bacısının , həyat yoldaşının , oğul-qızlarının və başqa sevdiklərinin onun kənarında bütün müsibətlərə qatlanmasını istəmişdir. İmam Hüseyn (ə) Tanrının hər bir istəyinə əməl etdiyi kimi bu istəyinə də yüksək səviyyədə əməl edib bütün əhli-beytini hətta yeni doğulmuş körpəsini də özü ilə mübariz yoluna apardı.

4.Hər bir qiyamın iki əsas ünsürə ehtiyacı vardır ki , o ünsürlər bu qiyamın yaranması və əbədi yaşamasında böyük rol oynayırlar. O ünsürlərin biri fədakarlıq , şəhadət , digəri isə təbliğat və qiyamın fəlsəfəsini cəmiyyətə çatdırmaqdır. Birinci ünsür qiyamın vücuda gəlməsi üçün bə qədər əhəmiyyət daşıyırsa , digər ünsür də bu qiyamın tarixdə yazılıb bəşəriyyətə necə çatdırılmasında o qədər əhəmiyyət daşıyır.

Kərbəla hadisəsindən sonra əsir düşmüş qadınlar xüsusilə də Həzrət Zeynəb (s.ə) bu qiyamın fəlsəfəsini , Bəni-Üməyyənin törətdikləri cinayətləri , Kufə əhlinin imamı (ə) tək qoymalarını və bu kimi mühüm hadisələri insanlara çatdırdılar. Əgər onlar bu hadisəni təbliğ edib başqalarına çatdırmasaydılar , şübhəsiz hakimiyyətdə oturanlar İmam Hüseyni (ə) üsyankar tanıtdırmaqla onun bütün hədəflərini aradan aparacqdılar. Bu da qadınların Kərbəla hadisəsinin yaşamasında nə qədər böyük rol oynadıqlarını bildirir.

Deməli , İmam Hüseynin (ə) qadınları özü ilə aparmasında olan əsas məqsədlərdən biri də şəhadətindən sonra bu hadisənin fəlsəfəsinin onlar tərəfindən xalqa çatdırılması olmuşdur.

Xatırladaq ki , qeyd etdiyimiz bütün cavablar söylənilən sualın düzgün cavabı sayılır. Yəni , İmam Hüseynin (ə) ailəsini özü ilə birgə aparmaqda məqsədi onların hökumət tərəfindən girov götürülməməsi , bu hökumətin qeyrətsiz olmasını sübut etmək , Tanrı istəyini yerinə yetirmək və Kərbəla hadisəsindən sonra onun fəlsəfəsinin xalqda olduğu kimi çatdırılmasını təmin etmək olmuşdur.

Qadınların rövzəsi.

İmam Hüseynin (ə) şəhadətindən sonra o Həzrətin mübarək bədəni üstə at çapmağa başladılar. İmamın öz atı çadırlara tərəf yollandı. Çadırlarda yas tutan xanımlar atın kişnəmə səsinə çölə çıxdılar. Sahibsiz atın İmam Hüseynə (ə) məxsus olduğunu görən xanımlar o Həzrətin şəhid olmasını başa düşdülər. Bu zaman düşmən əsgərlərindən biri fəryad edərək dedi:

“Hüseyn öldürüldü.”

Qadınlar bu sözü eşitdikə hönkürtü ilə ağlamağa başladılar. Onların nalə səsi göylərə ucaldı. Ömər Sədin vicdansız qoşunu isə yaxınlarını itimiş xanımların yas tutduqıarı çadırlara hücum etdilər. Onlar qadınlara şallaq vuraraq qulaq və boyunlarında olan qızıl əşyaları vəhşiliklə

qırıb qarət etdilər. İş o yerə yetişdi ki , Peyğəmbərin (s.ə.a.s.) nəvələrinin başındakı çadraları da götürdülər. Sonra onları döyə-döyə ayaqyalın Şama tərəf apardılar. Nizələrdə şəhidlərin kəsilmiş başlarını görən xamımlar yol boyuağlaya-ağlaya rövzə oxdular.

Qadınların şücaəti.

Məhəmməd peyğəmbərin (s.ə.a.s.) gəlişi ilə cəmiyyətdə tam insani hüquqlu şəxsiyyətə çevrilən qadınlar daim İslam dininin inkişafı və müdafiəsi yolunda özünəməxsusu əhəmiyyətli rol oynayaraq böyük nüfuz qüvvəsinə malik olmuşlar. Biz İslam tarixini diqqətlə izlədikdə bu dinin yarandığı gündən etibarən Həzrət Xədicə (s.ə.)kimi namuslu , cəsur qadınların tərəfindən maddi və mənəvi cəhətdən mühafizə olunaraq , dəstəkləndiyinin şahidi oluruq. O , bütün var-dövlətini İslam dinin qorunması və inkişafı yolunda xərcləməklə yanaşı sevimli Peyğəmbərimizi (s.ə.a.s.) ən böhranlı vaxtlarda belə tərk etmədi. Böyük mal-mülkə sahib zəngin bir xanım olan Xədicənin (s.ə.) bütün sərvətini İslam yolunda sərf edərək , sonda isə müşriklərin yaratdığı iqtisai blokadanın nəticəsində aclıq ucbatından dünyasını dəyişməsi də qadın fədakarlığının möhtəşəm nümunəsidir.

Həmçinin Xanım Fatimə (s.ə) kimi dəyərli xanımların atasının və yaxınlarının qürbətinə, ayrılığına dözməklə bərabər ,İslam yolunda öz Vətənindən belə köçüb yad şəhərlərə hicrət

etməsi onun simasnda müsəlman qadının əzmindən xəbər verir.
Müsəlman xanımlar öz atalarını , qardaşlarını ,ərlərini və övladlarını Peyğəmbərin (s.ə.a.s.) düşmənlərilə mübarizəyə həvəsləndirməklə birgə , onların şəhid olduğunu eşitdikdə də , daim qürur hissi ilə yüksək səbir və dözüm nümayiş etdirmişlər. Ühüd döyüşündə qardaşının , dayısının və ərinin şəhid olduğunu eşidən Himnə binti Cəhişin vüqarla " hamımız Allah tərəfindən yaranmışıq və hamımız ona doğru geri dönəcəyik"-deyə söyləməsi müsəlman qadının hər şeyə qadir olduğuna bir örnəkdir.

Kərbəla qiyamının inkişaf tarixini və hadisələrin məntiqi ardıcıllıqla gedişini izlədikdə onun hər ləhzəsində ləyaqətli müsəlman xanımının da öz rolu olduğunu anlayırıq. Belə ki , biz İslam tarixi boyunca seyr etdiyimiz nümunəvi qadına xas olan xislətləri Kərbəla qiyamında adı səslənən hər bir qadında kamil şəkildə görürük.

Qiyamın əvvəlindən etibarən bir çox müsəlman qadınlar İmam Hüseynə (ə) kömək etmək üçün öz səylərini göstərmişlər. Bu səylər müxtəlif formalarda ifadə olunaraq özünəməxsus təsir gücünə malik olmuşdur.

Elçilərə himadəyarlıq etmişlər.

Bəzi qadınlar ağır şəraitdə düşmən nəzarətinin ən güclü və təhlükəli olduğu mühitdə İmam Hüseynə (ə) , onun tərəfdarlarına öz himayələrini əsirgəməmiş , böyük rəşadətlə

onları müdafiə etmişdir. Kərbəla qiyamında Tuə kimi xanımın İmamın (ə) Kufəyə göndərdiyi elçisi Müslim ibn Əqilə öz evində pənah verdiyini düşmənlərdən gizləyərək qoruduğunun şahidi oluruq. Bir halda ki , Həzrət Hüseyni (ə) 18000 məktubla Kufəyə dəvət kufəlilər Müslim ibn Əqili şəhər küçələrində İbn Ziyadın qoşununun təqibi altında yalnız buraxaraq onu tənha və köməksiz qoymuşdu. Qorxaq Kufə əhli hətta evlərinin qapısını da bağlamışdılar. Amma Tuə adlı bir müsəlman xanım Müslim ibn Əqili tanıyaraq onu öz evində gizlətdi. İmanın qorxuya üstün olduğunu sübut etdi.

Dəyərli məsləhətlər verdilər

Bir çox qadınlar Həzrət Hüseynin (ə) dəvətini qəbul etmək üçün tərəddüd edən ərlərini İmama (ə) qoşulmağa meylləndirir, bu barədə onlara dəyərli məsləhətlər verirdilər.

Kərbəlada qəhrəmanlıqla şəhid olan Züheyr ibn Tin məhz həyat yoldaşı Dilhəm binti Əmrin məsləhəti sayəsində haqqın yolunu taparaq İmam Hüseynə (ə) qoşuldu. Züheyr ibn Tin İmamın (ə) tərəfdadrı kimi tanınmırdı. O , hətta Həzrət Hüseynin onu dəvət etmək üçün göndərdiyi elçisinə rədd cavabı vermişdi. Amma belə olduqda arvadı Dilhəm Züheyrə dedi:

-“SübhanAllah sən Peyğəmbər (s.ə.a.s.) övladının dəvətini qəbul etmirsən ?Utanmırsanmı ? Heç olmasa get , səninlə nə işi olduğunu öyrən.”

Həyat yoldaşının məntiqli sözləri qarşısında xəcalət çəkən Züheyr İmamın (ə) yanına gələrək onunla görüşdü. Sonra isə DİlhƏmin yanına qayıdaraq , Hüseynə (ə) qoşulduğunu , onunla birgə düşmənə qarşı mübarizə aparacağını söylədi. Lakin o, Dilhəmin razı olmayacağını zənn etdiyi üçün qorxurdu. Dilhəm isə öz növbəsində dedi:

-"Züheyr get ! Allah sənə kömək olsun. Əgər şəhid olsan Allahın izniləe qiyamət günü Peyğəmbərin (s.ə.a.s.) və Hüseynin (ə) kənarında mənə şəfaət tələb edərsən."

Belə olduqda Züheyr İmamın (ə) yanına qayıtdı və Aşura günü igidlik nümayiş etdirdikdən sonra şəhid oldu.

Həbib ibn Məzahir də İmam Hüseynin (ə) çağırış məktubunu alarkən xanımı ona dedi:

"Həbib , səni and verirəm Allaha ki , ağamız Hüseynə (ə) kömək etmək üçün səhlənkarlıq etmə."

Həbib ibn Məzahir onu sınamaq üçün dedi:

"Mən necə Kərbəlaya gedim ki , qorxuram övladlarım yetim qala"

Amma Həbibin həyat yoldaşı cavabında dedi:

"Sən Allahın rəsulu Muhəmmədin (s.ə.a.s.) Hüseyn ibni Əli (ə) barəsində dediyi kəlamı eşitməmisənmi?"

Məzahir soruşdu:

"Hansı kəlamı?"

Xanımı buyurdu:

"Peyğəmbər (s.ə.a.s.) buyurmuşdur: -"Həsən (ə) və Hüseyn (ə) Behişt cavanlarının sərvəridir."

İndi isə nə üçün Peyğəmbər övladının köməyinə tələsmirsən?

Ey Həbib , get və İmam Hüseyni (ə) görsən mənim əvəzimdə də onun əllərini , ayaqlarını öpərsən. Salamımı ona yetirərsən”

Mənəvi dayaq oldular.

Cəsur müsəlman xanımları Kərbəlada öz ərlərini döyüşə qoşulmağa həvəsləndirir , onlara mənəvi dayaq olurdular.
Müslim ibn Ovsəcənin Ümm Xələf adlı xanımı ərinin şəhid olduğunu öz gözlərilə seyr etdikdən sonra oğlu Xələfi döyüş meydanına göndərdi. Amma İmam Hüseyn (ə) Xələfin anasının kimsəsiz qalmaması üçün dedi :
“Ey cavan ! Atan igidliklə şəhid oldu. Əgər sən də şəhid olsan anan Ümm Xələf köməksiz qalar və bu azğın səhrada kimə pənah aparar?”
İmamın söylədiklərinə diqqətlə qulaq asan Xələf ibn Müslim azca tərəddüd edərək geriyə anasının yanına qayıtdı. Lakin rəşadətli, cəsur qadın olan Ümm oğlu Xələfə belə əmr etdi.
“Oğlum , döyüşə getməsən , Peyğəmbərin (s.ə.a.s.) övladı Hüseynə (ə) kömək etməsən , düşmənlərinə qarşı vuruşmasan həyatım boyu səndən razı olmayacağam.”
Xələf anasının əmri ilə ruhlanaraq döyüşə qoşuldu və şəhid oldu. Əmr ibn Cünadənin anası Bəhriyyə xanım da əri Cünadə ibn Kəəb Ənsarinin düşmən tərəfindən qətlə yetirildiyini gördükdən sonra on bir yaşlı oğlunu vuruşmaq üçün göndərdi. İmam Hüseynin (ə) gözləri Əmr ibn Cünadəyə sataşdıqda ona buyurdu:

“Bu cavanın atası indicə şəhid oldu. Onun da vuruşub şəhid olması anası üçün ağır bir dərd olar.” Amma Əmmar ibn Cünadə İmama (ə) belə dedi:
“Ey Peyğəmbərin (s.ə.a.s.) övladı ,anam özü mənə döyüşməyi əmr etdi.”
Belə olduqda Həzrət Hüseyn (ə) Əmrə döyüşmək üçün icazə verdi və o , qəhrəmanlıqla döyüşüb şəhid oldu.

Səbir və dözüm dərsi verdilər.

Kərbəlada müsəlman xanımları yüksək əzm və dözüm nümayiş etdirərək bütün azadələrə ibrıt dərsi oldular.
Vəhəb ibn Abdullah Xəbaba Kəlbinin anası ərinin ardınca oğlunun da şəhid olduğunu izlədiyi zaman daşürəkli düşmən qoşunu oğlunun kəsilmiş başını anasına doğru tulladı. Cəsarətli qadın isə oğlunun başını götürüb vüqarla düşmənə doğru irəlilədi və onu zülmkar dəstəyə sarı atıb dedi:
“Biz Allah yolunda verdiyimiz qurbanları geri almırıq.”

Əhli –beyti himayə etdilər.

Vəfalı mömin xanımlar ən ağır , acınacaqlı hallarda belə İmam Hüseynin (ə) ailəsini tənha qoymayaraq onları tərk etmədilər. Özlərinin sığınmağa pənahgahı olduqları halda da

Əhli-beytlə (ə) birlikdə əsirliyə qatlanaraq çoxlu əzab-əziyyətə dözdülər.
Şəhidlərin ağası Həzrət Hüseyn (ə) döyüş gecəsi öz tərəfdarlarını bir yerə toplayaraq şəhid olacaqlarını , ailə-uşaqlarının əsir düşəcəyini xəbər verdi. Elə buna görə də əshabına öz ailələrini yaxınlıqda məskunlaşan Bəni –Əsəd qəbiləsinə apararaq onlara tapşırmalarını təklif etdi. Əli ibn Məzahir bunu eşitdikdə ayağa qalxıb çadırına öz ailəsinin yanına getdi və İmamın (ə) təklifini ona söylədi. Amma bunu eşidən həyat yoldaşı elə həyəcanlandı ki , başını çadırın dirəyinə vuraraq dedi:
“Sən necə rəva bilirsən ki , Peyğəmbərin (s.ə.a.s.) övladlarını göz yaşları içərisində əsir tutaraq əzab verə-verə aprasınlar, amma sənin ailən Bəni-Əsəd qəbiləsinin pənahında rahat yaşasın? Sən necə qıyırsan ki , Peyğəmbərin (s.ə.a.s.) ailəsini qarət etsinlər amma mən onları tənha qoyaraq Bəni-Əsəd qəbiləsinin çadırında vicdanımın mühakiməsindən qaçaraq asudə ömür sürüm ? Necə ola bilər ki , sən İmam Hüseynə (ə) kömək edib qiyamət günü Peyğəmbərin (s.ə.a.s.) hüzurunda üzü ağ olasan lakin mən yalnız özümü düşünərək onun ailəsini bu dəhşətli günlərdə tənha qoyub Həzrət Fatimənin (ə) yanında üzü qara olum ? Allaha and olsun ki , mən Əhli-beyt (ə) xanımlarınıköməksiz qoymayacağam. Mən heç yerə getməyəcəyəm.”
Həbib ibn Məzahirin xanımının simasında biz xanımların necə qeyrət, necə vicdan , necə təvazökarlıq nümayiş etdirdiklərinin şahidi oluruq. Əlbəttə bəzimiz düşünə bilərik o zaman dövr

belə idi ki , xanımlar Əhli-beyti çox sevirdilər və hamısı çalışırdı ki , Peyğəmbər nəvəsinin (s.ə.a.s.) daim köməyində durmaq üçün öz qardaşlarını , atalarını , övladlarını döyüş ruhuna həvəsləndirirdilər. Lakin eynən bu xanımların qeyrətinin əksinə olan xanımlar da olmuşdur. Təbii ki , biz yalnız örnək olan xanımalrın adlarını çəkirik ki , bu gün cəmiyyətimizin xanımları onlardan nümunə götürsünlər.

Cihad etdilər.

Aşura günü xanımlar özləri də böyük cəsarətlə əlinə silah alıb döyüşə qatıldılar. Ümm Vəhəb (Vəhəb ibn Abdullah Xəbab Kəlbinin anası) çadırın dirəyini yerindən çıxardaraq düşmən qoşununa hücum etdi. İki nəfəri öldürdükdən sonra İmam Hüseynin (ə) əmrilə geri döndü. Əzra (adı çəkilən Vəhəbin həyat yoldaşı) , Bəhriyyə binti Məsud Xəzrəci (Əmr ibn Cünadənin anası) və Abdullah ibn Umeyrin anası da çadırların dirəklərini əllərinə alıb vuruşa başladı. Ancaq İmam Hüseynin (ə) əmrilə yenidən çadırlara qayıtdılar.
Cinayətkarlara etiraz etdilər.

Kərbəla cinayətkarlarından bəzilərinin xanımları öz ərlərinin insaniyyətdən uzaq mənfur əməllərinə qarşı etiraz edərək onları kəskin çıxışları ilə tənqid etdilər. Bu bir halda baş verirdi ki , Hüseynin (ə) qatilləri dırnaq arası qələbəsini təntənə ilə qeyd edirdi. Hər an onların qəzəblənərək etiraz edən şəxsləri öldürmək qorxusu var idi. Yezid ibn Müaviyənin

xanımı Hind binti  Abdullah ibn Amir onun cinayətlərinə etiraz edərək dedi:
“Ey Yezid , Allah sənə lənət etsin. Səna artıq mənim ərim deyilsən. Vay olsun sənə . qiyamət günü nə üzlə Allahın və Peyğəmbərin (s.ə.a.s.) qarşısında dayanacaqsan?”
Xuli ibn Yəzid Əsbəhinin ( İmamın (ə) kəsiliş başını ibn Ziyada aparan şəxs) xanımları Əyyuf və Nivar ona etiraz edərək arxa çevirdilər. Bir daha heç vaxt onunla danışmadılar.
Aşura günü Bəkir ibn Vail qəbiləsindən olan bir qadın Ömər ibn Sədin qoşununun namərd əməllərini gördükdə qeyrəti cuşa gəldi. O , qılıncını çəkərək Şümrün qoşununda yer alan qəbilə kişilərinə dedi:
“Ey Bəkr ibn Vail qəbiləsi! Nə üçün sakitcə durub Peyğəmbərin (s.ə.a.s.) ailəsinin çadırlarının qarət edilib yandırılmasına tamaşa edirisniz? Kişiliyiniz və qeyrətiniz yoxdurmu ?”
Amma onun qəbiləsinin üzvləri qəzəblənib qadını zorla sürüyərək özləri ilə apardılar.

Kərbəla şəhidlərini dəfn etdilər.

Aşura vaqiəsindən sonra Bəni-Əsəd qəbiləsinin qadınları Əhli-beyt xanımlaırna dayaq olmaq üçün Kərbəlaya gəldilər. Onlar şəhid olmuş şəxslərin bədənlərinin dəfn olunmadığını görüb qəzəbli halda ərlərinin yanına qayıdaraq belə söylədilər:

“Siz Hüseynə (ə) kömək etmədiyinizə görə Allah taalanın hüzurunda nə bəhanə gətirəcəksiniz ? Ey bədbəxtlər , heç olmasa qalxın , şəhidlərin doğranmış bədənlərini dəfn edin.”
Bunu eşidən Bəni-Əsəd qəbiləsinin kişiləri xəcalət çəkərək utandılar. Kərbəla şəhidlərini dəfn etmək üçün oraya yola düşdülər.

Şəhid oldular.

Kərbəlada qeyrətli müsəlman xanımlar haqq yolunda savaşan ərlərinə , qardaşlarına və övladlarına döyüşün ən böhranlı , ən dəhşətli anlarında belə yaxından dəstək oldular. Hətta onların bəzisi bu yolda şəhadət mərtəbəsinə də yüksəldilər.
Ümm Vəhəb (Abdullah ibn Umeyr Kəlbinin həyat yoldaşı) ərinin yaralı bədəninin cansız şəkildə savaş meydanına düşdüyün gördükdə yanına gedərək onu ağuşuna aldı. O , göz yaşları içində deyirdi:
“ Behişt sənə halal olsun. Mən Allahdan sənin məqamını ən ali dərəcədə ucaltmasını və məni də , sənə qovuşdurmasını diləyirəm.”
Elə bu zaman Şümrün əmrilə şərəfsiz bir şəxs qılıncını çəkərək onu qaətlə yetirdi. O , Kərbəlada şəhid olan ilk qadındır.
Həmçinin Haniyə və Müslim ibn Əqilin qızı Atikə də düşmən tərəfindən Aşura günü amansızcasına qətlə yetirildi.

Əhli-beyt (ə) xanımlarının rolu.

Doğrudan da əgər qadınlar Kərbəlada olmasaydı , İmqm Hüseyn (ə) və onun tərəfdarlarının çəkdiyi bütün zəhmətlər , Kərbəlada tökülmüş şəhid qanları hədər gedəcəkdi . Bununla da tarix boyu şahidi olduğumuz möhtəşəm nəticəni əldə etmək mümkün olmayacaqdı. Təbii ki , bu ağır məsuliyyətli vəzifə Kərbəlada sağ qalmış İmam Səccadla yanaşı Əhli-beyt (ə) xanımlarının öhdəsinə düşürdü. Deməli Kərbəla qiyamında qadınların rolu olduqca mühüm sayılmalı və necə də əhmiyyət daşıdığı diqqətdən kənarda qalmamalıdır. Bu qiyamla Əhli-beyt (ə) xanımlarının rolu aşağıdakılardan ibarət olmuşdur.

Aşura qiyamının təbliği

Düşmənin əsir tutduğu qadınların iradəsini qirmaq üçün bütün səylərini səfərbər etməsinə baxmayaraq , Əhli-beyt xanımları izzət və  iftixarla dolu şəhadətin acı məğlubiyyət deyil , şirin bir qələbə , zəfər olduğunu sübut etdilər. Onlar öz xütbələri , çıxışları ilə xalqı Kərbəla inqilabının məqsəd və şüarları haqqında maarifləndirərək , onun əhəmiyyəti barəsində gərəkli təbliğat işləri apardılar. Həmçinin Əhli-beyt (ə) xanımları müsəlmanlara atəşli xütbələri ilə müraciət edərək İmam Hüseynə (ə) kömək etmədikləri üçün böyük günaha batdıqlarını söyləyib onlara zülmün qarşısında haqqa yardımçı olmadıqları üçün öz mənliklərini , şəxsiyyətlərinbi alçaltmış olduqlarını anlatdılar.
Əsir halda Kufəyə gətirilən Əhli-beyt (ə) xanımları Həzrət Hüseyni (ə) Kufəyə dəvət edib sonra isə öz əhdinə vəfasız

çıxan qorxaq , əzgin ruhlu kufəliləri gördükdə , əhalinin yatmış qeyrətini oyatmaq üçün onları məzəmmət etməyə başladılar.
Əvvəlcə Xanım Zeynəb belə buyurdu:
“Ey Kufə camaatı ! Ey hiyləgər və namərd insanlar! Sizi görüm heç zaman gözünüzdən yaş əskik olmasın! Siz bir qadına bənzəyirsiniz ki , əlində olan bütün sapları toxuyur , sonra da bütün toxuduqlarını sökərək korlayır. Sizin nə əhdinizin , nə də andınızın heç bir dəyəri yoxdur. Sizin lovğalanmaq , kəniz tək yaltaqlıq etmək və boşboğazlıq etməkdən başqa nəyiniz var? Siz peyinlikdə bitən nəbatata və qəbir üzərindəki bəzək əşyalarına oxşayırsınız. Axirət dünyanız üçün ən pis azuqəni hazırladınız. (Axirət üçün ən pis azuqə Allahın qəzəbi və (sonsuz) cəhənnəm işgəncəsidir) Ağlayırsınız? Elədir , ağlayın. And olsun Allaha ki , ağlamağa layiq insanlarsınız.Çox ağlayın , az gülün . Belə bir namərdlik və dönüklük edib , (şox iyrənc) ləkə daşıdığınız halda nə üçün ağlamayasınız? Elə bir şərəfsizliyə əl atdınız ki , heç bir su ilə yuyub təmizləmək olmaz. Peyğəmbər (s.ə.a.s.) övladını və Cənnət cavanlarının rəhbərini qətlə yetirməkdən də böyük rəzillik və ləkə ola bilərmi? Elə bir şəxs ki , sizi haqqa doğru yönəldən yola işıq və çətin zamanlarınızda pənəhgahınız idi. Utancınızdan ölün! Xəcalətli üzlərinizi gizlədin. Keçmişdəki zəhmətlərinizi bütünlüklə bir dəfəyə hədər etdiniz. Gələcəyiniz üçün isə heç nə əldə etmədiniz. Bundan sonra rəzillik , əskiklik içində ömür sürəcəksiniz. Çünki Allah0taalanın hiddətinə və qəzəbinə tuş gəldiniz. Elə bir əmələ əl atdınız ki , az qaldı

qəzəbindən göy sökülüb yerə tökülsün , yer yarılıb parçalansın və dağlar parça-parça olsun.

Xanım Zeynəbin təsirli sözlərindən sonra daha da peşmançılıq hissi keçirdən , öz pis əməllərinin dəhşətini anlayan kütlənin gözlərində artıq inqilab qığılcımlarını görmək çətin deyildi. Onlar qorxaqlıqları və nankorluqları üçün dərin təəssüf hissi keçirdir , hansı vəziyyətdə olur olsun səhvlərini yumaq , təmizləmək barəsində fikirləşirdilər.

İmam Hüseynin (ə) qızı Fatimə və bacısı Ümm Gülsüm də kufəlilər qarşısında çıxış edərək onları daha da təsirləndirirdi. Fatimə dedi:

“Ey Kufə əhli ! Ey hiylə və fırıldaq sahibləri ! Bizi kafir sayıb bunun üçünmü bizim qanımızı axıtdınız? Qılınclarınızda bizim qanımız damcı-damcı tökülür, buna görə sevinirdiniz? Tezliklə Allahın qəzəbi çirkin əməllərinizə görə sizə nazil olacaq. Vay halınıza ! Bizə necə qıydınız? Hansı iyrənc hissiniz sizə bizi öldürməyə vadar etdi? Ayaqlarınız necə bu yolda qədəm tutdu? Qəlbləriniz kirlənmiş və ürəkləriniz daşlaşmışdırmı? Gözləriniz həqiqəti görmür və qulaqlarınız onu eşitməyə acizdir. Şeytan iyrənc əməllərinizi sizə “gözəldir”-deyə zinətləndirmişdir...

Ey Kufə əhli ! heç bilirsinizmi Peyğəmbər (s.ə.a.s.) sizdən bu tökülən qanları cavablandırmanızı istəyəcək.”

Təhriflə mübarizə

İslam düşmənləri Kərbəla müsibətindən sonra onu cürbəcür yollarla təhrif etməyə çalışdılar. Çünki xalqın  Aşura qiyamının əsl mahiyyətini anladıqda əks-əməl göstərəcəyini və bunun onlar üçün ağır nəticələri olacağını başa düşürdülər. Bu qiyamı və Kərbəladakı müsibəti müsəlmanların dərk etməsi o zamanın zalım hökumətinin məhvi demək idi. Elə buna görə də din düşmənləri həm İmam Hüseynin (ə) inqilabının həqiqətini gizlətmək və həm də özlərinin insanlıqdan uzaq cinayətlərini ört-basdır etmək üçün müxtəlif yollarla onu təhrif etməyə başladılar.

İbni Ziyad Kufədə İmam Hüseynin  (ə) qiyamının yalnış olması barədə şübhələr yaratmağa çalışdı. O guya bu işin məcburi qəzavü-qədər (alın yazısı)  olduğunu , Hüseyni (ə) Allahın öldürüyünü Yezid və tərəfdarlarının bu işdə heç bir günahı olmadığını sübuta yetirməyə çalışırdı. Amma Əhli-beyt (ə) xanımlarının  və imam Səccadın (ə) bacarığı, mübarizəsi sayəsində düşmən öz çirkin hədəfinə çatmağa nail ola bilmədi.

Ubeydullah ibn Ziyad camaatı Kufənin came məscidinə (mərkəzi məscidinə) toplayaraq öz çirkin əməllərinə dini don geyindirməyə başladı:

“Həmd olsun o Allaha ki , haqqa zəfər əta etdi və “möminlərin ağasına” (yezidə) , onun dostlarına yardım etdi. Yalançı oğlu yalançını (nəuzubilləh) İmam Hüseyni (ə) öldürdü.”

Elə bu zaman Xanım Zeynəb (ə) digər qadınlarla birgə əsir şəklində olmasına baxmayaraq vüqarla məscidə daxil oldu.

Ubeydullah ondan kim olduğunu soruşduqda cavab vermədi . Kənizlərdən biri dedi:
“O , Allahın Rəsulunun (s.ə.a.s.) qızı Fatimənin (ə) əziz övladı Zeynəbdir(ə).” Ubeydullah ibn Ziyad ,qardaşları , övladları və digər yaxınları şəhid olmuş başı çox müsibətlər çəkmiş və indi əsir kimi qarşısında dayanan Zeynəbin (ə) qürurunu sındırmağın asan olduğunu zənn etdi. Ona elə gəldi ki , azacıq çağır-bağır salsa belə , Zeynəb ağlayacaq , yalvaracaq və İbn Ziyaddan aman diləyəcək. camaat da zalımların haqlı olduğunu düşünəcəkdir. Ona görə də lovğalıqla dedi:
“Həmd olsun o Allaha ki , sizin ailənizi rüsvay edib yer üzündən sildi və sözlərinizin yalan olduğunu sübuta yetirdi”
Xanım Zeynəb onun sözlərinə bu cür cavab verdi:
“Həmd olsun o Allaha ki , bizə (ailəmizə babamız ) Peyğəmbəri (s.ə.a.s.) əta etməklə əzəmət bağışladı və çirkinlikdən pak saxladı. Yalnız fasiqlər rüsvay olar. Yalnız pis adamlar yalan danışar. Allaha həmd və səna olsun ki , pis adam biz deyil , başqa şəxslərdir. (Yəni pis insanlar sən və sənin tərəfdarlarındır)”
İbn Ziyad dedi:
“Gördün Allah sizin başınıza nə müsibətlər gətirdi.”
Xanım Zeynəb isə cavabında dedi:
“Mən gözəllikdən başqa bir şey görmədim. Allah onların şəhid olacağını öncədən bilirdi. Onlar da öz vəzifələrini yerinə yetirərək axirət mənzillərinə yollandılar. Tezliklə ( qiyamət günü ) Allah səni və onları görüşdürəcək . O zaman onlar Allaha səndən giley edib ədalət tələb edəcəklər. İndi düşün ki ,

Qiyamət günü kim zəfər çalacaq? Anan sənin matəmində otursun, ey Mərcanənin oğlu."
Zeynəbin bacısı Ümmu Gülsüm də İbn Ziyada xitabən dedi:
"Ey İbni Ziyad, sən Allahın Rəsulu Muhəmmədə (s.ə.a.s.) qiyamət günü nə cavab verəcəksən? Bilirsənmi cəzanı Peyğəmbər (s.ə.a.s.) verəcək?"
Yezidin hakimiyyət etdiyi Şam şəhərində isə tam başqa şəkildə idi. Şamlılar Əhli –beytin (ə) kim olduğunu bilmirdilər. Dinin həqiqi hökmlərindən və köklü etiqadlarından xəbərsiz idilər.
Şəmlılarn İslamın həqiqətlərindən xəbərsiz olmasına təkcə bunu dəlil gətirmək kifayətdir ki , onlar Həzrət Əlinin (ə) Kufə məscidində namaz qılarkən şəhid edildiyini eşitdikdə təəccübləndilər və dedilər:
"Məgər Əli (ə) namaz qılırdı?"
Bəli Əhli-beytin (ə) düşmənləri onlara necə tərbiyə etmişdisə , dini onlara necə (ürəyi istəyən formada) anlatmışdısa eləcə də qəbul etmişdilər. Elə bunun üçün də Şam şəhərində İmam Hüseynin (ə) qiyamını dindən xaric olmuş şəxlərin üsyanı və ya xilafətlə mübarizə aparan Bizans döyüşçülərinin mübarizəsi kimi tanıtdırmışdılar. Buna görə də əsirlər am şəhərinə gətirildikdə əhali Yezidin qələbəsini bayram edirdi. Hamı sevinc içində Hüseynin (ə) şəhid olduğu üçün şadlıq edir və əsirlərə əllərindəki daş-kəsək , zibil qırıntıları atırdılar. Amma sonralar Əhli-beytin (ə) maarifləndirici çıxışları nəticəsində hər şey dəyişdi.
Belə ki ,Yezidin sarayı təmtəraqlı şəkildə bəzdilmiş saray adamları və xarici səfirlər dəvət olunmuş , ənamlarla dolu

bayram süfrəsi açılmışdı. Yezid Həzrət Hüseynin (ə) kəsilmiş başını bir məcməyə qoyaraq əlindəki çubuqla onun dişlərinə vurur və bu şeiri oxuyurdu:
"Kaş indi mənim Bədr döyüşündə vuruşub Xəzrəc qəbiləsinin əzabını çəkməli olmuş babalarım burda olub sevinərək deyərdilər ki, yezid çox saqol. Əli (ə) övladlarına Bədr döyüşünün acısını dadızdırdın və onlardan intiqam aldın"
Elə bu vaxt əsir kimi məclisə gətirilən Xanım Zeynəb (ə) bunu görüb fəryad edərək buyurdu:
"Allah və onun Peyğəmbəri (s.ə.a.s.) doğru söyləmişlər ki , pis əməl sahiblərinin sonu odur ki , Allahın ayələrini uydurma sayıb onlara istehza edərlər.
Yezid , elə xəyal edirsən ki , yeri-göyü bizə təngləşdirməklə , əsir şəklində bir şəhərdən başqa şəhərə daşımaqla rüsvay edib özünə hörmət qazanacaqsan ? Elə sanırsan ki , bu əməlinlə əzəmət
qazanıb insanlara lovğalana bilərsən ? Hakimiyyətini nizam-intizamlı görüb o qədər sevinirsən ki sanki öz dərinə sığışmırsan . Anlamırsan ki , sənə verilən bu fürsətin səbəbi doğrusu iç üzünü açıb xalqa göstərmən üçündür? Sən Allah-taalanın "Küfr edən şəxslər onlara verdiyimiz möhləti heç xeyir bilməsinlər ! Bu möhlət yalnız onların günahlarını daha da çoxaltmaları üçündür. Onlar zillətli bir əzaba düçar olavaqlar"- deyə buyrulduğunu unutmusanmı?
Ey azad edilmiş şəxslərin oğlu! Bu ədalətli hökmdürmü ki , sənin qadın , qız və kənizlərin pərdə arxasında , naməhrəmlərin baxışlarından uzaq otursun , amma sən Allahın

rəsulunun (s.ə.a.s.) qızlarını əsir edərək , pərdəsini kənara atıb hörmətsizlik edəsən , onların səslərini boğazında boğub , naməhrəm kişilər vasitəsilə onları dəvələrə mindirib bir şəhərdən başqa bir şəhərə yollayasan? Bu necə ədalətdir ki , heç kim onlara yer verməsin və heç bir mühafizələri olmasın və onlara məhrəm olan kişilərdən kimsə yanlarında olmasın?

Əlbəttə qəlbi bizə qarşı ədavət və küdurətlə dolu olan kəsdən bundan artıq nə gözləmək olar? ...
Allahdan arzum budur ki , şəhidlərin məqamını daha da yüksəltsin. Öz mərhəmətini onlara nisbıt daha da artırsın. Necə ki , Allah ən qüdrətli hami və ən gözəl havardır....”
Xanım Zeynəbin (ə) xütbəsi o qədər təsirli oldu ki , məclisdə iştirak edən məsul şəxslər hətta yezidin öz yaxınları da ona etiraz edərək qəzəbləndilər. Hətta orada olan hərəmxana qadınları da Yeziddən üz çevirərək göz yaşları içərisində məclisi tərk etdilər.

Əzadarlıq və kədərləndirici çıxışlar

Əhli-beyt (ə) xanımları kədərli çıxışları və əzadarlıq mərasimləri ilə insanların vicdanlarını ayıldaraq təsirləndirirdilər. İmam Hüseynin (ə) məzlumiyyətini bu yolla xalqa açıqlayr, müsəlmanları kövrəldərək onlara insani , humanist duyğular aşılayırdılar.

Bu həm də özlərini dindar kimi göstərən Bni-üməyyə hakimiyyətinin rüsvay olmasını və süqutunun təmini demək idi.
İmam Hüseynin (ə) xanımı Rübab İbni Ziyadın məclisində göz yaşı tökərək diqqəti Hüseynin (ə) məzlumiyyətinə cəlb etdi:
"Ah , mənim Hüseynim (ə)! Mən düşmənlərin ox və nizə yağışına tutduqları Hüseyni (ə) unutmayacağam. Namərdlər onu Kərbəlada hiylə iləldürdülər. Əvvəlcə köməyə çağırdılar , sonra isə amansızlıqla susuz şəhid etdilər. Allah Hüseynin (ə) qatillərini qiyamət günü susuz cəzalandırsın."
Həzrət Zeynəb (ə) Yezidin sarayında qardaşının kəsilmiş başını gördükdə dedi:
"Ya Hüseyn (ə)! Ey Allah rəsulunun (s.ə.a.s.) sevimlisi , ey Məkkə və Minanın övladı, ey Fatimeyi Zəhranın (ə) oğlu!"
Bu sözlər hamını kövrəltdi. Ummu Gülsüm və Fatimə də , buna bənzər növhələr oxudular . Onlar daim Hüseynin (ə) məzlumiyyətini xalqa aşılayırdılar.

İffət keşiyində

Əhli – beyt (ə) qadınları bütün çətinliklərdən sarsılmayaraq öz iffət və namuslarını çərəflə qorudular. Kufə şəhərəinə daxil olanda əsir düşmüş Əhli-beyt (ə) qadınlarına şəhərin evlərinin damından baxan qadınlar örpək payladılar. Kufənin cumə məscidinin yanındakı evdə həbs olunduqda isə Xanım Zeynəb (ə) dedi:
" Baxın , bizim yanımıza kənizlərdən başqa kimsə gəlməsin."

## İdarəçilik və mühafizə

Məlum olduğu kimi Kərbəla faciəsi zamanı İmam Səccad(ə) İlahi məsləhəti ilə xəstə idi . belə olan halda təbii ki , əsirlərin mühafizəsi və şəraiti idarə etmək kimi ağır bir məsuliyyətli Xanım Zeynəbin (ə) üzərinə düşürdü. Bu cəsarətli qadın öz uzaqgörənliyi ilə od-alovun içərisində İmam Səccadın (ə) , qadın və uşaqlarını xilas edə bildi. Əsirlər hər bir haıda ona sığınır və ondan kömək istəyirdilər.
Alman yazıçısı Kurt Frişler "İmam Hüseyn və İran" adlı kitabında yazır:
"Zeynəb (ə) İmam Hüseyn (ə) şəhid edildikdən sonra şəraitin olduqca ağır və dəhşətli həddə pis olmasına baxmayaraq əsirlərin idarəçilik və mühafizə işlərini öhdəsinə götürdü. O , hətta hər dəfə xütbə çıxışlarına başlamazdan əvvəl , əsirləri sayır heç kimin itkin düşməməsinə çalışırdı. Buna əmin olduqdan sonra sözə başlayırdı. Əlində az miqdarda olan çörəyi digər əsirlərin arasında bölür , çox vaxt özü ac qalırdı."

Məqalənin sonunda istərdim ki , dünyada qadınların ictimai fəaliyyətini əks etdirməsinə dair apardığım kiçik bir araşdırma haqqında qısa məlumat verim.
Müxtəlif dövlət və ictimai idarəetme səviyyələrində qərarların hazırlanmasında və qəbul edilməsində qadınların iştirak edir. Qərarların qəbul edilməsi sferasında gender bərabərliyinə nail olmaq üçün dövlətdən, siyasi partiyalardan və vətəndaş

cəmiyyətlərindən konkret səylər tələb olunur. Dövlət gender siyasətini Qanunların ve ya digər məcburi göstərişlərin köməyi ilə müəyyən edir.

Qadın liderliyinin formaları: siyasi, iqtisadi, ictimaidir.

Siyasi formaya - qadınların dövlət hakimiyyətinin ali və yerli Qanunverici və İcraedici orqanlarında, o cümlədən qadın dövlət rəhbərləri, siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində olması aid edilir.

İqtisadi forma - qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında aparıcı mövqe tutması, o cümlədən, idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə nişanına malik beynəlxalq və regional məaliyyə müəssisələrində işçi olmasıdır.

Qadın liderliyin ictimai forması - qadınların vətəndaş cəmiyyəti sferalarında, özünüidarə orqanlarında, QHT-nın ictimai hərəkatlarında, kütləvi informasiya vasitələrində təmsil olunmasıdır.

BMT-nin «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasına (1953-cü il) müvafıq olaraq, «qadınlar açıq seçkilər tələb edən, milli qanunlarla təsis edilmiş qurumlara kişilərlə bərabər şərtlərlə seçilə bilərlər» (Maddə 2) .

Bu cür şərtlərlə «qadınlar ictimai-dövlət xidmətlərində vezifə tutmaq hüququna malikdirlər» (Maddə 3).

1979-cu ildə BMT tərəfindən qəbul edilmiş «Qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiya bütün dövlətlerin qarşısına dövlət siyasətinin işlənməsi ve həyata keçirilməsində qadınların

kişilərlə bərabər şərtlərdə təmsil olunmasına nail olmaq, qadınların bərabər əmək haqqı imkanlarını təmin etmək öhdəliyi qoyur. Qadınların Vəziyyətinə dair IV Ümumdünya Konfransının Fəaliyyət Platformasında (Pekin, 1995-ci il) göstərilir ki, qərarların hazırlanmasında qadın və kişilərin bərabərhüquqlu iştirakı demokratiyanı möhkəmləndirir və onun çərçivəsində fəaliyyət imkanlarını genişləndirir.

Qədim Yunanıstanda, Afina polisində yaranmış milli idarəçilik ideya və praktikası əvvəllər vətəndaş hesab olunmayan qadınların iştirakını tələb etmirdi. Din və inkişaf edən bütün ictimai proseslər-böyük mədəni intibah, inqilablar və hüquqlar haqqında qanun kişilərin maraqlarını diqqət mərkəzində saxlayırdı. «Azadlıq! Bərabərlik! Qardaşlıq!» kimi demokratik şüarlar qadınlara yönəldilməmişdi. Yalnız XIX əsrin sonlarında qadınlara kişilərlə bərabər səsvermə hüquqlarının verilməsi prosesi başlandı. Yeni Zellandiya və daha sonra Avstraliya qadınlara vətəndaş statusu verən, 1893-cü ildən isə, onların milli səviyyədə seçicilik hüquqlarını tanıyan ilk dövlətlərdən oldular. Sənayesi güclü inkişaf etmiş ölkələrdə qadınların seçkilərdə iştirak hüququnun qüvvəyə minməsi XX əsrin əvvəlinə təsadüf edir.
Qadınlar Finlandiya ve Norveçdə 1906-1907-ci ildə, Danimarkada 1915-ci ildə, Almaniya, İsveç və Böyük Britaniyada 1918-ci ildə , ABŞ-da 1920-ci ildə, Fransada

1944-cü ildə , İtaliyada 1945-ci ildə , İsveçrədə 1971-ci ildə sesvermə hüququ qazanmışlar.

Azərbaycanda ilk dəfə qadınların səsvermə hüquqları barədə məsələnin 1907-ci ildə Çar Rusiyasının Dumasında Azərbaycanın nümayəndəsi Xasməmmədov qaldırmış və Dumanın müsəlmanlar fraksiyasında gərgin müzakirələrdən sonra müsbət həll olunmasına nail olmuşdur. 1918-ci ildə Azərbaycan Respublikası qadınların səsvermə hüququnu tanımışdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində qadınlar səsvermə hüququnu müstəqillik hüququ ilə bir vaxtda əldə etdilər. Lakin qadınların nə vaxtdan seçki hüququnu əldə etməsindən asılı olmayaraq, əksər ölkələrin siyasətində qadın liderliyi və qadın-kişi partnyorluğu problemi həll edilməmiş qalır.

Baxmayaraq ki, qadınlar seçicilərin yarısını təşkil edirlər, onların payına parlamentdə orta hesabla 10%, milli dövlət idarələrində 6% yer düşür.

1994-cü ilin ortalarına aid melumatlara görə, qadınlar Nazirlər Kabinetinin tam sayının ümumilikdə 6%-ni, inkişaf etmiş ölkələrdə 5%-i ve inkişaf etmiş sənaye ölkəlerində 8%-i təşkil edirdilər. Bu göstəricilərə göre, birinci yeri Finlandiya (39%), ikinci yeri Norveç (35%), üçüncü yeri İsveç (34%), dördüncü yeri Hollandiya və Seyşel adaları tutur (31%). 1995-ci ilin əvvəlində dünyada ilk dəfə İsveçdə hər iki cinsin nümayəndelərinə qarşı təmamilə bərabər münasibətli Nazirlər Kabineti formalaşdırıldı.

Uğurun zirvəsinə çatmağa çalışan qadın liderləri sıradan çıxaran, görünməz, lakin real maneə - şüşə tavandır. Kişilər üçün bu cür maneə mövcud deyil. Vəziyyəti dəyişmək məqsədilə ABŞ-da və Qərbi Avropada bir çox təşkilatlar ictimai fikrin təzyiqi altında «bərabər imkanlar siyasəti» adlanan siyasət həyata keçirirlər.

Ancaq aydın olur ki, bu siyasət reallıqda həyata keçirilərkən və iş yerində kişi personalı tərəfindən müqavimətlə qarşılanır. Qadının rəhbərlik yolunda ciddi rolu cinslərin sosializasiyası ilə bağlı maneələr oynayır: insanların əksəriyyəti qadının aşağı siyasi statusa malik olmasında sosial haqsızlıq görmürlər.

Qadın liderlərin keyfiyyətlər sırasına görə kişi həmkarlarından fərqlənməməklərinə baxmayaraq, onların liderlik rolu üçün yararsızlığı haqqında sabit təsəvvürlər mövcuddur. Dünyanın müxtəlif ölkələrində qadınların sosiallaşması elə şekilde baş verib və hazırda da baş verir ki, onların öz karyerasını və siyasi cəhdlərini gücləndirən xüsusi ambisiyalar inkişaf etmir.

Qadınlar üçün liderlik məktəbi QHT olub. QHT-yə üzvlükdə opponentlər tərəfindən bu cür qarşıdurma mövcud deyil, ona görə ki, QHT siyasi fəaliyyətlə məşğul olmur. Qərar qəbul edilməsində kişilərin üstünlüyü ona gətirib çıxarır ki, qadın maraqları nəzərə alınmır. Bu, onların, onsuz da, bərabərsizliyə malik mövqelərini zəiflədir və mövcud gender rollarının aradan götürülməsinin qarşısını alır.

Qadınların qərar qəbulunun bütün səviyyələrində irəli çəkilməsi – istər qadınların özündən, istərsə də dövlətdən səy tələb edən strategiyaların işlənməsini tələb edir.

Deyilənlərdən belə qenaətə gəlmək olar ki, qadın lider ola bilər. Ancaq bunun üçün o, ilk növbədə öz hüquqlarını bilməli və onlardan öz fəaliyyətlərində düzgün istifadə etməlidirlər.

Azərbaycan Respublikasında qadın hüquqlarını qoruyan gözəl qanunlar möcuddur və bu qanunların icrasına nəzarət və icra edən qurumlar da hesabda işləyir. Ancaq buna baxmayaraq bir çox rayon ve kəndlərimizdə qadın hüquqları tapdalanır və bütün bu dözülməz haqsızlıqlar mili mentalitet adında qələmə verirlir.

Bizim təlimimizin məqsədi, insan şüurunda müəyyən dönüşün təməlini qoymaq ve gələcək nəslin, milli mədəniyyət ənənələrimizi qoruyub saxlayaraq, daha proqressiv inkişaf istiqametində addımlamaq imkanını yaratmaqdır.

Hər bir müsəlman üçün müqəddəs sayılan “Qur’ani Kərim” də qadın hüquqları lazımı səviyyədə əks etdirilib və müqəddəs hesab olunur. Qadın özü də müqəddəs varlıq kimi təsvir edilir və kişi qadını həmişə qorumalı və onunla hesablaşmalıdır.

Azərbaycan qadınlarının güclü potensialı olduğunu esirlər boyu bütün dünyaya çatdıran minlərlə qadın siyasətçilərimiz, alimlərimiz, mədəniyyət və incəsənət xadimələrimiz olmuşdur.

Müasir dövrdə də Qadınlarımız istənilən sahələrdə çalıçaraq öz məharətlərini göstərirlər və göstərəcəklər, ancaq onların ailə tərəfindən dəstəklənməsi və başa düşülməsi respublikamızın hər bölgəsində eyni səviyyədə deyil.

Yuxarıda göstərilənləri nəzərə alsaq, kişilər qadınlara daha çox imkan, şərait yaratsalar, və qadınlar öz güclərinə inanıb,

potensiallarını inkişaf etdirsələr, həm ailəsinin rifahı üçün, həm də cəmiyyətimizin inkişafı üçün əvəzsiz töhvələr verməyə qadirdilər.

Bütün dünyada qəbul olunmuş faktdır ki, qadınların fikirləri, istəkləri, məsləhətləri nəzərə alınmırsa, həmin dövlətdə, bölgədə, kənddə, ailədə – tərəqqiden, yaşayış səviyyesinin yüksəlməsindən və s. söz gedə bilməz, bu mümkün deyil.

Beynəlxalq analitiklər isbat ediblər ki, siyasi strukturlarda qadınların təmsil olunma faizi 20 % dən az olmamaq şərti ile təmin olunarsa, dövlətdə, iqtisadi baxımdan səviyyəsi aşağı olan insanların vəziyyəti, təhsil və səhiyyə sahelərinin inkişafında real dönüşlər müşahidə edilir.

Deməli tərəqqi biz qadınların əlindədir, istəsək ailəmiz üçün də, cəmiyyət üçün də faydalı ola bilərik. Bunun üçün bir qədər səy göstərmək tələb olunur!

Nəticə

Məqalədə İslam dinin qadın haqqında buyurduğu , əməl edilməsi vacib olan göstərişlər haqqında məlumat verilmişdir. İslam tarixində qəhrəman xaımların həyatı , onların qəhrəmanlığı və şücaəti haqqında geniş məlumat verilmişdir. Çox istərdim ki , məqalədə digər dinlərin də müqəddəs mənbələrində qadına verilən dəyər haqqında sitatlar gətirərək müqayisəli şəkildə araşdırma aparaq. Lakin dinimizin qadına

verdiyi dəyər o qədər möhtəşəmdir ki , bu haqda yazmaqla kifayətlənməyə çalışdım.

İstifadə edilmiş ədəbiyyat

1. Qurani Kərim
2. "Ali-Məhəmməd (s) matəmində" Məhəmməd İştihardi.
3. "Aşura dərsləri" Cavad Mühəddisi , Dəftər təbliğati-islami, 1380h.ş.
4. "Vəsailüş-şiə" Məhəmməd ibn Həsən Hürr Amoli
5. "Qəhrəman qadınlar" Mürtəza Kermani , İntişarati-hakim 1378h.ş.
6. "Aşura şüarları" Cavad Mühəddisi , Dəftər-təbliğati-islami 1378h.ş.
7. "Hüseyn inqilabı" Mürtəza Mütəhhəri
8. Məsum imamların həyatı Mehdi Pişvayi ,Qum , çap növbəsi 2.